Naibə Yusif

# GƏZƏN ŞƏHİD

Bakı – 2022

**Naibə Yusif "Gəzən şəhid" (roman)**
**Bakı, "Heroqlif" nəşriyyatı, 2022, 272 səh.**

"Gəzən şəhid"romanı I Qarabağ savaşının iştirakçısı "Qarabağın Dilədruz anası" adını almış Qazi Diləfruzun xatirələri əsasında qələmə alınıb. Romanın əsas süjet xəttini erməni işğalına mətinliklə sinə gərən, yalın əllə düşmən üzərinə yürüyən igidlərimizin torpaqlarımızın hər qarışı uğrunda mübarizəsi təşkil edir. "Xaçınstroy"dan "Kötəl" batalyonuna qədər uzun döyüş yolu keçən oğulların şücaəti, vətən, yurd sevgisi romanda incə detallarla əks olunmuş, Şirin Mirzəyev kimi canını qurban verən onlarca şəhidin, qazinin obrazı yaradılmışdır.Əsərin sonunda inamla: "Biz o torpaqlara qayıdacağıq" - deyən Qazi Diləfruzun sözləri bu gün həqiqətdir.

# HƏYATLA RUH ARASINDA...

***(Naibə Yusifin "Gəzən şəhid" romanı haqqında qeydlərim)***

Tanınmış şair, yazıçı Naibə Yusif son illər bir-birin ardınca çox maraqlı romanlar çap etdirib. Müəllif bu romanlarda Qarabağ müharibəsində iştirak edən insanların psixologiyasının müxtəlif istiqamətlərini özünəməxsus, fərdi təhkiyə üsulu ilə çözür. O dəqiqə hiss olunur ki, yazıçı müharibəyə sadəcə seyirçi qalmır, bilavasitə onun iştirakçısına çevrilir. Hadisələrin içi ilə yüyürür, təngnəfəs olur, dayanır, durur və belə anlarda onun həyəcanı obrazları yeni hiss və düyğularla hərəkətə gətirir. Bu romanlar göstərir ki, Naibə Yusifin həyata münasibəti də biristiqamətli deyil. O, birbaşa müsbət obrazlar silsiləsi yaratmır, həm də insanı həyatın müxtəlif dolanbaclarından keçirir və inkişaf etdirir, yəni təkçə baş qəhrəmanlar deyil, epizodik obrazlar belə maraqlı və yaddaqalan keyfiyyətləri ilə seçilir.

Müəllifin bu yaxınlarda mənə təqdim etdyi "Gəzən şəhid" əsəri də bu baxımdan səciyyəvidir. Əsəri oxuyandan sonra müəllifə ilk sualım bu oldu ki, əsərin baş qəhrəmanı Diləfruz xanım hal-hazırda sağdırmı? Axı bu qədər məşəqqətləri görən adam üçün yaşamaq – olub-keçənləri unutmaq çox çətindir. Naibə xanım deyəndə ki, Diləfruz xanımı indiyə kimi yaşadan, bəlkə də, həmin şəhidlərin, qazilərin vətənpərvərliyini, qəhrəmanlığını gələcək nəsillərə ötürmək arzusudur, çox sevindim və düşündüm ki, bu hadisələri, yəqin ki, müəllifə Diləfruz xanım danışıb, özü də necə, tam, dəqiq relallığı və detalları ilə. Həm də düşündüm ki, görəsən, Diləfruz xanımın dediyi real faktlar Naibə Yusifin yazıçı qələmini üstələməyib ki? Bəlkə də, mən haradasa bu üstünlüyü hiss elədim, çünki Diləfruz xanım elə müharibə səhnələrindən keçir ki, artıq bu, yazıçının yox, o böyük Allahın yazdığı yazıdır və bundan daha güclü yazı ola bilməz.

Romanda Diləfruz obrazı o qədər canlı və realdır ki, əsəri oxuyub qurtarandan sonra bu obraz üçün darıxmağa başladım. Darıxmaq bir yana, onu indiyə kimi baxdığım kino, oxuduğum roman qəhrəmanları ilə müqayisə etdim və elə bildim ki, mən onu elə doğulandan tanıyıram.

Diləfruz xanım tibb bacısıdır. Düşünürəm ki, tibb bacısı olmasaydı, o, müharibə dövründə həyatda kimə bənzəyərdi? Yəni müəllim və ya başqa bir sənət sahibi olsaydı, onun hərəkət və davranışları, həyata, insanlara münasibəti oxucuya necə təsir bağışlayardı? Cavabını da tezliklə özüm verirəm: "Əgər müharibə olmasaydı, o, "Böyük dayağ"ın Mayası, "Ulduz" filminin Ulduzu, "Ogey ana"nın Dilarə xanımı kimi həyat sürər, hamının sevimlisi olardı. Çünki müəllif Diləfruz xanımın cəld, çevik, dinamik, həyəcanlananda belə təmkinli davranmağını elə gözəl lövhələrlə təqdim edib ki, istər-istəməz bu obrazın bütün cizgilərini təsəvvür edə bilirsən.

Diləfruz obrazı mənə Nobel mükafatına layiq görülən Belarus yazıçısı Svetlananın müharibə mövzusunda yazdığı hekayələrdəki qadın surətlərini xatırlatdı. Belarus qadın dörd il əsgərlərlə alman faşizminə qarşı döyüşür. Onlarla səngərlərdə yatır, hamı ilə kişi kimi davaranır, bütün qadınlıq hisslərini itirir və nəticədə qadın olduğunu unudur. O, Berlinə qədər gedib çıxır, Reyxstaqın alınmasında iştirak edir. Hitlerin iqamətgahı uçurularkən ona bir əsgər yaxınlaşıb: " Səni sevirəm", – söyləyir. Qadınsa: " Mən daha qadın deyiləm, get mənə bir dəstə çiçək al, qadına çevrilim, sonra səni sevim", – cavabını verir.

"Gəzən şəhid" əsərində də oxuyuruq: "Diləfruz komandirin çiyni üstündən düşmən əlində olan torpaqlara boylandı, asta, lakin ötkəm səslə cavab verdi:

– Yoldaş komandir, mən döyüşçüyəm, qadın deyiləm, – o, komandirin təəccübünü görəndə səsini bir qədər ucaltdı, – əlimə silah götürdüyüm gün məndəki qadınlıq öldü, analıq hissi arxa plana keçdi. Həmişə olduğu kimi bu hücumda da iştirak edəcəyəm."

Svetlana da, Naibə Yusif də müharibədən bəhs edən əsərlərində sanki eyniləşirlər. Bu isə deməyə əsas verir ki, əslində dünyanı xilas edən məhəlli deyil, dünyəvi düşüncə olacaq. Yəni qadın qadın kimi, kişi də kişi kimi yaşaya biləndə, böyük Cavidin təbirincə, dünyada qan izi kəsiləcək.

"Gəzən şəhid" romanının qəhrəmanlıq, vətənpərvərlik ruhu bütövlükdə əsərin ideyasını təşkil edir. Bu ruh bir obraz kimi, son dövr müharibə mövzusunda yazılmış əsərlərdə də özünü göstərir, amma Naibə xanımın əsərinin ruhu başqa əsərlərdən fərdiliyi ilə seçilir, yəni bu ruh didaktika şəklində müəllifin dili ilə deyilmir, birbaşa səngərdə, döyüş meydanlarında qəhrəman əsgərlərimizin öz canı, qanı bahasına həyatın, müharibənin özündən doğulur.

Əsərdə döyüş səhnələri o qədər canlıdır ki, elə bil sən o hadislərin içindəsən. Şirin Mirzəyev kimi təcrübəli bir komandirin müdrikliyi, onun əsgərlərlə doğma münasibəti o qədər təbii verilib ki, istər-istəməz bir oxucu kimi xəyalən onun əllərini sıxırsan.

Romandakı ölüm səhnələrini oxuyarkən təsirlənməyə bilmirsən. Hiss edirsən ki, Naibə xanım bu səhnələrin yalnız zahiri görünüşünü verməyib, o hissləri yaşayıb, həm müharibənin, həm də ölümün şəklini çəkib. Qara rəngli müharibənin fonunda gülə bənzəyən qırmızı "ölüm"lər ölməzliyə qovuşanların içdiyi şəhadətin rəmzidir. Bunu anlayan hər bir əsgər gələcəyə böyük ümid bəsləyir, Vətən uğrunda gülə – gülə "ölür". Əsər boyu Diləfruz xanım belə ölümlərin içindən keçib gəlir, şəhid olan hər əsgərlə birlikdə şəhid olur, yaralarını sarıyıb həyata qaytardığı əsgərlərlə dirilir.

"– Doktor, çox sağ olun, – dedi, – bilirəm, yaram ağırdır. Şəhid olsam, məni burada qoymayın, anamın gözləri yolda qalmasın.

"Qumbara qəlpəsi qarnını parçalayan əsgər əlləri ilə yarasını tutmuşdu. Barmağındakı nişan üzüyü qana bələnmişdi. Onun imdad dolu baxışları sanki dil açıb:

– Məni ölməyə qoyma, nişanlım var, – deyirdi."

"Sinəsi parçalanmış əsgərə gözü sataşanda ani olaraq dayandı, qulaqlarında döyüşdən əvvəl gülə-gülə dediyi sözlər cingildədi:

– Evin tək oğluyam. Buradan qayıdan kimi anamın arzusun yerinə yetirəcəm. Toyuma indidən hamınızı dəvət edirəm."

Belə səhnələri görmək, ölümün gözünün içinə baxa-baxa yaşamaq, əlbəttə ki, həyatın ən dəhşətli anlarıdır. Əsərin baş qəhrəmanı Diləfruz canlı müharibə arxividir, təsadüfi deyil ki, müəllif onu "Gəzən Şəhid" adlandırır.

Diləfruz obrazı əsərin əvvəlindən sonuna kimi əsgərlərlə, övladları, qardaşıları, ata-anası ilə birlikdə ardıcıl inkişafda verilir. Onun dörd kiçik övladı var: Elnur, Pərvanə, Könül, Samirə. O, uşaqlarını ata-anasına: Nuruya və Eyzangülə tapşırıb müharibəyə, vətəni yağı düşmənlərdən xilas etməyə yollanır. Qardaşları Sadəddin və Eyvaz da onunla çiyin-çiyinə döyüşürlər. Demək, vətəni qorumaq bu ailənin əxlaqındadır. Bu əxlaq isə Azərbaycan ailəsinin və onların vətənpərvərlik düyğularının tərkib hissəsidir.

Diləfruz yalnız tibb işçisi deyil, həm də iti zehnə malik, çətinliklərdən yol tapmağı bacaran bir döyüşçüdür. Onun sarğını qana bulayıb maşının güzgüsünə bağlaması və bu münvalla erməniləri aldatması, döyüş meydanından meyitləri yığması romanın ən yaddaqalan səhifələrindəndir.

Əsər iki hissədən ibarətdir. Hər iki hissədə amal, məqsəd, mübarizə sistemi eynidir. Vətəni qorumaq və onun uğrunda şəhid olmaq. Əsərdə şəhid olmaq düyğusu o qədər gözəl tərənnüm olunub ki, şəhid olan hər bir əsgərin ruhu insanın gözü qarşısında canlanır. Bu ruhlar dostlarını döyüş meydanında yalnız qoymurlar, onlara mənəvi dayaq olurlar. Yuxarıda qeyd etdiyim kimi, bu ruh elə belə, sözgəlişi deyilən ifadə deyil, irfani bir ideyadır. Hər əsgər şəhid olduğu zaman öz ruhunu ruh ordusuna bağışlayır və bu ruh heç kəsin, hətta düşmənin də hiss eləmədiyi şəkildə istilaçıları məhv edir. Əsərin əsas mahiyyəti də elə bundadır.

Romanda Cəmil, Elbrus, Mahir, Əlabbas, Natiq, "Xaçınstroy" batalyonunun komandiri polkovnik Şirin Mirzəyev, Qahir, Araz, Yavər, Mübariz, Rafiq, Həsən, Cəlal, Əkbər müəllim, Yaşar (Yaşar deyir: "Bir qolum salamatdır, son nəfəsimə qədər döyüşəcəm") Loğman, Mehman, Qəzəlxan, jurnalistlərdən Rey, Şamil Sabiroğlu, Elman müəllim (Küskün) və başqaları həm ruh, həm cəsarət, həm də qələm baxımından sıx birləşirlər. Əkbər müəllim həsdiz dərəcədə cəsarətlidir. Onun cəsarəti əsgərləri qanlı döyüşlərə aparır və bu döyüşlərdə qələbəyə ruhlandırır.

Əsərdə təsirli məqamlar çoxdur. Onlardan bir neçəsinə diqqət edək:

"Mən tibb işçisiyəm, qızım, vəzifəm, öldürmək yox, yaralılara yardım etməkdir.

– Ermənilərə də?

Diləfruz qızcığazın onu necə qəbul edəcəyinin fərqinə varsa da, təmkinlə dilləndi:

– Əlbəttə.

Qızın iri gözlərində birdən-birə yaş parıldadı:

– Onları sağaltmayın, xala, – deyərək az qala üsyan etdi.

– Niyə, axı onlar da insandırlar..."

"Döyüşdən əvvəl Ələmdarın haradansa tapıb gətirdiyi su borusunun içini təmizləyən Həsən Bəhmanın kefini açmaq üçün Süleymana göz vuraraq soruşdu:

– Deyirəm, a Süleyman, görəsən, Nağı qağam bu boruynan ermənilərin başına nə qədər su əndərəcək?

– Ayə, su nədir, boğazlarına qurğuşun tökəcək, desənə!

– Qurğuşunu hansı qazanda əridəcək ki?

– Bax bunun içində, – Süleyman səngər qazarkən tapdığı dəmir dəbilqəni göstərəndə Bəhmanın da dodaqları qaçdı."

Əsərdə Qazançı, Qalayçılar, Manik, Güneypəyə (orta və baş), Çıldıran, Sırxavənd, Qiyaslı, Çinarlı, Mərzili və başqa kəndlər uğrunda gedən döyüşlər, o kəndlərin yolları, çayları (Qabartı çayı), giriş və çıxışı haqqında zəngin məlumat, kəşfiy-

yat məsələləri (Diləfruzun kəşfiyyata getməsi (yalan ölüm xəbəri), dəyirman ətrafında döyüş (Tağı), "Qartal" dəstəsinin (48 atlı) Xəqani və İlham da daxil olmaqla bütün üzvlərinin şəhid olması, zireh geyinmiş muzdlu zəncinin məhv edilməsi və digər səhnələr romanın dinamikasına müsbət təsir göstərən faktlardır və müəllifin yazıçılıq strategiyasının təqdir olunası tərəfidir.

Romanda təbiət təsvirləri də gözəldir, hər təsvir, döyüşün əhvali-ruhiyyəsinə üyğundur: "İlk həyətə çatanda iki gün əvvəl kəsən qar dənəcikləri yenidən nazlana- nazlana havada süzməyə başladı... " Külək göyün üzündəki buludları qovduqca ayın nuru gecənin qara köynəyini yırtır, təbiətə bozluq çökürdü."

Əsərin dili oxunaqlıdır, Əsgərlərin yaşadığı bölgələrin dialektinə üyğun səngərdə zarafat etmələri oxucunun ruhunu oxşayır: "Geri çəkilən silahdaşlarını qoruyan Mahir Cavanşirə tərəf səsləndi:

– Ayə, maştağalı, bura Abşeronun üzüm bağları deyil ha. Ehtiyatlı ol, bir də gördün, erməni ayağının altından özünə yol elədi.

Cavanşir cavab verməyə macal tapmamış İlham Bakı ləhcəsində dilləndi:

– Qədeş, biz düzdə də, dağda da düşmənnən vuruşmaya hazıruğ. Atalar demişgən: "Ehtiyatdı igidün anası ağlamaz".

– Vallah, sənin bu kəlamlarına heyranam, – deyərək Cavanşir düz üzərlərinə gələn düşməni göstərdi, – bir az da dayanın, düşmənləri lap yaxına buraxaq".

Romanın sonu – Diləfruzun ölümlə çarpışması və yenidən geri dönməsi nəsrimizin ən parlaq mətnlərindən sayıla bilər:

"Süd rəngli yol Diləfruzu ağuşuna aldı, ona elə gəldi ki, ayaqları yerə dəymir, hansı bir qüvvə isə sürətlə onu irəli aparır. Birdən adını eşitdi, dayanmaq istədi. Firuzə nənənin sözlərini xatırlayıb sürətini artırdı. Bu dəfə qulağına hönkürtü səsi gəldi. Səs uzaqda deyildi, lap yaxında idi. Bu səs sanki dağlarda əks-səda verib onun bütün vücudunu silkələdi, "oyan" dedi,

lakin göz qapaqları bir-birindən aralanmaq istəmədi."

Diləfruz həyata qayıdır...

Əsəri bitirəndə hiss edirsən ki, I Qarabağ savaşının əsgərlərinin döyüş ruhu, Diləfruzun əzmi, vətən sevgisi, cəsarəti 2020-ci ilin noyabrında Qarabağımızı geri qaytaran ordumuza böyük ruh verib. Indi bu romandakı sürətlərin azad ruhu Şuşamızın göylərində fəxrlə pərvaz etməkdədir. Diləfruz da onların ön sıralarında... Uğur olsun!

**Qəşəm Nəcəfzadə,**
*Şair, Əməkdar mədəniyyət işçisi*

# *GƏZƏN ŞƏHİD*

*(Roman)*

## I hissə

Yayın ilk ayı olduğu üçün havada boğucu istilik yox idi. Arabir dağlarda qımıldanan meh şəhəri dolaşır, hər budağa, hər yarpağa sığal çəkir, yenidən yoxa çıxırdı. Küçələrdəki səssizlik şəhərin əzəmətinə yeni bir rəng qatır, ağır elli bir yurdun özəl ehtişamını daha da artırırdı. Bir-birini təkrarlamayan abidələr, xüsusi zövqlə salınmış xiyabanlar bu qədim mədəniyyət beşiyinin adına uyğun idi. Şəhərin sakinləri də nəsibini sanki bu özəllikdən almışdılar. Sevinclərini bölüşmək, bir-birinin dərdinə həyan olmaq babaların ərməğanı kimi nəsildən-nəslə ötürülmüşdü. Onlar üçün də hamı kimi vətənin obaş-bubaşı yox, bütöv bir Azərbaycan vardı...

Lakin bir gün... Acı xəbər çox yüyrək olur, bir anda şəhəri çalxaladı, boş küçələr hərəkətə gəldi. Qəzəbdən yumruqlar düyünləndi... Sırxavənddə diri-diri yandırılaraq qətlə yetirilən həmvətənlərimizin faciəsi hər ürəkdə özü boyada bir yara açdı. Bu yaraları qapatmaq üçün bir yol qalırdı – günahkarları aşkara çıxarmaq və cəzalandırmaq...

* * *

Diləfruz erkən yatırtdığı körpələrinin üzünə xeyli baxdı. Sonra sonuncu – dördüncü körpəsinin yanında yastığa dirsəkləndi, yuxuda şirin-şirin gülümsəyən oğlunun birdən-birə dodaq büzməsi ürəyinin qapanmayan yarasına duz səpdi. Yaşarmış gözlərini sildi, aşağı əyilib körpənin alnından öpdü. Hönkürtüsünü güclə boğdu, uşağın saçlarını tumarlayıb astadan pıçıldadı:

– Getməliyəm, oğlum, torpaqlarımız, haqqı tapdanan xalqımız, səngərdə düşmənlə döyüşən oğullarımız, sizin gələcəyiniz üçün getməliyəm...

Diləfruz yerindən qalxdı, dünyadan bixəbər uyuyan beş yaş-

lı Pərvanənin toppuş əllərini dodaqlarına yaxınlaşdırdı, birdənbirə nəmli iri gözlərində xoş ifadə yarandı:

– Ay mənim dəcəlim, – dedi, – bəlkə də, bu əllər sabah sonuncu dəfə ipək tellərini hörəcək. Bir daha ana tumarı görməyəcək, başqa uşaqlar kimi böyüməyəcəksən... Onda məni qınamazsan, qızım...

Yanaşı yatan Könüllə Samirəyə yaxınlaşanda sanki ilk dəfə görürmüş kimi gözlərini qızlardan çəkmədi. Ona elə gəldi ki, son bir ildə baş verən hadisələr on-oniki yaşlı uşaqlarını vaxtından əvvəl böyüdüb. Dərindən köks ötürdü:

– Hə, körpələrim, nə vaxt böyüdünüz, heç bilmədim ki...

Zərif çiyinlərinə ağır yük verəcəyi Könülün üzünə uzun-uzadı baxdı, nə qədər sakit davranmağa çalışsa da, göz yaşlarını saxlaya bilmədi:

– Bağışla məni, qızım, – dedi, – daşıyacağın yükün məni nə qədər əzdiyini bir bilsən... Amma getməliyəm.

O, aşağı əyilib öpmək istəyəndə yanaqlarından süzülən damlalar Könülün alnına düşdü. Bu təmasdan ayılan qız əvvəl bir şey anlamadı, yuxulu gözlərini ovuşdurub yerin içində oturdu:

– Nə olub, ana?

– Heç, qızım. Su istəyirsənmi?

Könül başını yırğaladı.

– Bəs niyə oyandın?

– Yuxu görürdüm.

Diləfruz gülümsündü:

– Uşaqların yuxusu çin çıxır. Nə görürdün?

– Sən harasa getmişdin. Çox çağırdım, cavab vermədin. Qaranlıq idi. Səni tapa bilməyəcəyimdən qorxurdum. Birdən hər tərəf işıqlandı. Gözümü açanda səni gördüm.

– Yat, ağıllı qızım, görürsən ki, buradayam.

– Ana...

– Hə, nəsə demək istəyirsən?

– Bizi qoyub heç yerə getmə, sənsiz neylərik?

– Qorxma, qızım, həmişə sizinlə olacağam.

Könül yorğanı başına çəkdi, tezliklə şirin mışıltısı eşidildi. Diləfruz da gecə lampasını yandırıb yatağına uzandı, min bir fikir içində nə vaxt yuxuya getdiyini hiss etmədi.

* * *

Həyətdə Nuru kişinin öskürəyi eşidiləndə Diləfruz cəld ayağa qalxdı. Səhərin şirin yuxusunda olan körpələrini məhəbbətlə seyr edib otaqdan çıxdı. Eyzangül (əslində onun əsl adı Təzəgül idi. Vaxtilə təzə evlənənlər böyüklərə xatir bir-birinin adını çəkməz, başqa adla müraciət edərmişlər. Nuru kişi də bu adətə xilaf çıxmamış, gözəlliyinə çoxlarının həsəd apardığı Təzəgülə Eyzangül adını yaraşdırmışdı) də onunla bərabər gəlmişdi. O, iri gözlərini dolandırıb əvvəlcə həyət-bacaya baxdı, hər qarışda qızının sığalını gördü. Ev-eşiyi Diləfruzsuz xəyalına gətirə bilmədi. Yaylığının ucu ilə gözlərini quruladı. Söhbətə başlamaq, deyəsən, hər üçünə çətin gəldi. Bir gün əvvəl qızı ilə olan söhbəti xatırladı...

Qardaşları, ömür-gün həmdəmi, bacılarının həyat yoldaşları cəbhəyə gedən gündən bir yerdə qərar tutmayan Diləfruzun simasında həmişəkindən fərqli ifadə yaranmışdı. Amma bu gün qızının tək hərəkətlərində yox, danışığında da bir sakitlik vardı. Eyzangül bu sakitliyin arxasında ürəyini yerindən oynadacaq təlatümü ana qəlbi ilə hiss etdi, amma susmağa qərar verdi. Dalğın baxışlarını qızının üzündən çəkmədi. Bu baxışlardakı dalğınlığın arxasında yatan narahatlığı bildiyi üçün Diləfruz gülümsəyərək çantasından çıxardığı bir vərəqi ona uzatdı.

– Bu nədir, qızım? – vərəqdə yazılanları oxuyan ana təlaşla onun üzünə baxdı. Dodaqlarından təbəssüm çəkilməyən qızından:

– Cəbhəyə gedirəm, ana, – cavabını eşidəndə qolları sustaldı, ayaq üstdə dayana bilməyib stula çökdü. Sərin su dodaqlarına dəyəndə stəkan tutan əli astaca geri çevirdi, xeyli susdu. Elə bildi ki, böyüyü on iki, kiçiyi iki yaşında olan körpələr boy-boya verib:

– Nənə, anamı getməyə qoyma, – deyərək yalvarırlar. Bir azdan bu yalvarışlar qulaqlarında gurultuya döndü. O, əlləri ilə

başını tutub bir müddət eyni vəziyyətdə qaldı. Nə düşündüsə, sərt hərəkətlə yerindən qalxdı, iri gözlərində qığılcım parladı, ötkəm səslə dedi:

– Sən nə dediyinin fərqindəsən? Qardaşların, kürəkənlərin gediblər. Torpaqlarımızı canları, qanları bahasına qoruyacaqlar. Bizə düşən onlara arxa olmaq, balalarını böyütməkdir.

Diləfruz anasını incitmək istəmədi, susdu. Deyəsən, Eyzangül qızının zəif damarını tutmuşdu:

– Sən anasan, qızım, onları anasız qoymağa necə ürəyin gəlir? – deyib sual dolu baxışlarını ondan çəkmədi.

– Onları anasız qoymuram ki... Sən varsan, atam var. Bilirəm ki, körpələrimə gözünüz kimi baxacaqsınız. Oradakı əsgərlərsə...

Diləfruz yenidən susdu, Cinli kəndindən üzüyuxarı sıralanan meşəli dağlara, sonsuz üfüqlərə xeyli baxdı, qəti şəkildə:

– Onların yarasını sarımağa, oğullarımızı ölümdən xilas etməyə gedirəm, ana, – dedi. Bu cavabın qarşısında Eyzangül dillənə bilmədi. İçəri daxil olan Nuru kişi qızının son sözlərini eşidib yaxın gəldi, onun alnından öpüb qəhərli, lakin qürurlu səslə xeyir-dua verdi:

– Mənim oğula bərabər qızım, yolun açıq olsun. Sənin bir həkim kimi əsgərlərimizin yaralarına məlhəm olacağına inanıram...

Diləfruz əl-ayağa düşdü, çaydanı doldurub qaynamaq üçün plitənin üstünə qoydu. Anası mane olmaq istəsə də, razılaşmadı:

– Qoy bu gün də səhər süfrəsini mən hazırlayım, ana.

Eyzangül dinmədi, qoltuqlu stulda oturub qızının tələsmədən süfrə hazırlamasına tamaşa etdi. Çox keçmədən nəvələr bir-bir qapıdan çıxıb əvvəl babalarına, sonra ona yaxınlaşdılar. Balaca Pərvanə isə anasının yanından əl çəkmədi. Könül qardaşının səsini eşidib cəld yataq otağına keçdi. Əllərini şalvarının aşırmasına keçirən Elnur aynabəndə çıxanda əvvəlcə hərbi geyimdə olan anasına diqqətlə baxdı, tanıyan kimi ona tərəf qaçdı. Diləfruz oğlunun başını sığalladı, əl çəkmədiyini görəndə qucağına aldı.

Süfrə başında da heç kim danışmadı. Nə qədər sakit davransa da, Diləfruzun evdən çıxmasına sanılı dəqiqələr qaldığını bilən Eyzangülün dodaqları tez-tez səyriyir, həyəcan keçirdiyi açıq-aşkar hiss olunurdu. Tərslikdən nə Elnur anasının qucağından düşür, nə də Pərvanə böyründən çəkilirdi. Getmək vaxtı çatanda Nuru kişi ayağa qalxdı. Diləfruz körpəsini bağrına basıb anasına tərəf boylandı. Eyzangül qollarını nəvəsinə tərəf uzatdı, qəhərli səslə dedi:

– Elnur, gəl nənənin qucuna.

Bir sözü ilə həmişə ona tərəf qaçan uşaq anasının boynunu qucaqlayanda o, hönkürtüsünü saxlaya bilmədi. Diləfruz özünü ələ alıb sakitcə:

– Ana! – deyə səsləndi. Eyzangül anasından qopmaq istəməyən körpəni zorla qucağına aldı. Geriyə baxmadan həyətdən çıxan Diləfruzun arxasınca su atan Könül də digər bacıları kimi Elnuru bağrına basan nənəyə sığındı.

* * *

Hərbi komissarlıqda qeydiyyatdan keçən kimi Diləfruz yeni xidmət yerinə – Xaçınstroya yola düşdü. Xaçın çayından o qədər də aralı olmayan bu məntəqə Əlimədədli kəndi ilə, demək olar ki, bitişik idi. Dağətəyi zonada yerləşdiyi üçün ərazidə çaya doğru maillilik açıqca hiss olunurdu. Xaçın çayının üzərində tikilən su anbarı bala Göy gölə bənzəyirdi. Sərin küləkdən ləpələnən sular günəşin şəfəqləri altında bərq vururdu. Çayın hər iki sahilində bitən yabanı kol butkiləri sanki çaya keşik çəkirdi. Çınqıl daşların arasından süzülən, bəzi yerlərində dərinliyi dizə qədər olan Xaçın günün müxtəif vaxtlarında rəngi dəyişən kəmər kimi torpağın belinə dolanır, sahil boyu uzanan yaşıl cığırlar kəməri haşiyələyən zümrüd qaşı xatırladırdı...

Xaçınstroy batalyonunun xəstəxanası vaxtilə sürücülük məktəbi kimi fəaliyyət göstərən binada yerləşməli idi. Binanın böyük həyəti, geniş meydanı vardı. Həyətdə cərgə ilə əkilən şam ağacları boy-boya verib sıraya düzülən keçmiş cəngavər-

ləri xatırladır, kələ-kötür qabıqlı iri gövdələri isə illərin sınağından dəyanətlə çıxan əmək adamının qabarlı əllərini yada salırdı.

Meydanda ayrı-ayrı bölüklər məşq edirdi. Eyni zamanda qalxıb-enən çəkmələrin ahəngdar səsi ətrafdakı sakitliyi pozurdu. Adda-budda görünən yaşayış evlərinin arasından keçən əyri-üyrü yollar bu məntəqənin vaxtilə sürücülük peşəsini öyrənənlərin həm təhsil, həm də təcrübə məkanı olduğundan xəbər verirdi.

Avadanlıqları yerləşdirmək üçün sürücülük məktəbinin bir neçə otağı hərbi hissənin ixtiyarına verildi. Tibb Xidməti rəisi kimi fəaliyyətə başlayan Diləfruz onunla birlikdə gələn işçiləri tələsdirdi:

– Haydı, qızlar, iş başına. Axşama kimi bütün ləvazimatlar öz yerində olmalıdır.

Otaqları səliqəyə salanda sürücülük məktəbinin şkafları da işə yaradı. Axşam olmamış bütün işlər görülmüş, iki otağa çarpayılar da qoyulmuşdu. Axşamüstü tibb məntəqəsinə baxış üçün gələn hərbi hissənin komandiri Şirin Mirzəyevin üzündə məmnun bir ifadə vardı. O, qarşısında dayanan gənc tibb işçilərinə sınayıcı nəzərlərlə baxdı. İlk dəfə qan-qada ilə rastlaşacaq bu qadınların üzərinə düşən ağır vəzifələri gözünün qabağına gətirdi. Kənardan baxan elə bilərdi ki, polkovnik bu dəqiqə: “Bura sizin yeriniz deyil, geri dönün!” – əmrini verəcək. Amma komandir bu əmri vermədi. Qarşısında farağat dayanan işçilərdən birinə – gizir rütbəli Diləfruza müraciət etdi:

– Buraya gələrkən nələrlə qarşılaşacağınızı götür-qoy etdinizmi?

– Bəli, yoldaş komandir!

– Arxada qalan övladlarınıza rəğmən də geri qayıtmaq fikriniz yoxdur?

– Xeyr!

Bu cavab polkovniki heyrətləndirmədi, o, xarakterinə uyğun təmkinlə sözünü yekunlaşdırdı:

– Hərbin öz qanunları var, o heç kimi tanımır, heç kimə gü-

zəşti xoşlamır. Burada hamı öz işinə cavabdehdir.

Bu xəbərdarlığı eşidən Diləfruz qətiyyətlə cavab verdi:

– Bura gələrkən biz cənnət bağına istirahətə gəlmədiyimizi göz önünə aldıq. Vətən varsa, övladlarımız da var, yaxınlarımız da. Onun yolunda ölümə belə hazırıq.

Gənc gizirin sözlərindən razı qalan komandir:

– Qızım, sizi dünyaya gətirən anaya, böyüdən ataya halal olsun, – dedi.

Diləfruz daxilən yüngülləşdi, çiynindən ağır bir yükün götürüldüyünü hiss etdi, bütün yorğunluğunu unutdu...

Ertəsi gün ağ xalat geyinib nasaz əsgərlərə, həmçinin kənd sakinlərinə xidmət göstərən Diləfruz vaxtın necə keçdiyindən xəbər tutmasa da, yorulmadı. Bir gün əvvəl xəstəxananın baş həkimi xidmət yerini dəyişdiyi üçün bütün xəstəxananı ona tapşıranda Diləfruz məsuliyyətinin ikiqat artdığını dərk etdi. O, müxtəlif səbəblərdən xəstələnən kənd camaatının müraciətini cavabsız qoymadı, nə qədər yorğun olsa da, üzərinə düşən vəzifəni yerinə yetirməyi bacardı.

Hər səhər bütün heyət sıraya düzüləndə tibb işçiləri cərgənin lap başında dayanar, təlim zamanı bütün tapşırıqların öhdəsindən gəlməyə çalışardılar. Əsgər formasında olmasına baxmayaraq, kənd camaatının da xidmətində dayanan Diləfruz paltarlarının üstündən ağ xalat, ayağına kiçik dabanlı yüngül tufli geyinər, təlim bitən kimi xəstələrin yanına tələsərdi. Bir gün yenə hərbi heyət sıraya düzülmüşdü. Yerində addımlayan əsgərlərin çəkmələrindən qopan ritmik tappıltılar səhərin sakitliyini pozur, Xaçının sahillərinə qədər yayılırdı. Müdafiə Nazirliyindən gələn yüksək rütbəli zabit bu qədər addım səsinin içində fərqli tappıltı eşidib komandirə nəsə dedi, tappıltı səsləri eyni anda kəsildi. Sıranın qarşısından heç kimə baxmadan keçən zabit Diləfruza çatanda dayandı, bir əynindəki hərbi formaya, bir də ayağındakı kiçik dabanlı tufliyə baxdı. Üzünü komandirə çevirərək sakit səslə dedi:

– Tibb işçilərinə də əsgər çəkməsi verin.

Bu iraddan sonra uzun illər Diləfruzun “bəzəy”i əsgər mundiri ilə bərabər ağır çəkmələr oldu....

Ermənilərin oyunlarını pozmaq, burnunu ovmaq üçün ölkənin müxtəlif yerlərindən gələn könüllülərin sayı artdıqca tibb məntəqəsində çalışanların da işi çoxaldı. Yarasını bağlatdıran əsgərlər yenidən döyüş meydanına tələsəndə Diləfruz onların qarşısını kəsə bilmədi. Bəzən çoxlu qan itirənləri məntəqədə saxlamağa çalışdı:

– Bir neçə saat dincəlməyiniz vacibdir.

Bu zaman döyüşü toy-bayram sayan bir əsgərin hamının əvəzində verdiyi cavab çox qısa oldu:

– Bacı, buraya dincəlməyə yox, döyüşməyə gəlmişik. Erməni kimdi ki, bizi qorxuda?

Bu cavabdan sonra Diləfruz onlara uğurlar arzuladı:

– Allah köməyiniz olsun. Qələbə ilə qayıdın....

* * *

Yay fəsli arxada qalmışdı. Payız sərt küləyi, dumanı, çiskini, leysan yağışları ilə dağlara meydan oxuyurdu. Ömrü-günü dağlarda keçən, bu yerlərin hər fəslinə yaxşı bələd olan Nuru kişi övladları cəbhəyə gedəndə nə qədər təmkinli görünsə də, indi nədənsə çox narahat idi. Yağışlı payız gecələrindən birində həmişə ürəyində təkrarladığı sözləri özündən ixtiyarsız dilinə gətirdi:

– Oğlanlarım bir yana, görəsən, Diləfruzum neynir?

Nuru kişini heç vaxt belə kövrək görməyən arvadı təəccübləndi, ehtiyatla soruşdu:

– A kişi, sənə nə olub?

Nuru kişi dinmədi, pencəyini çiyninə atıb çölə çıxdı. Bir müddət göyün üzünü bürüyən qara buludlara baxdı. Elə bildi ki, hər yağış damcısı tappıltı ilə onun sinəsini oyur. Dərindən köksünü ötürdü, qapıdan içəri girəndə üzünə zillənən nigaran baxışlardan nəzərlərini yayındırdı. Yerinə uzansa da, yuxusu gəlmədi. Leysanı heç kimə mərhəmət etməyən payız gecəsi onu xəyalları ilə baş-başa buraxdı...

Yazın gözəl çağı idi. Bir-birindən o qədər də aralı qurulmayan alaçıqlar uzaqdan baxanda ağ çətirə bənzəyirdi. Hərə bir işin dalınca getmişdi. Eyzangül Diləfruzu yatırtmağa çalışırdı. Uşaq isə onun üzünə baxıb gülümsünür, arabir yaxasını dartışdırırdı. Bu məsum gülüş ananın qəlbinə nur kimi süzüldükcə gözləri xumarlandı, nə vaxt yuxuya getdiyindən özünün belə xəbəri olmadı...

Qardaşının səsini eşidəndə Eyzangül gözlərini açdı: qucağı boş idi. Elə zənn etdi ki, kimsə uşağı onun qucağından alıb. Arxayın-arxayın gərnəşib ayağa qalxdı. Qardaşının sual dolu baxışlarından isə lap çaşdı:

– Nə olub? – deyə sual etdi.

Qardaşı gülümsündü:

– Heç nə.Yaman yuxuculsan ha. Gün günortanı keçib, hamı iş-gücünü bitirib şam yeməyinə hazırlıq görür.

Eyzangül özünə haqq qazandırmağa çalışdı:

– Vallah, ay qağa, bu uşaq məni elə yorur ki, gejəynən gündüzü səhv salıram.

Qardaşı zarafata keçdi:

– Hə də, gecəni sən Diləfruza layla çalırsan, gündüzü də o səni yatırdır, özü də iş dalınca gedir.

Eyzangül gülə-gülə:

– Yaxşı da, ay qağa, lağ eləmə, dünya dağılmayıb ha, indi bütün işlərimi sahmana salaram,- desə də, qardaşının sözlərini xatırlayıb birdən ayıldı. Cəld ayağa qalxıb yük yerinə yaxınlaşdı, beşiyi boş görəndə təlaşla alaçığın hər küncünə baxdı:

– Bəs uşaq hanı? – deyib çölə qaçdı...

Diləfruzu çox axtardılar, qonşu obalara da hay saldılar. Əlləri hər yerdən üzüləndə eşidilən səs hamını eyni istiqamətə apardı. Alaçığın yaxınlığındakı gicitkənlər astaca tərpənirdi. Uşaq üzüqoylu kolların arasında idi... O, bura necə düşmüşdü, heç kim bilmədi..

Nuru kişinin ürəyi qövr elədi, öz-özünə:

– Yox, sabah mütləq uşaqları görməyə gedəcəyəm, – deyib

yönünü divara çevirdi.

Günəş dağların arxasında görünəndə axşamkı havadan əsər qalmamışdı. Göyün üzü təmizlənmiş, günəşin qızılı şüaları topa-topa ağ buludlara sarımtıl çələng toxumuşdu. Havada bir təmizlik, saflıq vardı. Elə bil ki, yağış bütün çirki, pası yuyub torpağa gömmüşdü. Barıt qoxusu da yoxa çıxmışdı. Nuru kişi bir stəkan çay içən kimi yeməyi gözləməyib ayağa qalxdı:

– Uşaqların yanına gedirəm, – deyib cavab gözləmədən həyətə endi. Atların arasından uzaq səfərlərdə yol yoldaşına, çətin keçilən gədiklərdə ürək qızdırdığı dostuna çevrilən səmənd ata yaxınlaşdı. Əlini atın belindən yalına doğru sürüşdürdü, barmaqları ilə sarımtıl-qızılı yalı daradı.

Deyəsən, at da sahibini duymuşdu. Fınxırıb astadan kişnədi. Nuru kişiyə elə gəldi ki, bu kişnəmədə ara qarışandan bəri bir yerdə bağlanan, dağlardan uzaq düşən kəhərin həsrət dolu sevgisi dil açdı. Dərindən köks ötürüb atı yəhərlədi, həyətə çəkib qıvraq hərəkətlə səməndin belinə sıçradı...

Əsgərlər günorta yeməyinə çağırılanda Nuru kişi eyni hərbi hissədə xidmət edən oğlanlarından ayrıldı. O, Diləfruzu görməyə tələsdi. Amma hansısa bir hiss elə bil qəsdən irəliləməsinə mane oldu. Əlimədədli kəndinə iki saatdan sonra çatdı. Kəndin ağsaqqalı uzun müddətdən bəri görmədiyi Nuru kişi ilə rastlaşanda heyrətləndi. Qollarını yanlara açaraq:

– Sən hara, buralar hara, ay Nuru? – deyib irəli gəldi.

– Qızıma görə gəlmişəm. Burada – Xaçınstroyda xidmət edir. Uşaqlardan sonra onu da orduya çağırdılar. Neçə aydır, görmürəm.

Ağsaqqal gülümsündü:

– Ay Nuru, qəlbini fərah tut. Damarlarında sənin qanın axan qız oğuldan fərqlənməz. Balam olsun, hamının işinə yarayır. Hələ bir dəfə çağırıldığı yerə gedəndə üz-gözünü turşutmayıb, yoruldum deməyib.

– Allah razı olsun, ağsaqqal, – deyərək Nuru kişi sağ əlini sinəsinə qoyub təşəkkür etdikdən sonra hərbi hissəyə çatmağa

tələsdi. Tibb məntəqəsinin həyətində başı, qolu, qıçı sarıqlı əsgərləri görəndə bir qədər də irəli gəldi. Yaralılardan biri bu ucaboylu dağ adamına heyrətlə baxıb ona yaxınlaşdı:

– Salam, əmi, kimi axtarırsınız?

– Mən Diləfruzun atasıyam.

Diləfruzun adını eşidən kimi digər yaralılar da yaxına gəldilər, ona oturmaq üçün yer təklif elədilər. Əsgərlərdən biri təəssüflə:

– Diləfruz indi burada deyil, – dedi.

Nuru kişinin siması birdən-birə tutqunlaşdı:

– Bəs haradadır?

Kişinin təlaşa düşdüyünü görən əsgər onu arxayınlaşdırdı:

– Narahat olmayın, Diləfruz tibb məntəqəsi üçün dava-dərman, sarğı gətirməyə gedib.

Nuru kişi dərindən nəfəs aldı:

– Bəs nə vaxt gələr?

– Əmi, bunu demək çətindir. İşin alınmağına baxır. Bu gün, yəqin ki, gec gələcək. Bir saat olar ki, məntəqədən çıxıb,- əsgər Nuru kişinin tutqun simasına baxıb onu arxayınlaşdırmaq məqsədilə sözünə davam etdi, – narahat olmayın, əmi. Diləfruz bizim hamımızın bacısıdır. Nə qədər ki sağıq, ona zərər toxunmaz.

Nuru kişi geri qayıtdı. Qızını görməsə də, ürəyində sakitlik və arxayınçılıqla bərabər bir qürur hissi də baş qaldırdı.

* * *

Üzü qışa doğru daha da sərtləşən havalar könüllüləri də ziyarət etməyi unutmadı. Lakin qəlblərdəki yurd, vətən sevgisinin hərarəti qışın sazağını asanlıqla yumşaltdı, hər bir əsgər yalnız mənən deyil, zahirən də dəyişdi, mətinləşdi. Özünümüdafiə dəstələri eyni mərkəzdən idarə olunduğu üçün düşmən bir addım da irəliləyə bilmədi. Ermənilər kəndləri uzaqdan atəşə tutsalar da, ya tezliklə susduruldu, ya da itki verərək geri çəkilməyə məcbur edildi. Belə günlərdə Diləfruzun işi başından aşdı, hər döyüş nöqtəsinə vaxtında çatmaq üçün bütün qüvvəsi-

ni sərf etdi. Qışın sərt günlərindən birində o, yenə də dərman üçün rayon mərkəzinə yollandı. Həmişəkindən fərqli olaraq, bu dəfə hər iş vaxtından əvvəl öz həllini tapdı. Hərbi hissəyə qayıtmaq üçün iki saatdan artıq vaxt qaldı. Diləfruz aylardan bəri görmədiyi körpələrini dəfələrlə ziyarət etmək istəsə də, imkanı olmamışdı. Vaxtında hərbi hissəyə çatmaq üçün oğrun-oğrun körpələrinə aparan yola – Cinli kəndinə tərəf baxmış, ana ürəyi həsrətdən qovrulsa da, vətənə olan borc bu həsrətə üstün gəlmişdi. İndi isə o, xəyalən söhbətləşdiyi, əzizlədiyi körpələri ilə qısa müddətdə də olsa, görüşə biləcəkdi. Çünki Cinli kəndi aramsız atəşə məruz qaldığı üçün Eyzangül körpələri Ağdama, Diləfruzun öz evinə gətirmişdi.

Sürücü maşını şəhərin içərilərinə doğru yönəldəndə Diləfruz yenə xəyalında körpələrini canlandırdı, onları bağrına basıb ətirlərini sinəsinə çəkdi və özündən ixtiyarsız gülümsündü...

Bu da vaxtilə onu hər gün iş yerinə yola salıb evinə gələndə qarşılayan küçə... Hər tərəfdə sakitlik var. Soyuq olduğu üçün hamı evlərə çəkilib. Bacalardan qalxan tüstü burula-burula havada naxış salır, yüksəkliyə qalxdıqca yox olurdu. Maşın səsinə içəridən kimsə çıxdı. Diləfruz düşündü:

– Yəqin ki, anamdır.

Qapının ağzında kiçik bacısı Gülbənizi görəndə duruxdu. O, yun şalla Elnuru kürəyinə sarımışdı. Bacısı boynuna sarılanda Diləfruz sanki yuxudan ayıldı, ürəyi yerindən oynadı. İlk cümləni zorla, az qala pıçıltı ilə dedi:

– Elnura nə olub?

Gülbəniz yaşarmış gözlərini silib onu arxayınlaşdırdı:

– Heç nə olmayıb. Haraya getsəm, onu beləcə özümlə aparıram.

Elnur üzünü xalasının kürəyinə dayayıb gizlətdi, çoxdan görmədiyi anasını tanımadı. Diləfruza elə gəldi ki, körpəsi küsdüyü üçün üzünü ondan qaçırır. Kövrəlsə də, heç nəyi büruzə vermədi, içəri keçdi. Könüllə Samirə onu görən kimi yerlərindən dik qalxdılar. Deyəsən, qızlar çox təəccüblənmişdilər. Bu-

nun yuxu olmadığını dərk edəndə isə eyni zamanda analarının açılan ağuşuna sığındılar. Elə bu vaxt kimsə asta-asta onun qolunu döyəclədi: Pərvanə idi. Diləfruz böyük qızlarından ayrılıb dizi üstə çökdü, körpə dəcəlini qucaqladı. Deyəsən, Pərvanənin ondan ayrılmaq fikri yox idi, anasının boynunu elə qucaqlamışdı ki, Gülbəniz göz yaşlarını saxlaya bilmədi. Bayaqdan üzünü gizlədən Elnur da əsgər paltarında olan bu "yad" qadını tanımışdı...

İki saatın nə vaxt bitdiyindən heç birinin xəbəri yox idi. Körpələrinin üzündəki gülüş Diləfruza hər şeyi unutdurmuşdu: bu xoşbəxt anların bitməsinə dəqiqələr qaldığından da, deyəsən, xəbəri yox idi... Aramla verilən maşın siqnalı eşidiləndə körpələrindən ayrılmaq nə qədər ağır olsa da, o ayağa qalxdı. Elnur təzəcə isnişdiyi anasından qopmaq istəmədi, Pərvanə isə dizlərini qucaqladı. Boy-boya verən Könüllə Samirə qəmli baxışlarını yerə dikdilər. Diləfruz qapıdan çıxarkən yalnız bu sözləri deyə bildi:

– Yenə də gələcəyəm, balalarım!

Maşın küçədən burulub şose yola çatsa da, Elnurla Pərvanənin səsi onun qulaqlarında əks-səda verdi: "Məni də apar, ana!"

* * *

Səhər tezdən Xaçınstroyda bir canlanma vardı. Batalyonun təsərrüfat işlərinə cavabdeh mayor Musanın başı bərk qarışıq idi. O, Əmralılar kəndinə göndəriləcək bölmələr üçün lazım olan bütün silah-sursatın siyahısını ertədən hazırlamışdı, amma yenə nədənsə narahat idi. Ştab rəisi Sabir müəllim onun narahatlığını çox gözəl anladığı üçün dilləndi:

– Narahat olma, sursatımız, silahımız az olsa da, oğullarımız düşmənə aman verməyəcək. Düzdür, üç nəfərə bir avtomatımız var, amma qələbə bizim olacaq.

Bu təsəlliverici sözlər mayor Musanın narahatlığını azaltmasa da, ürəyinə bir sərinlik çilədi:

– Sabir müəllim, – dedi, – mən oğullarımıza güvənirəm ey, amma düşmənimiz arxalıdır. Tək erməni olsa, nə vardı ki? Er-

məni qan gördü ki, dabanına tüpürüb qaçanın biridir.

Qarşıdan gələn Qəzənfəri görəndə Sabir müəllimin üzü güldü, onun başındakı çal papağa, çiynindəki beşatılana işarə ilə dedi:

– Vallah, erməni bunu görəndə lap zəhri yarılacaq. Elə biləcək ki, Qaçaq Nəbi onlarla döyüşə gəlib.

Qəzənfər sinəsini qabartdı:

– Qaçaq Nəbi ilə eyni kənddənəm, həm də babamla yaxın qohum olub. Niyə də onun kimi düşməni qorxuya salmayım?

Papravənd bölüyünün komandiri Etimad gəncliyini aşan bir ciddiyyətlə söhbətə qoşuldu:

– Qaçaq Nəbi bütün millətimizin qəhrəmanıdır. Oğullarımızın hamısı ondan ibrət alıblar, düşmənlə mübarizədə hərəsi bir Nəbi olduğunu dəfələrlə göstərib.

Şirin Mirzəyevin gəlişi ilə söhbət kəsildi. O, üzünü Sabir müəllimə tutdu:

– Əmralılara göndəriləcək heyət tam hazırdırmı?

– Bəli, yoldaş polkovnik.

– Silah-sursat təchizatı necədir?

Mayor Musa dilləndi:

– Mümkün qədər təchiz edilib.

– Bölmələri səfərbər edin, yola düşmək vaxtına az qalıb.

Polkovnik Şirin Mirzəyev sıraya düzülən əsgərlərin qarşısında düşmənin əsas məramını açıqlayıb nitqini yekunlaşdırdı:

– Ermənilərin məqsədi Əmralıları ələ keçirib Bəhrəmtəpə yoluna çıxmaq və Dağlıq Qarabağda yaşayan azərbaycanlıların arxa ilə əlaqəsini bu tərəfdən kəsməkdir. Bütün gücümüzlə düşmənin qarşısında dayanmalıyıq. Əmralılar kəndinə düşmən ayağı dəyməməlidir!

Yüzlərlə əl yumruğa çevrilib yuxarı qalxdı.

* * *

Əmralılar rayon mərkəzi ilə üz-üzə idi, lakin Xocavəndin yüksəklikdə yerləşməsi oraya sığınan düşmənlərə böyük im-

kanlar verirdi. Kənd hər gün təzyiqə məruz qalırdı. Qarşıdakı kiçik təpələr də Əmralıları atəşdən qoruya bilmirdi. Yerli müdafiə dəstəsinin sayca azlığı, həm də silah çatışmazlığı düşməni ayaqlandırmışdı. Təxribat törətməklə əhalini yurd-yuvasından didərgin salmağa köklənən ermənilər gələn köməkdən duyuq düşəndə elə bil qurbağa gölünə daş atıldı.

Şamxal gülərək Füzuliyə qarşı tərəfi göstərdi:

– Qardaş, deyəsən, gəldiyimizdən xəbər tutdular.

– Hə, elədir. Amma rusa da bel bağlamalı deyil ha, bu dəqiqə özünü yetirəcək.

Əfqan:

– “Ayıdan qorxan meşəyə getməz”. Gəlsinlər də, onlardan qorxana lənət, – deyərək minaatan qurğunun ayaqlarını yerə bərkitdi. Elə bu vaxt vıyıltı eşidildi. Tank mərmisi yaxınlıqdakı təpəyə düşəndə vıyıltını güclü partlayış əvəz etdi.

Qərib uzandığı yerdən başını qaldırdı:

– Deyəsən, özlərinə gəldilər. Eybi yox, biz də cavablarını verərik.

Qarşı tərəfdə tanklar, toplar hay-küy qopartdı, pulemyotların aramsız şaqqıltısı eşidildi. Atəş nöqtələrini susdurmaq üçün minaatanların komandiri Şamil Ədilov koordinatları müəyyənləşdirdi və bölüyə döyüş əmri verdi. Cavab atəşi düşməni müvəqqəti də olsa, susdurdu. Həmin gecə arabir pulemyotlar səsləndi, amma düşmən hücuma keçməyə cəsarət etmədi.

Polkovnik Mirzəyev həmişə olduğu kimi bu sakitliyin də uzun sürməyəcəyinə əmin idi. Qərargahda toplananlarla müzakirədə o, səsinin tonunu dəyişmədən aramla dedi:

– Bugünkü döyüş düşmən üçün kəşfiyyat xarakterli idi. Onlar qüvvəmizi öyrənib təxribat törətməyə də çalışacaqlar. Ayıq olun. Sursatımız azdır. Bunu düşmən duymamalıdır.

Son tapşırığı alan bölmə komandirləri yenidən əsgərlərin yanına qayıtdılar. Səhərə qədər növbə ilə keşikdə dayanan döyüşçülər hər hənirtiyə qulaq kəsildiər. Növbəti gün də vəziyyət dəyişmədi, qısa atışmadan sonra silahlar yenidən susdu.

İlk gündən kənd camaatı səngərdə keşik çəkən əsgərlərə ərzaq, su gətirməyi unutmadı, hətta bəzən səhəri onlarla birlikdə açanlar da tapıldı. Bir gün isə kənd adamları gedəndən sonra əsgərlərin yanına sarışın, sısqa bir şəxs gəldi. Üz-gözündən yazıqlıq yağırdı. Xankəndindən gələn bu adam bütün ailəsini itirdiyini söyləyib ağlamsınanda əsgərlərdən bəzilərinin ürəyi nazildi, onu siqara qonaq edənlər, çörəyini bölüşənlər az olmadı.

– Adım Ehsandır, buraya intiqam almaq üçün gəlmişəm, – sözlərini deyəndə isə onun gözləri qəzəblə elə parıldadı ki, bu parıltıda qarşısındakı düşməni məhv edənə qədər döyüşmək ehtirası aydın göründü...

* * *

Bir həftədən çox idi ki, Əmralılar uğrunda mübarizə davam edirdi. Gürşad yağışlar ara vermirdi. Növbəti yağışlı gündə dişləri bir-birinə dəyən Ehsan qarnını tutub səngərin içinə yıxıldı. Qeydinə qalan əsgərlər onu tibb məntəqəsinə apardılar. Diləfruz tibbi yardım göstərən kimi üşütməsi dayanan xəstə yuxuya getdi. Onu narahat etməmək üçün hamı çadırdan çıxdı. Bir saatdan sonra xəstəni yoluxmağa gələn Diləfruz çadırı boş görəndə təəccübləndi. Ehsanı səngərdə də tapmadılar. Ehtiram şübhə ilə dedi:

– Görəsən, bu haraya gedib?

Səməd çiyinlərini çəkdi:

– Allah bilir.

Söhbətə qarışan Maşallahın:

– Vallah, ilk gündən ondan gözüm su içmədi, – fikrinə kimsə etiraz etdi:

– Günah yumayaq, bəlkə, işi tərs düşüb? Yəqin ki, harada olsa, gələcək.

Yağış səhərəyaxın kəsdi. Növbədə dayananları digər döyüşçülər əvəz etdilər. Saat səkkiz olmamış qarşı tərəfdən güclü həmlə başladı: top, tank atəşindən sonra düşmən piyadaları hücuma keçdilər. Səngərdə yerini tutan əsgərlər qarşı tərəfə cavab

atəşi açdılar. Patronun tükəndiyini görən komandir Mübarizlə Yaşarı patron dalınca göndərdi. Lakin əsgərlər geriyə əliboş qayıtdılar. Hamı heyrətləndi. Komandirin təəccübünü görən Yaşar çiyinlərini çəkərək çətinliklə də olsa, vəziyyəti anlatdı:

– Patron qutuları boşdur.

– Necə yəni boşdur?

– Boşdur da, bir dənə də patron yoxdur.

Maşallah əlini-əlinə vurdu:

– Vallah, elə mən deyəndir. Patronların başına nə gəlibsə, Ehsanın işidir.

– O qədər patronu Ehsan haraya daşıdı ki, heç kim xəbər tutmadı? – deyən Arazın sözlərini Qabil də təsdiqlədi:

– Patronlar haradasa, lap yaxındadır, axtarmaq lazımdır.

– Haydı, ikiniz, – komandir üzünü Təşəkkürlə Araza tutdu, – patronları axtarın, – sonra əsgərlərə müraciət etdi, – gülləyə qənaət edin, düşməni lap yaxına buraxın...

Arazla Təşəkkür nə qədər axtarsalar da, patronlardan bir iz tapmadılar. Arazın:

– Gedib nə deyəcəyik? – sualına Təşəkkür birmənalı cavab verdi:

– Nə varsa, onu.

– Vallah, heç ağlım kəsmir, bu necə ola bilər? – deyərək Araz içində bir qədər su qalan çənin qapağını qaldırdı. Onun hərəkəti Təşəkkürə gülməli göründü:

– Patronları axtarmağa yer qəhətdir, deyəsən? Oraya da patron tökərlər?

Araz onun istehzasına əhəmiyyət vermədi, çənin içinə boylandı, dərindən içini çəkərək:

– Vay, dədəm, vay! Gör patronları hara töküb ey bu əclaf, – deyəndə Təşəkkür də çənə yaxınlaşdı, islanmış patronları görüb əvvəlcə donuxdu, özünə gələndə Ehsanın qarasınca çoxmərtəbəli söyüş göndərdi:

– O harada əlimə düşsə, anasını ağlar qoyacağam...

Atəşin seyrəlməsi düşməni daha da quduzlaşdırdı. Güllə

yağmurundan göz açmaq mümkün olmadı. Birinci təpəni ələ keçirmək istəyən düşmənlər qəfildən minaatanların hədəfinə çevrildilər və xeyli itki verərək geri çəkildilər. Polkovnik Şirin Mirzəyevin Baş qərargaha müraciətindən bir saat sonra uzaqdan vertolyot gurultusu eşidildi. Vertolyot dövrə vuranda Araz üzünü Təşəkkürə tutaraq zarafatla dedi:

– Ay Təşəkkür, şair bilirsən nə deyib?

– Nə?

– Allah evini tiksin, şair deyib ki: "Hələ yaşamağa dəyər bir az da".

Təşəkkür də söz altında qalmadı:

– Özünü çoxbilmiş kimi göstərmə. Şair deyib ki: "Hər kim yüz il yaşamasa, günah onun özündədir".

Araz:

– Vallah, oğuluq ey! – deyəndə hər ikisi qəh-qəhə çəkdi.

Əmralılar uğrunda iki həftə davam edən mübarizədə planı boşa çıxan ermənilər bir neçə yüksəklik itirdilər. Əmralılar kəndinin başı üstünü alan təhlükə isə birdəfəlik aradan qaldırıldı.

* * *

Qar dənəcikləri havada dövrə vurur, asta-asta evlərin, şam ağaclarının, torpağın üstünə qonurdu. Təbiət sevincək idi, tələm-tələsik ağ donunu geyinməyə çalışırdı. Külək də yağan qarın rəqsinə uymuşdu, qımıldanmaq istəmirdi. Bu ağlıq sanki onu da ovsunlamışdı. Göyün üzü bəmbəyaz idi. Gecənin qaranlığı da haradasa gizlənərək ağ ləçəklərin rəqsinə tamaşa edirdi. Aşağı endikcə ağırlaşan dənəciklər son dövrəni vurub torpağa baş əyir, yerini tutmağa tələsirdi.

Qarın üstündə heç bir iz yox idi. Həmişə gecə yarısı güllə səsinə yuxudan dik atılan körpələr sakitcə uyuyurdular. Ürəyi səksəkədə övladlarının keşiyində dayanan anaların ağırlaşan göz qapaqları asta-asta yuxuya təslim olur, lakin başları sinələrinə enəndə diksinib oyanırdılar. Atılan mərmilərin torpağın köksündə açdığı yaralara pambıq kimi yumşaq qardan qoyulan sarğı getdik-

cə qalınlaşır, sanki adına insan deyiləcək məxluqun əməllərini gizlətmək üçün bütün çala-çuxurları doldurmaq istəyirdi. Səngər boyu postlarda keşik çəkənlər də bu əsrarəngiz qış gecəsinin gözəlliyini doya-doya yaşamaq üçün qımıldanmırdılar.

Həmişəkindən fərqli olaraq, düşmən bu gecə nədənsə susurdu. Nə tez-tez gecənin bağrını yaran alovsaçan güllələr, nə marığa yatan düşmən snayperinin qəfil atəşi, nə də minaatanların gurultusu var idi. Xeyli yüksəklikdə yerləşən düşmən postlarında heç bir tərpəniş hiss olunmurdu. Kim bilir, onlar, bəlkə də, bu bəyazlıq içində üz qaralarının aydın görünməsini istəmirdilər...

Xıdırlı kəndinin özünümüdafiə dəstəsinin komandiri Elbrus Mustafayev həmişə olduğu kimi yenə də ayaq üstdə idi. O, səngər boyu qurulan postlarda keşik çəkən əsgərlərinə baş çəkmək üçün növbəti yoxlanışa çıxmışdı. Birinci postun keşikçiləri dərhal ayağa qalxmaq istəyəndə o, işarə ilə əsgərləri yerlərindən tərpənməyə qoymadı. İki avtomata sahib olan dörd əsgərə: Valehə, Eldara, Rasimə, Şirvaniyə ani nəzər salıb üzünü Barata tutdu:

– Digər postlarla rabitəni kəsməyin. Ehtiyatlı olun.

İkinci postda keşik çəkən Hidayəti görəndə komandirin ciddi simasında xoş ifadə yarandı, onunla çiyin-çiyinə dayanan Abbasa, Qəribə, Oqtaya, Natiqə qürurla baxdı:

– Özünüzə güvəndiyinizi bilirəm, amma diqqəti əldən verməyin, – dedi və növbəti posta tərəf yönəldi...

Təzə yağmış qarın üstündə böyür-böyürə uzanıb qarşı tərəfdən gözünü çəkməyən Mübarizlə Fikrətə yaxınlaşanda Mehman barmağını dodaqlarının üstünə qoyub Yaquba qarşı tərəfi göstərdi. Xışıltı səsinə əsgərlərlə bərabər komandir də qulaq kəsildi. Bir qədər aralıda üstünü qar basmış kollar tərpənəndə isə hər şey məlum oldu, şələquyruq tülkü oğrun-oğrun ətrafa baxdı, sonra isə hənirti duyaraq sürətlə ermənilər yaşayan kəndə tərəf şütüdü.

Babək, Cəbrayıl, Nəbi və Ərşadın olduğu məntəqədən də arxayınlıqla ayrılan komandir Çuxurməhlənin sonuncu postuna ya-

xınlaşdı. Elbrus, Mahir, Mirzə arabir astadan danışsalar da, ətrafı gözdən qoymurdular. Rəhmanın:

– Saat dördü keçib, amma hələ də sakitlikdir. İndiyə qədər çoxdan atmalıydılar. Nə əcəb hələ də susurlar? – pıçıltısını eşidəndə Elbrus gülümsündü:

– Çoxdandır, qulağın sakitliyə öyrəşməyib. Qar yağır, hava soyuqdur. Yəqin ki, isti yuvalarından çıxmaq istəmirlər,- sonra üzünü Mahirə tərəf çevirdi, – Baratgilin postundan bir xəbər yoxdur, astaca işarə ver.

Mahir işarə vermək istəyəndə yaxınlaşan addım səsləri onu fikrindən daşındırdı. Onlar bir-birinə arxalanıb dörd tərəfi gözdən keçidilər. Elbrus Mustafayevi görəndə arxayınlaşdılar. Komandir:

– Adaşım, vəziyyət nə yerdədir? – deyib əlini astaca Elbrusun çiyninə qoydu. Ondan:

– Sakitlikdir, heç bir tərpəniş yoxdur. Deyəsən, soyuq gözlərini yaman qorxudub, – cavabını eşidəndə düşüncəli tərzdə dilləndi:

– Bu sükuta aldanmaq olmaz, ayıq olun, uşaqlar. Düşməni zəif bilmək uğursuzluğun açarıdır.

Komandirin sözlərini diqqətlə dinləyən Rəhman:

– Narahat olmayın, hər şeyi yaxşı başa düşürük, – dedi. Komandir sonuncu postdan təzəcə aralanmışdı ki, fitə bənzər tanış səs eşidildi. Elbrus Rəhmana tərəf dönüb ağzını açmağa macal tapmadı. Başlarının üstündən ötüb bir qədər aralıda partlayan mərminin qulaqbatırıcı partlayışı ilə bərabər torpaq qarışıq qar dörd bir tərəfə ələndi. Mahir üstünə tökülən qardan silkinib:

– Salamatlıqdırmı? – soruşanda ikinci mərmi daha yaxına düşdü.

Elbrus sakitcə dedi:

– Yerimizi dəyişməliyik, deyəsən, burada olduğumuzu anlayıblar. Ehtiyatlı olun, işarəm olmadan silahdan istifadə edilməyəcək.

Nə qədər təhlükəli olsa da, dördü də səngərin sonuna çatıb düşmən mövqelərinə tərəf sürünməyə başladı. İndi onların başı üstündən vıyıldayan mərmilər daha uzaq məsafələri – yaşayış evlərini hədəf seçmişdi. Evlərin yaxınlığında partlayan mərmilərin gurultusu gecənin səssizliyində əks-səda verib yenidən öz mənzilinə – düşmən tərəfə qayıdırdı. Cavab atəşi eşitməyən düşmən bir azdan daha da azğınlaşdı, bir-birinin ardınca vıyıldayan mərmilərdən, deyəsən, lap sevincək oldular. Adətən, bir-iki zərbədən sonra verilən qarşılıq onları dərhal qınına çəkilməyə məcbur edirdi. İndi isə Xıdırlı bölüyü susurdu və bu susqunluq düşməni lap şirnikləndirdi. Cavab zərbəsinin gecikməsindən səbirsizlənən Elbrus dizləri üstə qalxıb özündən ixtiyarsız ucadan:

– Nəbi, qadan alım, atsana, nəyi gözləyirsən? – söyləyəndə ciddi görünməyə çalışan Rəhman gülümsündü, Mahir isə onun çiynindən basdı:

– Nə edirsən? Bu dəqiqə başımızın üstündən güllələr vıyıldayacaq.

Mirzənin:

– Doğrudan, bizimkilər niyə cavab vermirlər? – sualına bənd imiş kimi qarşı tərəfdə güclü partlayış qopdu. Erməni səngərində qarışıq səslər eşidildi. Elbrus sevincək:

– Gözünə dönüm, Nəbi, birini də fırlat, ver bu əclafların dərsini, – dedi.

İkinci zərbə də, deyəsən, hədəfə dəydi. Düşmən səngəri sükuta qərq oldu...

Əldə olunan məlumata görə, düşmən bu gecə Xıdırlını yalnız atəşə tutmaqla kifayətlənməyəcək, raket zərbələrindən sonra piyadalar kəndin üzərinə hücuma keçəcəkdilər. Doğrudan da, sakitlik uzun çəkmədi. Müdafiəçilərin sayca azlığını bilən düşmən birdən-birə ürəkləndi. Bir neçə səmtdən açılan pulemyot atəşi qarı göyə sovursa da, səngərin içində daldalanan döyüşçülərə zərər verə bilmədi.

Düşmən səngərinin lap yaxınlığına çatan Elbrusgil daldalanmaq üçün ətrafı nəzərdən keçirəndə Mahir dilləndi:

– Sol tərəfdə bizdən bir az aralı uzunsov bir çuxur var, lap səngərə oxşayır, orada saxlana bilərik.

Dördü də sürünüb çökəklikdə yerini tutdu. Elbrus hamıdan sakit görünən Mirzəyə dedi:

– Döyüşməyə dəyər, Mirzə. Döyüşək ki, bizi yenməyin asan olmadığını bütün düşmənlərimiz qəbul etsin, qələbə çalaq ki, gələcək nəsillər bizdən öyrənsinlər.

Mirzə başını razılıqla tərpətdi. Düşmən pulemyotları ara vermədən dilləndi, müdafiəçilər başlarını qaldıra bilmədilər. Postlarda dayananlar bir-biri ilə əlaqəni kəsməmək üçün bütün imkanlardan istifadə edib verilən hər əmri yerinə yetirdilər. Sonuncu postdan xəbər tutmaq üçün gələn Barat döyüşçüləri yerində tapmayanda ürəyi sancdı. Yarım saat əvvəl partlayan mərmilərin açdığı çuxurlara diqqətlə baxdı, dostlarından bir əsər görməyəndə həyəcanla səsləndi:

– Uşaqlar, haradasınız?

Səsini pulemyot şaqqıltısı batırsa da, Elbrus Baratı eşitdi, lakin sağ olduqlarını söyləyə bilmədi. Deyəsən, düşmən də bu səsdən xəbər tutdu. Növbəti güllələr ətrafına səpələnəndə Barat qismən təhlükəsiz yerə keçdi.

Elbrusgilin yoxa çıxmaq xəbərini eşidən bölmə komandiri Mustafayev özünə yer tapmadı. Birdən-birə dörd döyüşçü xəbərsiz-ətərsiz necə yoxa çıxa bilərdi? O pıçıldadı:

– Yox, onlar əsir düşməzlər, – səsini nə zaman ucaltdığını özü də hiss etmədi, – onlar əsir düşə bilməzlər!

Düşmən səngərindən açılan pulemyot atəşi piyadaların hücumunu asanlaşdırdı. Heç olmasa, bir pulemyot susdurulmalı idi, yoxsa, yaxşı silahlanmış ermənilərin qarşısında dayanmaq çətinləşəcəkdi. Düşmən piyadalarının səngərdən çıxıb üzüaşağı irəlilədiyini görən Elbrus Mahirə baxdı. Bu "hazırsanmı" demək idi. O, Rəhmanla Mirzəyə:

– Bizi qoruyun! – deyib saxlandığı yerdən çıxdı. Mahir də onun ardınca süründü. Düşmən səngərinə çatanda hər ikisi aşırılıb xəndəyə düşdü. Səngər boş idi. Üzü Xıdırlıya tərəf dayan-

madan atəş açan pulemyotçunun yanındakı erməni əsgəri də hücuma keçənlərin arxasınca baxdığı üçün Elbrusgilin gəlişindən xəbər tutmadı. Onları zərərsizləşdirmək çətin olmadı. Pulemyotlardan birinin susduğunu hiss edən kimi Mustafayev məsələnin mahiyyətini anladı, bir neçə dəqiqə əvvəl dediyi sözləri qürurla bir daha təkrar etdi:

– Deyirdim də, onlar əsir düşməzlər.

Hücuma keçən düşmənlər yaxınlaşanda komandir atəş açmaq əmrini verdi. Fikrət əl pulemyotunu işə salanda Barat sevincək:

– Fülə, qadan alım, qır bu köpək uşağını, – deyib əlindəki beşatılanla erməniləri bir-bir dənləməyə başladı.

Düşmənlər qarşı səngərin möhkəm dayandığını görüb geri çəkildilər.

Elbrusla Mahirin üzündə məmnun bir ifadə vardı. Onlar düşmən səngərindən iki avtomat, bir əl pulemyotu və xeyli patron gətirmişdilər...

* * *

Ermənilərin Xıdırlıya basqın etmək planı hərbi hissənin komandiri Şirin Mirzəyevə çatdırılanda hava qaralmaq üzrə idi. Erməni xislətinə yaxşı bələd olan polkovnik köməyə getmək üçün təcili tədbirlər gördü. İlk hücum dəf ediləndən az sonra köməyə gələn əsgərlər bütün səngər boyu səpələndilər. Onların arasında Diləfruz da vardı...

Hamı bilirdi ki, geri çəkilən düşmən bir qədər ara verdikdən sonra yenidən hücuma keçəcək. Ara-sıra düşmən səngərində yad dildə danışanların səsi gecənin səssizliyində aydın eşidilirdi. Elbrus üzünü yoldaşlarına tutdu:

– Deyəsən, bu dəfə üstümüzə muzdlular gələcəklər.

Mirzə maraqla soruşdu:

– Nədən bildin?

– Danışıqlarını dinlə. Bəziləri ermənicə danışmırlar. Bu hücum, yəqin ki, daha güclü olacaq. Amma bizim də yerimiz

yaxşıdır. Onları arxadan biçə bilərik.

Mirzə onun dediklərini təsdiqlədi:

– Doğru deyirsən, bax bu, düşmənə gözlənilməz zərbə olacaq.

Hava işıqlanmasa da, ətrafı aydın seçmək olurdu. Dalbadal atılan top mərmiləri hücumun başlandığını xəbər verdi. Top atəşindən sonra pulemyotlar yenidən şaqqıldadı. Səngər boyu düşmən avtomatları susmadı. Qarşı tərəfdən adda-budda atılan güllələr erməniləri arxayınlaşdırdı. Onlar qələbə qazanmaq ümidi ilə gah qaçır, gah sürünür, bir-birinin yerini tutaraq addım-addım səngərə yaxınlaşırdılar. Ən yaxın səngərə çatmağa əlli-altmış metr qalmış yaxın nöqtələrdən atılan güllələr erməniləri yerə yatırtdı. Düşmən hiss etdi ki, Xıdırlı döyüşçülərinə kömək gəlib, geri çəkilməkdən başqa çarə yoxdur. Arxa tərəfdən Elbrusgilin yağdırdığı pulemyot atəşi isə onları lap çaş-baş saldı.

Mühasirəyə düşəcəklərini zənn edən ermənilər nizamsız atəş aça-aça geri çəkildilər. Hərdənbir dillənən düşmən pulemyotu da nədənsə səsini xırp kəsdi. Elbrusgilin təhlükədə olduğunu bildiyi üçün polkovnik Mirzəyev geri çəkilən düşmənin üzərinə hücum əmri verdi. Qorxuya düşən ermənilər səngərlərini tərk edib üzüyuxarı qalxdılar...

Aydın bir qış səhəri açıldı. Bir saat əvvəl dağları yerindən oynadan gurultudan, havanın dadını qaçıran barıt qoxusundan əsər yox idi. Əsgərlərimiz səhəri düşmən səngərində qarşıladılar. Elbrusgil də öz saxlanclarından çıxıb yoldaşlarına qovuşdular. Komandir Mustafayev əlini fəxrlə Elbrusun çiyninə qoyub üzünü onunla gələn əsgərlərə tutdu:

– Bu günün qalibi sizsiniz, – dedi.

Hamının üzündə sevinc işartıları duyulsa da, Şirin Mirzəyev çox düşüncəli idi: itki vermədən qazanılan bu qələbədən polkovnikin məmnun olmadığı aşkar sezilirdi. O, əlindəki durbinlə xeyli yüksəklikdə yerləşən Xramord kəndinə aparan yollara, kəndin giriş-çıxışına diqqətlə baxdı. Onun:

– Biz bu səngərdə qala bilmərik, – deməsi çoxlarına qəribə

gəldi. Lakin polkovnik israrla sözünü bir də təkrarladı, – bəli, qala bilmərik. Xramord kəndində yerləşən erməni birlikləri istənilən vaxt buranı atəş altında saxlayacaq, oğullarımız bir-bir düşmən gülləsinə tuş gələcəklər.

Elə bu vaxt atəş səsi eşidildi, kimsə içini çəkdi. Əlini sinəsinə aparan Elbrusun barmaqları arasından qan şoruldadı. Onunla yanaşı dayanan Mahir çaşqınlıqdan yaxınlıqdakı əsgərin yaxasından yapışıb silkələdi:

– Kim atəş açdı? Onu kim vurdu?

– Əsgər çiyinlərini çəkib yaxasını Mahirin əlindən zorla qurtardı. Nə edəcəyini bilməyən Mahir tələşla:

– Həkim, həkim hardadır? – deyib ora-bura vurnuxanda Diləfruz son dəqiqələrini yaşayan Elbrusun yarasını bağlayırdı. O özünü nə qədər tox tutsa da, bu qara gözlərdəki həyat eşqinin öləziyən işartılarına sona qədər baxa bilmədi. Ayağa qalxıb bir qədər arxaya çəkildi, əlinin arxası ilə gözlərində giləlınən damcıları sildi. Elbrusun başını dizləri üstünə alan bölmə komandiri qəhərli səslə:

– Döz, adaşım, sağalacaqsan, – deyəndə Elbrus son qüvvəsini toplayıb gülümsədi, nəsə deməyə çalışdı, amma gülüşü də, deyəcəyi sözlər də dodaqlarında dondu. Komandir aşağı əyilib onun alnından öpdü, kirpiklərini tez-tez qırparaq gözünə dolan yaşı gizlətməyə çalışsa da, axan damlalar ilk şəhid əsgərin saçlarında qərar tutdu. Səngərə bir anlıq sanki ölüm sükutu çökdü. Yumruqlarını səngərin kələ-kötür divarlarına çırpan Mahir hələ də gördüyünə inanmırmış kimi cəsədin yanında oturdu, papağı dostunun üzündən götürəndə ona heç kim mane olmadı. Əbədi yuxuya getmiş silahdaşının simasında donan gülüşdən onun ürəyinə toxtaqlıq gəldi, titrək səslə:

– Sən istəyinə çatdın, qardaşım, amma bilirəm ki, ruhun həmişə bizimlə olacaq, – dedi.

Polkovnik Mirzəyev dərindən köks ötürdü. Durbinlə yenidən ətrafı gözdən keçirməyə başladı. O, müxtəlif istiqamətlərdən gələn tank və zirehli transportyorları görəndə bildi ki, ağır

bir döyüş başlayacaq. Dönüb əsgərlərə baxdı. Səngər boyu yerlərini tutan döyüşçülərin üzündə qorxu hissi, demək olar ki, yox idi. O, dəfələrlə sınaqdan keçmiş silahdaşlarına xəbərdarlıq etdi:

– Ermənilər itirdikləri səngəri geri almaq üçün irimiqyaslı hücuma başlayıblar. Amma bu dəfə üstümüzə gələn təkcə piyadalar deyil. Həm də unutmayın ki, əsas yüksəkliklər onların əlindədir. Ehtiyatlı olun, hissə qapılmayın, səbirlə hərəkət edin.

Tankların arxasınca gələn piyadalar bir azdan aydın göründülər. Düşmənin yaxınlaşmasını gözləyən döyüşçülər vıyıltı ilə gələn top mərmisindən qorunmaq üçün səngərdə yerə sindilər. Mərmi səngərin qarşısında dərin bir çuxur açdı. Qəlpələr səngərdəkilərin başı üstündən ətrafa səpələnsə də, heç kimə xətər dəymədi. Araya qısamüddətli  sükut çökdü. Qarşıda nə piyadalar, nə də tanklar gözə dəyirdi. Bu yerləri tanımayan elə güman edərdi ki, ermənilər birdən-birə yerə girdilər. Lakin tezliklə qarşıdan gələn tankın lüləsi göründü. Tanklar növbəti dikdirə qalxanda atəş səsləri gücləndi. İndi mərmilər bir-birinin ardınca səngərin ağzında partlayır, gurultu səsindən qulaq tutulurdu. Polkovnik:

– Atəş! – əmrini verən kimi minaatanlar işə düşdü. Atılan mərmilər düşməni dayanmağa məcbur etdi. Tanklar, zirehli transportyorlar bir neçə mərmi atandan sonra sürətlə geri çəkildi. Yerə yatan düşmən əsgərləri isə səngərə yaxınlaşmağa cəhd edərək aramsız atəş açdılar. Əlverişli mövqedə olmaları onların işini asanlaşdırmışdı. Lakin piyadaların da ilk həmləsi istənilən nəticəni vermədi, bir neçə əsgərini itirən düşmən dayandı. İkinci hücum günortadan sonra başladı. Tanklar yenidən aşırımda görünüb tezliklə ağacların arasında yoxa çıxdı. Onların mazqallardan atəş açacağı hamıya bəlli idi. Bir-birinin ardınca açılan atəşdən ağız deyəni qulaq eşitmədi. İndi mərmilər daha yaxına, hətta səngərdən bir neçə metr arxaya düşürdü. Mərmi yağışından göz açmaq mümkün deyildi. Əsgərlərin arasında qəlpə yarası alanların sayı artırdı. Diləfruz onların yarasını sarıyan

kimi nisbətən ağır yaralıları təhlükəsiz yerə apartdırır, yenidən səngərə qayıdırdı. Komandir qeyri-bərabər döyüşdə əsgərlərini itirmək istəmədi, əvvəlki mövqelərə qayıtmaq üçün göstəriş verdi. Atəşin seyrəldiyindən xəbər tutan düşmən quduz it kimi irəli cumdu. Geri çəkilən silahdaşlarını qoruyan Mahir Cavanşirə tərəf səsləndi:

– Ayə, maştağalı, bura Abşeronun üzüm bağları döyül ha. Ehtiyatdı ol, bir də gördün, erməni ayağının altınnan özünə yol elədi.

Cavanşir cavab verməyə macal tapmamış İlham Bakı ləhcəsində dilləndi:

– Qədeş, biz düzdə də, dağda da düşmənnən vuruşmaya hazıruğ. Atalar demişgən: “Ehtiyatdı igidün anası ağlamaz”.

– Vallah, sənin bu kəlamlarına heyranam, – deyərək Cavanşir onlara tərəf gələn düşməni göstərdi, – bir az da dayanın, erməniləri lap yaxına buraxaq.

Onlar sol cinahdan gələn düşməni xeyli irəli buraxdılar. Hələ də yaxın dostunu itirməyin təsirindən çıxmayan Mahir dişlərini bir-birinə sıxdı:

– Gəlin, quduz dəymiş itlər, sizə verəcəyimiz pay ancaq ölüm olacaq!

Bir-birinin ardınca atılan qumbaralar, düşməni karıxdırdı. İnilti qarışıq qışqırtılar ətrafı bürüdü. Əsgərlərdən biri xəbərdarlıq etdi:

– Başları qarışmışkən geri çəkilməliyik.

Hamı səngərdən çıxmağa hazırlaşanda Mahir ayağa qalxıb avtomatın darağını düşmənə tərəf boşaltdı. Düşmən tərəfdən çovuyan güllə dizdən aşağı sümüyünü parçalayanda o özü də əvvəlcə nə olduğunu başa düşmədi, lakin ayağı arxasınca gəlməyəndə dəhşətli ağrıdan ufuldadı:

– Həkim! – deyib Diləfruzu səslədi.

Sol cinahda itki verən düşmən yenidən minaatanları işə saldı. Lap yaxınlıqda partlayan mərminin qəlpələri ətrafa səpələndi. Yanaşı uzanan Cavanşirlə İlham ətrafda baş verənləri çək-çevir

etməyə macal tapmadılar: ağır qəlpə yarasından hər ikisi huşunu itirdi.

Mahirə yardım edən Diləfruz onu köməkçisinə tapşırıb Cavanşirə yaxınlaşdı. Yaralının nəbzini tutdu. Onun yaralarını bağlayıb qurtarınca İlhamın tərpəndiyini gördü...

Ermənilər özlərinə gəlib yenidən hücuma keçəndə artıq yaralılar təhlükəsiz yerə götürülmüş, əsgərlərimiz əvvəlki mövqelərində möhkəmlənmişdilər...

Ertəsi gün yalnız Xıdırlı deyil, xəbər tutan bütün kəndlər də ayaq üstə idi: qəbiristanlığa gedən yol adamla dolu idi. El ilk şəhid əsgərini son mənzilə yola salırdı. Yol boyu quran ayəsini avazla oxuyan mollanın səsi hüznlə addımlayan əhalinin ürəyinə bir rahatlıq verirdi. Bu an onların qəlbindən nə keçirdi, demək çətin idi. Diləfruz isə hiss edirdi ki, ayaqları torpaqda olsa da, ruhu göylərdədir. Bu da qəbiristanlıq. Birdən Diləfruza elə gəldi ki, sıra ilə düzülmüş başdaşıları yavaş-yavaş hərəkətə gəldi, qəbir daşlarının üzərindən boylanan şəkillərin göz qapaqları qalxıb-endi və yeni zəvvara:

– Xoş gəldin! – dedi.

* * *

Neçə gün idi ki, ermənilər Sırxavənd, Qaralar və Əliağalı kəndlərinə “Alazan” raketləri, top mərmiləri yağdırır, evlər, yardımçı tikililər bir-birinin ardınca dağıdılırdı. Evlərini tərk etməyən dinc əhalinin arasında yaralananların sayı getdikcə çoxalırdı. Bir neçə kəndin tamamilə boşalma təhlükəsi böyük narahatlıq doğuranda Şirin Mirzəyev yenə təmkinli davrandı. O, ürəyində çox götür-qoy etdi, düşmənin atəş nöqtələrini susdurmaq üçün yollar aradı. Silah-sursatın azlığı komandiri qəti hərəkətə keçməyə vadar etdi. Həmişə olduğu kimi yenə üzünü çətin günlərdə güvəndiyi kəşfiyyatçılara tutdu:

– Düşmənin canlı qüvvəsini, silah anbarlarının saxlandığı yerləri öyrənmək lazımdır. Yoxsa, - polkovnik bir qədər susub əlavə etdi, - düşmən qarşısında dayanmaq çox çətin olacaq.

O, əlini Çingizin çiyninə qoydu:

– Buraları sən hamıdan yaxşı tanıyırsan, amma ehtiyatlı olun. Unutmayın ki, bu gün gətirəcəyiniz məlumatın dəyəri ölçüyə gəlməz.

Onun təmkini əsgərlərinə də sirayət etdi. Əlini gicgahına aparan Çingiz əsgər salamı verərək:

– Tapşırığa əməl etmək üçün heyət tam hazırdır, yoldaş komandir, – dedi və dabanı üstündə fırlanıb qapıdan çıxdı. Bir neçə dəqiqədən sonra Diləfruzun da daxıl olduğu beş nəfərlik dəstə yola düşdü. İstiqamət Fərrux dağına idi...

Xaçının sahilindəki kollar yarpaqlarını töksə də, çay boyunca sıra ilə addımlayan dəstəni gizlədə bilirdi. Səhərin ayazı kəşfiyyatçıların üzünü yalayırdı, ancaq onlar soyuğu sanki hiss etmirdilər, çünki hamının bir istəyi vardı: lazım olan məlumatları vaxtında əldə etmək. Xaçınstroy çoxdan arxada qalmışdı. İndi onlarla yol yoldaşı Xaçının həzin zümzüməsi idi. Dupduru su çınqıl daşlarının arasında burulduqca əsəb sakitləşdirən şırıltı yolçuları bu gözəllikdən zövq almağa səsləyirdi. Diləfruz arabir bu gözəlliyə dalsa da, yoldaşları ilə yanaşı addımlayır, çiynindən asdığı tibb çantasının ağırlığını belə hiss etmirdi. Xaçındərbəndə çatanda Çingiz ayaq saxladı. Təpələrin arxasında yerləşən kəndlərinə tərəf uzanan yola baxdı. Hissə qapılmasa da, sonuncu dəfə anası, yaxınları ilə görüşməsini xatırladı. Onun dayandığını görən Şirvani astadan soruşdu:

– Yolu dəyişirikmi?

Çingiz başını buladı, əli ilə arxasınca gəlməyi işarə edib yoluna davam etdi. Heç biri danışmırdı. Bütün məsələlər əvvəldən müzakirə olunduğu üçün danışılası bir söz də yox idi. Uzaqdan Cinli kəndinin baş ucundakı təkəm-seyrək evlər görünəndə kəşfiyyatçıların getdikləri yol bir qədər də uzandı. Onlar dolama yollarla el arasında Selov adlandırılan çökəkliyə çatdılar. Fərrux dağına buradan qalxmaq daha təhlükəsiz idi. Böyük bir ərazini bürüyən qamışlıq da kəşfiyyatçıların işinə yarayırdı. Hava qaralana qədər buradan keçib daldalanmaq lazım idi. Çin-

gizin üzündə indiyə qədər görünməyən bir qayğı vardı. Hamı üstündəki silahları yoxladı; hər şey qaydasında idi, üzüyuxarı qalxmaq olardı. Çingiz gözlənilmədən üzünü Diləfruza çevirdi:

– Bəlkə, bizi burada gözləyəsən? Ora qalxmaq çox təhlükəlidir.

Eşitdiyi sözlərə inanmayan Diləfruzu elə bil cərəyan vurdu:

– Təhlükədən qorxan evində yatar, mən aciz deyiləm.

Cingiz də fikrindən dönmək istəmədi, israrla dedi:

– Gəlişimizdən düşmən xəbər tutsa, biz heç, sənin əsir getməyini özümüzə bağışlamarıq.

Digər kəşfiyyatçılar da onun sözlərini təsdiqləyəndə Diləfruz sözünü qəti şəkildə bitirdi:

– Bu, birinci səfərimiz deyil ha. Heç vaxt qorxmamışam. Əgər əsir düşsəm, məni vurun.

Bu qətiyyətli cavabdan sonra hamı susdu. Üzüyuxarı qalxan dəstə divarları uzaqdan ağaran tikili görünəndə vaxtı itirmədən tayaların arasından keçdi və fermaya yaxın ot tayasında gizləndi. Fermanın həyətində üç-dörd erməni əsgəri qızınmaq üçün tonqalın ətrafına toplaşmışdı. Arada onlardan biri fermanın ətrafını dolanır, sakitliyə əmin olandan sonra geri qayıdırdı. Bir azdan alatoran yerini zülmət qaranlığa verdi. İndi fermanın həyətindəkiləri daha rahat müşahidə etmək mümkün idi. Lakin birdən-birə hər tərəf işıqlandı. Projektorun işığı ani olaraq tayada gizlənənlərin gözünü qamaşdırıb yönünü dəyişdi. Şirvani pıçıldadı:

– Bu heç yaxşı olmadı.

Həmişə soyuqqanlı davranan Rafiq:

– Allah kərimdir, – deyib Diləfruzun üzünə baxdı. Bu baxışlardakı qınaq sanki dil açdı: “ Axı niyə sözümüzə qulaq asmadın?” O, silahdaşının diqqətlə irəli baxdığını görəndə həmin istiqamətə boylandı. Qara dərili muzdlular, fermanın həyətinə daxil olan maşınlardan enib gətirdikləri iri qutuları içəri daşımağa başladılar. Çox keçmədən ikinci hərbi maşın da gəldi. Heyrətini gizlədə bilməyən Həsən dilləndi:

– Bu qədər silahı onlar haradan gətirirlər, görəsən?

– Haradan? – Çingiz istehza ilə gülümsündü, - Haradan gətirəcəklər? Ruslar verir.

Getmək vaxtı idi. Projektorun işığından yayınmaq üçün pələng çevikliyi tələb olunurdu. Çingiz hamıdan əvvəl yerindən qalxıb tayanın arxa tərəfinə keçdi. Şirvani ilə Diləfruzun cəhdi də uğurla nəticələndi. Həsənlə Rafiq yerlərindən tərpənəndə projektorun işığı düz tayanın üstünə düşdü. Ot tayasındakı tərpənişi görən ermənilərdən biri əli ilə tayanı göstərib:

– Turk! Turk! – deyə bağırdı.

Projektorun işığı yönünü dəyişsə də, sonuncu kəşfiyyatçıları görən ermənilər atəş açmadan dəstə ilə tayaya tərəf yüyürdülər. Məqsədləri aydın idi: kəşfiyyatçıları əsir almaq istəyirdilər. Bunu başa düşən Rafiq dayandı, əvvəlcədən əlində hazır saxladığı qumbaranı qarşı tərəfə atıb yerə uzandı. Digər kəşfiyyatçıların bir-birinin ardınca atdığı qumbaralar düşməni yerə yatmağa məcbur etdi. Vaxtı itirmək olmazdı. Üzüaşağı qaçmaq işi asanlaşdırsa da, sürüşməmək üçün ehtiyatla hərəkət etmək lazım idi. Səs-küydən bəlli idi ki, düşmən o qədər də uzaqda deyil. Çingiz yoldaşlarının üzünə baxaraq dedi:

– Çətini qamışlığa çatıncadır, ondan sonra gəlməyə ürək eləməzlər.

Qamışlığa çatanda hamı dərindən nəfəs aldı. İçərilərə doğru hərəkət etdikcə qamışlar daha da sıxlaşır, yerimək çətinləşirdi. Ermənilərin səsi kəsilmişdi. Həsən:

– Deyəsən, getdilər, – deyib oturmaq istəyəndə Diləfruz astadan pıçıldadı:

– O qədər də arxayın olma.

Çartıltı səsi gecənin səssizliyini pozanda acı tüstü kəşfiyyatçıların burnunu giçişdirdi: qamışlıq yanırdı.

Çingiz onları tələsdirdi:

– Buradan tez çıxmalıyıq. Düşmənin işini bilmək olmaz, yəqin ki, pusquya yatıb çıxmağımızı gözləyəcəklər. Hər şeyə hazır olun. Əgər Selova çatsaq, bizə ölüm yoxdur.

Tüstü getdikcə qatılaşır, nəfəs almaq çətinləşirdi. Kəşfiyyatçıların hələ də qamışlıqdan çıxmadığını görən ermənilərdən biri:

– Ara, türklərin məsəli var, tüstüdə, – o, qəh-qəhə ilə güldü, sözünün davamını gətirmək istəyirdi ki, tapançadan açılan atəşdən səndələdi, üzüqoylu yerə sərildi. İkinci erməni canının hayına qalıb başını gizlədəndə Həsən ona tərəf bir neçə güllə atdı və məzə ilə:

– Ayə, erməni tülküsü, qurd qarşısı kəsiləndə tülkünün dərisini boğazından belə çıxarır, – deyib əlini seyrək saçlarına çəkdi. Digər ermənilər çatana qədər dəstə qamışlıqdan çıxdı, dayanmadan yağış sularının oyduğu yerə çatmağa tələsdi. Arxalarınca atılan güllələr onlara çatmadı...

* * *

Şirin Mirzəyev pəncərənin qarşısında dayanıb Xaçınstroydan xeyli aralı uca dağlara baxırdı. Üzündəki ciddi ifadə onun vacib bir məsələ barəsində düşündüyündən xəbər verirdi. Köməkçisi bölmə komandirlərinin gəldiyini bildirəndə o, pəncərədən ayrıldı. Komandirlər yerlərini tutandan sonra hamının diqqəti stolun üstünə sərilən xəritəyə yönəldi. Polkovnik əlindəki çubuqla xəritədə işarələdiyi nöqtəni göstərəndə bölmə komandiri Nağı təlaşla onun üzünə baxdı, gözünü xəritədən çəkmədən astadan dedi:

– Çullu çökəklikdədir. Sol tərəfi Xramord, sağ tərəfi Fərruxdur. İki düşmən məntəqəsi arasından hücum çox təhlükəlidir. Asanlıqla tələyə düşərik. Əvvəldən duyuq düşməsələr də, xəbər tutan kimi Xramordda yerləşən birləşmələr bizi arxadan vuracaqlar.

Şirin Mirzəyev gözünü xəritədən çəkmədən cavab verdi:

– Ən əlverişli yer elə buradır. Aldığımız məlumata görə, düşmən bizi Çullu tərəfdən deyil, başqa istiqamətdən qarşılamağa hazırlaşır. Həmləmiz qəfil və amansız olacaq. Onları gözləmədikləri səmtdən vuracağıq. Bütün hazırlıqları tamamla-

yın. Xaçındərbənd, Sırxavənd, Cinli, Əliağalı, Qiyaslı, Kəngərli və Bağmanlar bölmələri cinahlardan hərəkətə keçəcəklər. Əsas qüvvəmiz mərkəzdə toplaşacaq, mən orada olacağam. Kənd üç istiqamətdən mühasirəyə alınacaq. Dinc əhalinin təhlükəsizliyi təmin olunacaq, getmək istəyənlərin kəndi tərk etməsi üçün bir tərəf açıq saxlanacaq. Unutmayın ki, bizim davamız erməni yaraqlıları və muzdlularladır.

Polkovnik sözünü bitirib döyüşçülərə baxdı. Simasından, duruşundan təmkin, məğrurluq yağan silahdaşları ilə daxilən qürrələndi, amma bunu büruzə vermədi. Hərbin dəmir qanunlarının daha da sərtləşdirdiyi komandir son sözünü qələbə əzmi ilə dedi:

– Sabah Fərruxda da, Çınqıl talasında da Azərbaycan bayrağı dalğalanacaq...

* * *

Çullu kəndinin təpələrini geridə qoyduqdan sonra şumlanmış əkin sahələrindən keçib üzüyuxarı qalxan əsgərlər heç bir maneəyə rast gəlmədən meşəyə daxil oldular və onlardan bir qədər irəlidə gedən kəşfiyyatçılardan xəbər gözlədilər.

Kəşfiyyatçıların komandiri Əkbər müəllim döyüşçülərinə son təlimatı verdi:

– Erməni postlarının yerini əvvəldən öyrənmişik. Hər birində üç, ya da dörd keşikçi var. Gedəcəyimiz istiqamətdə beş erməni məntəqəsi yerləşir. Postlar silah işlətmədən ələ keçiriləcək, ehtiyatlı olun. Düşünülməmiş hər addım bizim ziyanımızadır...

Bir-birindən xeyli aralı postları zərərsizləşdirmək üçün Rey, Sənan, Rafiq, Həsən və Çingizin daxil olduğu beş dəstə yola düşəndə döyüşə Qalayçılar kəndindən qoşulan Əkbər müəllim üzünü komandirə tutub xahiş etdi:

– Məni də oğlumla göndərin.

Komandir mülayimliklə:

– Qabaqda bizi ağır döyüş gözləyir, adaşım, – deyəndə isə o, oğlunun yanında dayanaraq israr etdi:

– Olsun, mən Sənandan bir addım kənarda qala bilmərəm. Komandir razılıqla başını tərpədib gülümsündü:

– Allah köməyimiz olsun. Haydı, igidlərim, getdik!

Hər səsə qulaq verən kəşfiyyatçılar öhdələrinə düşən vəzifəni yerinə yetirmək üçün ağacların arası ilə səssizcə irəlilədilər. Sənanın beş nəfərlik dəstəsi posta çatmamış sərxoş vəziyyətdə zümzümə edən ermənінin onlara tərəf gədiyini gördü. Kəşfiyyatçılar səslərini içlərinə çəkib keşikçinin uzaqlaşmasını gözlədilər. Amma, deyəsən, keşikçinin geri qayıtmaq fikri yox idi: heç nədən çəkinmədən düz onların üstünə gəlirdi. Sənan dişlərini bir-birinə sıxdı, pıçıltı ilə:

– Hə, səni əcəl öz xoşunla bizə tərəf gətirir, – dedi.

O, digər kəşfiyyatçılara işarə ilə sakit dayanmağı tapşırıb döyüş bıçağını  hazır tutdu. Əkbər müəllim əlini oğlunun kürəyində gəzdirdi. Sənan minnətdarlıqla atasına baxdı. Elə bu vaxt ermənicə:

– Nikol, uzağa getmə, – deyən digər keşikçinin səsi eşidildi.

Nikol arxayınca:

– Narahat olma, indi qayıdıram, – deyib əlindəki yarımçıq butulkanı dodaqlarına söykədi, kəşfiyyatçılara tərəf bir neçə addım da atıb dayandı, arxayın-arxayın aşağı əyildi, əlini gəzdirib yerdən nə isə götürdü, ayağa qalxmaq istəyəndə yenidən səndələdi, birtəhər qamətini düzəltdi. Geri dönəndə Sənanla göz-gözə gəldi. Əlindəki daşı onun başına endirməyə cəhd etdi, amma Sənan aman vermədən onun üstünə atıldı və bıçağı ürəyinə sapladı. Postdan səs-səmir gəlmirdi: ermənilərin başı yeyib-içməyə bərk qarışmışdı. Sənangil posta daha da yaxınlaşdılar. Səslərdən məlum oldu ki, məntəqədə iki nəfər var. Hənirtini hiss edən ermənilərdən biri:

– Nikol, türk başı əzməyə daş tapdınmı? – soruşanda qarşısında Sənanı gördü. Sərxoş olsa da, heyrətdən donub qaldı. Nisbətən ayıq erməni isə silaha əl atmağa macal tapmadı...

Dörd postun təmizlənməsinə dair məlumat radiocihaz vasitəsilə əsas qüvvələrə ötürüldü. Beşinci – sonuncu posta tərəf

gedənlərdən isə hələ də xəbər yox idi. Kəşfiyyatçıların komandiri Əkbər müəllim on nəfər döyüşçü ilə Çınqıl talasına doğru yollandı. Fərruxdan xeyli yüksəkdə yerləşən bu ərazi meşənin ortasında idi. İrəvandan gələn muzdlular həmin talada məskən salmışdılar. Çınqıla qalxan yolun üstündəki düşmən postu dağıdılmışdı, amma nə Rey, nə Vəkil, nə Azad, nə də Xaliqdən bir iz var idi. Komandir səssizcə onları axtarmaq barədə göstəriş verdi. Əsgərlər iki-bir, üç-bir üzüyuxarı hərəkət etdilər. Ağacların arası ilə irəliləmək çox çətin idi. Talaya çatmağa az qalmış Tofiq dayandı, qabağa keçmək istəyən Abbasın qolundan çəkdi. Ətrafı dinşəyib əlini ağzına tutdu, qaban xorultusuna bənzər səs çıxardı. İkinci səsdən sonra ağacların arasında hərəkət başladı. Gələnlər döyüş işarəsini gözləyən Rey və digər kəşfiyyatçılar idi...

* * *

Üç tərəfdən mühasirəyə alınan Fərrux kəndinin küçələri bomboş idi: kimsə gözə dəymirdi. Diləfruz kürəyini iri palıd ağacının gövdəsinə söykəyən Eyvazın yanında oturmuşdu. O, qardaşının narahatlığını nigaran baxışlarından hiss edirdi. Özündən yaşca xeyli kiçik Eyvazı bacı məhəbbəti ilə süzən Diləfruz gülümsündü, elə bil bu təbəssümü ilə onu nigarançılıqdan qurtarmaq istədi:

– Allah kərimdir, qardaş, – dedi, – özünü qoru, anamızın gözü yoldadır.

Eyvaz da gülümsündü, razılıqla göz qapaqlarını endirdi. Diləfruzun böyründə gəzdirdiyi iri tibb çantasına, əlindəki silaha baxıb dərindən köks ötürdü. Bu ahdan Diləfruz çox şey oxudu.

Səhərin açılmasına xeyli qalırdı. Soyuq hava, deyəsən, hamını daldalanmağa məcbur etmişdi. Ağacların əhatəsində salınmış kənd özü bir səngəri xatırladırdı. Onu almaq üçün həm böyük iradə, həm də səriştə lazım idi. Şirin Mirzəyevin tapşırığına əsasən, pusquda dayanan əsgərlər döyüş əmrini səbirsizliklə gözləyirdilər. Mərkəzdən açılan atəş döyüş siqnalı olacaqdı. Dəqiqələr bir-birini əvəz edirdi. Nəhayət, səhərin alatora-

nında lap yaxınlıqdakı evin həyətində çiyni avtomatlı muzdlu zənci göründü. O, ətrafa baxa-baxa kimi isə səslədi. İkinci muzdlu görünəndə məlum oldu ki, muzdlular və erməni silahlıları evlərdə məskunlaşıblar. Bayaqdan silahını hazır saxlayan Maarif komandirin üzünə baxdı. Şirin Mirzəyev işarə verən kimi o, muzdlulardan birini vurdu. Digər muzdlu yerə yatıb dalbadal atəş açsa da, Maarifin gülləsindən yayına bilmədi. Dolu kimi yağdırılan güllə erməni döyüşçülərini və muzdluları tamam çaşdırdı. Düşmən özünə gələnə kimi mərkəzdən hücum edən əsas qüvvə kəndin girəcəyini ələ keçirdi. İtirdikləri ilə barışmaq istəməyən ermənilər əl qumbaralarından istifadə edərək bir qədər irəliləməyə nail oldular. İndi əks tərəfləri bir-birindən qısa bir məsafə ayırırdı. Düşmən səngərindən bir-birinin ardınca atılan qumbaralar lap yaxın məsafələrə düşür, göz açmağa imkan vermirdi. Hiss olunurdu ki, döyüşən peşəkar muzdlulardır. Sursat azlığından Mirzəyevin əsgərləri bu ölüm-dirim savaşında da silaha qənaət etməli idilər. Deyəsən, düşmənlər də bunu yaxşı bilirdilər. Onlar gizləndikləri yerdən çıxıb atəş açaaça irəli cumdular. Diləfruz lap qabaqda gələn zəncini görəndə vahimələndi, dönüb Eyvaza baxdı. Onun simasında qorxudan əsər görməyəndə sakitləşdi. İnilti səsi eşidəndə ətrafa boylandı. Döyüşdən əvvəl qısaca söhbət etdiyi gənc qan içində çabalayırdı. Diləfruz onun yanına süründü, yarası çox ağır idi, sağ qalmağına güman yox idi. Son dəqiqələrini rahat yaşamaq üçün o, əsgərin yarasını sarıyıb ağrıkəsici iynə vurdu. Iynənin təsirindən ağrıları qismən azalan əsgər təbəssüm dolu gözlərlə ona baxıb kəsik-kəsik:

– Doktor, çox sağ olun, – dedi, – bilirəm, yaram ağırdır. Şəhid olsam, məni burada qoymayın, anamın gözləri yolda qalmasın.

Diləfruz onun danışmağına mane olmadı, son nəfəsini verən əsgərin gözlərini qapadı, dodaqlarında donan təbəssümü görüb ucadan bağırmaq istədi, amma qulağının dibində vıyıldayan güllədən səksəndi. Bir qədər aralıda onu nişan alan zəncinin ağaran

dişlərini görəndə özünü itirmədi, yerə yatıb silahını götürdü, zənciyə tərəf bir neçə güllə atıb yerini dəyişdi. Növbəti yaralının yanına tələsdi. Qumbara qəlpəsi qarnını parçalayan əsgər əlləri ilə yarasını tutmuşdu. Barmağındakı nişan üzüyü qana bələnmişdi. Onun imdad dolu baxışları sanki dil açıb:

– Məni ölməyə qoyma, nişanlım var, – deyirdi. Diləfruz yarasını sarıyıb onu qismən təhlükəsiz yerə sürüdü, yenidən döyüş bölgəsinə qayıtdı. Nigaran baxışlarla döyüş meydanını süzdü: Eyvaz gözə dəymirdi. Döyüş getdikcə qızışırdı, lakin düşmənin əsas qüvvəsini öz komandasının üzərinə çəkən Şirin Mirzəyev çox soyuqqanlı davranır, sanki nə yaralanan, nə də şəhid olan əsgərləri görürdü. Cinahlarda yerləşən taqımların susması bəzi əsgərləri təlaşa salsa da, polkovnik təmkinini pozmur, güllə yağışı altında bütün döyüşçülərə göstəriş verir, irəli gələn düşməni aramla qurğuşuna qonaq edirdi. Yarası yüngül olan hər bir əsgər tibbi yardım alan kimi yenidən yerinə qayıdırdı. Qolundan yaralanan qardaşını görəndə Diləfruz təlaşla ona tərəf süründü. Sarğı paketini çıxarıb yaranı bağlamaq istədi, bu zaman yaxınlıqda bir qumbara partladı. Qolunun ağrısını unudan Eyvaz bacısını sinəsinə sıxdı. Xoşbəxtlikdən qəlpələr onların başı üstündən uçub ətrafa yayıldı. Diləfruz qardaş məhəbbətindən mütəəssir olsa da, döyüşün əsas şərtlərindən sayılan soyuqqanlılıqla yaranı sarıdı:

– Ehtiyatlı ol, – deyib digər tərəfə yollandı. Düşmən, deyəsən, onu görmüşdü, başının üstündən uçuşan güllələr hərəkətinə tez-tez mane olurdu. Diləfruz isə yolundan qalmadı. Sinəsi parçalanmış əsgərə gözü sataşanda ani olaraq dayandı, qulaqlarında döyüşdən əvvəl gülə-gülə dediyi sözlər cingildədi:

– Evin tək oğluyam. Buradan qayıdan kimi anamın arzusun yerinə yetirəcəm. Toyuma indidən hamınızı dəvət edirəm.

Onun iri qara gözləri sonsuzluğa dikilmişdi. Diləfruzun ürəyinin başı göynədi, dünyası qaralan bu qara gözlərə baxa bilmədi, qanlı barmaqlarını toxunduran kimi gözlər öz-özünə qapandı.

– Bacı, kömək et, – çağırışı onu ayıltdı. İri gözlərinə dolan yaşı qolu ilə silib yaralının yanına süründü. Dizindən aldığı yaradan sümükləri ovxarlanan gəncə ürək-dirək verdi:

– Darıxma, bu dəqiqə ağrıların kəsəcək.

Diləfruz işini bitirib köməkçisini səslədi:

– Akif, bir az cəld tərpən, yaralını meydandan çıxar.

* * *

Çınqıl tərəfdən gələn xəbərlər də ürəkaçan deyildi. Muzdlularla qeyri-bərabər döyüşdə Rey, Abbas və Tofiq qəlpə yarası almış, Xaliq, Azad, Vəkil ağır yaralanmıdılar. Lakin kəşfiyyatçılar tutduqları səngərlərdə möhkəm dayanmışdılar...

Tezliklə özünə gələn düşmən lap quduzlaşdı. Necə olursa-olsun, irəliləmək, əvvəlki mövqeləri geri qaytarmaq üçün bütün qüvvə ilə hücuma keçdi. Düşmən pulemyotları işə düşəndə Diləfruza elə gəldi ki, atəş səsləri getdikcə azalır. Artıq bu, sondur. Bir azdan hər şey bitəcək. O, birdən-birə hövülləndi, ağrıdan dişlərini qıcayan yaralı əsgərin silahını götürüb ayaq üstə atəş açmağa başladı. Səndələyib xəndəyin içinə yuvarlananda elə bildi ki, yaralanıb, amma nədənsə ağrı yoxdur. Qalxıb xəndəyin içində oturdu, ürəyinin döyüntülərinin artdığını hiss etdi. Bütün əzalarını yoxladı: salamat idi. Bəs nə üçün xəndəyə yıxılmışdı?

Yaralı əsgərin qınaq dolu səsini eşitdi:

– Ölmək istəyirsiz? Ölmək yox, döyüşmək lazımdır!

Yaşca özündən xeyli böyük olan əsgərin qınağından başa düşdü ki, düşmən gülləsinə tuş gəlməmək üçün onu son anda xəndəyə itələyən də bu döyüşçüdür. Diləfruz dinmədi, əyilə-əyilə bir neçə addım atandan sonra yenidən yerə yatıb sürünməyə başladı...

Sol cinahdan atılan qumbaralar düşməni çaşdırdı. Onlar bir qədər sağ tərəfə çəkilib qorunmağa çalışdılar, lakin sağ cinahdakı səngəri ələ keçirən əsgərlər də onları atəşlə qarşıladılar. Əl pulemyotları səslənəndə Maarif sevincək qışqırdı:

– Gözünə dönüm, Azər, vur, heç birini sağ buraxma, – o, geri çəkilən düşmənə tərəf ikrahla tüpürdü, – soysuzlar, – deyib böyründən asdığı qumbaralardan birini düşmənə tərəf tulladı. Ermənilər onlarla ölünü, meydanda qoyub sürətlə geri çəkiləndə Maarif heyrətini gizlədə bilmədi, qaçanların arxasınca qışqırdı:

– A qeyrətsizlər, heç olmasa, ölünüzə yiyə durun!

Diləfruzdan:

– Özünü boşuna yorma, ermənilər ölən analarına sahib çıxmırlar, bunları neynirlər? – cavabını eşidən Maarifin mavi gözləri qıyıldı, fikirli halda dedi:

– Bunlar necə məxluqdurlar?

– Elə gördüyün kimi. Bu dəqiqə erməniləri maraqlandıran fermadır, onu qorumağa çalışacaqlar.

– Fermanımı?

– Hə. Bütün silah-sursatları onun içindədir. Orada da ağır döyüşümüz olacaq...

Ermənilər, doğrudan da, silah-sursat anbarına çevirdikləri bu fermanı əldən vermək istəmədilər. Lakin üstünlüyü ələ alan Azərbaycan əsgərlərinin təzyiqi qarşısında duruş gətirə bilməyib Fərrux kəndini tamamilə tərk etdilər.

Çınqıl talasına sığınan muzdluların da sağ qalanları geri çəkildilər. Burada da Azərbaycan bayrağı dalğalananda kəşfiyyatçıların “ura!” səsləri meşədə əks-səda verdi...

* * *

Fərrux kəndinin küçələri bomboş idi. Əhali kəndi döyüşdən əvvəl tərk etmişdi. Küçələrdə sahibsiz itlərdən başqa, heç nə görünmürdü. Arıqlıqdan qabırğaları aydın seçilən bu itlər arabir zingildəyir, adam görən kimi quyruqlarını qısıb haraya isə qaçırdılar. Yanından keçdiyi qalın kolluqda tərpəniş hiss edən Fəqan qardaşı Xalıqverdiyə işarə ilə susmağı tapşırıb kolluğun arxa tərəfinə keçdi, çaxmağı şaqqıldadanda xortultu səsi eşidildi, qara bir donuz gizləndiyi yerdən çıxıb üzüyuxarı götürüldü. Donuzun qəfil qaçışından səksənən Fəqan qardaşının çağırışına

cavab olaraq dedi:

– Lənətə gəlmiş lap yiyələrinə oxşayıb. Dabanına tüpürüb gör necə qaçır?

Xalıqverdi onun sözlərini eşidib güldü:

– Başını əzsənə?

– Ona atacağım gülləyə heyifim gəlir.

Qardaşlar təcili yardım maşınının gəldiyini görüb yoldan kənara çıxdılar. Bayaqdan yaralılara ürək-dirək verən Diləfruzun üzündə təbəssüm yarandı:

– Bax maşınımız da gəldi. İndi yarası ən ağır olanlar arxaya göndəriləcək.

Yaralılar yer-yerdən dilləndilər:

– Allah köməyiniz olsun.

– Bu nə sözdür, bacı, əlbət ki, əvvəlcə yarası ağır olanlar getməlidir.

– Biz nəinki gözləyə, hətta döyüşə də bilərik.

Dağıstan maşını düz yaralıların yanında saxladı. Ağır yaralılar mindiriləndən sonra maşın kəndarası yolla şütüyüb Cinli kəndinə tərəf istiqamət götürdü. Onlar Ağdama çatanda hava qaralmışdı. Diləfruz yaralıları şəhər xəstəxanasına yerləşdirib geri qayıtdı. Üzü örtülü altı şəhidi maşına qoyanda hiss etdi ki, yanaqları islanıb. O, göz yaşlarını kimsə görməsin deyə şəhidlərin üzünü örtmək bəhanəsilə bir qədər ləngidi. Bir neçə dəqiqədən sonra təcili yardım maşını şəhidlərin cənazəsini sahiblərinə çatdırmaq üçün ləngər vura-vura Fərruxu tərk etdi...

* * *

Fərruxun alındığını eşidən Cinli kəndinin əhalisi köməyə gəldiyi üçün yaralıları arxaya aparmaq asanlaşdı. Fərrux kimi bir yüksəkliyi az itki ilə azad etsələr də, Şirin Mirzəyevin bayaqkı nəşəsi tamamilə çəkilmişdi. Baş ştabdan ermənilərin hərbi texnika ilə hücuma keçəcəyi barədə məlumat gəlmişdi. O, ermənilərdən qənimət alınmış maşınları göstərərək Səyavuşa tapşırdı:

– I və II bölmənin əsgərlərini fermada saxlanan silah-sursatı maşınlara yükləmək üçün səfərbər edin.

Səyavuş:

– Baş üstə, – deyib əsgərlərin yanına döndü. Fermanın içindəki qutuları, yeşikləri daşıdıqca sevincini gizlədə bilməyərək üzünü Telmana tutdu:

– Bax buna varam. İndi ermənininin atasını yandırmaq bizə borc olsun.

– Hə, qardaş, düz deyirsən. Bu gün xeyli qabağa düşdük. Top-topxanamız olmasa da, bu silahlar əlimizdən xeyli tutacaq.

Silahla dolu maşın karvanı Fərruxdan çıxanda gecə yarını keçmişdi. Bir tərəfdən yuxusuzluq, digər tərəfdən gündüz yaşanan həyəcan əsgərləri çox yormuşdu. Amma bir gün əvvəl bir süfrədə çörək kəsdikləri silahdaşlarının şəhid olması hamının gözündən yuxunu qovmuşdu. Polkovnik bunu onların dalğın baxışlarından hiss edirdi. Hamı çətin sınağın bir addımlıqda olduğunu, burada çox qala bilməyəcəklərini, tezliklə başlarına qarşıdakı yüksəkliklərdən od ələnəcəyini bütün varlığı ilə dərk edirdi. Amma bütün bunlara baxmayaraq, Fərruxu döyüşsüz təslim etməyi heç kim düşünmürdü.

Uzaqdan gələn gurultu səsi gecənin səssizliyini pozanda Şirin Mirzəyev döyüşün bu qədər tez başlayacağına qətiyyən təəccüblənmədi. O, ermənilərin qarşısını kəsməyə hazır olan onlarla könüllüyə  fəxrlə baxdı. Əl pulemyotlarını hazır vəziyyətə gətirən Həsən, Azər və Elmana bir-birindən xeyli aralı əlverişli yer seçməyi tapşırdı. Sonra üzünü minamyotçuların komandiri Şamilə tutdu:

– Sizdən arxayınam.

Şamil əsgərləri bir-bir süzdü:

– Hədəfi dəqiq nişan alın, amma...

Şamilin sözü tamamlanmamış döyüşdən əvvəl vəlvələ yaradan tanış fışıltı səsi eşidildi. Xoşbəxtlikdən mərmi səngərdən xeyli uzağa düşdü. İlk atəşdən sonra başlayan mərmi yağışı bir anda elə bil yerin altını üstünə çevirdi. Çovuyan qəlpələrdən

biri Səyavuşu yerə sərdi. İdris kişi onun sağ olduğunu görüb üz-gözünün qanını sildi, astadan dedi:

– Dayan, oğul. İndi həkim harada olsa, gələr.

Səyavuş danışa bilmədi, rəngi ağardı, nəfəs alması çətinləşdi. İdris kişi:

– Həkim, həkim! – deyə Diləfruzu haraylayanda polkovnik iki əsgərə yaralını meydandan çıxarmağı tapşırdı. O hiss etdi ki, ünvansız atılan bu mərmilər xof yaratmaq, Fərruxu döyüşsüz ələ keçirmək üçündür. Şirin Mirzəyev bir-birindən bir neçə metr aralı yerə uzanaraq düşməni gözləyən döyüşçülərə bir də nəzər saldı. Oğlu Vüqarla yanaşı uzanan İdris kişinin, Şiraslanın, Fərhadın, Dəli Həsənin, Allahverdi müəllimin üzündəki sakitlik onu bir qədər toxtatdı.

Bir azdan mərmi yağışı dayandı, lakin motor gurultusu daha da yaxınlaşdı. Şamil Maykl adı ilə çağırılan Bəxtiyarın səbirsizləndiyini görəndə dilləndi:

– Tələsmə, qoy bir az da yaxınlaşsınlar.

Maykl bir söz demədi, minaatanın yanında dayanıb səsin hansı məsafədən gəldiyini müəyyənləşdirməyə çalışdı. Gurultu səsi artsa da, nə tanklar, nə də digər zirehli texnika gözə dəyirdi. Sağ tərəfdən atılan mərmi Maykldan bir qədər aralı torpağa sancıldı. Gecə olduğu üçün kimin hansı istiqamətdən gəldiyini də müəyyən etmək çətin idi. Ön tərəfdən gələn düşmən piyadaları atəş açanda polkovnik mühasirə halqası daralmamış göstəriş verdi:

– Cinli istiqamətində geri çəkilirik!

Mühasirə təhlükəsi aradan qalxanda isə o, əldə olan bütün silahlardan atəş açmağı əmr etdi. Minaatanlardan, qumbaraatanlardan və pulemyotlardan açılan atəş düşmənin irəliləməsini bir qədər ləngitdi. Bütün batalyonun geri çəkilməsini təmin edən beş-altı nəfərlik dörd dəstə sağ-salamat gəlib əsas qüvvələrə qovuşanda döyüşçülər ağaclıqdan çıxıb şumlanmış sahələrə, yerdən azacıq qalxan taxıl zəmilərinə çatmışdılar. Fəxrəddini gələnlərin arasında görməyəndə polkovnikin qaşları çatıldı:

– Bəs Fəxrəddin hanı? – sualını eşidən Məmməd müəllim Telmanla Azərin üzünə baxdı. Allahverdi müəllim əllərini yanlara açdı:

– Axı bu necə olur? O, buraya bizdən əvvəl çatmalı idi.

Elə bu vaxt atəş səsləri yenidən gücləndi: döyüşən Fəxrəddin idi. O, yoldaşlarının geri çəkilməsini asanlaşdırmaq üçün biləəkdən geridə qalmış, düşmənin diqqətini öz üzərinə çəkmişdi.

– Biz onu tək qoya bilmərik, haydı uşaqlar, mənimlə gəlin,– deyə Allahverdi müəllim geri dönəndə digər yoldaşları da ona qoşuldular, lakin gördükləri mənzərədən sarsıldılar: gülləsi qurtaran Fəxrəddini ermənilər əsir almışdılar...

Kor-peşman geri dönən əsgərlər başlarını aşağı salıb susanda komandir hər şeyi anladı və hamının eşidəcəyi tərzdə dedi:

– Fəxrəddini onların əlindən qurtaracağıq.

İki gündən sonra verilən işgəncənin izləri üzündə açıq-aydın sezilən Fəxrəddini erməni əsirləri ilə dəyişəndə hamının kefi duruldu...

* * *

Fərrux əməliyyatından sonra ermənilər bir xeyli susdular. Dağlarda, dərələrdə silahlar əvəzinə gah quşların xoş cəh-cəhi, gah narın yağışın həzin zümzüməsi, gah da at nallarının tappıltısını xatırladan dolunun hay-harayı eşidildi. Biçənəklərdə qurşağa qalxan otların arasından boylanan dağ çiçəklərinin xoş ətri sərin mehə qarışaraq hər tərəfə yayıldı. Bir-birilə bəhsə girirmiş kimi dən tutan sünbüllər mehin ahənginə uyğun eyni zamanda başlarını gah sağa, gah da sola döndərərək sanki rəqs elədi.Günəşin parlaq şüalarını udduqca ağırlaşan sünbüllər get-gedə qızılı rəngə çaldı.

Nisbi sakitlik əsgərlərin dincəlməsinə imkan yaratsa da, sakitliyin tezliklə pozulacağı bəlli idi. Düşmən hökmən Fərruxun heyfini çıxmağa çalışacaqdı. Elə buna görə də günün ikinci yarısında Sırxavənddən gələn xəbərləri hamı təbii qəbul etdi. Düşmən uzaqvuran toplardan, minaatanlardan istifadə edərək

kəndi qorxu altında saxlayırdı. Onların ağır artilleriyası qarşısında Çullu ətrafındakı təpədə yerləşdirilən yeganə top dənizin ortasında nəhəng dalğalara sinə gərən tənha adanı xatırladırdı. Topçu Əzim bütün imkanlardan istifadə eləsə də, kəndləri qoruya bilmir, evlər boşaldıqca mənəvi sıxıntı onu daha çox əzirdi.

Yüksəkliklərə sahib olan düşmən indi də gözünü Sırxavəndə dikmişdi. Könüllülərdən ibarət dəstənin silah-sursatı həmişə olduğu kimi avtomatlardan və qumbaralardan ibarət idi. Düşmənin güclü həmləsindən sonra onlar birinci səngəri əldə saxlaya bilməyib geri çəkildilər, əlli-altmış metr arxada qazılmış ikinci səngərdə daldalandılar. Hamı bilirdi ki, buradan geriyə yol yoxdur. Bu səngəri necə olursa-olsun, qoruyub saxlamaq lazımdır. İslam onunla yanaşı dayanan İntizama tərəf döndü:

– Yaxşısanmı?

İntizam gülümsündü:

– Narahat olma, yaxşıyam.

Bayaqdan lal-dinməz dayanıb bir kəlmə söz danışmayan Bəhman nəzərlərini gah İnqilabın, gah Məzahirin, gah da Səmədin üzündə gəzdirdi. Sanki onların nə düşündüyünü gözlərindən oxumağa çalışdı, hamının simasında eyni ifadəni görəndə var gücü ilə bağırdı. Seymur onun qarşısına keçdi, sonra əli ilə çiyninə bir-iki dəfə yüngülcə vurdu:

– Bir az əsəblərini cilovla, – deyib başı ilə avtomatın darağını dolduran Nazimi, Yelmarı və Zahidi göstərdi, – sən də onlara qoşul, yüz fikir bir borcu ödəməz, qardaş. Müharibədir, hər şeyə dözməyi bacarmalıyıq.

Döyüşdən əvvəl Ələmdarın haradansa tapıb gətirdiyi su borusunun içini təmizləyən Həsən Bəhmanın kefini açmaq üçün Süleymana göz vuraraq soruşdu:

– Deyirəm, a Süleyman, görəsən, Nağı qağam bu boruynan ermənilərin başına nə qədər su əndərəjəh?

– Ayə, su nədi, boğazdarına qurğuşun tökəjək, desənə!

– Qurğuşunu hansı qazanda əridəjəh ki?

– Bax bunun içində, – Süleyman səngər qazarkən tapdığı

dəmir dəbilqəni göstərəndə Bəhmanın da dodaqları qaçdı.

Sırxavənd rotasının komandiri Nağı ermənilərin hücumu barədə Xaçınstroydakı hərbi hissədən kömək istəsə də, arxayınlaşmadı, düşmənə qarşı cəbhə boyu bütün qüvvələri səfərbər elədi, əvvəldən düşündüyü kimi süni top düzəltmək qərarını da dostlarına söylədi. Həsənin təmizlədiyi borunu Cəmillə Fərhad qocaman palıdın iri bir budağına bağlayıb içini barıt, metal qırıntıları və tez alışan parçalarla doldurdular. Ermənilər ilk gülləni atan kimi fitilə od vurdular. Boru partlayışın zərbəsindən ağacın budağını da sındırıb ermənilərin yenicə tutduğu səngərə yönəldi. Düşmənin çığır-bağırı hər tərəfi bürüdü. Bu qəribə silahın qopardığı tufan onları vahimələndirdi. Hücum etməyə çalışan düşmən səngərin içində gizləndi. Erməni ləhcəsində:

– Siz turklara, vallax, daxa sozum yoxdu, ama nə etsanız da, buralardan sizi qovacağıx, – deyən səsi eşidəndə Nağı mal alveri üçün tez-tez Sırxavəndə gələn Vartanı tanıdı. Qəzəbini cilovlamağa çalışsa da:

– Yavaş ye, boğazında qalar, – deyib avtomatı ona tərəf boşaltdı.

Səsini içinə çəkən Vartan bir azdan özünə gəldi. Başını səngərdən çıxarmadan onun əsəb oynadan :

– Nağı, patronu boşuna xarşdama, yerım çox rahatdı, o qullalar mana dəyməz, – sözləri Cəmili lap hövsələdən çıxardı. Kəmərindən asdığı yeganə qumbarasını onlara tərəf tulladı. Qulaqbatırıcı gurultu hər iki səngərdə dayananları yerə yatmağa məcbur etdi. Partlayışlar bir-birinin ardınca təkrarlananda Nağı hərbi hissənin köməyə çatdığını anladı. Düşmən təzyiqə davam gətirmədi, səngərdən çıxıb əvvəlki mövqelərinə tərəf çəkiləndə döyüş meydanında xeyli canlı qüvvə itirdi.

Gecəli-gündüzlü səngərdə düşmənlə üzbəüz dayanan Sırxavənd iğidlərinin üzündə yorğunluq vardı. Polkovnik Mirzəyev onları dincəlmək üçün arxaya göndərdi, özü isə batalyonun əsgərləri ilə birlikdə keşikdə dayandı. Hava alatoranlaşanda komandir, adəti üzrə, əsgərləri yoxlamaq üçün səngər boyu

irəlilədi. Döyüşçü Vüqara çatanda iki saat əvvəl kəşfiyyata göndərdiyi İdris kişi ilə söhbətini xatırladı:

– İdris kişi, bu yerlərə siz yaxşı bələdsiniz. Batalyona həmişə böyük köməyiniz dəyib. İndi də...

İdris kişi o dəqiqə əlini qaldırdı:

– Komandir, nə deyəcəyinizi bilirəm. Elə ona görə burada deyiləmmi? Narahat olmayın, iki saata düşmənin arxasındayam. Amma...

Onun müəmmalı danışığı polkovniki təəccübləndirdi: kəşfiyyata gedərkən İdris kişi heç vaxt duruxmamışdı. O, marağını gizlətmədən soruşdu:

– İdris kişi, amma nə deməkdir?

Quzu dərisindən olan papağını bir əlindən digərinə ötürən İdris kişi zorla gülümsəməyə çalışdı:

– Deyirəm ki, ay komandir, dünyanın işini bilmək olmaz. Şər deməsən, xeyir gəlməz. İşdir, mənə bir şey olsa, oğlum Vüqar sizə əmanətdir, gözünüz üstündə olsun.

– Allah qorusun bütün əsgərlərimizi, İdris kişi. Tezliklə qayıdacağınıza inanıram...

Komandir fikirdən ayrılıb saata baxdı və öz-özünə dedi:

– İdris kişi bu dəqiqə düşmən arxasındadır. Yəqin ki, iki-üç saata burada olar.

Polkovnik Diləfruzgilin olduğu yerə yön alanda döyüşün yenidən başlandığını bildirən ilk atəş açıldı. Hava tam qaralmadığı üçün erməni səngərini aydın görmək olurdu. Elman iri bir daşın böyründə özünə yer elədi, yoldaşlarına tərəf baxıb dedi:

– Vallah, indiyə kimi heç belə rahat səngərim olmamışdı.

Diləfruz ərklə dilləndi:

– Bəlkə, o daşın bir tərəfini də mən özümə səngər edim?

– Bacı, döyüş vaxtı həmişə məndən arxada dayan, qardaşın səni qoruyar, – sözlərini eşidəndə Diləfruz minnətdarlıq hissilə ucaboy, enlikürək döyüşçüyə baxdı:

– Sağ ol, Mircəfər, – deyib ayağa qalxdı, yerini dəyişmək istəyirdi ki, Muradxan iri bir daşın arxasında gizlənən erməni ni-

şançısının Diləfruzu hədəfə aldığını gördü:

– Ehtiyatlı ol, bacı – deyib qışqırdı və iri gövdəsi ilə onun qarşısını kəsdi. Hər şeydən xəbərsiz Diləfruz nə atəş səsini eşitdi, nə də ayaq üstdə dayanıb yerindən tərpənməyən Muradxanı anladı. Mircəfər Muradxanın kəmərindən tutub aşağı çəkdi:

– Bacı, buna bax, – deyib düşmənə tərəf bir neçə güllə atdı.

Muradxan yaralanmışdı. Bundan yalnız indi xəbər tutan Diləfruz yaranı sarıya-sarıya kövrəldi:

– Niyə özünü təhlükəyə atdın? Sənə nəsə olsaydı, mən özümü bağışlardımmı heç?

Muradxan ağır-ağır dilləndi:

– Bəs biz necə, özümüzü bağışlayardıqmı? Axı sən bizim bircə bacımızsan.

– Di yaxşı, köməkçim Akif gələnə qədər yerindən tərpənmə.

Diləfruz Muradxanın yerini tutdu. Bayaqdan adda-budda eşidilən atəş səsləri getdikcə artdı. Atışma güclənsə də, ermənilər hücuma cəsarət etmədilər. Çovuyan güllədən yaralananlara yardım edən Diləfruz yenidən öz yerinə qayıtdı, ucadan soruşdu:

– Salamatlıqdırmı?

– Salamatlıqdır, narahat olma, bacı.

– Deyəsən, sabaha qədər ermənilərlə gizlənqaç oynayacağıq. Amma neyləsələr də, məni tapa bilməyəcəklər, onları elə buradan biçəcəm, – deyib daşın arxasında gizlənən Elman yenidən avtomatını işə saldı. Şüşə cingiltisinə bənzər səs eşidiləndə Elman qışqırdı:

– Bacı, kömək elə.

Diləfruz onu daşın arxasına çəkdi. Elman üzünü tutmuşdu. Güllənin daşdan qopardığı qəlpə gözünə sancılmışdı. Diləfruz qəlpəni zorla çıxartdı. Yaranı bağlamaq üçün əlini çantaya atdı. Bütün sarğı paketləri bitmişdi. O, cəld köynəyinin qolunu kəsib yaranı sarıdı. Vurduğu iynənin də xeyri az olmadı: Elmanın ağrıları xeyli azaldı. Güllə yağmurunun altından Akif onu zorla çıxara bildi.

– Bacı, yerimizi dəyişməsək, düşmən burada bizim axırımı-

za çıxar. Elmanın arxalandığı daş, deyəsən, onlar üçün əsl nişangahdır, buradan çıxmalıyıq. Mən səni qoruyacağam, əvvəlcə sən çıx.

Mircəfər düşmənə tərəf aramsız atəş açmağa başladı. Diləfruz təhlükəsiz yerə çatan kimi Mircəfər də yerindən tərpəndi, lakin düşmən onu görmüşdü. Böyründə qəfil ağrı hiss edən Mircəfər yerə uzanıb bir müddət hərəkətsiz qaldı, Diləfruzun çağırışlarına da əhəmiyyət vermədi. Çantasındakı sarğı paketini yarasının üstünə basdı. Güllə səsləri digər istiqamətdə eşidiləndə sürünə-sürünə Diləfruzgilə tərəf gəldi. Mircəfərin yarası ağır idi: o, təcili arxaya köçürülməli idi...

Bir neçə saat davam edən atışma qəfildən dayandı. Yenə hər tərəfə sakitlik çökdü. Tez-tez canavarların ulartısına, çaqqalların bəkkiltisinə oyanan gecənin sükutu qulaq dəldi...

Təyin olunan vaxtdan xeyli keçməsinə baxmayaraq, nə İdris kişi, nə digər kəşfiyyatçılar geri qayıtmışdılar. Hər dəfə Vüqarın narahat baxışlarını görəndə polkovnik özünə təsəlli verir, “harada olsalar, gəlib çıxarlar” ümidi ilə dan yerinin sökülməsinə tamaşa edir, xoşagəlməz fikirləri başından qovmağa çalışırdı.

* * *

İdris kişi bu yerləri əlinin içi kimi tanıyırdı. Hər yal, hər yamac, hər aşırım ona o qədər doğma idi ki, qarlı qış gecələrində belə yola çıxmaqdan ehtiyat etmirdi. O, kəşfiyyatçılarla birlikdə dəfələrlə düşmən arxasına keçmiş, çox vacib bilgilərlə geri dönmüşdü. Bu bilgilər düşmənə qarşı döyüşməkdə batalyona xeyli kömək etmişdi. Amma bu dəfə kəşfiyyata gedəndə ürəyinə nəsə damdı. Vəsiyyət yüngüllükdür deyib oğlunu komandirə tapşırandan sonra içindəki təlatüm azaldı, rahatlıq tapdı. Düşmən mövqelərinə yaxınlaşanda məhəbbətlə gənc kəşfiyyatçıları: Sənanla Reyi bağrına basdı. Sözü bir dəfə deməyə adət etsə də, bu dəfə hər ikisinə ayrı-ayrılıqda xəbərdarlıq elədi:

– Özünüzü qoruyun, işiniz bitən kimi geri dönün, sizi burada gözdüyəjəm.

Kəşfiyyata tək gedən İdris kişinin bugünkü halı Reyə çox qəribə göründü:

– İdris dayı, narahat olmayın, biz işimizi bitirən kimi geri dönəcəyik, – o, Sənanla birlikdə Çıldırana gedən cığırla irəlilədi. Bir qədər uzaqlaşandan sonra Sənana tərəf döndü:

– Bu gün İdris dayıda qəribə hal vardı. Görəsən, nə olub?

Sənan gülümsündü:

– Nə olacaq ki... Həmişə kəşfiyyata tək gedirdi, bu gün isə bizimlədir. Yəqin ki, narahatlığı bizə görədir.

Onun sözlərindən sonra Rey dillənmədi...

İdris kişi tanış cığırlarla təpələrdən adlayaraq düşmənin arxasına keçdi. Təzə gətirilmiş “Qrad” qurğularını görəndə təlaşa düşdü:

– Vay-vay! Bunun biri elə bütün kəndlərimizə bəsdir.

O gördüklərinin sxemini çəkib cibinə qoydu. Havaya baxdı.

– Mən buradan uzaqlaşana qədər hava tamam qaralar.

İdris kişi tələsik gəldiyı yollarla geri qayıtdı. Üst tərəfdən çartıltı səsi eşidiləndə yarğanda daldalandı. Addım səsləri getdikcə yaxınlaşdı, amma yarğan qaranlıq olduğu üçün onu görmədilər. Təhlükə sovuşan kimi İdris kişi yarğandan çıxıb Sırxavəndə tərəf yol aldı. Küləkli anlarda yolçuların sığındığı daldanacağa çatanda nəfəsini dərmək üçün ertədən qalanmış ocağın yanındakı yastı çay daşının üstündə oturdu. Digər kəşfiyyatçılar hələ də gəlməmişdilər. O, yerdən bir çöp götürüb ocaqdakı külü qurdaladı. Küldən silkinən közlər işaranda İdris kişi çaxmaq şaqqıltısı eşitdi.

– Ara, sənin burada nə ölümün var bu gecə vaxtı?

Vartanın səsini tanıyan İdris kişi cəld ayağa durdu. Nisbətən cavan erməni irəli gəlib üst-başını axtarmaq istəyəndə onun boğazından yapışdı. Gənc erməni xırıldayanda Vartan avtomatdan atəş açdı. İdris kişinin barmaqları boşaldı, son dəfə gözlərini açmağa çalışsa da, göz qapaqları sözünə baxmadı, üzüqoylu ocağın qırağına düşdü. Dörd gözlə ətrafa boylanan Vartan yoldaşını dümsüklədi:

– Ara, bu, tək deyil. Başqaları gəlməmiş gərək qaçax, yoxsa başımıza nələr gələcəyini bir allax bilər.

– Nə bilirsən?

– Bir başını işlət də, kəşfiyyata bir nəfər gələrmi?

Onun dedikləri yalnız indi gənc erməniyə çatdı, kiminsə gəldiyini hiss edib tələm-tələsik Vartanın dalınca irəlilədi...

– Nə yaman sakitlikdir. Görüş yerinə az qalırıq, amma İdris kişidən, deyəsən, xəbər yoxdur.

İkinci kəşfiyyatçı etiraz etdi:

– Yaşlı olmasına baxma, o, çoxdan qayıdıb, bəlkə də, ehtiyat üçün səsini çıxartmır. Tini burulaq, özün görəcəksən ki, oturub bizi gözləyir.

– Təki sən deyən olsun, – kəşfiyyatçı addımlarını yeyinlətdi. Ocağın kənarında üzüqoylu yıxılan İdris kişini görəndə isə ona tərəf qaçdı. Başını dizləri üstdə alaraq bir neçə dəfə çağırdı:

– İdris dayı, İdris dayı!

Heç bir cavab almayanda qəhərləndi:

– Bağışla bizi, İdris dayı, səni qoruya bilmədik...

* * *

Səhərəyaxın Sırxavənd bölüyünün döyüşçüləri yerlərinə qayıtdılar. Erməni xislətinə yaxşı bələd olan polkovnik kəndi qorumaq üçün əlavə qüvvəyə ehtiyac olduğunu yaxşı bilirdi. Ona görə də üzünü əsgərlərinə tutdu:

– Kim könüllü Sırxavənd taqımına kömək etmək üçün burada qalmaq istəyir?

Bölmə komandiri Natiq bir addım irəli çıxdı:

– Mən!

Onun ardınca Qazax, Fateh, əl pulemyotunu balası kimi qucağında gəzdirən Həsən, Fəxrəddin, Ehtiram və digər döyüşçülər səngərdə qalmağa qərar verdilər. Polkovnik əlini köməkçisi Şirinin çiyninə qoydu:

– Uşaqlar əvvəlcə Allaha, sonra sənə əmanətdir, adaşım. Sayıq olun, bir düşməni də irəli buraxmayın. Sizinlə həmişə

əlaqə saxlanacaq, lazım olan hər şey göndəriləcək.

Şirin razılıqla başını tərpətdi. Əsgər salamı verib:

– Baş üstə, yoldaş polkovnik, – dedi və otuz nəfərlik dəstə yenidən səngərə, sırxavəndlilərin yanına qayıtdı....

Səhər açılanda hərbi hissənin əsgərləri Sırxavənddən Xaçınstroya yola düşdülər. Piyada gedən əsgərləri aparmaq üçün gələn "Kamaz" markalı maşın kəndin girəcəyində görünəndə döyüşçülər ayaq saxladılar. Lakin gözlənilmədən qopan dəhşətli gurultu hamını diksindirdi: maşın minaya düşmüşdü. Kimsə vaysındı:

– O maşından salamat çıxmaq olar? Yazıq Babaxan.

Kimsə əlini dizinə çırpdı:

– Allah, belə də zülm olar? İndi onun balalarına nə deyəcəyik? Görüm ermənінin tifaqı dağılsın.

Diləfruz deyilənlərə əhəmiyyət vermədən köməkçisi ilə maşına yaxınlaşdı. Hər iki ayağını itirsə də, Babaxan sağ idi. Onu kabinədən çıxarmaq üçün digər əsgərlər də köməyə gəldilər. Yaralını təcili yardım maşınına qoyan kimi Dağıstan sürəti artırdı. Diləfruz elə maşındaca huşunu itirmiş Babaxana yardım etdi, qanaxma dayananda bir qədər sakitləşdi:

– Ayaqları olmasa da, nəfəsi ailəsinə bəs edər.

Köməkçi onun sözlərini təsdiqlədi:

– Düz deyirsən, bacı, buna da şükür.

Diləfruzgil ağır yaralını şəhər xəstəxanasına yerləşdirib qayıdanda Sırxavənddən qayıdan əsgərlər də düşərgəyə çatdılar. Batalyonun yeganə zirehli maşını həyətə daxil oldu. Hamı yol vermək üçün kənara çəkildi. Maşın sürətini azaltsa da, yerində bir neçə dəfə dövrə vurub dayandı, amma sürücü Mirsiyaf maşından enmədi. Əsgərlər nə olduğunu anlayana qədər Diləfruz nəsə xoşagəlməz hadisənin baş verdiyini hiss etdi, cəld zirehli texnikaya yaxınlaşdı: Mirsiyafı sudurğa tutmuşdu. Əsgərlər onu cəld maşından çıxardılar, Rəngi boğulan Mirsiyafın dişləri kilidlənmişdi. Gecikmək olmazdı. Diləfruz ovurdlarından basaraq onun alt çənəsini açdı, qatlanan dilini zorla geri çəkdi.

Mirsiyafın xırıltısı azaldı. Bir neçə saniyə içərisində rəngi duruldu, nəfəs almağı normallaşdı. Gözünü açanda başının üstündə Diləfruzu gördü:

– Sağ ol, bacı, sən olmasa idin...

O susdu. Diləfruz kövrələn gəncə toxtaqlıq verdi:

– Narahat olma, hər şey keçdi...

* * *

Arada qısamüddətli atışmalar olsa da, qarşı səngərin ayıq-sayıqlığını görən düşmən irəliləməyə cəhd eləmədi. Bu sakitlikdən darıxan Qazax bəyaz gecənin sehrinə dalsa da, gözünü buludların arxasında daldalanmağa çalışan Aydan çəkməyərək Fatehə müraciətlə dedi:

– Vallah, deyəsən, əməlli-başlı istirahətə gəlmişik. Neçə gündür, gülləmizə bir erməni də tuş gəlməyib.

– Niyə narahat olursan? Alnına döyüş yazılanların son məkanı elə səngərlərdir: ya qazi, ya da şəhid olur.

Dostundan bu sözləri eşidəndə Qazaxın gözləri yenidən yol çəkdi:

– Şəhidlik ali məqamdır, ora yüksəlməyi bacaranlar çox xoşbəxtdir.

İki dostun asta danışığı Həsəni yerindən tərpətdi:

– Qarabağdan düşmən ləpirini kəsmədən ölmək nə deməkdir? Əvvəl torpağımızı qurtaraq, sonrası Allahın işidir. Nə qədər ki bu torpaqda erməni nəfəsi var, mənim ölmək fikrim yoxdur.

Fəxrəddin gülə-gülə səsini ucaldan Həsənə tərəf döndü:

– İnşallah, ay Həsən!

Tükürpədici vıyıltı onun sözünü eşitməyə imkan vermədi. Çıldıran istiqamətindən atlan mərmilər yenidən Sırxavəndi hədəfə aldı. Alazan raketləri kəndə dolu kimi yağarkən bir-birindən aralı yerləşən gözətçi məntəqəsindəki keşikçilər güllə yağışı ilə qarşılaşdılar. Komandir Natiq arxa ilə əlaqə saxlamaq üçün birinci posta tərəf yönələndə səngərə düşən minadan postda dayanan altı əsgər son nəfəsini verdi. Radiocihaz da sı-

radan çıxdı: hərbi hissəni köməyə çağırmaq mümkün olmadı. Kənd atəşə tutulduğu üçün dincəlməyə gedən könüllülərin vaxtında çatacağına da ümid yox idi. Komandir bütün ağırlığı ilə bunu dərk etsə də, əsgərlərinə əmr etdi:

– Savaşa hazır olun. Mümkün qədər düşmənin qarşısını kəsməli, onları ləngitməliyik.

Böyük qüvvə ilə hücuma keçən düşmən cinahlardan irəliləyərək sayca özlərindən dəfələrlə az olan əsgərləri mühasirəyə aldı və halqanı daraltmağa çalışdı. Dörd tərəfdən yağan güllələrə cavab verən döyüşçülər yaralarını da unutmuşdular. Nə yara bağlamağa, nə də ufuldamağa vaxt var idi. Bir neçə yerdən ağır yara alan komandir yaxınlıqdakı əsgəri polkovnikin köməkçisinin ardınca göndərdi:

– Tez Şirini bura çağır.

Natiq səngər divarına söykənib göstərişlər verdi:

– Həsən, arxa tərəfdən yaxınlaşanları irəli buraxmayın!

O, Şirinin arxasınca göndərdiyi əsgərin getdiyi istiqamətə baxıb səbirsizləndi:

– Bəs bu Şirin harada qaldı?

Elə bu vaxt əyilə-əyilə yaxınlaşan əsgəri gördü:

– Niyə tək gəldin?

Gördüyü mənzərənin dəhşətindən danışmağa çətinlik çəkən əsgər kəkələdi:

– O posstu minaattanla ttam ddağıdıbllar. Saağ qalan yooxdur.

Komandir dərindən bir ah çəkdi. O getdikcə taqətdən düşsə də, bu ağır vaxtda dostlarını tək qoymağı ən böyük xəyanət saydı. Əlləri səngərin qanla suvarılan yaş torpağına sığal çəkdi. Gecənin ayazında soyumuş qanlı torpaqdan yanan sinəsinə bir sərinlik yayıldı, sağ qalan döyüşçülərə növbəti göstərişləri vermək üçün bir qədər dikəldi:

– Qazax, əsas qüvvəni zəmi tərəfdən gələnlərə yönəlt! Zəmi son xilas yolumuzdur!

Güclü partlayışdan onun səsini heç kim eşitmədi. Komandir

tamam halsızlaşanda bir ovuc barıt və qan qoxuyan torpağı burnuna yaxınlaşdırıb ətrini uddu:

– Hər şey sənin üçündür...

Səngərdəki döyüşçülərin silahı susanda ermənilər də atəşə ara verdilər. Ani sükutun arxasında nələrin dayandığını bütün döyüşçülərin simasından oxumaq mümkün idi. Çox keçmədən erməni ləhcəsində kobud bir səs gecənin qaranlığını yardı:

– Türklər, təslim olun! – qarşı tərəfdən cavab almayanda erməni səsinin tonunu dəyişdi, istehza ilə gülərək sözünə davam etdi, – Ara, onsuz da azsınız. Boşuna ölməyin. Həyat var, həyat! Sizə onu doya-doya yaşadarıq.

Səngərdəkilər zorla nəfəs alan komandirin üzünə baxdılar. Onun son dəfə xırıltılı səslə dediyi sözlər hər birinin yaddaşına əbədi hopdu:

– Düşmənə təslim olmayın, mühasirədən çıxmağa çalışın.

– Bəs siz?

– Mənimlə işiniz olmasın, görünür, yazım buracan imiş.

Qazax dostunu qucaqladı:

– Səni burada qoya bilmərəm.

Birdən ona elə gəldi ki, komandirin getdikcə avazıyan simasında görünən qəribə nur gecənin qaranlığını əritdi:

– Mən gedirəm, ər meydanına gələnlərə salam olsun...

Komandir fikrini zorla tamamladı. Onun dodaqlarındakı təbəssüm simasına ilahi gözəllik bəxş etdi.

Sağ qalan döyüşçülər son nəfəsində belə əsgərlərini düşünən komandirin sözlərindən çox təsirlənmişdirlər. Qazax Həsənlə Fəxrəddinin üzünə baxanda hər ikisi onun fikrini başa düşdü. Həsən fikrini qətiyyətlə bildirdi:

– Mühasirədən çıxmaq üçün zəmiyə tərəf çəkilməliyik.

Digər əsgərlər də onun sözlərini təsdiqlədilər.

– Bəs şəhidlərimiz?

Qazaxın verdiyi qəfil sual, hamını çaşdırdı.

– İndi bunu fikirləşməyin vaxtı deyil, – kimsə arxadan dilləndi.

Bu sözlərdəki acı həqiqəti anlasa da, Qazax Natiqin cəsədini çiyninə aldı:

– Ehtiram, mən onu burada qoya bilmərəm, – deyib səngəri tərk eləməyə çalışdı, lakin alnından aldığı güllədən yerə sərildi. Həsən bu mənzərəyə dözə bilmədi, çılğınlıqla qarşı tərəfə atəş aça-aça səngərdən çıxdı. Fəxrəddin də ona qoşulanda başını gizləməyə çalışan düşmənlərin arasında çaxnaşma başladı. Fatehin bir-birinin ardınca atdığı qumbaralar sağ qalan əsgərlərin zəmiyə tərəf çəkilməsinə kömək etdi...

* * *

Raket, top atəşlərinin səngiməsini gözləməyən Sırxavənd bölməsinin komandiri Nağı əsgərləri bir araya toplamaq üçün xeyli çalışdı. O, əhali ilə birlikdə dağıdılan evlərin uçuqları altında qalanları xilas edən könüllüləri raket zərbələri altında döyüş meydanına apardı. Uzaqdan eşidilən avtomat, pulemyot səsindən hərbi hissə əsgərlərinin qeyri-bərabər döyüşə girdiyi hamıya bəlli idi. Nağı əlini irəli uzatdı:

– Necə olursa-olsun, oraya çatmalıyıq.

Ətrafda partlayan mərmilər döyüşçüləri tez-tez yerə yatmağa məcbur etsə də, təhlükə sovuşan kimi hamı ayağa qalxıb köməyə tələsdi. Könüllülər ilk səngərə çatanda kəndə tərəf gələn düşmənlərin danışığı eşidildi. Onlar gizlənərək erməniləri lap yaxına buraxdılar. Deyə-gülə yaxınlaşan düşmənlərdən biri kəndə girəndən sonra edəcəyi "qəhrəmanlıq"dan danışırdı:

– Ara, kandın kutaracağındakı ev var ha, ora heş kım yaxınnaşmasın.

– Niya?

– Hi-hi, bu kisaları gorursanmı?

– Ha, onu neyniyacaxsan ki?

– O evdə bilirsanmı na var var?

– Na var?

– Çoxlu pul, var-dövlət var. O evi, turklar demişkən, heç kimə yar etmaram.

– Sən o var-dövləti ha vaxt gormusan?

– Ara, neca yani na vaxt? Sonuncu dəfə hayvanı o evdan almışam. Onda gordum. Qadınnarın usdunda xeyli qızıl vardı. Hamısın öldurup qızıllarını soyacam, evda na var yıxacam. Man da kasıb babayam. Niyə imkan varkən arzuma çatmayım?

Elə bu vaxt qəh-qəhə səsi eşidildi:

– Ara, man da deyıram bu niyə boş kisalara yüklanıb? Ay ağılsız, turkları qovandan sora onlar biza qalacax, niya ozunu yorursan?

– Biliram ki, turkları qovanda mana sizdan heş nə çatmaz. Ona gora işımı, turklar demiş, bu başdan extiyatdı tuturam.

Nağı Vartanın səsini yenə tanıdı. Qəzəbindən dişlərini bir-birinə sıxdı. O, işarə verən kimi bir-birinin ardınca yaxın məsafələrdə partlayan qumbaralar düşməni pərən-pərən saldı. Qışqırıq, inilti səsi bir-birinə qarışdı. Qəzəbini cilovlaya bilməyən Fərhad əl pulemyotunu işə saldı:

– Alın payınızı, it uşağı!

Gözlənilməz zərbədən çaş-baş qalan düşmən xeyli itki verərək geri çəkildi. Qarşıdakı səngərdə isə hələ də atəş səsləri eşidilirdi. Nağı könüllülərin bir qismini kəndin girəcəyindəki səngərdə saxlayıb hərbi hissənin döyüşçülərinə çatmağa çalışdı. Atəş səsləri uzaqlaşdıqca komandir ürəyinin sıxıldığını hiss etdi. Qarşılaşacağı mənzərə xəyalında canlandı, amma tezliklə xoşagəlməz fikirləri başından qovdu, daha sürətli addımlarla döyüş meydanına doğru yürüdü...

Səngərə çatanda çox vahiməli sükutla qarşılaşdılar.Postlar dağıdılmışdı, əsgərlər də gözə dəymirdi. Könüllülər həyəcanla səngərin içi ilə irəlilədilər. Nağının ayağına nəsə ilişdi, əyilib əlini yerə sürtdü: silah idi. O, astadan pıçıldadı:

– Əgər cəsəd yoxdursa, kim silahını ata bilər?

İrəli getdikcə ölüm qoxuyan səngərdən əsgərlərə dair heç bir nişanə tapılmadı. Cəmil əsəbləri tarıma çəkilən Nağını sakitləşdirmək üçün dedi:

– Bəlkə, geri çəkiliblər?

– Mən Natiqi tanıyıram, ölər, amma düşmən qabağından qaçmaz. Burada nəsə var.

O, bir neçə dəfə səslənsə də, parol kimi işlənən quş səsinə cavab ala bilmədi.

– Ətrafı axtarın, otuz nəfər birdən yoxa çıxa bilməz, bəlkə də, yaralanıb gizlənənləri tapa bildik.

Axtarış şəfəq sökülənə qədər davam etdi, lakin əsgərlərdən bir nişanə tapılmadı. Səhərin alatoranında səngər boyu görünən qan laxtaları acı həqiqətin carçısı oldu. Nağı səngərin içində yerə çökdü. Başını qaldırıb bir-bir yoldaşlarının üzünə baxdı, birdən təlaşla soruşdu:

– Cəmil, bəs Cəmil hanı?

O, sual dolu baxışlarına heç kimdən cavab ala bilməyəndə ucadan səsləndi:

– Cəmil!

Cəmil onun səsinə səs vermədi. Komandir iti addımlarla səngərin sonuna doğru irəlilədi:

– Yox, Cəmil, səni də itirə bilmərəm. Onsuz da qədərindən artıq itki vermişik.

Komandir hıçqırtı səsinə dayandı. Səsin gəldiyi səmtə yönəldi: Cəmil idi. O gah yumruqları ilə yeri döyəcləyir, gah da başını ikiəlli sıxaraq qəribə sözlər söyləyir, hıçqırırdı. Nağı onun qarşısında oturdu, güclə eşidiləcək səslə soruşdu:

– Nə görmüsən?

Cəmil daha ürəkdən hıçqırdı, əli ilə yerə tökülən qan izlərini göstərib zorla dedi:

– Onları diri-diri yandırıblar.

– Ola bilməz, harada?

Cəmil ayağa qalxdı, ağır addımlarla təpənin sol tərəfinə yönəldi. Hər addımda gördüyü qan izləri Nağının ürəyinə xəncər kimi saplandı. Qaralan taxıl zəmisini görəndə isə ona hər şey bəlli oldu: zəmi mühasirədən çıxan hərbi hissə döyüşçülərinin məzarı olmuşdu.

Gördüyü mənzərədən sarsılan Nağı astadan soruşdu:

– Cəsədlər hansı tərəfdədir?

Cəmil başını buladı:

– Hər tərəfi axtardım, cəsədlər yoxdur...

* * *

Hərbi hissənin əsgərlərinə gündəlik ərzaq Xaçınstroydan göndərilirdi. Bu səhər də Diləfruz əsgərlərə aparmaq üçün hazırlanmış azuqəni, həm də lazım olan tibbi ləvazimatı qablaşdırdı. Hər şey hazır olan kimi maşın yola düşdü. Çox keçmədən Əliağalı kəndi arxada qaldı, Qaralar kəndinin qurtaracağında sürücü istiqaməti dəyişdi, sağa dönüb Sırxavəndə tərəf şütüdü. Şumlanmış sahə ilə üzüyuxarı qalxmaq çətin olduğu üçün Diləfruz maşından endi, çevik hərəkətlə təpənin üstünə çıxıb səngərə atıldı. Səngəri boş görəndə gözlərinə inanmadı. Öz-özünə fikirləşdi: bunlar hara getmiş olarlar? O, səngərdə oturub gözləməyi qərara aldı. Yerini təzəcə rahatlamışdı ki, rabitə qovşağından həyəcanlı bir səs eşitdi:

– Tez oranı tərk edin!

Nə baş verdiyindən xəbəri olmasa da, Diləfruz yerindən qalxdı, sıçrayıb səngərdən çölə atıldı, sürətlə üzüaşağı qaçmağa başladı. Onun gəlişindən hər şeyi anlayan Dağıstan motoru işə saldı. Diləfruz ayağını maşına basmamış dəhşətli partlayışdan hər yer silkələndi. İkinci mərmi də düz səngərin içinə düşdü. Sürücü maşını hədəfdən yayındıraraq gözdən itənə qədər düşmən onları minaatan mərmilərilə müşayiət etdi. Təhlükə geridə qalanda Dağıstan maşını saxladı. Bir qədər toxtayıb yenidən yoluna davam etdi...

Mühasirəni yaran beş əsgər Xaçınstroya çatanda şəhidlərin sayı bilindi: hərbi hissə iyirmi beş şəhid vermişdi.

* * *

Sırxavənddə şəhid edilən iyirmi beş əsgərin cəsədi tapılmadığı üçün Şirin Mirzəyev itkin kəlməsini qəbul etmədi:

– Öz torpağında itkinə çevrilməkdən böyük acı varmı?! –

deyə daxilən üsyana da qalxışdı. Arxalı köpəklərlə yalın əllə döyüşməyin çətinliyini daxilən yaşadıqca üzdə sakit, təmkinli görünsə də, gözəgörünməz bir əl haradansa yol tapıb ürəyini qamarladı, bütün gücü ilə sıxmağa başladı, yuxusunu ərşə çəkdi. Sinəsi sipərə, qeyrəti silaha dönən oğullar bir-bir xəyalında canlandı, köksünü qürur hissi doldurduqca ürəyini sıxan barmaqlar boşaldı, lakin yenə də itirdiyi hər bir əsgərin yoxluğu ağrıya çevrilib bütün vücudunu sardı. Çılğınlıqdan uzaq olduğu üçün o bu ağrıları sinəsində daşıdı, amma bədbinliyə qapılmadı. Çünki onu düşündürən Vətənin, böyük bir xalqın taleyi idi...

* * *

Polkovnik otaqda bir qədər var-gəl etdi, sonra stolun üstünə sərilmiş xəritəyə yaxınlaşdı. Əlindəki karandaşla xəritənin üzərində bir nöqtəni döyəcləyib saatına baxdı: vaxt tamam idi. Bir dəqiqədən sonra çağırılan döyüşçülər otağa daxil oldular. Hamı yerini tutandan sonra polkovnik ağır-ağır sözə başladı:

– Vəziyyəti hamınız yaxşı bilirsiniz. Dörd bir tərəfdən erməni kəndləri ilə əhatələnmiş Umudlu da xoş günləri çoxdan unudub. Hər gün hədələrə, təzyiqlərə məruz qalan əhalinin doğma ocağı tərk etmək təhlükəsi xeyli artıb. Kəndin uc nöqtələrində tikilən evlər tez-tez atəşə tutulur. Göz görə-görə əhalinin mal-qarası sürülüb aparılır. Umudlunu itirmək bir dayaq məntəqəsinin də azalmasıdır.

O, bir işarəsi ilə hər şeyə hazır olan komandirlərini süzdü.

Fəxrəddin Rəcəbova çatanda dayandı, əlini onun çiyninə qoydu:

– Çətin günlərin sınanmış dostu – Arkadaş (Şirin Mirzəyev Fəxrəddin Rəcəbovu ilk dəfə idi ki, döyüş yoldaşlarının verdiyi adla çağırırdı), növbəti ağır günlər bizi imtahana çəkir. Düşmən mühasirəsində qalan əhali kömək istəyir. İnanıram ki, kənd camaatını xilas edəcək, düşmənə yenilməyəcəksiniz, – o, bir qədər susub divar boyu düzülmüş əsgərlərə yenidən nəzər

saldı. Gözünə onlarla bir sırada dayanan Diləfruz dəyəndə siması dəyişdi. Ürəyindən onu dəstədən ayırmaq fikri keçdi, lakin son döyüşdən əvvəlki söhbəti xatırladığı üçün susdu, başını yüngülcə tərpədib digər əsgərlərə baxsa da66, Diləfruzun səsi yenidən qulaqlarında cingildədi:

– Mən üzərimə düşən vəzifəni yerinə yetirmək üçün buradayam, yoldaş komandir. Döyüş zamanı əsgərlərimizin yanında olmasam, yaralarını bağlamasam, nəyə gərəyəm?

Polkovnik öz-özünə pıçıldadı:

– Diləfruz kimi analar yetirən bir xalqı əzmək, məğlub etmək mümkün deyil...

Bir saatdan sonra vertolyot havaya qalxdı, düşmən mövqelərini adlayıb dağların əhatəsində olan Umudluda yerə endi. Axar-baxarlı bir ərazidə yerləşən kəndin arxa tərəfi meşəyə söykənirdi. Bəzi evlər meşənin içində tikilmişdi. Dağın döşündə şumlanmış əkin sahələri göz işlədikcə uzanırdı. Qarşı tərəfində Kərəmli, ondan bir qədər yuxarıda ermənilərin məskunlaşdığı Zəylik yerləşirdi. Nisbətən çökəklikdə salındığı üçün Aterk, Zəylik və Xramorddan tez-tez atəşə tutulan kəndi dinc sakinlərin əksəriyyəti tərk etmişdi. Qalan sakinlər təzəcə yerə enən vertolyota ümidlə baxırdılar. Kolxoz sədri Baloğlan kişi yaşına uyuşmayan bir cəldliklə irəli gəldi, nə qədər kövrəlsə də, özünü şax tutdu:

– Allah sizi qorusun, – dedi, – nə yaxşı ki, gəldiniz, bizi tək qoymadınız.

– Əlimizi hər yerdən üzmüşdük, elə bilirdik ki, unudulmuşuq, – kənd sovetinin sədri Rafail danışanda səsindəki titrəyişi gizlədə bilmədi.

Gələnləri qarşılayanlar arasında vəzifəsini səngərdə davam etdirən Umudlu kəndinin polisləri Talehlə Elçin də vardı. Vertolyot kənddə qalan dinc əhalini arxaya köçürmək üçün bir neçə dəfə geri qayıtdı. Sonuncu sakinlər də arxaya göndəriləndən sonra Umudluda Arkadaşın rəhbərlik etdiyi altmış nəfərlik bölmə, kəndin on səkkiz nəfər müdafiəçisi və yurd-yuvasını tərk

etmək istəməyən şəxslər qaldılar. Müzakirələrdən sonra Rəhman yerli müdafiəçilərin komandiri təyin edildi. Kəndin xəritəsini nəzərdən keçirən Arkadaşın ciddi simasına indi bir qayğı da həkk olundu. O, astadan, lakin təmkinli bir səslə dedi:

– Kəndi müdafiə etmək üçün postların sayı artırılmalı, gecə-gündüz keşik çəkməliyik. Məncə, postlarda durmaq üçün kifayət qədər qüvvəmiz var. Gecələr bölmənin əsgərləri, gündüzlər isə kəndin müdafiəçiləri keşik çəkəcəklər.

Verilən təklif hamının ürəyincə oldu və on altı post yaradıldı. İlk günlər çox sakit ötüşdü. Görünür, ermənilər kənddəki döyüşçülərin sayı barədə dəqiq məlumat ala bilmədikləri üçün gözləmə mövqeyi tutmuşdular. Demək olar ki, kəndin civarında bir erməni yaraqlısı da gözə dəymirdi. Arabir mal-qoyunların arxasınca yollanan kəndlilər olmasaydı, elə zənn edərdin ki, erməni kəndlərində də yerli əhalidən heç kim yoxdur, ya da gecə-gündüz postlarda dayanan keşikçilər onları maraqlandırmır. Amma bu kimsəsizliyin arxasından qopacaq qasırğaya hamı hazır idi. Kəşfiyyatçıların komandiri Əkbər ətraflı məlumat toplamaq üçün Rövşənlə Əhlimanı, Reylə Şamili, Arazla Yavəri əks istiqamətlərdə yerləşən erməni kəndlərinə göndərdi. Özü isə Sənan və Həsənlə birlikdə Kərəmli tərəfə yol aldı.

Erməni-rus birləşmələrinin təzyiqinə davam gətirməyən bu böyük yaşayış məntəqəsi neçə vaxt idi ki, qaranlığa qərq olmuşdu. Kənddə gecələr qara zülmət keşik çəkir, gündüzlər isə həyətləri sülənən sahibsiz itlər və erməni donuzları görünürdü. Umudluya daha çox basqı məhz boşaldılmış Kərəmli tərəfdən idi. Bir-birindən xeyli aralı tikilən evlərin arasından sahibsiz itləri duyuq salmadan keçmək kəşfiyyatçılardan böyük səriştə tələb edirdi. Hər çıqqıltıya diqqət yetirən Əkbər müəllim bir qədər də kəndin içərilərinə doğru irəliləyəndən sonra ayaq saxladı. Həsənlə Sənan da dayandılar. Gecənin səssizliyini pozan hənirti üçünün də diqqətini cəlb etdi. Yerə sinib gözləməyə başladılar. Bir azdan yaxınlıqdakı kollar tərpəndi, iri bir donuz tənbəl-tənbəl kolluqdan çıxdı, bir qədər dayanıb yeri imsilədi, sonra sü-

rətlə qarşıdakı evə tərəf qaçdı. Ağız-ağıza verən itlərin hürüşməsi eşidiləndə kəşfiyyatçılar kəndin qurtaracağındakı balaca birmərtəbəli evə çatmışdılar. Bu tikilidən vaxtilə poçt məntəqəsi kimi istifadə edilirdi. Kənd köçəndən bəri həyəti haylı-küylü poçtxana da susmuşdu. Kəşfiyyatçılar səs salmadan binaya yaxınlaşdılar. Qapı örtülü olsa da, kilidi sındırılmışdı. Sənan pıçıltı ilə soruşdu:

– İçəri keçirik?

Komandir şəhadət barmağını dodaqlarının üstünə qoyub susmağı məsləhət bildi. Hər üçü ətrafı gözdən keçirərkən içəridən əvvəlcə sərxoş qadın qəh-qəhəsi, ardınca isə erməni dilində ikimərtəbəli söyüş və qadına təpinən kobud kişi səsi eşidildi. Qapı cırıltı ilə açılanda bir əlində qədəh, digərində siqar tutmuş saçları dağınıq bir qadın çölə çıxmağa cəhd elədi, lakin içəridən düşən zəif lampa işığında kiminsə kobud əli saçlarından yapışıb onu geri çəkdi. Qədəh cingiltisi ilə bərabər şillə səsləri gecənin sükutunu pozdu, qadın vəhşicəsinə bağırdı:

– Nə qədər vursan da, sözümü geri çevirməyəcəm, türk kişiləri sizdən daha gözəl, daha güclüdür. Siz onlara tay ola bilməzsiniz. Elə deyilmi, Alla? – o, yenidən qəh-qəhə çəkdi. Yaxınlaşan uğultu kəşfiyyatçıları daha ehtiyatlı tərpənməyə sövq etdi. Onlar başa düşdülər ki, ermənilər bu məntəqədən yalnız “əyləncə” xatirinə istifadə etmirlər.Üstü çadırlı UAZ poçtun qarşısında dayananda kabinədən iki nəfər rütbəli rus hərbçisi, maşının banından isə üzünü saqqal basmış muzdlu döyüşçülər aşağı endilər. Əkbər müəllim kəşfiyyatçılara sakitcə geri dönmək barədə göstəriş verdi.

Digər kəşfiyyatçıların gətirdiyi xəbərlər də ruslardan kömək alan ermənilərin qüvvə toplaması ilə bağlı idi. Məlumatları dinləyən Arkadaş əlindəki qələmin başı ilə asta-asta stolu döyəclədi, sonra divardan asılmış xəritəni bir də gözdən keçirib dedi:

– Demək, düşmən Umudlunu ələ keçirmək üçün hər vasitədən istifadə edəcək. Eybi yox, qoy gəlsinlər. Biz də bütün gücümüzlə onların qarşısında dayanacağıq...

* * *

Artıq iki həftədən çox idi ki, Arkadaşın bölməsi Umudluda idi. Arxadan kömək gələcəyini heç kim gözləmirdi. Ərzaq qıtlığı yaranmasın deyə, Umudludan olduğu üçün kəndin bütün giriş-çıxışına bələd olan Rövşən günortadan sonra komandirdən icazə alıb hələ də kəndi tərk etməyən kolxoz sədri ilə birlikdə taxıl anbarına yollandı. Anbarın qapısına vurulan qıfılı açıb üst-üstə yığılmış buğda kisələrini lafetə yüklədilər və üyütmək üçün kəndin aşağı tərəfindəki dəyirmana apardılar. Dəfələrlə dəyirmançıya kömək edən Rövşən ertəsi gün dəyirmanı işə saldı. İki kisə buğdanı dəyirmanın dənliyinə tökdülər. Üst-üstə qalanmış buğda kisələrini görən Ataş paltarı una bulaşmış Azərlə Akifə baxaraq şirin ləhcə ilə dilləndi:

– Ha indi düz bir illıx çörəyimiz olaçax. Vallah, siz də lap əsl dəyirmançısuuz. Deyirəm, bəlkə, erməniləri qovannan sonra bu dəyirmanı elə siz işdədəsuuz.

Söz altda qalmayan Akif:

– Qardaş, mən etiraz etmirəm, amma mənim üyütdüyüm buğdanın xəmirin səndən başqa yoğuran olmaz, – deyəndə buğdanı dəyirmana daşımaq üçün gələnlər gülüşdülər.

Dəyirman tərəfdən düşmən həmləsi gözlənildiyi üçün ətrafda bir neçə əsgər də keşikdə dayanmışdı. Dəyirman daşlarının ahəngdar səsi istər-istəməz dinc günləri yada saldı. Bəzi əsgərlərin gözlərində qayğı dolu ifadəni xoş təəssüratlar əvəz elədi. Şaqqıltı, guppultu dəyirman daşlarının ahəngdar səsini batıranda Azər Ataşla  Rövşəni qapının arxasına çəkdi. Akif ucadan səsləndi:

– Sənan, bizi qoruyun!

Sənan, Vüqar və Namiq müxtəlif istiqamətlərdən atəş açaraq düşmənin diqqətini yayındırdılar. Dəyirmanın içindəkilər lafetin arxasına keçərək nisbətən təhlükəsiz yerə çatdılar. Bir qədər geridə qalan Tağı son anda gülədən qorunmaq üçün dəyirmanın yaxınlığındakı silos quyusuna atıldı...

Kəndin aşağısından – dəyirman tərəfdən gələn atəş səslərini

eşidən kimi bölmə komandiri Arkadaş bir dəstə döyüşçü ilə dəyirmana, köməkçisi Şəfayət isə digər əsgərlərlə təhlükə gözlənən başqa məntəqələrə tərəf yollandılar. Bir azdan atəş səsləri səngidi. Köməyə gələnləri görəndə mühasirə halqasından qurtulduğuna inanmayan Azər arxası üstə yerə sərildi, gözləri sevincdən parıldadı:

– Sənə minnətdaram, ilahi, – deyərək Namiqlə Vüqarın üzünə baxdı. Sənan isə elə bil mühasirədən çıxdıqlarını tamamilə unutmuşdu. O heç kimi görmür, tez-tez yerini dəyişərək atəş açır, gözünü qarşı tərəfdən ayırmırdı. Arkadaş onun təlaşını o dəqiqə hiss etdi, hamını bir-bir nəzərdən keçirdi, döyüşçülərin arasında Tağını görməyəndə Sənana yaxınlaşdı, onunla yanaşı uzanıb avtomatını nizamladı, düşmənə atəş aça-aça soruşdu:

– Bəs Tağı hanı?

Sənan üzüntülü səslə dedi:

– Tağı orada qalıb.

Arkadaş bir qədər susdu, sonra nə qədər yumşaq danışmaq istəsə də, səsindəki sərtlik açıq-aşkar bilindi:

– Harada?

Silahdaşını təhlükədə qoymağa alışmayan Sənan elə zənn etdi ki, komandirin sualında bir qınaq gizlənib. Özündən asılı olmadan səsini bir qədər də alçaltdı:

– Silos quyusunda, amma bilirəm ki, sağdır. Necə olursa-olsun, onu oradan qurtaracağam.

Sənan sürünərək silos quyusuna bir az da yaxınlaşdı.

Komandir təlaşla:

– Sənan, özünü qoru, çox uzaqlaşma!- deyəndə Namiq dərindən köks ötürdü:

– Tağı bilərəkdən orada qaldı. Dedi ki, ölərəm, amma buğdanı erməniyə qismət eləmərəm.

Elə bu vaxt əlaqə telefonunda Tağının səsi eşidildi:

– "Qaya", "Qaya", mən "Şahin"əm.

Arkadaşın simasında ani bir sevinc duyuldu, əsgərlərə döyüş mövqeyini dəyişməyi əmr etdi. Döyüşçülər dərhal yerlərini

dəyişdilər və əldə olan silahlardan qarşı tərəfə aramsız atəş açaraq darda qalan dostlarını xilas etməyə çalışdılar. Amma yerə sinən düşmən də geri çəkilmədi. Tağı canını dişinə tutub iki dəfə quyudan çıxmağa cəhd elədi, amma başının üstündən vıyıldayan güllələr imkan vermədi. O, telefonda komandir Arkadaşın qayğılı səsini eşidəndə ürəkləndi, bütün əsgərlərin dilində əzbər olan mahnının son misrasını avazla oxudu:

– Marş irəli, Azərbaycan əsgəri!

Tağının oxuduğu mahnı elə bil hamıya yeni bir ruh verdi. Şamil qumbaraları bir-birinin ardınca atan kimi düşmən tərəfdə çaşqınlıq yarandı, səslər bir-birinə qarışdı, kimsə rus dilində söyüş söydü. Tağı fürsəti əldən vermədi. Pələng çəldliyi ilə quyudan kənara sıçradı, Sənanı görəndə gözləri güldü:

– Bilirdim ki, məni xilas edəcəksiniz.

– Danışmaq vaxtı deyil, buradan tez uzaqlaşmalıyıq.

Hər ikisi sürünə-sürünə nisbətən təhlükəsiz yerə çatanda özünə gələn düşmən müxtəlif silahlardan istifadə edərək üstünlüyü ələ aldı. Mühasirədən çıxan əsgərlərimiz bir qədər geri çəkildilər. Arkadaş ucadan səsləndi:

– Buradan geriyə yol yoxdur: düşmənin hücumu dayandırılmalıdır.

Xeyli davam edən atışmada itki verilməsə də, böyük zəhmət hesabına dəyirmana gətirilən buğda düşmənin əlində qaldı.

Tağı təəssüflə əl-qolunu ölçdü:

– Heyif, heyif, o boyda zəhmətdən. Çörəyi ağzımızdan çıxarıb düşmənə verdik. İt uşağı milçək kimi iy bilirlər elə bil. Bir qumbaram da olmadı ki, lafeti partladam.

Həm yorğun, həm də qanı qaralan əsgərlərin heç biri dillənmədi...

* * *

Hər daşın altında yatan düşmən üzbəüz döyüşə girməkdən çəkinsə də, imkan tapan kimi snayper atəşi ilə döyüşçüləri qorxu altında saxlamağa çalışırdı. Gecənin səssizliyini çox vaxt onların qəfil atəşi pozur, cavab alan kimi yenə hər tərəfə qor-

xunc bir kabus çökürdü. Növbəti gecələrdən birində postu təhvil almağa gələn Rövşən məntəqəyə çatmağa az qalmış birdən səndələdi. Marığa yatan düşmən gülləsi onun dizini parçalamışdı. Rövşən əvvəl ağrı hiss etməsə də, ayağını tərpədə bilməyib yerə çökdü. Əlləri ilə dizini tutdu, ondan bir qədər əvvəl səngərə çatan Diləfruzu zorla səslədi:

– Bacı…

Diləfruz onun yanına süründü, əlini yaraya toxunduranda Rövşən ağrıdan dişlərini xırçıldatdı. Vurulan iynədən sonra yaranı bağlamaq çətin olmadı. Çox keçmədən düşmən postunda avtomatlar ara vermədən onları atəşə tutdu. Diləfruz yaralını güllə yağışının altından çıxarmaq üçün ucadan səsləndi:

– Bizə kömək edin! – sonra üzünü Rövşənə tutdu, – Ölməyə haqqımız yoxdur, qeyrət göstər, qardaş, buradan çıxmalıyıq.

Yarasının ağrısı getdikcə azalan Rövşən bütün gücünü topladı, Diləfruzla bərabər səngərə qədər süründü. Yaralını səngərdə bu vəziyyətdə saxlamaq mümkün deyildi. İki döyüşçü Rövşəni qolları üstündə tibb məntəqəsinə gətirdi. Onun bənizi qan itirdikcə ağarır, şiddətli ağrı nəfəsini kəsirdi. Diləfruz dizdən aşağı sümükləri xıncım-xıncım olan, iliyi parçalanan silahdaşına növbəti dəfə yardım göstərəndə ağrıları azalan Rövşənin saralmış bənizində həyat işartıları göründü. Komandir içəri girəndə o, yerindən qalxmağa çalışdı. Lakin Fəxrəddin müəllim ona mane oldu:

– Yerindən qalxma, uzan, – sonra üzünü Diləfruza tutdu, – vəziyyət necədir?

Diləfruz:

– Yaxşıdır, – deyib otaqdan çıxdı. Onun səsindəki rəsmiyyət komandirə xəstənin durumunun ciddi olduğundan xəbər verdi. Komandir yaralı əsgərə sağlamlıq arzulayıb çölə çıxarkən Diləfruz qapının ağzında gözləyirdi. O, komandiri görən kimi sözə başladı:

– Şəraitimiz yoxdur, Fəxrəddin müəllim. Yaralı hökmən arxaya aparılmalıdır. Bir az da gecikə, yəni vaxtında müdaxilə

edilməsə...

Komandir razılıqla başını tərpətdi. Bir neçə dəqiqədən sonra o, yaralının vəziyyəti barədə polkovnik Şirin Mirzəyevə məlumat verdi:

– Yoldaş polkovnik, yaralımız var, vəziyyəti çox ağırdır. Əgər vaxtında xəstəxanaya çatdırılmasa, bir əsgərimizi itirəcəyik.

Şirin Mirzəyev onu arxayınlaşdırdı:

– Bir az da dözün, mən vertolyotu mümkün qədər tez göndərməyə çalışacağam.

Polkovnikin vədinə əməl edəcəyinə döyüşçülərdə sonsuz inam vardı. Hamıda nikbin bir əhvali-ruhiyyə yarandı. Ağrıları müvəqqəti də olsa, azalan Rövşənlə hələ zarafat edənlər də tapıldı:

– Bizdən böyük torpağa salam deyərsən, dostum.

– Oralarda bizi də yad edərsən…

Lakin vertolyot vaxtında gəlmədi. Vertolyotun gəlməsi yubandıqca Diləfruzun narahatlığı artdı. Hər dəfə yaranın sarğısını dəyişəndə vəziyyətin daha da ciddiləşdiyini görüb dilxor oldu. Ümidlə üzünə baxan Rövşənə:

– Qorxma, səni sağaldacağam, – deyəndə bəzən uydurmasına özü də inandı. Bacardıqca yaranı təmiz saxlamağa, çirklənmənin qarşısını almağa çalışdı.

Üç günlük uzun çək-çevirdən sonra Şirin Mirzəyev Umudluya göndərmək üçün dövlət orqanlarından vertolyot ala bildi. Xəstənin birbaşa Bakıdakı xəstəxanalardan birinə aparılacağını öyrənəndə Diləfruzun narahatlığı azaldı. Rövşənin:

– Bacı, qıçımı kəsəcəklərmi? – sualına birmənalı şəkildə cavab verdi:

– Sevinək ki, sağ qalmağı bacardıq, Rövşən...

* * *

Umudluda vəziyyət getdikcə gərginləşdi. Hər tərəfdən pusquya yatan düşmən göz açmağa imkan vermədi. Kəndə gələn

elektrik xətləri kəsildikdən sonra qış gecələrinin sazağı, şaxtası Umudluya layla çaldı. Amma keşikdə dayananlar nə bu laylanın ilik donduran nəfəsinə, nə də hər an başlarının üstünü ala bilən təhlükəyə yenildilər. Teleqraf xətləri də sıradan çıxarılandan sonra arxa ilə əlaqə saxlamaq daha da çətinləşdi.

Belə çətin günlərdə komandir Arkadaş və köməkçisi Şəfayət əsgərlərdə döyüş əzminin azalmasına imkan vermədilər. Döyüşçülərdə qələbəyə inam  nəinki azaldı, əksinə, daha da artdı. Hamıya elə gəldi ki, aclıq da, silah qıtlığı da, dağların sərt qışı da bu inamın qarşısında gücsüzdür.

Postlarda dayanan əsgərlər gecəni sübhə qədər çimir vurmadan kəndi qorudular. Belə qaranlıq gecələrdən birində haray dolu bir qışqırtı Umudlunun səmasını bürüdü. Düşmən səngərinə ən yaxın postda keşik çəkən siyəzənli balası Rövşən və Əlabbas səs gələn istiqamətə bir neçə güllə atsa da, gecənin bağrına saplanan atəş səsinə qarşı tərəf heç bir reaksiya vermədi. Digər əsgərlərlə bərabər gecələri səngərdə keçirən Diləfruz bu harayı eşidəndə Arkadaşla birlikdə səs gələn istiqamətə – birinci posta tərəf yön aldı. Məntəqəyə çatanda heç nə olmamış kimi haray da, silahlar da susmuş, gecələrə məxsus sükut ətrafı bürümüşdü. Postda dayanan keşikçiləri: iki qardaş Nemətlə Rəhmanı, Rövşəni, Əlabbası salamat görən Arkadaş orada çox yubanmadı, əsgərlərə ayıq-sayıq olmağı bir daha tapşırıb digər on beş məntəqəyə baş çəkmək üçün geri döndü. Onların gəlişi gənclərə mənəvi dəstək olsa da, fəryad səsi Rövşənin qulaqlarında dönə-dönə əks-səda verdi. O, səhərin açılmasını gözləyə bilmədi, postu Reylə gələn  Şamilə və Umudvara təhvil verəndən sonra səngərdən çıxdı. Diləfruzla Əlabbas da onun arxasınca süründü. Qarşıdakı çökəkliyə çatanda üçünün də burnuna qan qoxusu dəydi. Rövşən parça-parça edilmiş əsgər cəsədini görəndə nitqi tutuldu, əlləri ilə üzünü qapadı. Əlabbas bu mənzərədən dəhşətə gəlsə də, səs çıxarmadan sərhəd tanımayan erməni vəhşiliyinə ürəyində lənət yağdırdı. Diləfruz bir tərəfə atılmış başı əli ilə çevirdi. Parçalanan hamının sevə-sevə “Ba-

kılı balası" çağırdığı və çoxlarının adını dəqiq bilmədiyi iri badamı gözlü gəncin cəsədi idi...

Gecə posta birlikdə gəlmişdilər. Diləfruz postda dayanan bir əsgərə yardım etdiyi üçün xeyli ləngimiş və yolları ayrılmışdı. O yəqin etdi ki, bakılı gənc gözlənilmədən düşmən kəşfiyyatçıları ilə rastlaşıb və ələ keçib. Diləfruz nə gözünü cəsəddən çəkə bildi, nə də ağlamağı bacardı. Elə zənn etdi ki, sinəsində döyünən yumruq boyda ət parçası deyil, daşlaşmış, hərarətini itirmiş buzdur. O, kövrəkliyini əlindən alan müharibəyə lənətlər yağdırdı. Öz-özünə pıçıldadı:

– Qisasını yerdə qoymağa heç birimizin mənəvi haqqı yoxdur, Şəhidim!

Əllərini üzündən çəkən Rövşən kəsilmiş başa baxanda qulaqlarında "Bakılı balasıyam" mahnısı cingildədi, bayaqdan dəhşətdən dəyişən simasını xoş bir ifadə bürüdü, lakin çox keçmədən mahnının oynaq musiqisini acı bir fəryad öz içində boğdu. O, başını əlləri arasına aldı. Birdən ürəkdən gələn bir hayqırtı ilə ayağa qalxıb düşmən tərəfə atəş açdı və gözlənilmədən silah tutan əlləri üzünü qapadı. O, ayaq üstə dayana bilməyib üzüqoylu yerə yıxıldı. Hələ də baş verən faciənin təsirindən çıxa bilməyən Əlabbas üzüqoylu yıxılan silahdaşını arxası üstə çevirdi, güllə üzünü parçalamışdı. Diləfruz Rövşənin parçalanmış üzünü görəndə gözlərində qəzəb qığılcımı parladı. Lakin qəzəbini cilovlayıb özünə toxtaqlıq verdi, bir qədər sakitləşdi: qarşısında yaralı vardı...

İlk yardım göstərilsə də, Rövşənin vəziyyəti ümidverici deyildi, hökmən xəstəxanaya aparılmalı idi. Xoşbəxtlikdən vertolyot uğultusu eşidildi. Şirin Mirzəyev Umudluya ərzaq və sursat göndərməyə nail olmuşdu. Əsgərlər vertolyota mindirəndə Rövşən hələ də ayılmamışdı...

Bakılı balasının cəsədi Umudluda torpağa tapşırıldı. Fəxrəddin müəllimin çoxdan təbəssüm görməyən simasına sanki qara bir bulud çökmüşdü. Çox danışmaq təbiətinə zidd olduğu üçün məzar başında nitqi də çox qısa oldu:

– Rahat uyu, qardaş. Axan hər damla qanın qisasını alacağıq.

Məzar başında açılan yaylım atəş Bakılı balasına son əsgər salamı kimi Umudlu səmasında əks-səda verdi...

* * *

Başının üstündən vıyıltı ilə keçən gülləyə cavab olaraq Sənan da qarşı tərəfə atəş açdı. Bu zaman əvvəlcə fit səsi, sonra bir-birinə nəsə deyən ermənilərin qəh-qəhəsi eşidildi. Kimsə erməni ləhcəsi ilə çağırdı:

– Ara, molla, məni eşidirsən?

Səngərdə yanaşı dayanan Elçin, Taleh və Rəhman bir-birinin üzünə baxdılar. Elçin astaca soruşdu:

– Taleh, bu səs sənə tanış gəlirmi?

Ondan əvvəl Rəhman dilləndi:

– Zəylikdə milis işləyən Andranikin səsidir.

Elçin dodaqlarını çeynədi:

– Sənə dünyanın neçə bucaq olduğunu göstərməsəm, mənə də Elçin deməsinlər.

Erməni səngərindən rişxənd dolu növbəti səs eşidiləndə Sənan dözməyib cavab verdi:

– Nə var, a Vazgen? Deyəsən, başın bədəninə ağırlıq edir. Darıxma, onu səndən almağa tezliklə gələcəyəm.

Yenidən qarşı səngərdə qəh-qəhə eşidildi:

– Ara, bu əsirlərinizi niyə yada salmırsınız? Bir gəlin görün onları necə...

Növbəti hədyanı eşidəndə bayaqdan özünə yer tapa bilməyən Taleh qəzəblə:

– Ay Vazgen, səni tayqulaq Andranikə yoldaş eləmək mənə borc olsun! – deyəndə qarşı səngərdən gələn xımır-xımır danışığı başa düşməsə də, Taleh öz adını aydın eşitdi. Deyəsən, ermənilər də onu tanımışdılar. Düşmən səngərinə uzun bir sükut çökdü...

* * *

Şümşad kişi evə axşamın alatoranında qayıdan oğullarını gülə-gülə qarşıladı:

– Evimin dirəkləri, yəqin ki, çox yoruldunuz, – o süzdüyü çayları stolun üstünə qoydu, – hələ bir stəkan çay içib özünüzə gəlin, bir az sıyıq bişirmişəm, onu da içərsiniz, canınız qızar.

Cavab almayanda Şümşad kişi nəsə xoşagəlməz bir hadisənin hənirini duydu. Oğullarının üzündə yorğunluq əvəzinə kükrəyən qəzəb işartılarını görüb qayğılandı:

– Bu gün gözümə birtəhər dəyirsiniz, nə olub?

Rəhman :

– Heç nə olmayıb, ata, bir balaca işimiz var, onu müzakirə edirik, – desə də, Şümşad kişi anladı ki, uşaqların nəsə bir planı var. Elçinin qıs-qıvraq geyinib gəldiyini görəndə buna tamamilə əmin oldu. O “getməyin” sözünü dilinə gətirə bilmədi, əllərini göyə qaldırıb dua etdi:

– Allah, özün kömək ol!

Elçingil gedəndən sonra Şümşad kişi bir yerdə qərar tuta bilmədi. Gözləri Kərəmliyə gedən yoldan yığışmadı. Dəqiqələr bir-birini əvəz etdikcə onun da səbri tükəndi. Gecədən xeyli keçmiş taqqıltı səsinə həyətə düşdü. Oğullarının və Elçinin çiynindən asılan avtomatları görəndə ağır-ağır başını tərpətdi, asta addımlarla irəli gəlib hələ də nəzərində “uşaq” kimi görünən bu gəncləri bağrına basdı, düşmən səngərinə əliyalın basqın edən oğulları ilə qürur duydu. Rəhman dəsmalın arasında gətirdiyi kəsilmiş qulağı göstərəndə Şümşad kişi köksünü ötürdü, dəsmalın içindəkinə baxa bilmədi, kövrək səslə:

– Oğullarıma qurban olum, – deyib onların alnından öpdü.

Ertəsi gün Bakılı balasının məzarı başında üç gənc dayanmışdı. Elçin məzarın qarşısında baş əydi:

– Qanını aldıq, qardaş!

Talehlə Rəhman da əllərini sinələrində çarpazlayıb təzim etdilər:

– Ruhun şad olsun, Bakılı balası, – dedilər.

* * *

Günlər bir-birini əvəz etdikcə Umudluda keşik çəkənlərin çətinliyi çoxaldı. Son hadisələr komandirin iztirablarını artırdı, o, tədbir görmək üçün bütün heyəti bir yerə topladı. Postlardan yenicə qayıdan əsgərlərin gözlərindən yorğunluq yağırdı. Ona görə də Arkadaş çox qısa çıxış etdi:

– İgidlərim, marığa yatan düşmən bizimlə açıq döyüşə girməyə cəhd etməyəcək, aldadıcı manevrlərlə: ya gecə basqınları, ya da snayperdən açılan atəşlə kənddə qalan döyüşçüləri, yerli müdafiəçiləri məhv etməyə çalışacaq. Amma biz onların arzularını gözlərində qoyacağıq...

Bizim əzmimiz artdıqca onlar daha da həyasızlaşacaqlar, qulağımız eşidə-eşidə söyəcəklər, bizi haldan çıxarmağa səy göstərəcəklər, yalan məlumatlarla ruhən əzməyə çalışacaqlar. Düşmən təbliğatına uymayın, səbirli olun. Allah səbirliləri sevər, yox yerdən qapı açar.

Postdan yenicə gəlmisiniz, çox yorğunsunuz. İndi dincəlin. Dincəlin ki, üzərinizə düşən vəzifənin öhdəsindən layiqincə gələ biləsiniz.

Komandir səhv etməmişdi. Doğrudan da, ermənilər həyasızlaşmış, səs çatan məsafələrdə basqınların, hədyan danışıqların sayı artmışdı:

– Ara, bela da turk olar? Bu qadar söyasan, o da sakitcə diyana?

– Ara, görünür, bunlar  asıl turk deyillar. Ona gora da başdarın çıxartmağa qorxullar.

– Məssəp haqqı, bunnarın dünyadan xavarı yoxdu. Ağdamın alındığın bilsalar, heç döyuşmazdar. Bir aya Kur çayının saxili də bizin olacax.

Hər gecə təkrarlanan iyrənc danışıqlar səkkizinci postda keşik çəkənləri lap təbdən çıxardı. Dişləri bağırsağını kəsən Namiq son qərarını verdi:

– Bunların ağzının payı verilməsə, çox baş aparacaqlar. Nəsə etmək lazımdır.

Arkadaş daha çox basqına, təhdidə məruz qalan səkkizinci postu gücləndirmək üçün əlavə qüvvə göndərəndə Namiqin elə bil çiçəyi çırtladı. İndi düşmən səngərinə gedib məsələni yerindəcə həll etmək olardı. O, niyyətini gələnlərə açıqladı:

– Umudvar, Nemət, Rəhman, post sizə əmanət. Əgər başımıza bir iş gəlsə, bizə köməyə gəlməyin, yerinizdə möhkəm dayanın.

Qar yağdığı üçün adi əsgər geyimində hərəkət etmək təhlükəli idi. Əsgərlər ağ maskalat geyinib düşmənin diqqətini cəlb edən ərazilərdən sürünərək keçməyə çalışdılar. Səngərə çatmağa bir neçə metr qalmış ermənilər basqından xəbər tutdular. İlk güllə səsi döyüşün başlanması üçün siqnal oldu. Çox yaxın məsafədən başları üzərindən ötən güllələr müdafiəçiləri səngərə yaxınlaşmağa qoymadı. Namiq onunla yanaşı uzanan silahdaşlarına diqqət yetirib bir qədər də irəli süründü. Torpaq qalağının iki addımlığına çatanda cəld bir hərəkətlə ayağa qalxıb səngərə tullandı, əlindəki döyüş bıçağını gözlənilməz hücumdan özünü itirən ermənininin böyrünə sapladı. Onun bağırtısına dönən saqqallı erməni silahını Namiqə tərəf çevirdi. Avtomatlar eyni anda dilləndi. Saqqallı erməni sinəsini tutub yerə yıxıldı. Namiq də yaralanmışdı, lakin huşu başında olduğu üçün ağrılarına baxmayaraq, səngərdəki digər erməniləri atəşə tutdu. Diləfruzla Vüqar səngərə atılanda böyük bir qüvvə ilə qarşılaşdıqlarını zənn edən digər ermənilər ölənlərə və yaralılara əhəmiyyət vermədən qaçdılar.

Namiqin yarası çox ağır idi. Nə qədər yardım göstərilsə də, qanı kəsmək mümkün deyildi. Diləfruz damar zədələndiyi üçün rezin qoşqudan istifadə edərək qanaxmanın qarşısını alıb yaranı bağladı. Yaralını səngərdə saxlamaq olmazdı. Nə qədər çətin olsa da, Diləfruz onu tibb məntəqəsinə gətirdi. Yaranı açıb müayinə etdi. Rezin açılan kimi qan fəvvarə vurdu. Diləfruzun əlləri, üst-başı qana bələndi. O, vaxtı itirmədən kəsilən damarı tutdu, buddan ayrılıb üzüaşağı sallanan qalın əti yaranın üstünə qoyub yenidən bağladı. Yaralının əhvalı bir qədər yaxşılaşdı, la-

kin Diləfruz tibbi təcrübəsindən bilirdi ki, bu aldadıcı bir məqamdır: xəstə hökmən xəstəxanaya köçürülməlidir.

Arkadaş çox çətinliklə Şirin Mirzəyevlə əlaqə saxlamağı bacardı. Polkovnik Gəncədə yerləşən rus alayından bir vertolyot ala bildi. Namiqi vertolyota mindirəndə Fəxrəddin Rəcəbov üzünü Diləfruza tutdu:

– Siz də gedin, onu tək buraxa bilmərəm.

Diləfruz komandirin sözünü çevirmədi. Sakitcə vertolyota mindi.

Ərzaq, silah qıtlığı çəkən dostlarının aqibətini düşündükcə siması daha da ciddiləşən Arkadaşı digər döyüşçülər kimi Diləfruzun da taleyi çox narahat edir, onun düşmən əlinə keçəcəyi fikrini nə qədər yaxın buraxmasa da, daxili narahatlığı günbəgün artır, bəzən Diləfruzun səngərdə keşik çəkməsini əngəlləməyə çalışırdı. Bir gün əvvəl Diləfruzu yanına çağırması da bu səbəbdən idi:

– Sizin işiniz burada kifayət qədərdir. Bundan sonra postlarda keşik çəkməyə getməyəcəksiniz.

Düzdür, Diləfruz onun sözündən alındı, lakin susmadı:

– Komandir, buradakı xəstələrə yardım vaxtında göstərilir. Bəs səngərdə yaralanan əsgərlərimiz necə olacaq? Onlara həmin vaxt kim kömək edəcək? – iradından sonra Fəxrəddin müəllim Diləfruza mane olmağı mənasız saydı. Çünki komandir bilirdi ki, istəmədiyi bir şeyi ona qəbul etdirmək mümkün deyil. Diləfruzu yola salan Arkadaşın üzündə indi məmnun bir ifadə vardı: sanki çiynindən ağır bir yük götürülmüşdü...

Diləfruz hərdən xəstənin nəbzini yoxlayır, qızdırmanın təsirindən sayaqlayan Namiqin alnına qoyduğu yaş tənzifi tez-tez dəyişirdi. Vertolyotun kiçik pəncərəsindən görünən ağ don geyinmiş meşələr ruhunu oxşasa da, bəzən ona elə gəlirdi ki, nəsə baş verəcək. Ağdama uçan vertolyot yönünü dəyişib sağ tərəfə istiqamət alanda Diləfruz sürücü heyətinin niyyətini o dəqiqə başa düşdü. Silahını əlinə alıb pilotların kabinəsinə daxil oldu, lüləni birinci pilotun kürəyinə dayadı:

– Yolu dəyişin. Biz Ağdərəyə deyil, Ağdama gedirik.

Üzündə istehzalı təbəssüm oynayan pilot, heç nəyə fikir vermədən yoluna davam edəndə Diləfruz:

– Erməniyə girov düşməkdənsə ölümü seçərəm, sizi də yaşatmaram, – deyib çaxmağı şaqqıldadanda pilotun rəngi ağardı və ikinci pilota baxdı. İkinci pilot başını tərpədəndə vertolyot yenidən istiqaməti dəyişdi, və yarım saatdan sonra Ağdam xəstəxanasına yaxın meydanda yerə endi. Yaralını aparmaq üçün gələn təcili yardım maşınının yanında dayanan adamların arasında Şirin Mizəyevi görəndə Diləfruz əzizini tapmış adamlar kimi sevindi.

* * *

Şirin Mirzəyev Diləfruzun qanlı paltarına, şaxtadan qarsanmış simasına baxıb astadan dedi:

– Qızım, çox yorğunsan, səni evinə ötürək, bir az dincəl.

Diləfruzun gözləri qarşısında ümidlə yol gözləyən silahdaşları canlandı. O, qəti qərarını verdi:

– Dincəlməyə vaxtım çox olacaq, yoldaş komandir. Yaralı əsgərlərimizin, korluq çəkən silahdaşlarımızın yol gözlədiyi bir vaxtda dinclik mənə haramdır. Kömək edin, geri qayıdım.

Polkovnik xeyli düşündü: bir tərəfdə ana həsrətli dörd azyaşlı uşaq, digər tərəfdə oğul gözləyən analar gözlərinin qarşısında canlandı. Qərar vermək çətin idi. O, Diləfruzun üzünə baxdı, elə zənn etdi ki, körpələr ətəyindən yapışaraq: "Getmə, ana!" – deyə fəryad qopardılar. Komandir bu hissin təsirilə dedi:

– Sizin əvəzinizə başqa bir əsgər lazım olan hərbi sursatı, ərzağı, dava-dərmanı aparar, siz evinizə gedin.

Diləfruz onun sözlərindən nə qədər darılsa da, ehtiram bəslədiyi polkovnikin qarşısında səbrini basdı, astadan, lakin qətiyyətlə dedi:

– Yoldaş, komandir, dava-dərmanı istənilən adam apara bilər, lakin yardım göstərməyi bacarmaz. Mən hökmən orada olmalıyam.

Polkovnik heç nə demədi. Diləfruz və digər döyüşçülərlə birlikdə kömək almaq üçün Ağdam Rayon Komitəsinin binasına yollandı. Raykom ağ saçlı, nurani bir şəxs idi. Şirin Mirzəyevin qəbula gəldiyini eşidən kimi içəri dəvət etdi. Polkovniklə birlikdə kabinetə daxil olanların arasında Diləfruzu görəndə çaşqınlıqdan gözləri böyüdü. Üzünü Şirin Mirzəyevə tutub həyəcanla soruşdu:

– Bu qadın kimdir? Nə üçün başdan-ayağa qan içindədir?

Komandir acı-acı gülümsündü:

– Yoldaş raykom, baxın. Qarşınızdakı qəhrəman bir Azərbaycan qadınıdır. Başqa millətlər rəşadətinə görə belə qadınlara qızıldan heykəl qoyarlar. Biz isə nəinki qızıldan, heç palçıqdan da heykəl yaratmaq qüdrətində deyilik. Çünki onun qəhrəmanlığını görmürük.

Raykom polkovnikin sözləri qarşısında susdu. Araya çökən sükutu yenə də onun mülayim səsi pozdu:

– Qızım, buraya niyə gəlmisən, nəyə ehtiyacın var?

Diləfruz sözünün kəsiləcəyindən qorxurmuş kimi birnəfəsə dedi:

– Umudluda qalan əsgərlərimizə çörək, yaralılarımıza dava-dərman, keşik çəkənlərimizə silah-sursat istəyirəm.

– Narahat olma, qızım, dediklərinin hamısı səhər tezdən hazır olacaq, – raykom onları yola saldı.

Hərbi hissədən Diləfruza yeni hərbi geyim, çəkmə verdilər. Səhər tezdən ərzaq, sursat və tibbi ləvazimatla dolu vertolyot Ağdamdan Umudluya yol aldı. Meşənin kənarındakı şumluqda yerə enən vertolyotdan bütün yüklər boşaldıldı, yarası ciddi olan yaralılar, soyuqdəymədən əziyyət çəkən əsgərlər və hələ də Umudlunu tərk etməyən bir neçə mülki şəxs vertolyotla arxaya göndərildi. Qalan əsgərlər gətirilən yardımı daşımaqla məşğul ikən bütün dava-dərmanı iri bir çantaya dolduran Diləfruz tibb məntəqəsinə çatmağa tələsdi. Vertolyotun havaya qalxmasına bənd imiş kimi on dəqiqədən sonra düşmən atəşə başladı. Güllə yağışı altında gətirilən ərzaqları daşımaq müm-

kün olmadı. Sonrakı günlərdə də əsgərlər şumlanmış sahədən heç nə götürə bilmədilər...

* * *

Aradan günlər keçdi. Arxa ilə adi telefon əlaqəsi də kəsildi. Lakin sayca çox az olsalar da, heç kim silahı yerə qoymadı. Bəzən başlarının üstündən ruslara məxsus kobra vertolyotları uçuşdu, amma heç bir döyüşçü geri durmaq fikrinə düşmədi. Ölümə tərk edildiklərini bildikləri halda, hamıda bir işıq ucu tapılacağına böyük ümid vardı. Əsgərlərimizin ərzaq qıtlığı çəkdiyini bilən düşmən bəzən ruslarla əlbir olub çörəyi şumluğa səpdilər, lakin heç bir əsgər onların yerə atdığı çörəyə tərəf meyillənmədi. Aclığın üstünə susuzluq da əlavə olunanda vəziyyət lap çətinləşdi. Əlac qarı əridib çay qaynatmağa qaldı. Arkadaşın nə vaxtsa cibinə atdığı cevizlər hamının ağzını dada gətirdi. Hər dəfə qaynayan çayın içinə az da olsa, qatılan ceviz ovuntusu ən dadlı çayı əvəz etdi.

Aclıq hamı kimi Diləfruzu da sınağa çəkdi. Günlərlə dilinin altından bir loğma keçmədi, amma o da digər silahdaşları kimi şikayətlənmədi. Tibb məntəqəsində ac oturduğu gecələrin az qala sayını da unutdu. Belə gecələrdən birində pəncərə döyüldü. Diləfruz silahını ayağa çəkib bərkdən səsləndi:

– Kimdir?

– Mənəm, Diləfruz bacı, pəncərəni açın, – o, tanış səsi eşidəndə silahı aşağı saldı. Pəncərəni açan kimi bir aşsüzən qıpqırmızı ət pəncərənin qabağına qoyuldu. Diləfruz təəccübləndi:

– Akif, bu ət haradan?

– Atı kəsdim, sizə də pay gətirdim.

Diləfruz eşitdiklərinə inanmadı, əsgərlərin yanından ayrılmayan at gözlərinin qarşısında canlandı. Bir qədər kövrəldi də. O, əlini aşsüzənə vurmadan dedi:

– Bunu buradan apar, özünüz qaynadıb yeyin.

Akif təəccübləndi:

– Bəs siz? Belə getsə, aclıqdan ölərsiniz ki?

– Mənə heç nə olmaz, – sözlərini Diləfruz elə əminliklə dedi ki, gənc döyüşçü etiraz edə bilmədi.

Əsgərlərin növbəti ovu erməni kəndindən azıb gələn donuz oldu. Donuzun görkəmindən iyrənən Diləfruz aclıqdan əziyyət çəkməsinə baxmayaraq, ətindən dadmadı. Günlərsə öz axarında davam edirdi. Keşik çəkənlərin sayca azlığı da postlarda növbəni vaxtında dəyişməyə imkan vermirdi. Bir tərəfdən aclıq, digər tərəfdən sərt hava döyüşçüləri üzüb əldən salırdı. Belə gecələrdən birində səkkizinci postda keşik çəkən üç əsgər birdən yoxa çıxdı. Kəşfiyyatçılar güman gələn bütün yerlərə baxsalar da, onlardan bir iz tapılmadı. Komandir yenidən kəşfiyyatçılara müraciət etdi:

– Bacardıqca düşmən mövqelərinə yaxınlaşın, onları duyuq salmadan məlumat öyrənməyə çalışın. Gətirəcəyiniz xəbərə əsasən qərar qəbul edəcəyik.

Kəşfiyyatçıların komandiri Əkbərin planı ilə üç nəfərlik kiçik dəstələr müxtəlif istiqamətlərdə kəşfiyyata yollandı. Əkbər özü ilə Sənanı və Talehi götürdü. Postlarını Umudluya bir qədər də yaxın çəkən düşmən səngərindən səs gəlmirdi. Kəşfiyyatçılar səngərin içi ilə bir qədər də irəli süründülər... Qalın kürkə bürünüb canını qızdırmaq üçün butulkanı başına çəkən erməni qarşısında Talehi görəndə dili topuq vurdu. Üzünə yaltaq ifadə verərək:

– Ara, Talex, bu sənsən? Burda olduğunu bilmirdim. Gəl, gəl otur, bu araxdan bir qurtumuna iç. Vallax, özüm çəkmişəm, təmiz tut arağıdır. Bilirsən də, belə xavalarda adamın köməyinə gəlir, – deyərək vaxt qazanmağa çalışdı. Taleh dinmədi. Erməni arxada hənirti duyub geri boylandı. Gözü Əkbərlə Sənana sataşanda onun bütün ümidləri boşa çıxdı və anladı ki, bir qədər əvvəl içib-keflənən yoldaşları köməyinə yetməyəcəklər. Qorxudan titrəməyə başladı, dizləri üstə çöküb yalvardı:

– Talex, səni kəsdiyimiz duz-çörəyə and verirəm, məni öldürmə. Nə istəsən, deyərəm.

Əkbər ikrahla kənara tüpürdü:

– Qorxaqlığına bax, postda durmağına bax. Nə soruşsam, düzgün cavab ver.

– Baş üsstünə, bbaş üstünə, – erməni kəkələdi.

– Dünən postdan tutulan əsgərlərimiz haradadır?

– Məssəp haqqı, bilmirəm. Onları rusdar tutub apardılar.

– Rusların burada nə işi var? Onları sizmi çağırıbsız? – Əkbər qəzəbini boğa bilməyib yaxasından yapışanda erməni bir qədər də cılızlaşdı:

– Vallax, yox. Özdari gəlib bizimkilərlə birlikdə plan hazırradılar. Bir gecədə sizin xamınızı əsir alacaxlar.

Əkbər rişxəndlə gülümsündü:

– Nə vaxt hərəkətə keçəcəklər?

Dil-dodağı əsən erməni həyəcanla cavab verdi:

– Sabax Gəncə qarnizonundan yeni döyüşçülər gətiracaxlar. Ama, vallax, nə vaxt hucum edacaxların bilmaram.

Araya sükut çökdü. Erməni yenə yalvardı:

– Na olar, məni öldurmayın. Bax nə bilırdımsa, dedım. Axı balalarım var.

Sənan yumruqlarını düyünlədi:

– Bəs öldürdüyünüz əsgərlərimizin, dinc sakinlərin balaları yox idi? Bu dəqiqə sənin böyük tikəni qulağın boyda edəcəm.

Qulaq sözünü eşidən erməni əli ilə qulağını tutanda Əkbər Sənanın qarşısına keçdi. Taleh əsirin əl-qolunu bağlayıb ağzına əsgi tıxadı. Çiyninə alıb öz postlarına tərəf gətirdi.

Kəşfiyyatçıların gətirdiyi məlumat Arkadaşa qəti qərar qəbul etməkdə yardımçı oldu:

– Hazırlaşın, gecə ilə buradan çıxmalıyıq.

Əsgərlərdən biri:

– Bu vəziyyətdə necə çıxa bilərik?- sualını verəndə komandir sözünü kəsə dedi:

– Burada qalmaq da ölümdür, getmək də. Amma getməliyik. İşıq ucu görünən yerə pambıq tıxamayaq.

Əsgərlərin narahat baxışlarını görən Arkadaş onları sakitləşdirdi:

– Narahat olmayın, Şəfayətlə birlikdə neçə gündür, bu barədə plan cızırıq. Yolumuz təhlükəlidir. İki düşmən postunun arasından keçib Ağdabana çatmalıyıq. Düzdür, qorxulu yollardır, lakin unutmayaq ki, Umudludan olan döyüşçülərimiz Elçin, Taleh, Rəhman, Şümşad kişi, Hüseyn, ən vacibi isə bu dağların bütün cığırlarına bələd olan Seyid Məhəmməd bizimlədir...

* * *

Ertədən başlayan qar getdikcə güclənirdi. Havanın bozarması  Fəxrəddinin qanını qaraltsa da, yola düşməzdən əvvəl övladı qədər sevdiyi əsgərlərinə dedi:

– Çətin bir səfər bizi gözləyir. Yolumuz sıldırım qayaların üstündən, dar keçidlərdən, qarlı aşırımlardan keçəcək. Düşməni duyuq salmadan səssiz, lakin cəld hərəkət etməliyik. Yolda dayanmaq ölümə bərabərdir. Bələdçinin (o, Seyid Məhəmmədi nəzərdə tuturdu) açdığı cığırdan çıxmağa cəhd göstərməyin, – danışa-danışa əsgərlərini süzən Arkadaş Diləfruza baxanda səsinin tonunu dəyişdi, – çətin günlərimizdə həyanımız olan bir bacımız da bizə əmanətdir, bunu unutmayın. Bir-birimizə dayaq olmalıyıq. Hamıdan arxada mənimlə Şəfayət gələcək...
Getmək vaxtıdır, qardaşlar, Allah yolumuzu açıq eləsin!

Əsgər paltarının üstündən ağ maskalat geyinən müdafiəçilər belə bir gecədə:

– Bismillah!, – deyərək yola çıxan Seyid Məhəmmədin arxasınca düzüldülər. Yetim qalan hər bir evin yanından keçəndə ayaqlarını sürüyənlər də az olmadı. Bacası tüstüsüz evlər elə bil dil açdı: “Getməyin!” – deyə yalvardı. Geridə qalan evlərə boylana-boylana gedənlərdən biri də Şümşad kişi idi. Kəndin qurtaracağındakı evə çatanda o özünü saxlaya bilmədi. Dizləri üstə çöküb boğuq-boğuq hönkürdü. Qarı eşələyib buza dönmüş torpağı bıçaqla qazıdı, bir ovuca sığa biləcək qədər torpağı öpüb cib dəsmalına bükdü. Onun kövrəldiyini görən Taleh aşağı əyildi:

– Ata, biz həmişəlik getmirik ki... Üzülmə, yenidən qayıdacağıq, – deyib onun qolundan yapışdı.

Gözlərinin yaşını silən Şümşad kişi daha da kövrəldi, ürəyinə dammış kimi pıçıldadı:

– Eh, ay oğul, mənim buna ömrüm çatacaqmı?

Bu da Umudlunun son postu... Dəstə buradan – Torağay çayının sol sahilindən üzüyuxarı – dağlara qalxmalı idi. Ağdabana gedən ən uzaq, lakin qismən təhlükəsiz yol məhz bu dağlardan keçirdi. Belə soyuq qış gecəsində dağlara qalxmaq hamıdan cəsarət, güc tələb edirdi. Düşmən postlarını adlamaq üçün böyük bir məsafəni sürünə-sürünə qət etmək isə vəziyyəti daha da çətinləşdirdi.

Seyid Məhəmməd qarda, çovğunda bu dağlardan az keçməmişdi. Qar uçqunu gözlənilən yerləri də yaxşı tanıyırdı. Dağ adamı olduğuna görə üzüyuxarı qalxmaq onu qətiyyən qorxutmurdu, lakin bir-birinin arxasınca düzülən əsgərlər üçün bu çox çətin idi. Aterk və Tonaşen kəndləri arasında yerləşən düşmən postuna çatmamış bir-birindən bir neçə metr aralı gələn əsgərlərə qarın üstü ilə sürünmək əmri verildi. Əvvəldən qərarlaşdırıldığı kimi komandir Fəxrəddinlə köməkçisi Şəfayət hamıdan arxada idi. Qar şiddətləndikcə irəliləmək çətinləşirdi. Seyid Məhəmmədin növbəti xəbərdarlığından sonra hamı bildi ki, düşmən postuna çatmağa lap az qalıb. Belə havada ermənilərin başlarını çölə çıxaracağını güman etməsələr də, əsgərlər ehtiyatı əldən vermək istəmədilər, əllərini, ayaqlarını şaxta dondursa da, dayanmadan irəlilədilər. Bəzən kimsə ayağa qalxıb yerimək istəsə də, xəbərdarlığı yada salıb yenidən sürünməyə məcbur oldu. Soyuğa tab gətirməyən bəzi döyüşçülərə yardım etmək də xeyli vaxt aldı. Yola düşərkən hər çətinliyi gözə alan komandir növbəti əsgərin üzüqoylu düşdüyünü görüb onu arxası üstə çevirdi. Danışmağa heyi olmayan gənc:

– Əllərimi, ayaqlarımı hiss etmirəm,- sözlərini dilə gətirəndə o, qarla silahdaşının əllərini, ayaqlarını ovuşdurdu. Əsgər hərəkətə gələndə dəstədəkilər onlardan xeyli uzaqlaşmışdılar. Komandir:

– Qardaş, dayanma, hərəkət elə, – deyərək özü də ona irəlilə-

məkdə kömək etdi, – bax az qalıb. Çətini bu ərazini keçməkdir. Dəstə iki postun arasına çatanda atəş səsi eşidildi. Hamı elə zənn etdi ki, düşmən, yəqin ki, onları görüb. Əsgərlər yerlərindən tərpənmədən silahı hazır vəziyyətə gətirdilər. Amma qarşı tərəfdən əlavə heç bir hərəkət görünməyəndə başa düşdülər ki, bu, ermənilərin ayıq olduqlarını bildirmək üçün işlətdikləri növbəti fənddir. Bir qədər qabaqda yerləşən qayaya qədər sürünən əsgərlərə on dəqiqə dincəlmək icazəsi verildi. İki kilometr yüksəklikdə yerləşən Qaragölə sərt aşırımlardan keçərək çatmaq hünər istəyirdi. Bələdçinin bu barədə məlumatını dinləyən komandir qayanın altında dincini alan əsgərlərə xəbərdarlıq etdi:

– Yolun neçə günə bitəcəyi məlum deyil. Sərt hava bizə yaxşı heç nə vəd etmir, amma dözməliyik. Keçilməz aşırımlarda, sıldırım qayalarda, dar keçidlərdə dözüm göstərməliyik. Bacardıqca çevik və iradəli olmalıyıq.

Qayanın altından üzüyuxarı qalxan cığırı müəyyənləşdirən Seyid Məhəmmədin arxasınca düzülən əsgərlər səs salmadan qara bata-bata birtəhər addımladılar. Bələdçi çox təhlükəli ərazidən keçdikləri barədə arxadakılara məlumat ötürəndə hamı bildi ki, uçurumun üstü ilə gedirlər. İzdən kənara çıxmaq qətiyyən olmaz. Üzüyuxarı qalxmaqdan taqəti çəkilən əsgərlərin nəfəsini həm də qarın soyuğu, qışın sazağı kəsirdi. Elə bu vaxt kimsə zarıldadı və onun:

– Lənətə gəlsin bu həyat, sürünərək yaşamaqdan ölüm yaxşıdır, – sözlərinin ardınca yumşaq şaqqıltı səsi eşidildi. Ehtiyatı əldən verib bir az kənara çıxan əsgərin ayağı altında qar ovuldu. O, arxası üstə yıxıldı və ovuntu ilə bərabər üzüaşağı endi. Onun dalınca gələn əsgərlər dayandılar. Hamıya elə gəldi ki, bu dəqiqə qar laylanacaq, bir göz qırpımında hər şey bitəcək. Amma xoşbəxtlikdən qar laylanmadı. Sənan bir qədər irəli sürünüb aşağı boylanmağa çalışdı.

– Dayan, sən nə edirsən, – ondan azca arxada gələn Rəhman astadan səsləndi, – sən də onun dalınca getmək istəyirsən?

Sənan geri çəkiləndə çox yaxın məsafədən zarıltıya bənzər səs gəldi:

– Kömək edin!

Uçurumun bir addımlığındakı kola ilişib qalan əsgəri görən Sənanın gözlərində sevinc işartıları parıldadı:

– Qorxma, səni oradan çıxaracam. Yerindən tərpənmə.

O, ehtiyat üçün həmişə yanında gəzdirdiyi ipdən kəmənd hazırladı, halqa gəncin çiyinlərindən sürüşüb kəmərinə endi. Arxadan özünü yetirən Rəhman ipdən yapışanda Sənan minnətdarlıqla başını tərpətdi. Uçuruma qədər məsafənin qismən maili olması onların işini bir qədər yüngülləşdirdi. Xilas edilsə də, ölümün naqafil pəncəsini duyan gəncin dişləri həyəcandan şaqqıldadı...

Seyid Məhəmməd arxasınca gələnlərə növbəti xəbərdarlığı etdi:

– Səs-küy salmadan buranı tez keçməliyik. Adi ehtiyatsızlıq fəlakət gətirər.

O, yenidən yoluna davam etdi. Onun cəsarətlə addımlaması əsgərləri ruhlandırdı. Bir kəlmə də danışmadan hamı Seyid Məhəmmədin arxasınca irəlilədi. Qar uçqunu gözlənən ərazini təzəcə keçmişdilər ki, erməni postlarından dalbadal açılan güllə səsləri dağlarda əks-səda verdi. Əks-sədanın arxasınca qorxunc bir gurultu ətrafı bürüdü. Hamıdan arxada gələn komandir avtomatın süngüsünü var gücü ilə yerə sancdı. Üzüaşağı laylanan qar uçqununun əl-ətəyi onu yüngülcə tutdu. Hər şey elə ani oldu ki, komandirindən on-onbeş metr irəlidə gedən Şəfayət ona kömək etməyə macal tapmadı. O, Fəxrəddin müəllimi salamat görəndə əlini ürəyinin başına qoydu. Geriyə boylanan Seyid Məhəmməd arxasınca gələnlərə nəzər yetirdi:

– Salamatlıqdırmı?

Komandir təmkinlə dilləndi:

– Salamatlıqdır, Seyid, yaxşı qurtardıq.

Gurultuya bənd imiş kimi ermənilər yenidən susdular. Qarşıdakı sıldırım qayaya çatanda bələdçi istiqaməti dəyişdi. Sağ tərəfə gedən yol azacıq maili olduğu üçün oradan yuxarı qalx-

maq daha rahat idi. Qarın altından görünən kollar da köməyə çatırdı. Üzüyuxarı getdikcə üst-üstə yağan qarın qalınlığı daha da artırdı.

Ac, yuxusuz əsgərlər Qaragölə çatanda qar çoxdan kəsmiş, səhər açılmışdı. Hava nə qədər sərt olsa da, daim hərəkətdə olduqları üçün heç kimi don vurmamışdı. Komandir onların yorğun simasına baxıb gülümsündü:

– Bir az da dözün, uşaqlar. Yolu yarı eləmişik, - sonra Seyid Məhəmmədə tərəf döndü, – indi hansı istiqamətdə hərəkət etməliyik?

– Çayqovuşana enməliyik. Oradan Qara qayaya qalxmaq daha münasibdir.

Komandirin:

– Haydı, yolçu yolda gərək, tərpənin! – əmrindən sonra az da olsa, dincələn əsgərlər yola düzəldilər. Üzüyuxarı qalxmaq nə qədər çətin idisə, sıldırımlı yollarla üzüaşağı enmək daha qorxulu idi. Adi bir büdrəmə uçuruma açılan qapı idi. İki kiçik dağ çayının – Buzluq və Qurdlusuyun qovuşduğu əraziyə çatanda hamı kimi Diləfruz da ayaq saxladı. Özünə yol açaraq daşların arasından süzülən suların zümzüməsi yuxuya getmiş körpəsinə layla çalan ananı xatırlatdı. Nəğmənin həzin sədası ilə uyuyaraq bəyaz yorğanını başına çəkən dağların əzəməti ona hər şeyi unutdurdu. Bu bəyazlığın nurunda qışın soyuğu da, düşmənin məkri də, ölümsaçan güllələr də, dibsiz uçurumlar da yoxa çıxdı. Hər çiçəyinə sığal çəkdiyi yamyaşıl çəmənlər gənc qadını ağuşuna aldı. Şümşad kişinin:

– Qızım, niyə dayandın?- sualı onu xəyaldan ayırdı.

– Heç, – deyib Diləfruz bir adamın gedə biləcəyi dar cığırla irəlilədi. Birdən-birə ona elə gəldi ki, ucu-bucağı görünməyən bu qarlı dağlar qeyzə gələrək qarşısına çıxan hər şeyi məhv edəcək, geriyə dönüşü olmayan uçurumlar son sığınacaqları olacaq. O, göz qapaqlarının ağırlaşdığını hiss etdi, nə vaxt dizləri üstə düşdüyündən xəbəri olmadı. Arxada gələn əsgər ona çatmamış Diləfruz ayağa qalxdı, zorla da olsa, əlindəki silaha

söykənərək irəli addımladı. Taqəti tükənən əsgərlərin tez-tez büdrəməsi, dizlərinin bükülməsi Fəxrəddin Rəcəbovun diqqətindən yayınmadı. Qərara aldı ki, qarşılarına çıxan ilk daldanacaqda bir qədər dincəlsinlər...

Qara qayaya doğru uzanan sıldırımlı cığırlar, elə bil ki, yolçulara qəsdən yol vermirdi. Üzüyuxarı qalxmaq çətinləşdikcə əsgərlərin olan-qalan taqəti də çəkilir, bəziləri yerindən tərpənmək istəmir, lakin arxadan gələn silahdaşlarının qarşısını kəsməmək üçün bütün qüvvəsini səfərbər edib silahına dayanaraq irəliləyirdi. Seyid Məhəmməd cığırın nisbətən genişləndiyi yerdə dayandı, digərlərinin gəlib çatmasını gözlədi. Fəxrəddin Rəcəbov zorla yeriyən əsgərlərinə baxıb qəti şəkildə dedi:

– Dincəlmək üçün bir sığınacaq tapmasaq, bu dağları heç birimiz aşa bilmərik.

Bələdçi gülümsündü:

– Elə ona görə ayaq saxladım. İyirmi metr yüksəlikdə otuz-qırx nəfərin sığına biləcəyi bir mağara var, amma, – o, dilini sürüdü, – amma oraya qalxmaq hər adamın işi deyil. Hava tam qaralmamış çatsaq, yaxşı olar. Doğrudan da, girintili-çıxıntılı qayalarla üzüyuxarı dırmaşmaq çox çətin idi, lakin bütün çətinliklərə baxmayaraq, dəstə istənilən məsafəni qət etməyi bacardı. Mağaranın dar oyuğundan hamıdan əvvəl bələdçi keçdi. Əl fənəri ilə içərini işıqlandırdı. Təhlükəsizliyə tam əmin olandan sonra döyüşçülər bir-bir mağaraya daxil oldular. Mağaranın havası çölə nisbətən mülayim idi, içərisi xəzəllə döşənmişdi. Ortasında nə vaxtsa qalanmış ocaq da vardı. Hiss olunurdu ki, bura ovçuların gecələdiyi yer olub. Seyid Məhəmməd mağaraya bələd olduğu üçün divarın dibinə yığılmış odunları da hamıdan əvvəl gördü. Quru odunlar alışınca mağaranın havası ilindi. İki gecə yuxusuz yol gələn əsgərlər yerə döşənmiş xəzəllərin üstündə şirin yuxuya getdilər. Kürəyini divara söykəyib düşüncələrə qərq olan Diləfruzun isə yuxusu ərşə çəkilmişdi. Gözlərini yumsa da, uzun müddət yata bilmədi. Körpələrini xatırladı. Balaca Pərvanəni yadına salanda dodaqları qaçdı. Elə

zənn etdi ki, özünə yer eləmək üçün yenə də anasının qoynuna sığınan Elnurun paltarını dartışdırır. Bu xəyallar içində nə vaxt yuxuya getdiyindən xəbəri olmadı. Şümşad kişinin öskürəyi hamı kimi Diləfruzu da yuxudan oyatdı. Mağaranın ortasındakı ocaq çoxdan sönmüş, hava işıqlanmışdı.

* * *

Polkovnik Mirzəyev özünə yer tapa bilmirdi. İyirmi güngən artıq idi ki, Umudlu ilə əlaqə kəsilmişdi. Dörd tərəfdən düşməni öz üzərinə çəkərək digər Azərbaycan kəndlərinin müdafiəsini asanlaşdıran onlarla döyüşçünü taleyin ümidinə buraxmağı qəbul etməyən polkovnik dəfələrlə müraciət etməsinə baxmayaraq, Umudluya getmək üçün vertolyot ala bilmədi. Gəncədəki hərbi qarnizonun rəhbəri dəfələrlə bir bəhanə ilə verdiyi sözdən qaçdı. Komandir ümidini saatlarla radiocihazın yanından ayrılmayan rabitəçinin deyəcəyi xoş xəbərə bağladı, amma nə qədər səy göstərsə də, telefonçu Umudlu ilə əlaqə yarada bilmədi. Telefon xəttində arabir qıjıltı eşidilsə də, onun çağırışlarına cavab gəlmədi. Ümid dolu baxışlar üzünə dikiləndə o, çox vaxt göz qapaqlarını qaldırmadı.

Yuxusu qaçaq düşən polkovnik dəfələrlə səhəri hərbi hissənin həyətində açdı. Bəzən ona elə gəldi ki, Umudlu bir əjdaha kimi silahdaşlarını kamına çəkib. Amma tezliklə də bu fikri özündən uzaqlaşdırdı. Dost, qardaş, övlad kimi sevdiyi silahdaşlarını salamat görmək ümidi ilə bir işıq ucu axtardı. Rabitəçinin:

– Yoldaş komandir! – çağırışını eşidəndə otağa nə vaxt girdiyindən özünün də xəbəri olmadı. Rabitə qovşağında kimsə ermənicə danışır, tez-tez "Umudlu" sözünü təkrarlayırdı. Rabitəçi bu danışıqdan bir şey başa düşməsə də, baxışlarını polkovnikin üzündən ayırmadı. Xankəndində doğulub böyüdüyü üçün erməni dilini mükəmməl bilən Mirzəyevin danışığı dinlədikcə üz əzələlərinin səyriməsindən rabitəçi mühasirədə qalanlardan xoşagəlməz bir xəbər verildiyini hiss etdi. Polkovnik cihazın səsini kəsib stula çökdü, gözlərini yumdu:

– Hər şey bitdi, – kəlməsi dodaqlarının arasından zorla çıxdı. Döyüş dostları bir-bir xəyalında canlandı. Birdən ona elə gəldi ki: “Yoldaş komandir, mən orada olmalıyam”, – deyən Diləfruz qarşısında dayanıb, yenə də əlləri, paltarı qan içindədir. Ətrafını bürüyən körpələri isə: “Ana, getmə!”- deyə haray çəkirlər. Polkovnik ağır-ağır stuldan qalxdı və yalnız bu sözləri deyə bildi:

– Umudlu düşmənin əlindədir.

– Bəs bizimkilər?

Polkovnik susdu, lakin daxili bir hiss ona bu xəbərin doğru olmadığını israrla pıçıldadı. O, kəskin hərəkətlə qapıdan çıxdı. Maşını raykom binasının həyətinə sürdü. Ağsaçlı raykom katibi onu dinləyib kömək edəcəyinə söz verdi.

Gəncə qarnizonundan göndərilən vertolyot bir saatdan sonra Umudlu səmasında dövrə vurdu. Döyüşçülərin olduğu ərazilər lap aşağıdan müşahidə edildi. Kənd boş idi; Umudluda polkovnikin nə öz döyüşçülərindən, nə də erməni yaraqlılarından bir nişanə vardı. Qəlbini şübhələr didsə də, o, əsgərlərinin əsir düşməsi haqqında ermənilərin yaydığı məlumatı qəbul edə bilmədi. Öz-özünə qətiyyətlə pıçıldadı:

– Onların əsir düşməsi xəbəri uydurmadır, düşmən təxribatıdır. Harada olsalar, gec-tez gəlib çıxacaqlar.

– Ailələrinə xəbər verəkmi? – sualını eşidəndə Mirzəyev qəti şəkildə etiraz etdi:

– Bir qədər də gözləyək, əmin olmadığımız məlumatı ötürməyə dəyməz, gözləyək!

* * *

Gecəni yatıb dincələn əsgərlər Qara qayadan Çilik yalına qədər olan cığırı birnəfəsə enməyə çalışdlıar. Dəstə üzvləri yenə də müəyyən məsafə saxlayaraq Seyid Məhəmmədin arxasınca düzüldülər. Elə bu vaxt əsgərlərdən birinin ayağı nəyə isə ilişdi. O, yerindən tərpənə bilmədi. Özündən asılı olmadan iyirmi-iyirmibeş metr qabaqda gedən döyüşçünü səslədi:

– Hüseyn, mənə kömək elə!

Onun səsi dağlarda əks-səda verdi. Arxasınca gələn Rəhman dişlərini bir-birinə sıxaraq:

– Sss, – deyə xəbərdarlıq edəndə əsgər təəccübləndi:

– Burada ki erməni yoxdur. Postlardan aralanmışıq da...

– Yuxarı bax, gör hara ilə gedirik. İstənilən vaxt qar uçqunu ola bilər, – Rəhman əli ilə dağın zirvəsini göstərdi.

– Öz-özünəmi?

– Həm öz-özünə, həm də səs dalğasından.

Gənc susdu. Çilik yalına enən dəstənin qarşısında indi daha çətin keçilən aşırım – Daşarası dayanmışdı. İri qaya parçalarının arsından bir nəfərin zorla – yanpörtü keçdiyi bu aşırımı adlamaq çoxları üçün möcüzə idi. Seyid Məhəmməd üzünü göylərə tutdu:

– Ya Allah, özün kömək ol!

Onun ardınca sıralanan əsgərlər bu ərazini keçincə indiyə qədər yaşamadıqları təhlükələrlə qarşılaşdılar. Lakin həyat eşqi bu təhlükələri dəf etməkdə onların yardımçısı oldu. Hava qaralana yaxın çatdıqları mağara isə daldalanmaları üçün yolçulara Allahın növbəti lütfü idi...

Ertəsi gün günortaya yaxın Dükanlar adlanan yerdə nə vaxtsa tikilmiş kiçik evlər əsgərlərə həyat mənbəyi kimi göründü. Lakin bələdçi burada dayanmağı məsləhət bilmədi:

– Bura çox təhlükəlidir. Ağdabana çatmaq üçün bir aşırım qalır. Düzdür, yolumuz yenə sərt yoxuşlardan keçəcək, Sarı dağı aşmaq üçün iki kilometrlik bir məsafəni qət etməliyik, amma dayanmamalıyıq. Yuxarıdakı erməni kəndlərinin gözündən yayınmaq üçün yolumuza həm də gecə davam edəcəyik...

Kilometrlərlə dağ yollarını geridə qoyan əsgərlər uzaqdan Ağdaban kəndinin ilk evləri görünəndə ayaq saxladılar. Hətta bir qədər oturub dincini almaq istəyənlər də oldu, amma Fəxrəddin müəllim buna icazə vermədi. İlk həyətə çatanda iki gün əvvəl kəsən qar dənəcikləri yenidən nazlana-nazlana havada süzməyə başladı...

* * *

Səhər tezdən oyanan Gülbəniz Elnurun ağlamaq səsinə içəri daxil oldu:

– Şahzadəm, sənə nə olub, niyə ağlayırsan? – deyib uşağı qucağına aldı. Əlini qapıya uzadan körpənin göz yaşlarına dözə bilmədi, qızlar oyanmasın deyə xısın-xısın ağladı. O, Elnuru sakitləşdirmək üçün termosdan bir stəkan çay süzüb içinə qənd saldı, amma uşaq nə çaya baxdı, nə də xalasının yalvarışlarına, daha ucadan ağlayıb yenə əlini qapıya uzatdı. Gülbəniz, adəti üzrə, onu belinə aldı. Sakitləşdirmək üçün bir az həyətdə gəzdirmək istədi. Elnurun səsinə oyanan Könüllə Samirə də əyinlərini geyinib qapıdan çıxmaq istəyəndə Gülbəniz mane oldu:

– Xala qurban, çöl soyuqdur. Mən Elnur ovunan kimi gələcəyəm. Həm də hələ çox ertədir, gedin bir az da uzanın. Bax bir azdan nənə də gələcək.

Samirə heç nə demədən otağa qayıtdı, Könül isə ayaqlarını sürüdü. Gülbəniz təəccüblə soruşdu:

– Nə olub, Könül, nəsə demək istəyirsən?

Könül başını tərpətdi.

– Hə, de görüm.

Elnur da səsini kəsib bacısının üzünə baxdı.

– Xala, yuxuda qaranquş gördüm. Bax burada yuva qurmuşdu, – o, əli ilə evin divarını göstərdi, – yuvada dörd bala vardı. Elə cikkildəyirdilər ki, adamın yazığı gəlirdi.

Gülbənizin ürəyi sancdı:

– Sonra nə gördün?

– Heç nə. Elnurun səsinə oyandım.

– Allah özü xeyir eləsin, – pıçıldayaraq Gülbəniz həyətə endi. Qapını açıb küçəyə çıxmaq istəyirdi ki, anası ilə qarşılaşdı. Eyzangül gülümsünərək:

– Deyəsən, yenə də şahzadəni səhər gəzintisinə çıxarıbsan. Hava soyuqdur. Uşağı çöldə çox saxlama, – o, həyətə girdi. Nənələrinin səsini eşidən qızlar onu eyvanda qarşıladılar. Eyzangül gətirdiyi südü qazana töküb qazı yandırdı. Qaynayan

çaydanı bir kənara çəkib çayı dəmlədi. Süfrəni hazırlayıb hələ də şirin yuxuda olan Pərvanəyə tərəf əyildi, saçlarını tumarlayıb alnından öpdü. Gözlərini açan qızcığaz qollarını onun boynuna dolayanda Eyzangül kövrəldi, Diləfruzu yola saldığı günü xatırladı. Xeyir-dua istəyən qızına dediyi sözlər qulaqlarında cingildədi: "Sən şəhid olsan, ağlamayacağam". O, dərindən ah çəkib neçə vaxtdan bəri analarından xoş bir xəbər gözləyən nəvələrinə baxdı. Nisgil qonan bu gözlərdəki kədəri uda bilmədi, astaca pəncərəyə yaxınlaşdı. Hiss etdi ki, ürəyində bir boşluq yaranıb və onu yalnız Diləfruzun gəlişi doldura bilər.Pərvanə ətəyindən dartanda Eyzangül xatirələrdən ayrıldı.

Əyilib sığal gözləyən nəvəsinin saçlarından öpdü. Gülbənizlə Elnur gələndə hamı süfrə arxasında əyləşmişdi.

Səhər yeməyi həmişəkindən fərqli olaraq, çox sakit keçdi. Süfrə yığışdırılandan sonra Eyzangül qızına baxıb astadan dedi:

– Bala, ertədən xəmir yoğurmuşam, bir azdan acıyar, gərək təndiri qalayım.

– Məni də gözlə, ana, – Gülbəniz ayağa qalxdı, yanından ayrılmayan Elnuru dilə tutdu, – sən bacıların yanında qal, mən nənəyə kömək edib sənə də isti təndir çörəyi gətirəcəm.

Elnur ipə-sapa yatmayanda yenə də onu belinə aldı, anası ilə bərabər qapıdan çıxanda ürəyinə nəsə dammış kimi qızlara bərk-bərk tapşırdı:

– Evdən çölə çıxmayın, qapını heç kimə açmayın, tez gələcəm...

* * *

Təndir çörəyinin ətri həyəti bürümüşdü. Eyzangül ilk çörəyin kənarından bir əlcə kəsib Elnura uzatdı. Uşaq çörəyi almaq istəməyəndə:

– Nənə qurban, sən ki heç vaxt belə eləməzdin, – deyib uşağı dilə tutdu, – al, dərdin ürəyimə.

Eyzangül yaylığının ucu ilə gözlərini quruladı, kürlük edən

nəvəsinə baxıb ah çəkdi. Gülbəniz əlindəki çörəkdən bir dişlək alıb ağzında saxlayan Elnuru yun şalla belinə sarıdı, isti çörəklərdən ikisini dəsmala büküb qucağına aldı. Gedə-gedə:

– Ana, atamgilə yemək verəndən sonra Diləfruzgilə gələrsən, – dedi və anasının sual dolu baxışlarını görəndə sözünü tamamladı, – bu gün nədənsə çox narahatam, heç səbəbini də bilmirəm.

Gülbəniz həyət qapısını açanda içəridən Samirənin ağlamaq səsini eşitdi. O, pilləkənləri necə çıxdığını bilmədi, qapını dartdı: içəridən bağlı idi. Həyəcanla:

– Könül, Könül, qapını aç! – dedi.

Qapının rəzəsi şaqqıldadı: Samirə idi. Gözləri ağlamaqdan qızarmışdı. Balaca Pərvanə bir küncə qısılan Könülün qarşısında dayanıb hıçqırırdı. Gülbəniz Elnuru belindən açıb yerə qoydu, küncə yaxınlaşanda təəccübdən və qorxudan yerində donub qaldı. Könülün alt dodağı partlamış, yaradan axan qan yaxasına tökülmüşdü.

– Quzum, səni kim bu hala salıb?- Gülbəniz hələ də özündə olmayan qızın çiyinlərindən tutub silkələdi. Onun maddım-maddım baxdığını görəndə su istədi. Samirə cəld bir stəkan suyu ona uzatdı. Lakin Könülün kilidlənmiş dişlərini açmaq mümkün olmadı. Burnuna naşatır spirtində işlanmış pambığı tutanda qızın gözləri yumuldu, əzələləri boşaldı, sağ böyrü üstə yerə sərildi, ovcunda gizlətdiyi əzilmiş vərəq yerə düşdü. Gülbəniz vərəqi açdı, oxuduqca gözləri böyüdü, acı bir hönkürtü otağı dolduranda uşaqlar da ona qoşuldular...

Eyzangül həyət qapısına çatanda evdəki ağlamaq səsi qulağını dəldi. Həyəcandan dişləri bir-birinə dəydi. Əlləri əsə-əsə qapını açdı. Hələ də özünə gəlməyən Könülün başını dizi üstünə alıb ağlaya-ağlaya:

– Könül, qadan alım, aç gözlərini, – deyən Gülbənizə yaxınlaşdı. Onu görəndə ucadan hönkürən qızına təpindi:

– Bir az təpərli ol, hay-küy salıb uşaqları qorxutma. Get, atana de, həkim çağırsın. İnşallah, hər şey keçər.

Gülbəniz kağızı yaxasında gizlədib ayağa qalxdı, hiss etdi ki, anasına bu xəbəri deməyi bacarmayacaq. Qeyri-ixtiyari atasının arxasınca yollandı, onu həyətdə görən kimi boynuna sarıldı.

– Ata, daha Diləfruz yoxdur, – qız acı fəryadla yenidən hönkürdü.

Atasının:

– Necə yəni Diləfruz yoxdur? Bu xəbər haradan çıxdı? – sualına cavab olaraq o, qoynunda gizlətdiyi kağızı göstərdi.

Kağızı kim yazmışdı, kim gətirmişdi, çox müəmmalı idi...

* * *

Gülbənizlə Eyzangül evdən çıxandan sonra Könül riyaziyyat kitabını açıb dünəndən yarımçıq qalan tapşırıqlarını yerinə yetirməyə başladı. Samirənin başı televizorda verilən cizgi filminə qarışdı. Gəlinciyinə zorla yemək yedirtməyə çalışan Pərvanənin cingiltili gülüşü otağı doldursa da, bacıları ona acıqlanmadılar. Elə bu vaxt həyət qapısı qəfil döyüldü. Taqqıltını eşidən Könül səksəndi. Hiss etdi ki, gələn yad adamdır. O, xalasının tapşırığını yadına saldı:

– Evdən çölə çıxmayın, qapını da heç kimə açmayın, tez gələcəm...

Qapı ikinci dəfə daha bərk döyüldü. Könül tərəddüdlə ayağa qalxdı, qapının arxasından soruşdu:

– Kimdir?

Kobud kişi səsi eşidildi:

– Anandan məktub gətirmişəm.

Qızcığazın ürəyi atlandı, rəzəni nə vaxt çəkib qapını açdığından xəbəri belə olmadı. Üzünü tük basmış naməlum adamın cibindən çıxarıb uzatdığı zərfi aldı, sevincək içəri girib şən səslə dedi:

– Anam məktub göndərib!

O, məktubu zərfdən çıxardı. Vərəqdə bircə cümlə vardı: “Ermənilər əsir düşən Diləfruzun başını kəsdilər”. Bundan sonra nə baş verdiyindən Könülün xəbəri olmadı: özünə gələn-

də dodağının göynədiyini hiss etdi. Şəhadət barmağı ilə toxunanda dodağı daha bərk ağrıdı, yarıyumulu gözlərini açdı. Ağ xalatlı həkimi görəndə ətrafa boylandı: Eyzangül əlləri qoynunda kətilin üstündə oturmuşdu. Könül üzünü qapadı, uzandığı yerdəcə için-için ağladı. Saçına sığal çəkən nənəsinin yalvarışlarına belə əhəmiyyət vermədi...

Məktubda yazılanları hərbi komissarlıq təsdiqləmədi, lakin Xaçınstroya daxil olan son məlumat məktubda yazılanlarla üst-üstə düşdü...

Nə qədər ağır olsa belə, hamının göz yaşı axıtdığı gün Eyzangül ağlamadı:

– Mənim qızım erməniyə əsir düşməz, o belə ölümü qəbul etməz, – dedi və israrla əlavə etdi, – orada yazılanlar yalandı, yalandı!

Ananın halına dözməyən qonşu qadınlar hönkürərkən Eyzangül bir nazik paltarda çölə çıxdı. O nə həyətə toplaşan adamları, nə boy-boya dayanan oğullarını, nə tüstülənən ocaqları, nə də ehsan üçün kəsilən heyvan cəmdəklərini gördü. Qətiyyətli addımlarla həyət qapısına yaxınlaşdı. Sadəddin qarşısını kəsib qəhər boğa-boğa:

– Ana, hara gedirsən? – soruşanda o, başını qaldırdı, rəngi boğulan əsgər geyimli oğluna ani nəzər saldı:

– Yolumu kəsmə, oğul, – dedi, – Diləfruz gəlir, onu qarşılayacam.

Sadəddin boynunu qucaqlayanda da Eyzangül kövrəlmədi:

– Təpərli ol, oğul, – söyləyib küçəyə çıxdı. Anasını tək buraxmaq istəməyən Sadəddin də onu qarabaqara izlədi. Eyzangül küçədə bir xeyli dayanıb Diləfruzun getdiyi yollara baxdı. Nazik paltarda olsa da, nə dizə qədər qalxan qarın soyuğu nə də qışın sazağı onu üşütdü. Qulağına maşın səsi gələndə qeyri-ixtiyari qızını yola saldığı küçə ilə irəli addımladı, lakin birdən-birə yolun ortasında dayandı, dizləri üstə düşüb əllərini göyə qaldırdı:

– Böyüklüyünə şükür, ilahi, bilirdim ki, gözümü yollarda qoymayacaqsan.

Sadəddinə elə gəldi ki, dərdin böyüklüyündən anası nə danışdığını kəsdirmir:

– Ana, özünə gəl, – deyib onu yerdən qaldırmağa cəhd elədi.

Eyzangül onun üzünə baxıb gülümsündü:

– Oğul, ağlım başımdadır, indicə Diləfruz gələcək, – o, döngəni göstərdi. Tanış təcili yardım maşını tini burulanda Sadəddin heyrətləndi, o da anasının yanında yerə çökdü.

Həyətdə dayananlar Eyzangülün səsinə küçəyə çıxdılar, dizləri üstdə düşərək anasını qucaqlayan Diləfruzu görəndə bunu yuxu sananlar da oldu...

* * *

İki aya yaxın əzab dolu günlər hamı kimi Diləfruzu da çox yorğun salmışdı: rəngi solmuş, ovurdları çökəyə düşmüşdü. Eyzangül gəldiyi gündən onun başına pərvanə kimi dolandı, xeyli gümrahlaşan qızını gözündən uzağa qoymaq istəmədi, amma ürəyindən keçənləri dilinə gətirə bilmədi. Çünki gözləri tez-tez yol çəkən, çəkdiyi əzabdan söz salmayan qızının qəlbindən nələr keçdiyini çox gözəl anladı. Bir hətəlik məzuniyyət başa çatmamış yol tədarükü də hazırladı. Analarından əl çəkməyən körpələrə baxanda Diləfruzun orduya getdiyi ilk günü xatırladı, yaşarmış gözlərini cib yaylığı ilə silərək öz-özünə pıçıldadı:

– Mən Elnuru, Pərvanəni səndən necə qoparacam, ay bala? Üzünə kölgə düşən körpələrini necə ovudacam? Böyüklər yenə də nəsə anlayırlar. Bəs bunlar üçün sənsizliyin yerini necə dolduracam?

Səsini içinə çəkən ananı səhərə qədər yuxu aparmadı. Gah hər şeydən bixəbər körpələrin şirin yatışını, gah da üzünün cizgiləri anbaan dəyişən qızını seyr etdi. Bildi ki, Diləfruz yuxu görür. Nəfəsi ani olaraq təngişən övladını yuxudan oyatmağa qıymadı. Bəzən gözlərini yummağa çalışsa da, bacarmadı. Bu uzun qış gecəsinin bitməsini arzulamadı. Diləfruzun arpa-arpa böyüdüyü günləri xatırladı:

– Mənim başı bəlalı zəhmətkeş qızım, – dedi, – körpəliyindən həmdəmin çətinliklər oldu, rahatlıq səndən qaçaq düşdü. Amma həmişə şükür elədin, heç şikayətləndiyini görmədim... Mənə qız yox, oğul oldun...

Eyzangül Diləfruzun yerində qurcalandığını görüb göz yaşlarını sildi, yatağa uzanıb gözlərini yumdu. Hələ səhərin açılmasına xeyli vardı, amma qızının nə üçün belə erkən oyanması anaya qəribə gəlmədi. Diləfruz əvvəlcə sol böyrünə qısılıb yatan Pərvanənin saçlarını tumarladı, bir xeyli üzünə baxıb aşağı əyildi, alnından öpdü. Yorğanı bu təmasdan göz qapaqları tərpənsə də, şirin yuxudan ayılmayan körpəsinin üstünə çəkdi. Sonra əlləri ilə havada nəyi isə axtaran Elnurun üzərinə əyildi. Körpə yuxuda olsa da, axtardığını tapdı: qollarını onun boynuna doladı. Diləfruz yerindən tərpənmədi. Uşağın qolları boşalana qədər eyni vəziyyətdə qaldı. Onun dərin yuxuya getdiyinə əmin olandan sonra ayağa qalxdı. Üzündə xoş təbəssüm duyulan Samirənin çarpayısının yanında dayandı, alnını tutan ipək tellərini yanlara çəkib sığalladı, əyilib alnından öpdü. Samirə böyrü üstə dönəndə onun yatağından ayrıldı. Bir xeyli Könülün üzünə baxdı, barmaqlarını yarası təzə-təzə qaysaq tutan dodaqlarına toxundurub öz dodaqlarına yaxınlaşdırdı.

Səsini çıxarmasa da, Eyzangül Diləfruzun öz balaları ilə xudahafizləşdiyini anladı. Körpələrindən ayrılıb başı üstündə dayanan qızına oyaq olduğunu bildirmək istəməsə də, doğma isti nəfəs ona gözlərini açdırdı. Anasının oyaq olduğunu görən Diləfruz cəld gözlərini quruladı. Heç nə olmamış kimi davranmağa çalışsa da, ana sığalından kövrəldi:

– Məni bağışla, ana, – dedi, – hisslərimə hakim ola bilmədim.

Eyzangül onun başını sinəsinə sıxdı. İndi Diləfruz onun ürək döyüntülərini çox aydın eşidirdi. Küçədən maşın siqnalı gələndə o, başını anasının köksündən ayırdı:

– Vaxtdır, ana, getməliyəm.

– Qızım, heç olmasa, səhərin açılmasını gözləyəydin.

– Belə yaxşıdır, – Diləfruz körpələrinə nəzər saldı, – onları gözüyaşlı görmək məni çox ağrıdır.

– Heç olmasa, qardaşına deyəydin, gəlib səni ötürəydi.

Diləfruz gülümsündü:

– Narahat olma, gələn Eyvazdır.

Bu xəbərdən Eyzangülün sinəsi qabardı:

– Südüm sizə halal olsun, balalarım, – dedi.

* * *

Cəmiyyətdəki qarışıqlıq, yad nəfəs təbiətə də sirayət etmiş, sinəsi parçalanan dağları, şəhid qanı ilə boyanan dərələri, zümzüməsi qara bağlayan bulaqları, dağların gah ağ, gah yaşıl örpəyinə sığal çəkən küləyi qisasçıya çevirmişdi. Elə bil hər şey bəşər övladından üz döndərmişdi. Küskünləşən ana torpaq sinəsində kimin gəzdiyinin fərqində deyildi: ona qənim kəsilən insana ən sərt üzünü göstərirdi. Boz ay girsə də, bahar bir daha gəlməyəcəkmiş kimi nəfəsini içinə çəkmişdi. Uzaqdan eşidilən pulemyot ulartısı küləyin vıyıltısına qarışanda gecənin sirli qara pərdəsi daha da qalınlaşır, top gurultusu vahimə saçırdı.

Diləfruz işini bitirib pəncərədən bayıra baxdı, saat onu ötsə də, özünü xoşagəlməz bir hadisənin kandarında hiss etdi. Həmişə olduğu kimi o, yenə də əllərini göylərə açdı: gözlərini yumub Allaha yalvardı, babalarının ceddini köməyə çağırdı. Bu vəziyyətdə nə qədər qaldığını özü də hiss etmədi. Boş qalmış əsgər çarpayıları ona ləçəkləri üstündə quruyan qızılgül kollarını xatırlatdı. Gah bir anaya çevrilib son nəfəsini verən şəhidinə ağı dedi, gah bacı kimi fəryadını boğaraq göz yaşlarını qəlbinə axıtdı, gah da atasını – arxasını itirən övlad kimi tənhalıq yükünü daşıdı. Hər şəhidin bir xatirəsi göz yaşlarına çevrilib sinəsinə süzüldü. Köksündən qopan ah ağır yük kimi çiyinlərinə qalandı. Hiss etdi ki, ixtiyarı əldən gedir, səssiz axan göz yaşlarını dəli bir hönkürtü əvəz edəcək. Dodaqlarını dişləri arasında sıxdı. Həyəcan siqnalı Xaçınstroyu bürüyəndə isə Diləfruz özünü həyətdə – əsgərlərin arasında gördü, silahını, tibb

çantasını nə zaman götürdüyünü yadına sala bilmədi. Polkovnik Mirzəyev əsgərlərə nəsə deyirdi. O, qırıq-qırıq kəlmələri eşitsə də, məsələnin mahiyyətini dərk etmədiyini anladı və düşdüyü təsirdən xilas olmağa çalışdı. “Xocalı” sözü qulağına dəyəndə iki gün əvvəl köməyə gedən əsgərlərin bir qismi: Xocalıdan olan Qarayev Usubəli, Səlimov Xəzər, Səfərov Elxan, Orucov Cavan, Zakir, Səyavuş, Elşad, Kamran Usubovlar, Novruz və Saleh Allahverdiyevlər gözlərinin qarşısında canlandı. Köməyə gedənlərlə bir cərgədə dayansa da, adı siyahıda olmadığı üçün dəstədən ayrılan Orucun iztirablı baxışları yadına düşdü. Bir neçə saat əvvəl avazla oxuyan bu gənci əsgərlərin arasında axtardı. Hərbi intizam xatirinə sırada sakit dayanan Orucun gözlərində qəzəb dalğalandığını görəndə isə sanki yuxudan ayıldı. Polkovnikin son sözləri qulaqlarında cingildədi:

– Erməni və rus hərbi birləşmələri Xocalıya hücum ediblər!

Yola düşməzdən əvvəl polkovnik Mirzəyev əsgərləri bir də nəzərdən keçirdi. O, yaxşı bilirdi ki, ölümsaçan hərbi texnikanın qarşısına adi ov tüfəngi, beşatılan və avtomatla gedən bu oğullara ana-bacıların  fəryadı qulaqları dələn yerdə “Dur!” demək mümkün deyil. Polkovnik son ümid yeri kimi yenə üzünü göylərə tutdu. Pıçıltı ilə dedi:

– Oğullarım, sənə əmanət!

Qeyri-bərabər bir döyüşün astanasında olduqlarını bilə-bilə batalyon tərəddüd etmədən yola çıxdı. Enişli-yoxuşlu uzun bir məsafəni piyada qət etmək asan olmasa da, əsgərlər qarın üstündə şırım aça-aça sakitcə yollarına davam etdilər.

– Bacı! – sözünü eşidəndə Diləfruz geri boylandı. Qardaşları Sadəddinlə Eyvaz idi. Ayaq saxlayıb onları gözlədi. Üçü də yanaşı addımlamağa başladı. Özündən kiçik qardaşlarının narahatlığı nə qədər təsir etsə də, Diləfruz gülümsündü, özünü şux göstərməyə çalışdı:

– Nə olub?

Eyvaz:

– Heç, – deyib susmağa üstünlük verdi, yükünü azaltmaq üçün əlini bacısının çiynindən asılan iri tibb çantasına uzatdı. Diləfruz razılaşmadı:

– Qardaş, əsgər silahını əlindən verə bilməz.

– Bu ki silah deyil, çantadı da, – etirazını eşidəndə isə ciddi şəkildə:

– Yox, qardaş, bu da mənim silahımdır, – dedi.

– Bacı, ehtiyatlı ol, dörd balan səni gözləyir, – Sadəddinin səsindəki titrəyiş ani də olsa, Diləfruzu qəhərləndirdi, lakin özünü tez ələ aldı:

– Alına yazılandan qaçmaq olmaz, Allah bilən məsləhətdir...

Artıq bir neçə kənd arxada qalmışdı. Qarşıdakı təpədən Xocalı əl içi kimi görünəcəkdi. Bu da sonuncu aşırım...

Elə bu vaxt mərkəzdən gələn zəng hamını çaşdırdı:

– Geri dönün, Xocalı düşmənin əlinə keçdi. Boş yerə əsgərləri qırdırmayın!

Əmr verilsə də, döyüşçülər dayanmadılar, təpənin üstünə çıxdılar: Xocalı alov içində idi. Hamı dəhşətlə səmanı yalayan alov dilimlərinə baxarkən bir dəli hayqırtı gecəni diksindirdi: Oruc idi. O, dizləri üstə çöküb əllərini göyə qaldırmışdı:

– Bu zülmü necə götürürsən, Allah?! – o, başını aşağı salıb hıçqırdı. İndi bu sakitlikdə silahdaşları onun hıçqırtısını, o isə alovlanan Xoçalıdan gələn ana, bacı fəryadını eşidirdi. Silahını sinəsinə basan Oruc asta-asta dikəldi və qəfildən alıcı bir quş kimi irəli şığıdı.

– Onu geri qaytarın, – əmrini eşidən kimi iki əsgər gəncin arxasınca yürüdü...

Polkovnik alovlara bürünmüş Xocalıya tərəf xeyli baxdı, böyük kədər və ağrı ilə pıçıldadı:

– Harayına yetə bilmədik, bizi bağışlama, Xocalı...

Yüksələn alov dilimləri indi təkcə Xocalını yox, hər bir döyüşçünün ürəyini qarsayırdı. Buna görə də polkovnik:

– Ağdama gedirik, – göstərişini verən kimi batalyon istiqaməti dəyişdi...

* * *

Gecədən xeyli keçməsinə baxmayaraq, dinc əhali üçün qoyulan koridordan bir nəfər də Xocalı sakini keçmədi. Verilən məlumatlar da ürəkaçan deyildi. Vəziyyətdən xəbər tutan kimi nəinki Allahverdi Bağırov və Yaqub Rzayevin (onu hamı Qatır Məmməd kimi tanıyırdı) könüllülərdən ibarət dəstəsi, ümumiyyətlə, əli silah tutan bütün ağdamlılar bir araya gəldilər. Allahverdi Bağırov qətiyyətlə dedi:

– Xocalı kömək gözləyir. Dinc əhalini xilas etmək üçün biz orada olmalıyıq. Hər dəqiqənin bir hökmü var, gecikmək olmaz, – sonra gənclərdən birinə tərəf döndü, – Canpoladgili də xəbərdar et, onlar Qaraqayaya getsinlər

Dostlarının fəxrlə "Smertnik" adlandırdığı Tahir Bayramov və qardaşı Məzahir buna bənd imiş kimi hamıdan əvvəl yerindən tərpəndi. Xocalıya yollanan könüllülər koridora çatmamış tankların, zirehli transportyorların atəşinə tuş gəldilər. Bağırovun istiqaməti dəyişməkdən başqa çıxış yolu qalmadı: dəstə Şelliyə – Qaraqayaya tərəf yollandı...

Səhər tezdən keşikdə dayanan Canpolad dincəlmək üçün postdan təzəcə qayıtmışdı. Canı isinsin deyə, anası bir stəkan pürrəngi çayı onun qarşısına qoydu. Dəfələrlə isitdiyi yeməkdən bir qab çəkib süfrəyə gətirdi, dilimlənmiş çörəkləri səliqə ilə qabın böyrünə düzdü. Ertədən doğrayıb kiçik boşqaba yığdığı xiyar turşusunun su saldığını görüb ayağa qalxdı, balondan çıxardığı yeni turşu ilə əvəz elədi. Oğlunun böyründə oturub məhəbbətlə onun üz cizgilərinə baxdı. Bu gün Canpoladın doğum günü idi: 24 yaşı tamam olurdu. O gülümsəyərək əlini oğlunun saçlarında gəzdirdi:

– Bir yaş da böyüdün, mənim balam.

Canpolad da gülümsündü, astaca başını tərpətdi. Gözü Canpoladın əlindəki yarımçıq çay stəkanına sataşanda ana cəld ayağa qalxdı:

– Qabağında ölüm, çayın soyuyubmu? Ver dəyişim.

– Yox, ana, soyumayıb, – o, stəkanı nəlbəkiyə qoydu.

– Bəs niyə içmədin? Axı səhər tezdən şaxtanın qabağındasan?

Canpolad anasının çiynini qucaqladı:

– Vəziyyət çətindir, ana.

Ananın gözləri yol çəkdi. Bir dilim çörəyi oğluna nə vaxt uzatdığından özü də xəbər tutmadı. Canpolad çörəyi alanda ana əvvəlcə diksindi, sonra gülümsündü:

– Körpəliyin yadıma düşmüşdü, oğul. Çörəyi əlimlə kəsib verməyincə gözləyərdin, – o, dərindən ah çəkdi, – di çörəyini ye, soyutma.

Canpolad dillənmədi, fikirli halda çörəkdən bir dişləm alıb isti xörəklə dolu qaşığı dodaqlarına yaxınlaşdırdı. Həyət qapısının aramsız döyüldüyünü eşidib qaşığı qabın içinə qoydu. Ayağa qalxmaq istəyəndə anası mane oldu:

– Sən xörəyini ye, mən baxaram.

Canpolad narazılıqla anasını süzdü, avtomatını əlinə alıb çölə çıxdı. Bu baxışdan sıxılan ana bir söz demədən stulda oturdu. Hətta hərəkətindən bir az peşman da oldu: adətə görə, gecə döyülən qapıya qadın çıxmazdı.

Canpolad içəri girdi, süfrəyə yaxınlaşmaq əvəzinə, asılqandan asdığı kürkünü götürüb tələsik əyninə geyindi. Bayaqdan bir kəlmə də deməyən ana oğlu qapıya yaxınlaşanda təlaşla soruşdu:

– Haraya, oğul?

Canpolad ani ayaq saxladı:

– Düşmən Xocalıya hücum edib, getməliyəm.

– Heç olmasa, bir loğma çörək yeyəydin?

– Gəlib yeyərəm, indi yemək hayı deyil.

Canpolad getdi. Elə bil ananın bütün ümidlərini, arzularını da özü ilə apardı. Ana bir örtülən qapıya, bir də süfrədə buğlanan yeməyə baxdı, əllərini göyə açdı:

– Sən özün bizim balalarımızı qoru, ilahi...

O, birdən-birə üşüdüyünü hiss etdi, isti yun şalına bərk-bərk bürünsə də, üşütməsi keçmədi...

Düşmənlərin korudoru bağlayaraq dinc əhaliyə divan tutma-

sı xəbərini eşidəndə Canpoladın sinəsindən bir ağrı keçdi:

– Sizi öz qanınızda boğmasam, bu torpağın suyu, çörəyi, havası mənə haram olsun!

O, komandiri olduğu heyətlə birlikdə tankda yerini tutdu:

– Fikrət, Qaraqaya kəndinə sür.

Motor uğuldadı. Tank yerində yarımdairə cızıb Qaraqaya istiqamətində şütüdü. Döyüş nöqtəsinə çatmağa tələsən Canpolada elə gəldi ki, çox asta hərəkət edirlər. Yenidən dilləndi:

– Qadan alım, Fikrət, sürəti artır.

Dostunun xasiyyətinə bələd olan Fikrət maşını tam sürətlə idarə etsə də, bir söz demədi, razılıqla başını tərpətdi. Onlar Şelli dağına çatanda top atəşi ilə düşmənin diqqətini dinc əhalidən yayındırmağa çalışan Fred Asiflə Baxşeyişin ürəyinə sanki sərin su çiləndi. Baxşeyiş qollarını açaraq gələnlərin qarşısına çıxdı:

– Ay qeyrətinizə qurban olum, gəlin. Güman özümüzədir. Düşmən postlarının yerini də bəlləmişik.

Postları nişan alan müdafiəçilər atəş açmaq istəyərkən həyəcanlı bir səs eşitdilər:

– Dayanın! Dayanın!

Döyüşçülər əl saxlamağa məcbur oldular. Yaşlı bir kişi nəfəsi təngişə-təngişə dedi:

– Ermənilər Qaraqaya kəndindəki postlarına – fermaya Xocalıdan qaçan qadınları, uşaqları yığıblar.

Hamının üzündə qəzəb ifadəsi göründü. Dişlərini bir-birinə sıxan Canpolad bir neçə sərrast atəşlə düşmənin Əsgərandakı postunu göyə sovurdu. İndi onun gözlərində heç kimin görmədiyi qəribə bir parıltı vardı: necə olursa-olsun, Qaraqayada əsir edilən dinc sakinləri xilas etmək. Canpolad sürücüyə baxdı:

– Fikrət, fermaya tərəf gedirik.

Canpoladın qəbul etdiyi qərarlarla qeyd-şərtsiz razılaşan Fikrət bu dəfə də heç nə demədi, tank Qaraqaya kəndinə yol aldı.

Fermaya çatanda Canpoladgilin tankı düşmənin zirehli maşını ilə üz-üzə gəldi.

– İrəli, Fikrət, dayanma! – əmrini eşidən sürücü tankı zirehli maşının üstünə sürdü. İçindəkilər qaçmağa imkan tapmamış maşın tankın tırtılları altında əzildi. Fikrət yerlərini dəyişmək üçün sağa döndü. O, növbəti hədəfə doğru irəliləyəndə tank birdənbirə yerə mıxlandı, döyüşçülər nə olduğunu anlamamış özünə gələn Canpolad qapağı qaldırdı, iti baxışlarla ətrafı gözdən keçirdi. Tankın dayandığını görüb hücuma keçən düşmən piyadalarını bir qədər də yaxına buraxdı, qəfildən pulemyotu işə saldı:

– Gəlin, köpək sürüsü! Nə qədər ki sağam, qanı axıdılan körpələrimizin, analarımızın, bacılarımızın, tapdanan torpağımızın qisasını alacağam.

Pulemyot atəşi düşməni çaşdırdı, onlar hara gedəcəklərini bilmədən pərən-pərən düşdülər. Meydanda xeyli düşmən meyiti və yaralı vardı. Pulemyot susanda Fikrət güllənin qurtardığını zənn etdi:

– Canpolad, niyə susdun?

Cavab almayanda kabinədən çıxdı, dostunun əlləri tətikdə olsa da, başı sinəsinə əyilmişdi. O, gözlərinə inanmadı:

– Canpolad, Canpolad! – deyib həyəcanlı səslə dostunu səslədi, onun tərpənmədiyini görəndə acı fəryad qopardı,- Qalx, Canpolad, bax, bizimkilər gəldilər, düşmən qaçır, əsirlərimiz də xilas edildilər. Qalx, sənin bizi yarı yolda qoymağa haqqın yoxdur, qalx!!!

Fikrət acı hönkürtü ilə Canpoladın qana bələnmiş cansız bədənini qucaqladı...

Qara xəbər tez yayılır. Oğlunun şəhid olduğunu eşidən Yaqub:

– Vətən sağ olsun! Cənazəni məscidə aparın, əgər sağ qalsam, dəfnə yetişərəm, – dedi və döyüş meydanına qayıtdı...

* * *

Müharibənin dəhşətlərini yaşayan şəhərin simasından da sanki tənhalıq, yetimlik tökülürdü. Tarixlərin şahidi azmanlar yurdu arxasız, köməksiz körpə kimi için-için ağlayırdı. Otərəf-

butərəfə təlaşla qaçan adamların həyəcanlı səsləri, canlarını düşmən əlindən qurtarsalar da, Xocalı dərdi daşıyanların naləsi bu hıçqırtının içində boğulurdu. Döyüş bölgələrindən reportaj hazırlayan Şamil Sabiroğlu da bu hıçqırtını yaşadıqca həyat gözlərində qaralır, adına insan deyiləcək məxluqun vəhşiliyi qarşısında aciz qalan sözlərdən küsürdü. Xaçınstroy batalyonunun Ağdama gəlişi başqaları kimi, onun da gözlərində ümid işığı yandırdı. Dəfələrlə döyüş meydanında tarix yazan polkovnikin düyünlənmiş qaşlarını, qırğı baxışlarını görəndə o, düşməndən öc alınacağına bütün varlığı ilə inandı. Lakin gələn xəbərlər, xüsusən 366-cı rus moto-atıcı alayının Xocalının dinc əhalisinə divan tutulmasında göstərdiyi "şücaət" hamı kimi onun da ümidini qırdı, gözünün qarşısında qan qoxusuna gələn quzğunlar canlandı...

Hamının üzündə yaşanan fəlakətin həyəcanı, acısı vardı. Bu fəlakətin sonu olmayacaqdımı? Yarıdan çoxunun taleyi bəlli olmayan Xocalı sakinləri üçün bir tədbir görülməyəcəkdimi? Bütün nəzərlər Şirin Mirzəyevə və könüllülərin komandirlərinə dikildi.

Uzun müzakirələrdən sonra Xocalıya hücum planı hazırlandı. Səhərəyaxın ilk dəstələr Xocalı istiqamətinə yol alarkən yuxarıdan gələn zəng hamını sarsıtdı:

– Şəhər düşmənlər tərəfindən tam nəzarətə götürülüb, əməliyyatı dayandırın!

Elə bil hamının üstünə su ələndi. Dinc əhalinin xilas ediləcəyinə bəslənən ümid bir andaca yoxa çıxdı. Lakin polkovnik ümidini itirmədi. O, şəhərdən çıxmağı bacaran Xocalı sakinlərini xilas etmək üçün əsgərləri səfərbər etdi:

– Axtarışlar Şelli və Qaraqaya istiqamətində olacaq. Hər kolun, hər daşın altı aranacaq. Bacardıqca cəld olun, ehtiyatı əldən verməyin...

* * *

Hamı ilə birlikdə yola düşən Elman müəllim (Küskün) nə dinib-danışır, nə də onunla yanaşı addımlayan Naziri və Şöhlə-

ti görürdü. Hələ də eşitdiklərinin təsirindən çıxa bilməyən şair təbiətli bu adamı indi tanımaq olmurdu: qaşları çatılmış, gözləri qıyılmış, rəngi boğulmuşdu. Bir gecənin içində alnına, gözlərinin kənarlarına düşən qırışlar onu vaxtından əvvəl qocaltmışdı. Elman müəllimin susqunluğu faciənin ağrısını yaşayan Şöhləti çox kövrəltdi:

– Elman müəllim, heç olmasa, bir söz deyin, axşamdan bəri elə bil dilinizdən qıfıl asılıb. Bu hamımızın acısıdır. Elnən gələn qara günü babalarımız toy-bayram sayıblar. Bir özünüzü də düşünün.

Elman müəllim ayaq saxladı, qıyılmış gözləri səmaya zilləndi, bozarmış göylərdə nəsə axtardı, tapa bilməyəndə asta-asta başını tərpətdi:

– Qarayev, elə babalarımızın səhvlərini əzbərləməyimizin özü təslimçilik deyilmi? Bu gün Xocalı bütövlükdə yoxdur, onun parçalarını kolların altından yığmağa çalışırıq. “Elnən gələn qara gün” deyib sabah Ağdamın getməsi ilə də mi barışmalıyıq? – o, bir qədər susdu, sonra yenidən sözünə davam etdi, – Bir qədər əvvəl göylərə baxdım, aydın səma axtardım, tapmadım. Elə bil hər şey bizdən üz döndərib. Bilirsənmi niyə? Qarşısını ala biləcəyimiz fəlakətlərə göz yumduğumuza görə. Bunları fikirləşdikcə dəli oluram. Kaş Xocalıda qalanların taleyini mən yaşayaydım, bugünkü acıları çəkməyəydim.

Bir qədər irəlidən şaqqıltı səsi eşidiləndə Nazir susmaq işarəsi verdi. Üstünü qar basmış kolluqda tərpəniş vardı. Yaxınlaşanda gördükləri mənzərədən hər üçü yerindəcə dondu. Qarın üstündə bardaş qurub iki körpəsini dizləri üstündə oturdan ana balalarını köksünə basmışdı...

– Görürsənmi, Şöhlət? Hələ bu, Xocalının bir qətrəsidir. Dözə bilirsənmi?

Ana və körpələr xilas edildikdən sonra hər üçü meşənin dərinliyinə doğru irəlilədi. Uzaqdan ara-sıra eşidilən atəş səsləri getdikcə yaxınlaşırdı. Nazir dişlərini bir-birinə sıxdı:

– Əclaflar, yəqin ki, qaça bilməyənləri tapdıqca güllələyir-

lər. Bir qədər cəld olmalıyıq.

Şöhlət onun dediklərini təsdiqlədi. Qulağının dibindən çovuyan güllədən diksinən Nazir ağacın arxasına keçdi:

– Bizi gördülər, ağacların arxasında gizlənin!

Ataş səsləri getdikcə artdı. Düşmən daha çox Elman müəllimin daldalandığı ağacı nişangaha çevirdi. Şöhlət diqqəti ondan yayındırmaq üçün ağacın arxasından çıxıb sürətlə irəli şığıdı, amma iri palıd ağacının arxasına keçməyə macal tapmadı, aldığı yaradan yerə sərildi. Nazirlə Elman müəllim Şöhlətin ələ keçməməsi üçün atəşə ara vermədilər. Yaxınlıqda olan əsgərlər köməyə yetişəndə düşmən geri çəkildi.

Şöhlətin yarası ağır idi. Elman müəllimlə Nazir öz yaralarını, demək olar ki, unutmuşdular. Onlar Diləfruzu görən kimi bir ağızdan səsləndilər:

– Bacı...

Batalyonun əsgərləri və kömək üçün onlara qoşulan Ağdam könüllüləri həmin gün bəşər tarixinin qanlı səhifələrindən birinin də şahidi oldular. Hamıya elə gəldi ki:

– Bu körpələrin günahı nə idi, Allah?! – deyə diz üstə çöküb əllərini göyə qaldıran İlhamın fəryadı əsrlər keçsə də, Xocalı səmasında dolaşacaq, ermənilərdən hesab soracaq...

Axtarış nəticəsində yurd-yuvasından didərgin düşən, ayaqlarını, əllərini don vuran Xocalı sakinlərinin bir qismi xilas edildi. Öldürülmüş yüzlərlə dinc sakinin cəsədini güllə yağmuru altından çıxaranlar əsrin ən böyük faciəsini Xocalı ilə birlikdə yaşadılar. Sürücü Nurəddinin yük maşını dəfələrlə meyitlərlə dolub- boşaldı...

İki gün əvvəl Xocalıya kömək məqsədi ilə gedən iki taqımdan isə heç bir iz tapılmadı...

* * *

Xocalı qətliamının vurduğu yara üzə gəlmək əvəzinə, daha da dərinləşdi, sinələrdən ağır bir yük asıldı. Bu yükü qaldırmağa böyük hünər, təpər lazım idi. Torpaq bizim, haqq bizim, ni-

yə tərpənə bilmirik, niyə susuruq, niyə "yuxarıdan" gələn təslimçi hökmlərə boyun əyirik? Nə vaxta kimi belə olacaq, yad havaların ritminə uyub əziləcəyik, haqlı ikən haqsız duruma düşəcəyik? Bu suallar hamı kimi İlhamı da yordu. Qətliamdan iki gün sonra o, Xəqaniyə dedi:

– Mən gedirəm.

Eşitdiklərinə inanmayan Xəqani təəccüblə soruşdu:

– Haraya?

– Cəlilabada – Göytəpə qəsəbəsinə.

– Biryolluqmu?

İlham Xəqaninin üzünə baxdı, təəssüf qarışıq təəccübü görəndə dərindən köks ötürdü:

– Halallıq almağa.

Dostunu yalnız indi başa düşən Xəqani qollarını geniş açıb onu qucaqladı:

– Tez qayıt, hamımız səni gözləyəcəyik...

* * *

Xocalı faciəsi hamının yuxusunu ərşə çəkdi. Dərs almadıqca azğınlaşan quduz köpəklərin daha neçə Xocalı faciəsi törədəcəyi bəlli deyildi. Bunun qarşısını almaq üçün nə isə etmək lazım idi. Uzun çək-çevirdən sonra polkovnik ona müraciət edən əsgərlərin istəyini nəzərə alaraq Xəqani Axundovla İlham İsmayılovu yanına çağırdı...

Xəqaninin komandanlığı altında düşmən arxasına keçmək üçün qırx altı könüllü sıraya düzüldü. Polkovnik boy-buxunlu, xüsusi döyüş məharəti olan gəncləri bir-bir süzdü, nə qədər çətin olsa da, sözə başladı:

– Oğullarım, sizin üzərinizə çox ağır bir vəzifə düşür: düşmənə arxadan zərbə endirmək. Seçdiyiniz dönüşü olmayan çətin, lakin şərəfli yoldur, ağır döyüşlər alın yazınız olacaq. Qismətinizə günlərlə ac, susuz qalmaq, qar üstündə gecələmək düşəcək. Amma inanıram ki, körpə şəhidlərin, məsum anaların, arxasız qocaların ruhu sizə yardımçı olacaq. Ən çətin anlarda belə ayağını-

zın altındakı vətən torpağı, haqq tərəfdarlarını sevən Ulu Tanrı sizə dayaq olacaq.

Günahsız soydaşlarımızın qanını almağa, mənfur düşməni yurdumuzdan qovmağa, qisas gününə hazırsınızmı?

– Hazırıq, komandir! – cavabını eşidən Şirin Mirzəyev döyüşçülərə fəxrlə baxdı və:

– Allah yardımçınız olsun! – dedi.

Dan yeri sökülməmiş qırx səkkiz atlıdan ibarət “Qartal” dəstəsi meşənin dərinliklərində görünməz oldu...

İki gündən sonra uğurla nəticələnən birinci əməliyyatın arxasınca Şuşa ətrafındakı erməni kəndlərində məskunlaşan düşmənlə döyüşə girən dəstə yaraqlıların yuxusuna haram qatdı. Qrupun Laçın, Kəlbəcər ərazilərində, Xankəndi yaxınlığında keçirdiyi əməliyyatlar da bəhrəsini verdi. Müxtəlif ərazilərdə eyni vaxtda partladılan hərbi bazalar, mühüm strateji əhəmiyyəti olan obyektlər düşməni çaş-baş saldı. “Qartal”lardan xəbəri olmayan ermənilər ilk vaxtlar bir-birlərini günahlandırdılar, təxribatçını öz aralarında axtardılar. Bir nəfər azərbaycanlının qalmadığı bu ərazilərdə baş verənləri hətta göylərdən gələn bəla adlandıranlar da oldu. Sıraları seyrəldikcə “Qartal”lar daha da mətinləşdilər. Şəhid olan yoldaşlarını torpağa tapşıranda heç biri göz yaşı axıtmadı, məzar qarşısında baş əyib: “Vətən sağ olsun!” – dedilər.

Düşmən “Qartal”dan xəbər tutanda döyüşçülərdən yalnız iki nəfər: Xəqani ilə İlham sağ idi.

– Bu, son döyüşümüz olacaq, qardaş, – deyə Xəqani baldırındakı yaranı sarıya-sarıya köməkçisi İlhamın üzünə baxdı, – əgər sağ qalsan, cəsədimi düşmən əlində qoyma. Bir qədər aşağıda Qozlu kəndi yerləşir, bizi orada özümüzkülər qarşılayacaqlar. Amma necə olursa-olsun, sonuncu tapşırığı da yerinə yetirməliyik.

İlham xeyli qan itirən dostunun üzünə baxdı:

– İkimiz də evimizə birlikdə qayıdacağıq.

Xəqani fikrə getdi, az qala pıçıltı ilə dedi:

– İlham, qırx səkkiz nəfərdən ikimiz qalmışıq. Bir aydan ar-

tıq müddətdə kimləri qurban vermədik?, – onun gözləri qarşısında düşmən gülləsinə tuş gələn, qəlpə yarası alsa da, geri çəkilmədən onlarla düşməni məhv edən dostları canlandı. Qollarında can verən həmyerlisi Rövşəni xatırlayanda isə gözləri doldu, yenidən üzünü köməkçisinə tutdu, - gecəni gözləməyə vaxtımız yoxdur, başlayaq...

Sakitlik idi. Göylər asta-asta qara örpəyini gözünün üstünə çəkdikcə ətraf qaranlıqlaşırdı. Xəqani ilə İlham düşmənin neft çənlərinə tərəf süründülər. Dostunun sürünə bilmədiyini görən İlham:

– Burada məni gözlə, – deyib xeyli kənarda yerləşən çənlərə doğru irəlilədi. Gözətçi gözə dəymirdi. O, yaxınlıqdakı sonuncu çənə dinamiti yapışdırıb fitili odladı, sürətlə üzüaşağı qaçmağa çalışdı. Dostuna çatmağa bir neçə metr qalmış güclü partlayış qopdu. Partlayışın dalğası onu üzü üstə yerə sərdi. Hər tərəf işıqlandı. Düşmən özünə gəlməyə macal tapmamış digər çən də alova büründü. İlham yerindən qalxıb dostuna çatmağa tələsdi. Xəqaninin gözləri gülürdü. O, salamat əli ilə İlhamın kürəyinə vurdu və əlavə etdi:

– Halaldı, qardaş, vaxt itirməyə dəyməz, gedək. Bayaqkı təpəni aşsaq, bizə ölüm yoxdu, di haydı.

Gecənin ayazında yenidən donan yer üzüyuxarı qalxmağa əngəl törədirdi. Xəqaninin çətinlik çəkdiyini görən İlham onu belinə aldı. Diki üzüyuxarı qalxdı. Birdən-birə boynuna tökülən isti mayedən diksindi. Atəş səsləri təkrarlananda o, məsələni anladı. Dostu vurulmuşdu. İlham Xəqanini yerə qoydu, ay işığında onun geniş açılmış donuq gözlərinə baxdı, əyilib onun gözlərindən öpdü:

– And içirəm, sənin cəsədini düşmən əlinə düşməyə qoymayacağam.

O, atəş aça-aça gəldiyi istiqamətdə geri qayıtdı. Qozlu tərəfdən onları qarşılamağa gələn əsgərlər təpəni aşanda İlham düşmənləri öz üzərinə çəkərək xeyli uzaqlaşmışdı. Bir azdan atəş səsləri kəsildi. Əsgərlər Xəqaninin cəsədini tapdılar, İlhamdan isə heç bir iz yox idi...

* * *

Külək göyün üzündəki buludları qovduqca ayın nuru gecənin qara köynəyini yırtır, təbiətə bozluq çökür, gündüzü təlatümlü olan dağlara bir şükunət hakim kəsilirdi. Əkbər müəllimə elə gəldi ki, bu dağlar bir də qış yuxusundan oyanmayacaq, hər şey bu bozluqda gömüləcək, dağların əzəmətindən, əsrarəngiz gözəlliyindən, qoyun-quzunun mələşməsindən, payızın qızılı libasına naxış vuran qırovdan, təbiətin üz-gözünü yuyan leysan yağışlardan, həvəslə danışan dillərdən əsər qalmayacaq. Birdən-birə bədbinliyə qapılması komandiri diksindirdi. Onunla bərabər kəşfiyyata çıxan Sənanla Elçinə nəzər saldı. Döyüşdə nə qədər çılğın olsalar da, kəşfiyyat zamanı çox soyuqqanlı görünən döyüşçüləri bağrına basmaq istədi. Lakin tezliklə özünü ələ aldı. Bu gənclər Qazançı kəndinə enən bütün cığırlara yaxşı bələd idilər. Ona görə də ermənilərin ətraf türk kəndlərində növbəti qırğın törədəcəkləri barədə hərbi hissəyə məlumat daxil olanda ilk yada düşən Sənanla Elçin oldu. Meşənin girəcəyindəki ev görünəndə kəşfiyyatçılar ayaq saxladılar, ətrafı dinşədilər. Sakitlik idi, Qazançı, elə bil ki, qış yuxusuna getmişdi. Onlar bir-birindən uzaq tikilən evlərin arası ilə kəndin içərilərinə doğru xeyli irəliləsələr də, şübhə doğuran heç nə ilə rastlaşmadılar. Amma Əkbər müəllim geri dönmək niyyətindən vaz keçdi:

– “Od olmayan yerdən tüstü çıxmaz”, yəqin ki, nəsə var, arxayın olmaq üçün sona qədər getməliyik. Barxudar səhv məlumat verməz.

Qazançı ermənilərindən olsa da, ailəsini itirən Barxudar Qalayçı kəndinin camaatı ilə daha çox ünsiyyət bağlayar, dərdini ovudardı. O, məlumatı qonşusu Qurgenin dilindən eşitmişdi. Kəşfiyyatçılar bir qədər də irəlilədilər. Donmuş qarın üstü ilə səs salmadan üzüyuxarı qalxıb məktəbin həyətinə yaxınlaşanda hərbi geyimli bir nəfər siqaretə sonuncu qullabı vurub kötüyünü yerə atdı və içəri tələsdi. Sənan işıq gələn pəncərələrdən birinə yaxınlaşmaq üçün gizləndiyi yerdən çıxmaq istəyəndə Əkbər mü-

əllim onun qolundan çəkdi: çay tərəfdən gecənin sükutunu pozan motor uğultusu eşidilirdi. Bir neçə dəqiqədən sonra bir-birinin ardınca düzülən üç tank, bir neçə zirehli texnika və içi saqqallı muzdlularla dolu yük maşını məktəbin həyatinə daxil oldu. Qabaqda gələn tank dönəndə projektorun işığı kəşfiyyatçıların gözünü qamaşdırdı. Amma xoşbəxtlikdən tankın üstündə oturanlar onları görmədilər. Əkbər müəllim geri dönmək üçün işarə verdi. Gəldikləri yolla qayıtmaqdan ehtiyat edən kəşfiyyatçılar çayın sahilinə tərəf yönəldilər. Dərənin kənarındakı sonuncu həyətə çatanda gülə-gülə danışan ermənilərin səsi onları ayaq saxlamağa məcbur etdi. Üçü də ağacların arxasında daldalandı. Evin pəncərəsindən düşən zəif işıqda həyətdə dayananların sifətini görmək mümkün deyildi. Çiyni avtomatlı saqqallı erməni kiməsə səsləndi:

– Ey, yaxın gəl!

Divarın dibindən bir kölgə aralanıb silahlı adama yaxınlaşdı, yaltaqcasına hırıldadı, üşüyən əllərini bir-birinə sürtüb bərkdən burnunu çəkdi. Onun xortultusundan xoşlanmayan saqqallı ikrahla tüpürdü və:

– Sabah sonuncu gündür, bizə türklərin hücumu haqqında dəqiq məlumat gətirsən, bax bunu sənə verərəm. İstədiyin qədər türk öldürərsən, – saqqallı əlindəki avtomatı göstərdi. Üzü yaxşı görünməyən erməni yenə də əllərini ovuşdurdu və ucadan dilləndi:

– Baş üstə!

Əkbər müəllim Barxudarı səsindən tanıdı və qeyri-ixtiyari pıçıldadı:

– Vay, köpək oğlu, bunun iştahasına bax.

Danışığı aydın başa düşməsələr də, Sənanla Elçin ermənilərin növbəti qətliama hazırlaşdıqlarını anladılar. Onlar səhərin gözü açılmamış qərargaha çatmağa tələsdilər...

* * *

Mart günəşi dağlardan yenicə boylananda Xaçınstroyun həyətində bir canlanma vardı. Polkovnik Şirin Mirzəyev Qazançını erməni yaraqlılarından və muzdlu döyüşçülərdən təmizləmək üçün bütün əsgərlərə müraciət etdi:

– Oğullarım, unutmayın ki, biz nə cəlladıq, nə də qəsbkar. Biz haqqımız olanı almaq üçün vuruşuruq. Dinc əhaliyə toxunulmayacaq, çünki davamız yerli əhali ilə deyil, kənardan gəlib torpaqlarımızı zəbt, xalqımızı məhv, yurdumuzu viran etmək istəyənlərlədir. Növbəti Xocalı faciəsini yaşamamaq üçün, körpələrimizin gələcəyi üçün biz bu addımı atmalıyıq. Yurdumuzu qana çalxamaq istəyənlərə deyəcək bir sözümüz var: "Qana qan, ölümə ölüm!" Allah bu yolda yardımçımız olsun!

Son hazırlıqlar başa çatdı. Diləfruz da lazım olan dava-dərmanları və alətləri çantaya yığıb otaqdan çıxmaq istəyəndə qapı döyüldü. Gələn Maarif idi. O, əlindəki sarı kağız torbanı Diləfruza uzatdı, həmişə olduğu kimi yenə də zarafatından qalmadı:

– Bacı, bəxtin hər yerdə gətirir də. Bunları al.

Diləfruz təəccübləndi:

– Bu nədir ki?

– Anam mənimçün göndərib, yun corab və idman ayaqqabısıdır.

– Bəs niyə geymirsən?

Maarifin mavi gözlərində yaşına xas olmayan bir şəfqət göründü:

– Siz o çəkmələrlə uzağa gedə bilməzsiniz.

Diləfruz ayağındakı çəkmələrə baxdı, tikişləri bir neçə yerdən sökülmüş, böyrü partlamışdı. Amma özünü sındırmadı:

– Mən birtəhər keçinərəm, özün geyin.

– Yox, bacı, sizə bir şey olsa, mənim toyumda kim oynar? Götürün, xahiş edirəm.

Diləfruz bu xahişin qarşısında heç nə deyə bimədi, sakitcə torbanı aldı...

* * *

Meşəli dağlarla əhatələnən Qazançı kəndi üstdən baxanda, doğrudan da, qazanı xatırladırdı. Gözəl axar-baxarı ilk baxışdan adamı heyran edirdi. Aşağıdan Qalayçılar, yuxarıdan Manik, Güneypəyə, Orta Güneypəyə və Baş Güneypəyə kəndləri ilə həmsərhəd olan bu kənddə ermənilər uzun illər idi ki, toplu şəkildə yaşayırdılar. Xocalı qətliamına qədər ətrafda yerləşən Azərbaycan kəndləri ilə ara-sıra çəkişmələr yaşansa da, kənardan baxana münasibətlər normal görünürdü. Amma hamı bilirdi ki, bu sükutun arxasında yenə də erməni quduzluğu gizlənib...

Hər şey tam hazır olanda Vladik motoru işə saldı. Hava soyuq idi, amma Diləfruz nədənsə kabinəyə keçmədi. Kamil dayının oğlu  Namiq də "Tiqaj"ın üstündə  onunla yanaşı əyləşdi. Maşın irəlilədikcə gözünü sonsuz üfüqlərdən, başı qarlı dağlardan çəkməyən Diləfruz özünü möcüzələr aləmində zənn etdi. İlk dəfə görürmüş kimi dağların bəyazlığına, səmanın təmizliyinə vuruldu, hər şeyi unudub bu gözəllikdən doya-doya zövq almaq istədi.

– Diləfruz, Diləfruz! – sədası qulağına dəyəndə o, xəyaldan ayrıldı. Əlimədədli kəndinin girəcəyindəki təpənin üstündə dayanan xalasını görəndə maşını saxlatdırdı. Səringül bacısı qızını bağrına basdı, dönə-dönə alnından, saçlarından öpdü:

– Sağ get, salamat qayıt, – deyəndə səsi titrədi.

Diləfruz gülümsündü. Hər dəfə döyüşdən qayıdanda əlində süd yolunu gözləyən xalasını o heç vaxt belə kövrək görməmişdi.

– Xala, sənə nə olub? – o, gözləri yaşla dolan Səringülün əllərindən tutub dodaqlarına yaxınlaşdırdı.

– Heç, ay bala. Elə səni görmək istədim. Allah hamınızı qorusun.

Maşın yola düşdü, sonuncu döngədə gözdən itənə qədər Səringül yerindən tərpənmədi, bacısının nübar balasının getdiyi yollara uzun-uzadı baxdı...

Kiçik su arxına enən kimi "Tiqaj" uğuldayıb dayandı. Maşı-

nın üstündə əyləşən Diləfruz fikirdən ayrılıb təəccüblə böyründə oturan Namiqə baxdı, sonra sürücü Vladikə səsləndi:

– Niyə dayandıq?

Vladik cavab verdi:

– Heç özüm də bilmirəm.

Bir azdan Namiq də aşağı endi, sürücü ilə birlikdə maşının mühərrikini xeyli qurdaladılar. Əllərini arxın buz kimi suyunda yuyan Namiq yenidən öz yerinə keçdi. Diləfruzun:

– Gedirikmi? – sualına başı ilə “yox” cavabını verdi.

– Düzəlməsi nə qədər çəkər?

O, çiyinlərini çəkəndə Diləfruz hövsələdən çıxdı:

– Bilmirəm nə deməkdir? Təzə maşın niyə xarab olsun?

Namiq dillənmədi, dərindən nəfəs aldı. Onun hərəkətlərini izləyən Diləfruzun dalağı sancdı, xüsusən də dərindən nəfəs alıb gülümsəməsi nəzərindən qaçmadı. Heç nə demədən tibb çantasını hazırladı. Maşından enmək istəyəndə yanlarında zirehli maşın dayandı. Şiraslan Vladikdən soruşdu:

– Kömək lazımdırmı?

Sürücü əlini yellədi:

– Narahat olmayın, özüm bacararam.

Diləfruzun dilxor olduğunu görən Elçindən:

– Həkim, bizimlə gəlin, sizi dəstəyə yetirərik, – təklifini eşidən Namiq qəti etiraz etdi:

– Siz gedin, biz özümüz gələrik...

Polkovnik Şirin Mirzəyev yola düşməzdən əvvəl Vladiklə Namiqi kabinetinə çağırıb ciddi şəkildə tapşırmışdı:

– Aldığımız məlumata görə, bu döyüşdə düşmən, ilk növbədə, həkimi hədəfə alacaq. Necə edəcəksiniz, bilmirəm, çalışın, maşını Qazançıya çatmamış saxlayın. Yaralılara yardım dayandığınız yerdə ediləcək. Sənsə, – o, üzünü Namiqə tutdu, – Diləfruzun yanından ayrılmayacaqsan. Ona həm kömək edəcək, həm də düşməndən qoruyacaqsan.

Polkovnikin tapşırığını eşidən sürücü Vladik:

– Oldu, yoldaş komandir,- deyib dabanı üstə fırlandı və ota-

ğı tərk etdi. Namiq içəridən çıxmaq istəyəndə komandir bir də dedi:

– Namiq, sənə arxayınam. Diləfruzun əsgərlərimiz üçün nə qədər gərəkli olduğunu yaxşı bilirsən. Yanında həkimin olduğunu bilən əsgərdə həm döyüş ruhu, həm də yaşayacağına inam çox böyük olur. İndi get, Allah hər birinizi qorusun.

Yüngül tappıltı səsinə xəyaldan ayrılan Namiq Diləfruzun çanta kürəyində "Tiqaj"dan nə vaxt tullandığından xəbər tutmamışdı. Çanta ağzına qədər dolu olduğu üçün bir büküm bədən sarğısı yerə düşmüşdü. Namiq sarğını götürüb qoynunda gizlətdi və sürətlə uzaqlaşan Diləfruzun arxasınca qaçdı.

* * *

Üç tərəfdən mühasirəyə alınan erməni muzdlularına və Qazançı sakinlərinə səsgücləndiricilər vasitəsilə silahı yerə qoymaq, nahaq qan tökməmək barədə ilk xəbərdarlıq edildi, lakin qarşı tərəf heç bir reaksiya vermədi. İkinci xəbərdarlıqdan sonra da vəziyyət dəyişmədi. Diləfruzla Namiq döyüşçülərə yetişmək üçün kəsə yollardan keçib Qabartı çayının sahilinə çatanda üçüncü xəbərdarlıq səsləndi. Səsin kəsilməsinə bənd imiş kimi birdən dəhşətli bir partlayış dağlarda əks-səda verdi. Xaçındərbəndli Şiraslanla Elçinin mindiyi maşın Qazançının girəcəyində tank əleyhinə minaya düşmüşdü. Maşının qalıqları havada fırlananda Diləfruz içini çəkdi. Şahidi olduğu mənzərə nə qədər dəhşətli olsa da, o, tezliklə özünü ələ almağı bacardı və bir qədər kənarda yerə uzanmış Namiqi səslədi:

– Namiq, əsgərlərə yetişməliyik. Dayanmaq vaxtı deyil.

Namiq cəld yerindən qalxdı . Silahını əldə hazır tutub qabağa keçdi. Onlar çayın kənarı ilə bir qədər də irəliləyib öndə gedən əsgərlərə çatdılar. Diləfruzu görəndə polkovnik Namiqə məzəmmətlə baxıb başını buladı, döyüşçülərinsə simasında təbəssüm göründü. Səməd gülə-gülə dedi:

– Həkimimiz yanımızda olanda güllə də bizdən qorxub yan keçir. İndi ermənilər görsünlər, analar necə oğullar doğublar.

Çətini ağaclığa girməkdir. Hünərləri var, dayansınlar.

Onun sözlərini digər əsgərlər də təsdiqlədilər. Əli kişi isə ehtiyatlı tərpənməyi məsləhət bildi:

– Düşmənin min hiyləsi var, bala. Buradakı sakitliyə aldanmayaq...

İlk ağaclara çatmağa beş-on addım qalmış:

– Dayanın! – nidasını eşidən əsgərlər duruxdular. Bir neçə addım qabaqda olan Namiqin:

– Niyə? – sualına cavab olaraq Diləfruz şəhadət barmağı ilə ağacdan sallanan qumbaranı göstərdi:

– Ora baxın. Burada nəsə var. Meşəyə girməyə tələsməyək.

Digər ağaclardan da eyni məftilə bərkidilmiş qumbaraların asıldığını görən döyüşçülər düşmənin tələ qurduğunu başa düşdülər: çay tərəfdən hücumu dayandırmaq üçün ermənilər təhlükəsizlik tədbirinə əl atmışdılar. Məftilə toxunan kimi başlıqlar dartılacaq və hücuma keçən əsgərlərə böyük tələfat verəcəkdi.

Təhlükəni aradan qaldıran əsgərlər ağacların arası ilə üzüyuxarı qalxdılar. İlk təpə ələ keçirildi. Qurulan tələyə arxayın olan düşmən çay tərəfdən böyük təhlükə gözləmədiyi üçün qəfil yaxalandı. Komandir birinci təpəni alan əsgərlərə kəndin içərilərinə doğru hərəkət etmək əmrini verdi. İkinci yoxuşu qalxmaq vaxt aparsa da, döyüşçülər dayanmadılar. Hücumdan xəbər tutan düşmənlər əsgərlərimizi güllə yağışına tutdular. Komandirin işarəsilə Səməd ani fasilədən istifadə edib irəli atıldı. Digər əsgərlər onun arxasınca irəliləməyə macal tapmamış döyüş yenidən qızışdı. Səməd arxası üstə yerə sərildi. Nisbətən yüksəklikdə olan düşmən təpənin döşü ilə sürünən əsgərlərə yerdən qalxmaq imkanı verməsə də, bu döyüşdə öz gücsüzlüyünü çox yaxşı dərk etdi. Diləfruz Səmədə yardım etmək üçün qışqırdı:

– Məni qoruyun!

O, güllə yağışı altında yaralıya tərəf süründü. Ağır yaralansa da, Səmədin ağlı başında idi. Diləfruz onu təpənin döşündəki çökəkliyə doğru çəkdi, ağrıdan bənizi ağaran yaralıya ürək-di-

rək verdi:

– Bir az döz, qardaş, – deyib ağrıkəsici iynəni vurdu, yarasını sarıyınca ağrıları yüngülləşən Səməd ona təşəkkür etdi:

– Sağ ol, bacı. Allah səni qorusun!

Diləfruz onu arxaya göndərib yenidən döyüş meydanına qayıtdı. Yoxuşu qalxarkən yaralanan əsgərlərdən daha beş nəfərinə yardım göstərdi. Çiynindən aldığı yaradan xeyli qan itirən əsgərin yarasını bağlayarkən bənizinə sarılıq çökən gəncin gözləri axdı. Diləfruz onun nəbzini tutdu: çox zəif vururdu. Təcili qan köçürmək lazım idi. O, əsgərin döş cibindən sənədlərini götürdü, pasportuna baxdı: qan qrupları eyni idi. Həkim tərəddüd etmədi, sol qolunu çırmaladı...

Qan köçdükcə yaralı əsgərin rəngi üstünə gəldi. O, gözünü açanda Diləfruz:

– Allaha çox şükür! – deyib ayağa qalxdı. Hiss etdi ki, başı hərlənir. Əlini cibinə saldı. Yola düşərkən bibisinin cibinə qoyduğu şokoladlardan birini yaralı əsgərə uzatdı, digərini özü dişlədi və vaxt itirmədən döyüşçülərin yanına yollandı. Ağaclıqdan keçib əsgərlərə çatmaq üçün yolunu kəsədən saldı. Heç nədən çəkinmədən ona tərəf gələn muzdlu zənciyə gözləri sataşanda çaşdı, ömründə ilk dəfə qorxdu. Başdan-ayağa silahlanmış ucaboylu, dolubədənli zənci çox heybətli idi. Əynindəki zireh, yastı, pərəli burnundan, qulaqlarından sallanan iri halqalar, qalın qara dodaqlarının arasından ağaran dişləri, üzündəki rişxənd ifadəsi onu daha qorxunc göstərirdi. Zəncinin ayağı altında birdən nəsə şaqqıldadı. Bu səs Diləfruzu ayıltdı, iri palıd ağacının arxasına keçib silahını üzünə qaldırdı. Heç nəyi vecinə almayıb üzərinə gələn zəncinin alnını nişan aldı, lakin yenə birdən-birə vahimələndi, qorxudan əlləri əsdi. İnsanlıqdan uzaq olan vəhşini vura bilmədi. İndi onun yeganə çıxış yolu buradan uzaqlaşmaq idi. Yoldaşlarını döyüş meydanında qoymağa adət etməyən Diləfruz bütün gücünü topladı, palıd ağacının arxasındakı çökəyə tullandı, Qabartı çayına qədər məsafəni birnəfəsə qaçdı. Zəncinin arxasınca gəlmədiyinə əmin olandan sonra qəbiristanlığa keçdi, qəbir daşlarının arası

ilə iti addımlarla irəlilədi. Özünü qəbiristanlığın qurtaracağındakı ağaca bağlayaraq aramsız atəş açan zəncini görəndə ikinci dəfə üşəndi, güllədən zorla yayındı. O hiss etdi ki, narkotik maddə qəbul edən bu zəncilər vəhşi heyvandan da təhlükəlidirlər.

Döyüş meydanında yaralananların sayı getdikcə artırdı, lakin onlar müxtəlif nahiyələrdən yara alsalar da, geri qayıtmaq fikrindən uzaq idilər. Hər dəfə:

– Bacı! – nidasını eşidən Diləfruz qanı vətən torpağına çilənən əsgərin yanında peyda oldu, yardım göstərib onları çətin vəziyyətdən çıxartdı. Düşmən növbəti mövqeyi itirəndən sonra ara bir qədər sakitləşdi...

* * *

Gözləmədikləri yerdən aldıqları zərbə erməniləri çaş-baş saldı. Əvvəldən planlaşdırdığı kimi polkovnik Şirin Mirzəyev düşmənin əks istiqamətdə: Manik və Güneypəyə tərəfdə müdafiə mövqeyi tutan qüvvələrini Qabartı çayına tərəf çəkdi. Hücum əmri veriləndə əsgərlərimiz sağ və sol cinahlardan mühasirə halqasını daraltmaq üçün bir xeyli irəlilədilər...

Döyüşdən əvvəl Əkbər müəllim ən çətin sınaqlardan keçən kəşfiyyatçılarını şəfqətlə süzdü. Cəlalın gəlişinə qurban kəsən İsmayıl kişiyə yaxınlaşdı, sağ əlini onun çiyninə qoyub dedi:

– Allah qurbanını qəbul eləsin, İsmayıl kişi. Oğul, doğrudan da, düşmən çəpəridir. Cəlal kimi bir oğlu olan ata yalnız fəxr edə bilər, – o danışa-danışa əlindəki rabitə vasitəsinə baxmağı da unutmadı.Yaşıl işıq üç dəfə yanıb-sönən kimi Əkbər müəllim kəşfiyyatçılardan ibarət taqımın üzvlərinə bir daha xatırlatdı:

– Kəndə heç bir ziyan vurulmayacaq, yerli əhaliyə, getmək istəyənlərə toxunulmayacaq. Bizim davamız yaraqlılarladır.

Əsgərlərin getmək üçün hazırlaşdığını görən İsmayıl kişi qollarını açıb hər birini bağrına basdı, alınlarından öpdü:

– Gedin, oğullarım, allah sizə yar olsun! – dedi. Oğlu Cəlalın yanında ayaq saxladı, qürurla sözünə davam etdi, – Cəlal, səni bu günlər üçün böyütdüm. Get, bilirəm ki, geriyə alnıaçıq,

üzüağ dönəcəksən.

Cəlal əyilib atasının əlindən öpəndə İsmayıl kişi ürəyi ilə bacarmayıb qəhərləndi, oğlunun başını köksünə sıxdı...

Qabartı çayının sol sahilində yerləşən Manik kəndini Qazançıdan ayıran köhnə qəbiristanlıq idi. Əkbər müəllimin dəstəsi də məhz qəbiristanlıq tərəfdən kəndə daxil olmalı idi. Əyri-üyrü qəbir daşlarının üstündəki yazılar qan yaddaşı kimi döyüşçülərin də diqqətini cəlb etdi. Hətta ərəb əlifbasını bilən bir əsgər daşlardan birinin üstündəki yazını da oxudu:

"1918-ci il... Bizə rəhmət, Vətənə salam deyin!"

Qəbirlərin arası ilə uzanan cığırın sonuna çatanda Əkbər müəllim ayaq saxladı, ehtiyatlı olmağı hamıya dönə-dönə tapşırdı:

– Unutmayın ki, düşmən hər daşın altından çıxa bilər. Təhlükəsizliyə əmin olmadan addım atmayın.

Döyüşçülər qəbiristanlığa yaxın evlərə tərəf yönələndə ağaclıqdan atılan güllə hamını yerə uzanmağa məcbur etdi. Cavab atəşinin ardınca qarşı tərəfdə qışqırıq və inilti səsi eşidildi. Yenidən hər şey susdu. Vəzifələrini yaxşı bilən üçlük: Sənan, Cəlal və Əlabbas sakitlikdən istifadə edib sürətlə irəli şığıdılar, döyüş mövqeyi tutub digər əsgərlərin irəliləməsinə imkan yaratdılar. Qarşıda heç bir maneə görməyən dəstə kəndə tərəf istiqamət aldı. Ağaclığı nəzarətdə saxlayan üçlük silahdaşları ilk evin həyətinə daxil olanda arxayınlaşıb ayağa qalxdı. Elə bu vaxt ağaclıq yenidən od püskürdü. Cəlal içini çəkib yerə yıxıldı. Cavab atəşi ilə qarşı tərəf susdurulandan sonra Əlabbas üzüqoylu uzanıb zəif barmaqları ilə torpağa sığal çəkən Cəlalın başını dizləri üstünə aldı, nəsə demək, təsəlli vermək istədi, lakin buna ehtiyac olmadığı üçün susdu, gözlərini onun üzünə dikdi. Yaralının üzündə qəribə bir təbəssüm vardı. O, son gücünü toplayıb pıçıldadı:

– Atama deyərsiniz ki...

Əlabbas Cəlalın təbəssüm dolu gözlərini qapamaq istəyəndə Sənan qoymadı, qəhərlənə-qəhərlənə:

– O gözləri qapama, – dedi, əyilib onun gözlərindən öpdü və and içdi, – qardaşım, rahat uyu, qanını yerdə qoymayacağıq.

Əlabbas çantasını Cəlalın başı altına qoydu, Sənanla birlikdə ağaclığa tərəf süründü. Ağacın altında beş erməni cəsədi vardı. Zəncirlə ağaca bağlanmış yaralı zəncini görəndə onlara hər şey bəlli oldu. Yaralarını bağlamağa başı qarışan zənci hənirti duyub sarğını yerə qoydu, nizamsız şəkildə güllələri ətrafa səpələyib sakitləşdi, yenidən sarğıya əl atdı. Qarşısında Sənanla Əlabbası görəndə isə atəş açmağa imkanı olmadı, alnından aldığı yaradan yerindəcə keçindi. Sənan ikrahla onun qana bələnmiş cəmdəyinə tüpürdü...

Kəndin içində atəş səsləri qəfildən güclənəndə Əlabbasla Sənan silahdaşlarının yanına tələsdilər. İkimərtəbəli evi özlərinə səngər edən ermənilər Əkbər müəllimin taqımının yolunu kəsmişdilər. Birinci mərtəbədəki pulemyot susmaq bilmirdi. Əlabbas Sənanın üzünə baxdı:

– Biz evə arxa tərəfdən yaxınlaşmalıyıq.

Sənan başını astaca tərpədib razılaşdığını bildirdi. Hər ikisi evin arxasına doğru uzanan cığırla irəlilədi. Evə çatmağa bir neçə metr qalmış Əlabbas dayandı:

– Diqqətli ol, bir şey görsən, məni qoru, – o, irəli atıldı.

Divarın dibinə çatanda işarə ilə Sənanı da çağırdı. Evin arxa tərəfindən zirzəmiyə açılan qapı örtülü olsa da, kilidlə bağlanmamışdı. Əlabbas ehtiyatla qapıya yaxınlaşdı, dəstəyindən tutub astaca itələdi. Qapı açılan kimi yarıqaranlıq zirzəmidən qalxan rütubət burnunu gicişdirdi. O asqırmamaq üçün burnunu tutdu. İçəridə bir küncə qısılmış gənc qadınla qorxudan gözləri böyüyən on yaşlı qız uşağını görəndə Əlabbas barmaqlarını dodaqlarının üstünə qoydu:

– Qorxmayın, bizim sizinlə bir işimiz yoxdur, – dedi.

Qadın da, uşaq da sakitləşdilər. Əlabbasdan:

– Buradan yuxarı çıxmağa qapı varmı? – sualını eşidəndə qadının rəngi qaçdı, əl-ayağı əsdi, yalvarmağa başladı:

– Yalvarıram, ərimə dəyməyin, muzdlular onu zorla öz yan-

larında saxlayıblar.

Əlabbas razılıqla başını tərpətdi, qadın sakitləşdi, titrək barmaqları ilə zirzəminin qaranlıq küncünü göstərdi. Dağlıq yer olduğu üçün qadının göstərdiyi səmtdə zirzəminin tavanı çox alçaq idi. Əlabbas əyilərək beş yastı pilləsi olan daş pilləkənin ayağına çatdı və qapağı qaldırıb mətbəxə daxil oldu. İçəridə heç kim yox idi. Mətbəxin həyətə baxan böyük pəncərəsi atəş səsindən cingildəyirdi. Yaxınlaşan ayaq tappıltısı eşidiləndə Əlabbas qapının arxasına keçdi və içəri girib mətbəxin pəncərəsindən atəş açmağa hazırlaşan yaraqlını sərrast bıçaq zərbəsi ilə susdurdu. Onun silahını götürüb geniş aynabəndə çıxdı. Üzü həyətə dayanıb aramsız atəş açan yaraqlılardan daha üçünü vurdu. Elə bu vaxt Sənan özünü yetirdi... Yeddi yaraqlı əsir alındı. Bir küncə qısılıb sakit dayanan ev sahibinə Əlabbas astadan dedi:

– Narahat olmayın, hər şey keçdi, ailənlə öz evində rahat yaşaya bilərsən.

Rəngi qaçmış ev yiyəsi cəld mətbəxə qaçdı. Bir neçə dəqiqədən sonra arvadı və qızı ilə içəri daxil oldu. Minnətdarlıqla baş əyib əlindən öpmək istəyəndə Əlabbas mane oldu:

– Siz nə edirsiniz? Biz vətəndaşlarımızın təhlükəsizliyinə cavabdehik.

Əkbər müəllim Əlabbasla Sənanı fəxrlə süzdü:

– Qazançı döyüşündə siz qəhrəmanlıq tariximizdə yeni səhifə açdınız, igidlərim, – dedi, sonra üzünü digər əsgərlərə tutdu, – bu, son deyil, başlanğıcdır. Allah bilir, hələ neçə düşmən yuvasını dağıtmalıyıq. Həyətlər bir-bir axtarılacaq.

Komandir işarə ilə əsgərləri arxasınca çağırdı. Rafiq həyət qapısına hamıdan sonra yaxınlaşdı. Xışıltı səsinə geri dönəndə kolluqdan qalxaraq avtomatını ona tuşlayan yaraqlını gördü. Düşünməyə vaxt yox idi: eyni zamanda açılan atəş hər iki rəqibi qana boyadı, lakin heç biri yıxılmadı. Erməni silahını qaldırana qədər Rafiq daraqdakı gülləni onun sinəsinə boşaltdı. Əsgərlər atəş səsinə geri dönəndə Rafiq çiynini tutub yerə yıxıldı. Onun

yarası bağlananda haradansa küt guppultu eşidildi. Sağ əlini sinəsinə basan Əlabbas son dəfə dostlarına baxıb şəhadət barmağı ilə evin ikinci mərtəbəsini göstərdi. Açıq pəncərənin qarşısından sürətlə ötən kölgə Rövşənin gözlərindən yayınmadı. O, Həsənlə birlikdə pillələrlə üzüyuxarı dırmaşdı. İçəridə atəş səsləri eşidildi. Digər əsgərlər silahı ayağa çəkib pilləkənə yaxınlaşdılar. Çiynindən güllə yarası alan Həsən Rövşənin köməyi ilə aşağı enirdi. Əlləri boynunda, bət-bənizi ağarmış ev sahibini görəndə Əlabbasın cəsədi qarşısında diz çökən Elbrus silaha əl atdı. Dişlərini bir-birinə sıxaraq çaxmağı şaqqıldatdı, erməninin alnını nişan alıb atəş açdı. Lakin Əkbər müəllim cəld tərpənib avtomatın lüləsini yuxarı qaldırdı:

– Müharibənin öz qaydaları var, oğul, əsiri güllələməzlər. O, dövlətimizin qanunları ilə cəzalanacaq.

Cəlalla Əlabbasın şəhid olması xəbəri tezliklə bütün batalyona yayıldı. Düşmənə qan qusduran orta boylu Cəlalın, ən çətin məqamlarda dostlarına dayaq, düşmənə əcəl olan Əlabbasın ölümünə çoxları inanmadı. Araya ani sükut çökdü, silahlar susdu. Polkovnik Mirzəyevə elə gəldi ki, bu dəqiqə hər iki əsgər çiynində silah haradansa peyda olacaq, silahdaşları ilə birgə düşmən üzərinə yeriyəcək. Düşündüklərinin xəyal olduğunu bütün varlığı ilə dərk etsə də, o, Cəlalın da, Əlabbasın da isti nəfəsini hiss etdi, Qazançı istiqamətində zəncirvarı hücuma keçən əsgərlərini yada salıb ətrafdakıların eşidəcəyi tərzdə vüqarla dilləndi:

– Onlar ölmədilər, oğullarım, hər birimizin qəlbində əbədi heykələ çevrildilər.

Bir ayağı İkinci Dünya müharibəsində şikəst olsa da:

– Belə dar gündə evdə oturmaq kişilikdən deyil, – söyləyib ahıl yaşında döyüşə gələn Əli kişi (bütün əsgərlər ona hörmətlə "dayı" deyə müraciət edirdilər) də bu naqafil ölümü qəbul edə bilmədi, çılğınlıqla ayağa qalxdı, düşmənin görə biləcəyi yerdə dayanıb erməniləri almanca söyməyə başladı. Diləfruzun:

– Ay dayı, bu dəqiqə səni vuracaqlar, aşağı əyil! – sözlərinə də əhəmiyyət vermədi. Qarşı tərəfdən atılan güllə salamat aya-

ğına dəyəndə qoca yerə çökdü. Özünü yetirən Diləfruz yaralını aşağı çəkdi, yarasını bağlayıb Namiqi səslədi:

– Namiq, Əli dayı sənə əmanət!

Atılan bir güllə döyüşü yenidən gücləndirdi. Barat Diləfruzdan bir qədər irəlidə döyüş mövqeyi tutmuşdu. Məmməd müəllimin silahı susanda Barat ona tərəf süründü, yara çox ağır idi. Amma o özünü itirmədi, ucadan səsləndi:

– Həkim, həkim! Məmməd müəllim vuruldu!

Diləfruz uzandığı yerdən ona tərəf boylanan yaralıya təskinlik verdi:

– Məmməd müəllim, bu dəqiqə gəlirəm, – o, tibb çantasını arxasınca çəkib yaralıya çatmağa çalışdı.

Eyvazla yaxın məsafədə yerə uzanan Maarif Məmməd müəllimin vurulduğunu eşidəndə uzandığı yerdən dizləri üstə qalxdı. Məmməd müəllimə köməyə gedən Diləfruzdan muzdlu zəncinin diqqətini yayındırmaq üçün dalbadal bir neçə güllə atdı və yerə uzandı. Amma atılan güllələr zəncinin əyninə geydiyi zirehdən keçmədi. O, səmtini dəyişərək digər zənciyə nə isə söylədi. Güllənin bitdiyini görən Maarif avtomatın darağını dəyişmək üçün yerindən azacıq dikəldi, bir qədər aralıda olan çantasından növbəti darağı götürdü, dəyişməyə cəhd elədi. Amma aldığı güllə yarasından arxası üstdə yerə sərildi. Maarifin susduğunu görən Eyvaz dostuna yaxınlaşdı. Alnından dəyən güllədən Maarif yerindəcə keçinmişdi. O, mavi gözləri yarıyumulu şəhidi qucaqladı:

– Maaariiif! – deyə hayqırdı.

Məmməd müəllimə çatmağa çalışan Diləfruz qardaşının səsini tanıdı, lakin özünü ələ alıb imdad dolu gözlərini ondan çəkməyən Məmməd müəllimə tərəf bir qədər də irəlilədi. Atəş səsləri içərisində:

– Eyvaz, özünü ələ al, bu yara nədir ki? Sən hələ çox yaşayacaqsan, – deyib hönkürən Sadəddinin sözlərini eşidəndə yaralarından qan sızan qardaşını gözü önünə gətirdi və qeyri-ixtiyari ayağa qalxdı. Onu addım-addım izləyən zənci lap

yaxınlıqda dayanıb rişxəndlə gülürdü. Diləfruz iri qara dodaqlarının arasından dişləri ağaran bu heybətli məxluqu yenidən görəndə yerindəcə donub qaldı, heç yerə tərpənə bilmədi. Belinə bağladığı enli kəmərin üstündən bir-birinin ardınca sol tərəfinə sancılan güllələrin ağrısını belə hiss etmədi. Qabartı çayına tərəf boylandı. Yerə uzanıb qarşı tərəfə cavab verən Elbrus Mustafayevə Əli dayının avtomatını tulladı və:

– Elbrus, silahı götür! – deyə bildi. O hiss etdi ki, ayaq üstdə dayana bilmir, qarnını sancı doğradıqca taqəti tükənir, dizləri əsir, qəribə bir hiss onu ağuşuna alır. Birdən məhrəm bir səs qulaqlarında cingildədi:

– Dayan! Getmə...

Bu səs ona yaxasından əl çəkməyən Elnuru, ətəyini buraxmayan Pərvanəni, arxasınca məlul-məlul boylanan Könülü, Samirəni və əlləri qoynunda yol gözləyən anasını xatırlatdı.

Məmməd müəllimə yardım etməyə çalışan Barat yubandığı üçün həkimə tərəf boylananda gördüyü mənzərədən dəhşətə gəldi. Heç nəyi vecinə almayan bədheybət zənci ləngərlənə-ləngərlənə üzüqoylu yıxılan Diləfruza tərəf addımlayırdı. Barat son dəqiqələrini yaşayan Məmməd müəllimə:

– Qardaş, sənə kömək etmək üçün əlimdən heç nə gəlmir, amma Diləfruzu, bəlkə də, qurtara bilərəm, – deyəndə Məmməd müəllim razılıqla göz qapaqlarını endirib-qaldırdı. Barat arxadan zəncinin ürək nahiyəsini nişan aldı. Kürəyinə dəyən güllə zənciyə təsir etməyəndə o heyrətləndi, bir daraq gülləni onun kürəyinə boşaltdı. Yönünü çevirən zənci bir-iki addım irəli gəldi, istehza ilə irişərək avtomatın darağını dəyişməyə tələsən rəqibinə atəş açdı. Aldığı yara Baratın sinəsini al qana boyadı. O, əvvəlcə bir addımlığında can verən Məmməd müəllimə tərəf baxdı, sonra isə başını qaldırıb son dəfə mavi üfüqləri seyr etdi. Lakin başından aldığı ikinci güllə yarasından qolları sustaldı, gözlərinə qaranlıq çökdü və üzüqoylu torpağa sərildi...

* * *

Əli dayını təhlükəsiz yerə aparan Namiq geri döndü. Diləfruz heç yerdə görünmürdü. O:

– Bacı, hardasan? – deyə çağırdı, amma səsinə səs verən olmadı. Əyilə-əyilə təpənin arxa tərəfinə keçəndə gözlərinə inanmadı. Zənci Diləfruzun başı üstündə dayanmışdı, əlində iri bir döyüş bıçağı vardı. Onun niyyətini başa düşən Namiqin qulaqlarında polkovnik Şirin Mirzəyevin sözləri səsləndi: "Diləfruz sənə əmanət. Aldığımız məlumata görə düşmənlər, ilk növbədə, əsgərlərimizi həkimsiz qoymağı planlaşdırıblar. Nə olursa-olsun, onun yanından ayrılma". Namiq ətrafa boylandı. Əliməddlidən gələrək batyalyona qoşulan Elbrus lap yaxınlıqda səngərlənib qarşı tərəfi atəşə tutmuşdu. O, ucadan:

– Elbrus, məni qoru! – deyib təpənin yuxarısındakı ağaca çatmağa tələsdi. Çiyni üstündən səs gələn tərəfə boylanan zənci nişan almadan atəş açdı. Namiq qıçından aldığı yaradan yerə yıxıldı və üzüaşağı diyirləndi. Zənci Diləfruza sarı dönmək istəyəndə gözü silahını ona tuşlayan Elbrusa sataşdı. Bir neçə güllə vursa da, saymazyana üzərinə gələn zəncini görəndə Elbrusu da xof basdı. Gizlənməyə yer axtardı. Birtəhər qaçıb çayın sahilindəki sahibsiz həyətdə daldalanmaq istədi. Ətrafa boylandı, yaxınlıqda it damı vardı. Dustaq həyatı ilə barışan it yuvasında uzanıb başını qabaq ayaqlarının üstünə qoymuşdu. Elə bil ki, yazıq heyvan nə güllə səslərini, nə döyüşənlərin haykүyünü eşidirdi. Zəncinin ardınca gəldiyini hiss edən Elbrusun it damına sığınmaqdan başqa çarəsi yox idi. İt də nədənsə cınqırını çıxarmadı, ona pənah gətirən adama yuvasında yer verdi.

Elbrus bildi ki, əynindəki zireh zəncini qoruduğu üçün onu başından vurmaqla zərərsizləşdirmək olar. O, öz-özünə:

– Ya sənə verər allah, ya da mənə, – deyib zəncinin alnını nişan aldı, alnından axan qan üzünü bürüsə də, zənci yıxılmadı, heç nə olmamış kimi irəlilədi. Elbrus dəhşətə gəldi, avtomatın darağını üzərinə yeriyən kabusa tərəf boşaltdı. Zənci it yuvasının bir addımlığında tir-tap yerə səriləndə o, dərindən nəfəs

alıb ayağa qalxdı, zəncinin cəsədinin üstündən keçib dərənin döşü ilə irəlilədi və əvvəlki yerinə çatmağa çalışdı. Lakin birdən torpağın ayağı altından qaçdığını hiss etdi, elə bil kimsə onu dərə aşağı diyirlətdi. Qabartının buz kimi suyu vücudunu saranda ayıldı, Elbrus sahilə çıxmaq üçün əl-qol atmaq istədi. Cəhdi boşa çıxdı, dalğalana-dalğalana axan buzlu sular onu qoynuna aldı. Döyüş yoldaşları xilas edəndə sol tərəfdən bir neçə güllə yarası alan Elbrus hələ də ayılmamışdı.

* * *

Batalyon polkovnikin göstərişi ilə kəndin içərilərinə doğru irəlilədikcə atəş səsləri daha da gücləndi. Muzdlu zəncilər və saqqallılar qüvvələri tükəndikcə daha da quduzlaşdılar, lakin tab gətirməyib geri çəkildilər. Düşmənin zəifləməsi əsgərlərdə döyüş ruhunu daha da artırdı. Güneypəyə tərəfdən hücuma keçən döyüşçülər komandir Muğani Hümbətovun və Kəngərli taqımının komandiri Təhmasibin başçılığı ilə qarşıdakı maneələri tərəddüd etmədən aşdılar. Zəif nöqtələrin gücləndirilməsinə xüsusi önəm verən komandir Muğani birdən-birə sol cinahda boşluq hiss etdi. Bir-birinə yaxın məsafədə mövqe tutan qardaşlara diqqət yetirdi.

– Ehtiyatlı ol, qardaş, sən mənə anamın əmanətisən, – deyərək hər vəhclə Kamilin qarşısında sipər olmağa çalışan Şamilə məhəbbətlə baxdı. Kürəyini iri palıd ağacının gövdəsinə söykəyərək avtomatın darağını dolduran Cəmildən:

– Qardaş, elə bizim hamımız Allah-təalanın bu torpağa əmanətiyik. Çox narahat olma, o bizi qoruyar, – cavabını eşidəndə isə köks ötürdü. Ona yaxınlaşıb dedi:

– Cəmil, sol cinah boş görünür, sən bir qədər aşağı en, özün də diqqətli ol. İlqarla Bəylər orada olmalıdırlar, amma nədənsə onlardan səs-səda yoxdur.

Cəmil ayağa qalxdı, bir qədər çaya tərəf endi. İlqarla Bəylərin səngərləndiyi yer boş idi. Özlüyündə:

– Yəqin ki, bir qədər irəlidədirlər, – fikirləşsə də, ürəyində

onları məzəmmət də etdi, – axı deyilib ki, heç kim mövqeyini icazəsiz tərk etməsin, cızılan plandan kənara çıxmasın.

O, bir qədər də irəli getdi, İlqarla Bəylərdən heç bir iz tapmayanda nigarançılığı artdı. Gəldiyi yolla geri qayıtdı. Ağacların arxasında gizlənərək dərəyə yaxın yerdə çiyin-çiyinə vuruşan Mahir Hüseynovla Fərzəliyev Elxanı görüb onlara tərəf yollandı. Yerdə qan izləri gözünə sataşanda aşağı əyildi. Qan təzə idi, hələ donmamışdı. Cəmil beynindən qara-qura fikirləri qovmağa çalışdı, lakin palçıqlı torpağın üzərində gördüyü izlərdən ona hər şey bəlli oldu. Qəfil yaxalanan İlqarla Bəylər düşmənlə əlbəyaxa döyüşə girmişdilər. Cəmili fikir aldı: bəs onları hara aparıblar? O, dörd tərəfi nəzərdən keçirdi.

– Burada nəsə var, – deyib Elxana tərəf səsləndi:

– Yaxınlıqda nəsə gördünmü?

Atəş bir qədər səngidiyi üçün Elxan uzandığı yerdən ayağa qalxdı:

– Yox, – deyəndə kəlməsi ağzında qaldı, müvazinətini saxlamaq üçün əlini uzadaraq dostunun çiynindən yapışmaq istədi, lakin bacarmadı. Gördüyü mənzərədən sarsılan Mahir onun cəsədi qarşısında dizləri üstə çökdü, bir neçə dəfə:

– Elxan, Elxan! – deyə çağırdı, cavab almayanda bir üsyançıya çevrildi, – Axı niyə?

O, yaş dolan gözlərini qırpmadan qarşı tərəfi atəşə tutdu. Cəmil bir qədər arxada iri palıd ağacının koğuşundan Mahirə tuşlanan avtomatı görəndə fikirləşmədən silahı üzünə qaldırdı. Eyni zamanda açılan atəş meşədə əks-səda verdi. Koğuşdan bağırtı səsi eşidiləndə Mahir kürəyinin alışdığını hiss etdi, geri dönməyə çalışdı, amma ağrıdan tərpənə bilmədi. O özünü yetirən Cəmilə nəfəsi təngişə-təngişə bunları deyə bildi:

– Cəmil, özünü qoru...

O, gözlərini dolandırıb bir qədər əvvəl gövdəsinə sığındığı palıdı seyr etdi. Əlini nəyə isə uzatdı, lakin sustalan qolu asta-asta aşağı endi.

Cəmil onun cansız bədənini silkələdi:

– Mahir, Mahir! – deyib qəhərləndi, əlləri ilə başını tutub hönkürdü, – Mən qardaşın Dağıstana (dostları Xanları Dağıstan adlandırırdılar) belə ölümü necə xəbər verim?

Lakin Cəmilin birdən-birə özünə acığı tutdu, var gücü ilə qışqırdı:

– Kişi ağlamaz! Ayağa qalx, qisas günüdür!!!

Sol cinahdan bir xəbər gəlmədiyini görən komandir Muğani Şamilə tərəf baxaraq dedi:

– Sağ tərəfdən arxayınam. Təhmasib işinin ustasıdır. Üstlərinə gedən ermənilərin cavabını istənilən kimi verəcək. Amma sol tərəf o qədər də güvəniləsi yer deyil, çünki dərədir, min bir dəlmə-deşiyi var. Boşluğun yaranması da buna görə təbiidir. Siz iki qardaş ( o, Kamili nəzərdə tuturdu) yerinizdən tərpənməyin. Tofiq, Mərdan, siz isə Cəmilin ardınca gedin. O tərəfdən çox narahatam, heç bir xəbər də yoxdur, amma ehtiyatlı olun.

Tofiqlə Mərdan ağacların arası ilə gah yürüyərək, gah da güllələrdən yayınmaq üçün sürünərək dərəyə tərəf irəlilədilər. Güllə səsləri indi lap yaxınlıqdan eşidilirdi. Elə bu vaxt hər ikisi Cəmilin irəli deyil, arabir atəş aça-aça geri qayıtdığını gördü. Əsgərlər təəccüblənsələr də, onu təqib etdilər. İri palıdın yanına çatanda koğuşdan gələn xırıltı səsinə dayandılar. Boğazından aldığı yaradan son nəfəsini verən zənciyə ikrahla baxıb silahdaşlarına çatmağa çalışdılar. Cəmilin nə üçün irəli deyil, arxaya qayıtması onlara indi bəlli oldu: düşmənin arxada gizli yuvası vardı...

Atəş kəsiləndə Cəmil dayandı. Barmaqlarını dodaqlarının üstünə qoyaraq arxasınca dabanbasma gələn Mərdanla Tofiqə susmağı məsləhət gördü. Bir qədər ətrafa baxdıqdan sonra dərəyə tərəf enən ayaq izlərini göstərib onlara arxasınca gəlməyi tapşırdı. Dərənin yuxarısındakı itburnu kollarında titrəyiş hiss olundu. Üçü də kolluğa yaxınlaşdı. Cəmil nə qədər boylansa da, kollardan aşağını görmək mümkün olmadı. Kollar növbəti dəfə daha bərk silkələnəndə hər üçü kolluğu atəşə tutdu. Zarıltı

səsi bir-birinə qarışanda kolluq da dilə gəldi. Dərənin üstündə dayananlara tərəf bir neçə güllə atıldı. Atəş səsləri kəsiləndə qabaqda Tofiq, ardınca Mərdan, lap axırda isə Cəmil dərəyə tərəf endilər. Kolluqda növbəti titrəyiş yarananda hər üçü dərəyə enən yarğana sığındı. Pırıltı ilə uçan quşu görən Tofiq gülümsünərək Mərdanla Cəmilin üzünə baxdı. Onlar yenidən ehtiyatla aşağı düşdülər. İtburnu kollarının bərabərində üst geyimləri çıxarılmış iki cəsəd vardı. Tofiq təəccübləndi:

– Bunlar kim ola bilər ki?

O, cəsədlərdən birini arxası üstə çevirib üzünə baxmaq istəyəndə baş verən güclü partlayış cəsədləri havaya sovurdu və ağır yara alan döyüşçülərin hərəsi bir tərəfə düşdü...

"Qələbə"sindən məmnun zənci gizləndiyi çökəklikdən çıxıb dərədən üzüyuxarı qalxmağa çalışdı, lakin donmuş torpaq yumşaldığı üçün dəfələrlə ayağının altından sürüşdü. O öz dəstəsinə çatmaq ümidi ilə dərə boyu irəli qaçdı, son ümid yeri kimi qəbiristanlığa çatmağa çalışdı, Şirin Mirzəyevin planı üzrə dərə boyu "təmizləmə əməliyyatı" aparan dəstə qarşısına çıxanda muzdlu zənci silahına əl atmağa macal tapmadı. Başından dəyən güllə onu birdəfəlik susdurdu...

* * *

Qıçından aldığı yara Namiqi nə qədər ağrıtsa da, canını dişinə tutub ayağa durdu, öz yarasını bağlamaq yadına belə düşmədi, yuxarı qalxmağa tələsdi. O çatana qədər bir neçə əsgər Diləfruzu dövrəyə almışdı. Namiq onun nəbzini yoxladı, simasında sevinc işartıları görünəndə əsgərlər həkimin sağ olduğunu anladılar. Namiq yaxasında gizlətdiyi bədən sarğısını çıxartdı:

– Üzünüzü çevirin, – deməsi ilə əsgərlər kənara çəkildilər, əks tərəfə baxıb Diləfruzun ətrafında çəpər çəkdilər. Namiq yaranı açdı, bir-birinin böyrünə saplanan güllələr onun sol tərəfini bıçaq kimi kəsmiş, bağırsaqlar çölə tökülmüşdü. O, bağırsaqları içəri yığıb kəsiyi bədən sarğısı ilə sarıdı...

Hamının ölmüş sandığı Diləfruz gözünü ilk dəfə səyyar va-

qon-xəstəxanada açdı. Qonşu çarpayıda uzanan naməlum adamı görəndə elə zənn etdi ki, ermənilərə əsir düşüb. İçindən bir göynərti keçdi, özünə ölüm arzuladı, qoluna sancılan iynəni dartıb çıxarmaq, bu əzabdan biryolluq qurtarmaq istədi. Qonşu çarpayıda uzanan naməlum adam Diəfruzun oyanmasına sevindi:

– Deyirdim də, ayılacaq. Bacı, mən artıq sənin qan qardaşın sayılıram.

Hələ də sağ qaldığına, doğmaların arasında olduğuna inana bilməyən Diləfruz zəif səslə soruşdu:

– Mən haradayam? Siz kimsiniz?

– Siz səyyar vaqon-xəstəxanadasınız. Sizə qanını verən isə böyük şairimiz Səməd Vuğunun nəvəsi İsrafil həkimdir.

Diləfruz başını qaldırıb hamıya təşəkkür etmək istədi, lakin hərəkəti olmadı. Onun bayıldığını görən həkimlər yenidən əl-ayağa düşdülər. Hətta Diləfruzun həyata qayıdacağına şübhə ilə yanaşanlar da oldu. Həkimlərdən birinin:

– Yarası ağırdır. Çox qan itirib. Bakıya kimi sağ qalacağına da ümid azdır. Yaxşısı budur, incitməyək. Heç olmasa, yaxınlarına halallaşmaq üçün imkan yaradaq, – sözləri ilə digərləri də razılaşdılar. Nəslin ağsaqqalı Seyid Əkbər baba Elnurun əlindən tutub içəri daxil oldu. Babanın əlini buraxan Elnur Diləfruzun çarpayısına yaxınlaşdı. Anasının ağarmış bənizinə baxdı. Onu nənəsi Eyzangülün danışdığı nağılın qəhrəmanına – yatmış gözələ bənzətdi. Amma yox, bu onun anası Diləfruz idi. Uşaq astaca anasının üzərinə əyildi, dodaqlarını onun ağarmış yanağıına toxundurdu. Bu körpə nəfəsdən Diləfruzun canına sanki bir hərarət gəldi. Buza dönmüş əllərinin, ayaqlarının keyi açıldı, ağırlaşmış göz qapaqları yüngülləşdi. Gözünü açmaq, nəsə demək istədi, təntidi. Onun halının dəyişdiyini görən baba Elnuru içəridən çıxartdı. Qapının ağzında dayanıb nigaran baxışlarını üzünə dikən Eyzangülü görəndə Seyid Əkbər özünü tox tutdu. Bir-iki ağız öskürüb dedi:

– Bala, Eyzangül, Diəfruza halallıq ver, – o, qadının diksin-

diyini görüb sözünü yekunlaşdırdı, – halallıq yüngüllükdür, şəfanı verənsə, Allah...

Eyzangül ağlamadı, nə qədər ağır olsa da:

– Şəhid balamın qanı bu torpağı suvarıbsa, mən xoşbəxt anayam və ona halallığı mən yox, qanı ilə suvardığı torpaq verib, – dedi...

* * *

Günlər həftələrə, həftələr aylara calandı. Həkimlərin qayğısı, silahdaşlarının sevgisi, sadə adamların məhəbbəti və Allahın lütfü Diləfruzu yenidən həyata qaytardı. Yerindən tərpənə bilməsə də, huşsuz vəziyyətdə yatsa da, onun qayıdışına hər kəs inandı. O, gözünü açanda başının üstündə ağ xalatlı tibb bacısını gördü. Buraya nə üçün düşdüyünü xatırlamağa çalışdı. Qulaqbatırıcı güllə səsləri beynini oydu. Gözlərinin qarşısında qara rəngli heybətli bir sima canlandı. Birdən-birə nəfəsi daraldı. Bayaqdan aramla nəfəs alan xəstənin birdən-birə təngnəfəs olması tibb bacısını çaşdırdı. Həyəcanla həkimin otağına tərəf qaçdı. Həkimlər içəri girincə xəstənin təngiməsi keçmişdi. İndi onun iri gözləri tavana zillənmişdi. Həkim nəbzini tutanda Diləfruz diqqətlə bu tanış simaya baxdı, xatırlaya bilmədi. Öz-özünə düşündü:” Bütün həkimlər ağ xalatda bir-birinə bənzəyirlər”. Həkim nəbzi aramla vuran xəstəsinə təsəlli vermək üçün dedi:

– Qorxmayın, yaşayacaqsınız, bütün çətinliklər arxada qaldı.

Cavab vermək əvəzinə Diləfruz soruşdu:

– Bu gün ayın neçəsidir?

Həkim gülümsündü:

– Mayın üçüdür.

Diləfruz eşitdiyinə inanmaq istəmədi, hətta həkimin zarafat etdiyini düşündü. Lakin onun üzündəki ciddi ifadəni görəndə susdu. Son döyüş gününü xatırladı. Yenidən gurultu, şaqqıltı qulaqlarını dəldi, zarıltı, inilti səsləri bir-birinə qarışdı, “bacı, kömək elə” sədası ürəyini sızıldatdı. Gözlərinin kənarından qulaqlarına tərəf axan iki damla yaş özünə asanlıqla yol tapdı.

Tibb bacısı əlindəki dəsmalla axan yaşı sildi, amma ötən günləri yada salıb dərindən ah çəkən həmkarına deyəcək söz tapmadı. Diləfruz zəif səslə:

– Demək, iki aydır ki, buradayam, – deyəndə başını astaca tərpətməklə onun sözlərini təsdiqlədi. Diləfruz yenə nəyi isə xatırlamaq istədi, lakin yaddaşını təzələyə bilmədi. Beynində bir boşluq yarandı. O elə zənn etdi ki, ruhu bu boşluğa əsir düşüb, oradan xilas yolu isə görünmür. Bu düşüncələr içində gözlərinin nə vaxt yumulduğundan xəbəri olmadı...

Meşənin dərinliyində quşların xoş cəh-cəhi bir-birinə qarışmışdı. Baş-başa vermiş ağacların sıx yarpaqları arasından süzülən günəş şüaları göz qamaşdırırdı. Arabir əsən meh saçlarına sığal çəkdikcə Diləfruz xoşhallanır, bu əsrarəngiz gözəllikdən doymurdu. Birdən haradansa su şırıltısı eşidildi. Səs getdikcə yaxınlaşdı. Burula-burula axan sular iri daşların arasında gizlənqaç oynayırmış kimi gah aşağı enir, gah da dərin yerlərdə daşların üstündən aşırdı. Daşların arasında irili-xırdalı çay balıqları suyun ahənginə uyğun rəqs edirmiş kimi quyruqlarını asta-asta tərpədir, lakin birdən sürətlə şığıyaraq daşların arasında yox olurdular.

Diləfruz aşağı əyildi, ovuclarını doldurub diqqətlə baxdı, köpüklər yatdıqca suyun şəffaflığı artdı, güzgüyə döndü. O, güzgüdən boylanan simada bir doğmalıq duydu, gülümsündü:

– Necəsən? – soruşdu.

Cavab almayanda üşəndi, əlləri bir-birindən aralandı, cingilti səsi suyun şırıltısını eşidilməz etdi. Çiliklənmiş şüşələrdən eyni biçimli simalar səs-səsə verdilər:

– Necəsən?

Diləfruz hər iki əli ilə şüşələri bir yerə toplamağa çalışdı, barmağına batan qırıntının yaratdığı ağrı bütün vücuduna yayıldı. Şırıltı səsi yenidən eşidiləndə bir qədər aşağı əyildi, ovuclarını doldurub suyu üzünə vurmaq istədi. Elə bu vaxt iri bir balıq lap sahildə quyruğunu şappıldatdı. Sıçrayan su damcıları birdən-birə üzünə çiləndi, Diləfruz səksəndi. Ağırlaşmış

göz qapaqlarını zorla açdı. Su dolu stəkanı əlində tutan tibb bacısının üzündə xoş bir ifadə vardı. Həkim:

– Şükür Allaha, ayıldı. Bundan sonra komaya düşməsi imkansızdır, – dedi, sonra üzünü tibb bacısına tutdu, – xəstəyə sakitlik lazımdır. Yanına heç kimi buraxmayın.

Bir azdan koridora da sakitlik çökdü. Otaqda başqa adam yox idi. Diləfruz yerindən qalxmaq istədi, lakin zəiflikdən və əzalarındakı ağrıdan yenidən yatağa uzandı, gözlərini yumdu. İçəri girən tibb bacısı onun yastığını düzəltdi. Təyinat üzrə yazılan dərmanları sistem balonuna əlavə edib venasına qoşdu. Qapını örtüb yarımçıq qalan romanı oxumaq istəyirdi ki, asta səslə adının çağırıldığını eşitdi. O, Diləfruzun yatdığını güman edib qapıya yaxınlaşdı. Yaralı döyüşçüləri görəndə barmaqlarını dodaqlarının üstünə qoyub pıçıldadı:

– Həkimin tapşırığıdır, sizi içəri buraxa bilmərəm, ona, – o, başı ilə Diləfruzu göstərdi, – sakitlik lazımdır.

– Bacı, vallah, o bizi görsə, ağrılarını da unudacaq. Izin verin, görüşək.

Tanış səsdən Diləfruz gözlərini açdı. Tibb bacısının başı üstündən içəri boylanan Cavanşiri o dəqiqə tanıdı, ürəyinə bir rahatlıq hakim kəsildi, zorla eşidiləcək səslə xahiş etdi:

– Bacı, onları içəri buraxın.

Diləfruzun səsinə tibb bacısı arxaya çevrildi. O, çarpayının yanına çatmamış İlhamla Cavanşir içəri girdilər. Döyüş yoldaşlarını görən Diləfruzun yorğun simasında sevinc nişanəsi duyuldu...

Nə qədər asta danışmağa çalışsa da, İlhama aman verməyən Cavanşir arabir səsini qaldırır, amma tibb bacısının narazı baxışlarını görən kimi əlini sinəsinə qoyub üzrxahlıq etməyi də unutmur, yenidən üyüdüb tökürdü.

– Bacı, bilirsən nə var, – o kiminsə eşidəcəyindən ehtiyat edirmiş kimi sağ əlini ağzının kənarına tutdu, – bizimkilər ermənilərin anasını ağladırlar, təmizləmə əməliyyatı başlayıb. Torpaqlarımızı ermənilərdən bir-bir alacağıq. Bizim batalyon

qan eləyir. Şirin Mirzəyevin batalyonunun adını eşidəndə ermənilərin kürkünə birə düşür.

Diləfruzun gözlərində yaş görünənəndə tibb bacısı onları tələsdirdi:

– Xəstəni həyəcanlandırmaq olmaz. Xahiş edirəm, otaqdan çıxın...

* * *

Ertəsi gün yuxudan oyanan Diləfruz özündə xeyli yüngüllük hiss etdi. Qapının taqqıltısını eşidəndə asta səslə:

– Gəlin, – dedi.

Otağa girən yaralı çarpayıya yaxınlaşana qədər Diləfruz onun kim olduğunu xatırlamadı. Bunu gələn şəxs də hiss etdi, gülümsündü:

– Bacı, mənəm də – Firidunam.

– Hansı Firidun? – Diləfruz gözlərini qıyıb onu xatırlamağa çalışdı.

– Minamyotçular taborunun komandir müavini idim, sonra batareya komandiri Cavanşir Bayramovun müavini oldum.

– Hə, yadıma düşdü. Nə vaxt yaralanıbsan?

– Martın sonunda.

– Harada?

– Moxrataq,Maqauz kəndləri uğrunda gedən vuruşmalarda,– o, bir qədər sözünə ara verdi, – çox itkimiz oldu, bacı. Elə oğullarımız getdi ki...

Firidun danışa bilmədi. Qəhərləndiyi aydın duyulurdu.

– Kimlər şəhid oldu? – Diləfruzun da səsi titrədi.

– Qərib, Əfqan, Şamxal...

O, yenə susdu, sözünün ardını gətirmədi. Hiss olunurdu ki, danışmaq onun üçün də çox çətindir. Müsahibinin intizarla üzünə baxdığını görəndə sözünə davam etdi:

– Komandirimiz Cavanşir, Füzuli, Səməd və mən eyni gündə yaralandıq. Mən qəlpə yarası aldım. Sonra nə olduğunu bilmədim. Gözlərimi hospitalda açdım. Sənin burada olduğunu

İlhamdan öyrəndim.

Həkimin otağa gəldiyini görəndə Firidun ayağa qalxdı, həkimlə salamlaşdı:

– Salam.

– Salam. Bu gün səni gümrah görürəm. Şikayətin yoxdur ki?

– Döyüşə qayıdacağım günü gözləyirəm. Məni nə vaxt azad edəcəksiniz?

– Darıxma, hələ vaxtına var. Sağalandan sonra biz heç bir döyüşçünü burada saxlamırıq, – həkim nəvazişlə əlini onun çiyninə qoydu. Firidun gedəndən sonra çarpayıya yaxınlaşdı:

– Qəhrəman bacımız necədir? – o, Diləfruzun nəbzini tutdu. Ondakı dəyişikliyə özü də heyrətləndi, – belə getsə, daha tez ayağa qalxacaqsınız.

Həkim tibb bacısına növbəti göstərişləri verib otaqdan çıxdı. Günortaya yaxın xəstənin vəziyyəti daha da yaxşılaşdı. İlhamla Cavanşirin cəbhədən gətirdiyi hər xəbər Diləfruzun sağalmasını tezləşdirdi; Azad edilən Pircamal, Ballıqaya, Dəhraz, Ağbulaq, Qaraşlar, Naxçıvanik, Abdal Gülablı kəndləri sanki onun yaralarına dərman oldu.

İyunun on üçündə aldığı xəbərdən isə o, xəstəxananın heç bir otağına sığmadı. Ağdərənin düşməndən təmizlənməsi bütün yaralarının gözünü qapatdı. Bir neçə gün götür-qoy edəndən sonra Diləfruz qəti qərar verdi: necə olursa-olsun, bu daş qəfəsdən canını qurtarmalı, döyüş yoldaşlarının yanına qayıtmalıdır...

Həkim otağa daxil olanda Diləfruzu hərbi geyimdə görüb qaşlarını çatdı:

– Sizə kim icazə verib?

Diləfruzun cavabı çox qısa oldu:

– Heç kim.

Həkimin sifəti daha da ciddiləşdi:

– Hərbin öz qanunları olduğu kimi xəstəxananın da öz qaydaları var və onu pozmağa heç kimə icazə verilmir.

Diləfruz əvvəlcə duruxdu, lakin vəziyyətdən çıxmağı da bacardı:

– Həkim bunları bilirəm, amma sürətlə sağalmağımın səbəbi ordumuzun qələbələridir. Dostlarımla qələbə sevincini bölüşməkdən məni məhrum etməyin.

– Siz də məndən bunu istəməyin, ayaq üstə olmağınıza baxmayın, istənilən an vəziyyət dəyişə bilər.

– Doktor, neçə aydır, buradayam. Axı balalarım üçün də burnumun ucu göynəyir. Bircə dəfə hərəsini bağrıma basa bilsəm...

Həkimin gözləri yol çəkdi. Bu fədakar qadının sözləri qarşısında susdu. Diləfruz yenidən dilləndi:

– Sizdən çox yox, bir həftəlik evimə getməyə icazə istəyirəm. Təyinat üzrə bütün dərmanları da qəbul edəcəyəm. Söz verirəm, həftə tamam olan kimi geri dönəcəyəm.

Həkim razılığını bildirəndə Diləfruzun uçmağa qanadı olmadı. Tez bütün əşyalarını qablaşdırmağa çalışdı. Çətinlik çəkdiyini görən tibb bacısı irəli gəlib əlindəki çantanı aldı. Diləfruz böyük minnətdarlıq hissi ilə onun boynunu qucaqladı.

* * *

Qatar vağzala çatanda uzun bir fit verib dayandı. Kupenin pəncərəsindən boylananda Diləfruz doluxsundu. Ona elə gəldi ki, olmadığı müddətdə müharibə doğma yerlərdə hər şeyi, hətta adamları da dəyişib. İçindən bir sızıltı keçdi. Simasından yorğunluq yağan insanları seyr etdikcə süstləşdi, taqətsizləşdiyini hiss etdi. Üzünü çevirib pəncərədən aralandı, çantasını götürmək istəyirdi ki, eyni zamanda bir neçə əl çantadan yapışdı. Başını qaldıranda sevincdən nə edəcəyini bilmədi. Gəlişindən xəbər tutan döyüş dostları onu qarşılamağa gəlmişdilər. Başı gələnlərə elə qarışdı ki, Diləfruz qatardan yerə necə endiyindən belə xəbər tutmadı...

Onun üzündəki sevinc dostlarına da sirayət etdi. Sözü bir-birinin ağzından alan döyüşçülər Sarıtəpəyə çatanda sürücünün hərbi texnikanı saxlamasına təəccübləndilər. Bir neçə addımlıqda dayanan komandiri görəndə isə bütün əsgərlər farağat vəziyyət aldılar. Polkovnik bir-bir əsgərləri süzdü, gözləri Diləfruza sataşanda simasına mülayimliklə bərabər bir qınaq da çökdü.

Məzəmmətlə maşındakılara baxıb üzünü sürücüsünə tutdu:

– Əliyev (Mübariz), Diləfruzu evlərinə apar, tez də qayıt, tələsirəm.

Bayaqdan bütün ağrılarını unudan Diləfruz elə bil yuxudan ayıldı. Həkimin sözləri yadına düşdü: “Ayaq üstə olmağınıza baxmayın, istənilən an vəziyyət dəyişə bilər”. O, sakitcə aşağı endi. Sürücü qapını açıb onu nəzakətlə içəri dəvət edəndə Diləfruz minnətdarlıqla komandirə baxdı. Ona elə gəldi ki, “tələsirəm” desə də, polkovniki ilk dəfədir ki, bu qədər sakit, arxayın görür. Həmişə yol çəkən gözlərindən bu gün nədənsə nur yağır. Maşın əyri-üyrü yolları şütüdükcə Şirin Mirzəyevin üzündəki nur Diləfruzun gözlərinin önündən çəkilmədi...

Taqqıltı səsinə həyət qapısına yaxınlaşan Gülbəniz Diləfruzu görəndə içini çəkdi, qollarını açıb bacısına sarı gələ-gələ içəridəkiləri hayladı:

– Könül, Samirə!

Qızları dövrəyə alanda Diləfruzun gözləri Elnuru axtardı. Həyətin ortasında dayanıb maddım-maddım ona baxan oğluna yaxınlaşdı, uşaq Gülbənizin ətəyindən yapışıb üzünü gizlətdi.

– Oğlum, Elnur! – nidasını eşidəndə səs tanış gəldi, naməlum qadına bir də baxdı, ona tərəf bir neçə addım atıb yenidən dayandı. Qızının gəldiyini eşidib özünü hövlnak çatdıran Eyzangül Diləfruzun boynuna sarılanda isə Elnur da anasını tanıdı...

Gözaydınlığına gələn qonum-qonşular onu çox yormaq istəmədikləri üçün tezliklə dağılışdılar. Özündə halsızlıq hiss edən Diləfruz yatağa uzandı, gözlərini yumub bir qədər dincəlmək istəsə də, olub-keçənlər kino lenti kimi gözlərinin qarşısında canlandı. Birdən-birə darıxdı, “Xəbərlər” proqramını izləmək üçün düyməni basdı. Ekran işıqlandı. O, diktorun gülümsər simasında həmişə gördüyü təbəssümü hiss etmədi, səsindəki hüzndən bir qədər üşəndi:

– Bu gün Sırxavənd istiqamətində gedən döyüşlərdə “Xaçınstroy” batalyonunun komandiri polkovnik Şirin Mirzəyev və silahdaşları: Qahir, Araz, Yavər, Mübariz qəhrəmanlıqla şə-

hid olublar. Dəfn sabah Fəxri xiyabanda olacaq.

Eşitdiyi xəbərdən Diləfruzun qulaqları batdı, bir anda rəngi avazıdı, dil-dodağı əsdi.

Anası əl-ayağa düşdü:

– Özünə gəl, qızım, bütün Ağdam yas içindədir. Hamı onu yola salmağa hazırlaşır.

– Mən də gedəcəyəm! Mən orada olmalıyam, ana! Komandirimə son borcumu verməliyəm, – deyib Diləfruz yerindən qalxdı.

Ağdamda böyük bir izdiham vardı. Əhali öz igid oğlunu – polkovnik Şirin Mirzəyevi son mənzilə ötürmək üçün yola çıxmışdı. Diləfruz da onların arasında idi. Yerimək nə qədər çətin olsa da, o, qardaşlarının köməyi ilə addımlayır, izdihamdan geri qalmaq istəmirdi. Bir azdan maşınlar Bakıya doğru şütüdü. Yol boyu düşüncələrə qərq olan Diləfruz Şəhidlər xiyabanında torpağa tapşırılan komandirinin məzarı qarşısında baş əydi. Geri addım atmaq istəyəndə ayaq üstdə dayana bilmədi. Elə bu vaxt iki möhkəm əl onun qollarından yapışdı. Gözlərini hospitalda açan Diləfruz başının üstündə qardaşlarını görəndə hönkürtü ilə ağladı...

***I hissənin sonu***

## II hissə

Avtobus heç nəyin fərqinə varmadan şose yolla şütüyürdü. Nə xəzrinin şahə qaldırdığı dalğalar, nə də sağ tərəfdə Böyük Qafqaz sıra dağlarının yol boyu uzanan boz ətəkləri bu metal parçasının eyninə deyildi. Sərnişinlər də susurdular, kimi mürgü vurur, kimi təzə aldığı qəzeti vərəqləyir, kimi də yorğun baxışlarını pəncərədən ayırmırdı. Qonşu oturacaqda anasının sinəsinə sığınan qızcığaz da arabir qımıldanır, hərbi geyimli qadına gözü sataşan kimi üzünü gizlədirdi. Bomboz çöllərə baxan qadınsa bunu sezmirdi. Onun siması bəzən mülayimləşir, dodaqlarına qonan təbəssüm üzünə xüsusi yaraşıq verir, lakin çox keçmədən bu mülayim çöhrə ciddiləşir, qaşlar çatılırdı. Avtobus silkələnib dayananda o da başqaları kimi düşüncələrdən ayrıldı. Hərbi geyimli adamlar avtobusa doluşdular. Bəzi sərnişinlər narazılıqlarını bildirsələr də, hərbçilər onlara əhəmiyyət vermədilər. Rütbəcə digərlərindən yüksək olan zabit əlini uzadaraq qabaq cərgədə oturanlardan sənədlərini istəyəndə avtobusdakılar məsələnin mahiyyətini aydın başa düşməsələr də, əllər çantalara, ciblərə uzandı. Pasportlara bir-bir nəzər yetirən leytenant növbəti ad və soyadı oxuyanda diqqətlə pasport sahibinə baxdı, onun üzündəki rəsmiyyət bir anda yoxa çıxdı:

– Salam, Diləfruz bacı, – deyib yüngülcə təzim etdi, – sizinlə rastlaşacağımı heç ağlıma gətirməmişdim.

Siması nə qədər tanış gəlsə də, Diləfruz onunla harada qarşılaşdığını yadına sala bilmədi. Bunu o dəqiqə anlayan leytenant gülümsünərək:

– Siz məni xatırlamaya bilərsiniz, – dedi, – Xaçınstroy batalyonuna təzə gəlmişdim. Fərruxda gedən döyüşlərdə sinəmdən yara aldım. Siz vaxtında yardım edib təhlükəsiz yerə aparmasaydınız, – növbəti pasport əlinə uzadılanda zabit sözünü yarımçıq kəsdi. Yoxlama bitəndə isə təşəkkür etməyi unutmadı, – sizə minnətdaram, hər şey üçün çox sağ olun. Sizin kimi

qəhrəman analara hamımızın ehtiyacı var.

Avtobus yola düşdü. Bayaqdan səs-küy ucalan salonda yenidən sakitlik başladı. Qızcığaz yerindən qımıldandı. İndi onun gözlərində böyük bir maraq vardı. Diləfruzun gözləri ani olaraq ona sataşanda balaca Pərvanəni xatırladı, gülümsündü. Deyəsən, qızcığaz bundan ürəkləndi:

– Siz qəhrəmansınız?

Qızın sualından onun üzündə xoş ifadə yarandı:

– Vətəni qoruyan bütün əsgərlərimiz qəhrəmandır.

Qızcığaz daha da ürəkləndi:

– Neçə düşmən öldürmüsünüz?

– Mən tibb işçisiyəm, qızım, vəzifəm, öldürmək yox, yaralılara yardım etməkdir.

– Ermənilərə də?

Diləfruz qızcığazın onu necə qəbul edəcəyinin fərqinə varsa da, təmkinlə dilləndi:

– Əlbəttə.

Qızın iri gözlərində birdən-birə yaş parıldadı:

– Onları sağaltmayın, xala, – deyərək az qala üsyan etdi.

– Niyə, axı onlar da insandırlar.

Qızın hönkürtüsü eşidiləndə digər oturacaqda əyləşən sərnişinlər də onlara tərəf boylandı. Diləfruz əlini uzadaraq onun saçını tumarlamaq istədi, amma qız başını kənara çəkdi:

– Onlar ermənidirlər. Mənim atamı, balaca qardaşımı öldürdülər, evimizi yandırdılar...

Salonu lənət səsləri bürüyəndə Diləfruzun gözləri qarşısında yandırılan Xocalı canlandı. Yalnız bunu deyə bildi:

– Sən haqlısan, qızım. Amma bizim əlimizdən gələn budur...

Avtobus rayon mərkəzinə çatanda günortadan xeyli keçmişdi. Diləfruz N saylı hərbi hissənin Əfətli kəndindəki bölməsinə çatmağa tələsdi. Taksiyə əyləşib ünvanı söylədi. Üz-gözündən illərin yorğunluğu yağan yaşlı sürücü motoru işə saldı, yüngül təkandan sonra maşın yerindən qalxıb sürətini artırdı. Hər tərə-

fə diqqət yetirən Diləfruz yol boyu doğma yerləri seyr etdi. Müharibənin soyuq nəfəsi yalnız insanları yox, təbiəti də çulğamışdı. Yol boyunca ucalan çinar, qovaq ağaclarının yarpaqlarına müharibənin rəngi çökmüşdü, yaşıllıqların əvvəlki cazibəsindən bir əsər qalmamışdı. Yolda-yolaqda adamlar da gözə dəymirdilər. Üstü çadırlı köhnə maşınlarda köç edənlərin karvanı gözə dəydikcə boşalan yurdları xəyalına gətirən Diləfruzun bir anlıq ürəyi sıxıldı. O, maşından enmək, köç karvanının qarşısını kəsmək fikrindən özünü zorla saxladı. Xocalı faciəsini xatırlayıb öz-özünə:

– Sizi qınamıram, – dedi, – görünür ki, başqa çıxış yolunuz qalmayıb.

Bu sözə bənd imiş kimi qocanın dili açıldı:

– Nə etsinlər, hər gün ölümlə üz-üzədirlər, gündüzlər evdən bayıra çıxa bilmirlər, gecələr də başlarına mina yağır. Ermeniyə bir “dur” deyən də yoxdur. Aləm bir-birinə qarışıb.

Diləfruz susdu. Kəndə gedən yol, demək olar ki, tamamilə dağılmışdı. Növbəti çökəyə çatanda sürücü qəfil əyləci basdı, sərnişinin diksindiyini görəndə üzrxahlıq elədi:

– Qızım, bağışla, yollar o qədər kələ-kötürdür ki, maşını rahat sürmək olmur.

Diləfruz dinmədi, onun sözlərini başı ilə təsdiqlədi. Sərnişinin sakitliyi  sürücünü heç açmadı. Mənzil başına çatana qədər susmağa üstünlük verdi.

Bağ-bağatlı Əfətli kəndi ermənilərlə üz-üzə idi, səngərləri bir-birindən bir neçə yüz metrlik məsafə ayırırdı. Hərbi hissə yaşıllıqlara qərq olmuş məktəbdə yerləşirdi. Cəbhə xətti yaxın olsa da, kənd camaatı evini tərk etməmişdi. Hərbi hissənin kənddə yerləşməsi əhalini çox ümidləndirmişdi. Həyat dinc zamanlarda olduğu kimi davam edirdi. Arabır  güllə səsləri eşidilsə də, qorxudan əsər-əlamət yox idi. Mənzil başına çatanda sürücü maşının sürətini azaltdı. Həyətdə dayanan əsgərlər maşından enən Diləfruzu görən kimi irəli gəldilər. Onlardan biri sevincək dilləndi:

– Xoş gəldiniz, Diləfruz bacı.

Maşına minməyə hazırlaşan sürücü eşitdiyi addan sanki sehrləndi, ani olaraq geri baxdı:

– Nə? Diləfruzmu? – o, cavab gözləmədən maşından aralanıb bir qədər irəli gəldi, – hünərinə qurban olum, qızım, bağışla, tanımamışam. Sizin kimi qəhrəman qızları olan vətən torpağı qanqal bitirməz.

Diləfruz razılıqla başını tərpədib yüngülcə təzim etdi:

– Çox sağ olun, əmi. Bu bizim borcumuzdur.

Sürücü qəhərdən danışa bilməyəcəyini dərk edib hər iki əlini göyə qaldırdı. Yalnız özünün eşidəcəyi tərzdə:

– Balalarımızı sən qoru, ilahi! – deyib maşına tərəf döndü.

Kələ-kötür yolda toz qopara126raq gözdən itənə qədər əsgərlər maşının arxasınca baxdılar. Diləfruz tibb məntəqəsində bəzi avadanlıqların yerini dəyişdirdi, bütün tibbi ləvazimatları səliqə ilə yerinə qoydu. Məntəqəni səliqəyə salandan sonra köməkçisi Cahid razılıqla dilləndi:

– Hə, indi otağımız tibb məntəqəsinə bənzədi.

Ertəsi gün qapının ağzında növbəyə düzülən əsgərləri görəndə Diləfruz heyrətləndi:

– Sizin burada nə işiniz var?

Lap qabaqda dayanan əsgər geriyə baxmadan əli ilə arxadakıları göstərdi:

– Biz hamımız xəstəyik.

Onları bir-bir dinləyən Diləfruz siyahıya on yeddi nəfərin adını yazdı. Komandirə məlumat verib onlarla birlikdə yoxlanış üçün rayon mərkəzinə yola düşdü. Mərkəzi xəstəxanada müayinə edilən əsgərlər həkim məsləhətindən və tibbi yardımdan sonra hərbi hissəyə qayıtmaq üçün maşında yerlərini tutdular. Xəstəxanaya gedərkən susan əsgərlərin bir-biri ilə zarafatlaşması sürücü Azəri də yerindən oynatdı. O, maşını məharətlə idarə edərək arabir arxa oturacaqda əyləşən əsgərlərə tərəf dönür, onlara ürəkaçan sözlər söyləyirdi. Onun çox danışması Diləfruzun nəzərindən yayınmadı, ciddi şəkildə dedi:

– Yola bax, bu qədər əsgərin taleyi sənə etibar edilib.

Uzaqdan Qarqar çayının üstündəki körpü görünəndə Azər arxayınlıqla:

– Buranı adlaya bilsək, heç bir təhlükə qalmayacaq, – deyib sürəti tam artırdı və ermənilərin tez-tez atəşə tutduğu ərazini asanlıqla keçdi. Sahilə çatmamış maşın körpünün üstündə birdən-birə ləngərləndi. Azər özünü itirmədən bütün gücü ilə sükandan yapışdı, ucadan xəbərdarlıq etdi:

– Möhkəm dayanın!

İçəridəkilər nə olduğunu anlamamış maşın ani təkanla bir neçə metr irəli tullanıb çayın digər sahilində dayandı. İçəridəkilər bir-birinin üstünə yıxılsalar da, xoşbəxtlikdən xəsarət alan olmadı. Diləfruzun sual dolu baxışlarını görən Azər peşmançılıqla dilləndi:

– Təkərin biri yerindən çıxıb, – sonra yaşlı adamlar kimi əllərini qaldırıb dua etdi, – sənin böyüklüyünə şükür, ilahi, məni xəcalətdə qoymadın, salamat qurtardıq...

* * *

Bölmə komandiri Məmməd (Hamı ona Qara Mamed deyirdi) bir yerdə qərar tuta bilmirdi. Kəşfiyyata gedənlərdən xəbər yox idi. Bu ərazilərin hər qarışına bələd olan İslam kişiyə nə qədər arxayın olsa da, o, bir təsadüfün bütün planları alt-üst edəcəyini də çox yaxşı bilirdi. Onun narahatlığını görən Məmmədalı kişi arxayınlıqla dedi:

– Rəhmətdiyin oğlu, daha səndə can qalmadı ki... Kəşviyata həmişə adam yolluyufsan da. Harda olsalar, gəlif çıxajaxlar. Yəqin ki, ehtiyat üçün yollarını dolayıdan salıflar.

Gözlərini kəşfiyyatçıların getdiyi səmtdən çəkməyən komandir dillənmədi. Şəfəqin sökülməsinə az qalırdı. Bir azdan dan yeri ağaracaq, hər tərəf əl içi kimi görünəcəkdi. Düşmən arxasına keçən kəşfiyyatçılar üçün geri qayıtmaq çox çətin olacaqdı. Tərslikdən gecənin səssizliyini pozan heç nə yox idi. İlk axşamdan ətrafı bürüyən cırcıramaların da səsi kəsilmişdi. Qəfildən göyün üzü nurlandı, qarşı tərəfdən avtomat şaqqıltısı eşidildi. Eyni istiqamə-

tə tuşlanan işıqsaçan güllələrin ardınca minaatanların guppultusu başlandı. Komandir həyəcanla dilləndi:

– Bizim kəşfiyyatçılardan xəbər tutdular, cavab atəşinə hazırlaşın!

Onun:

– Atəş! – əmrini verməsi ilə bir neçə mərmi düşmən səngərinə tərəf uçdu. Yenidən ətrafa sükut çökdü. Dəqiqələr bir-birini əvəz etdikcə komandirin səbri tükəndi. Astadan fit səsi eşidəndə səngərdəkilərə ehtiyatlı olmağı tapşırıb səhərin alatoranında durbinlə qarşı tərəfə baxdı. O, səngərə üç nəfərin yaxınlaşdığını gördü və əsgərlərdən ikisini gələnlərə yardım etmək üçün göndərdi. Əjdər qıçından güllə yarası almışdı. Kəşfiyyatçıların başçısı Zahid komandirə vəziyyət barədə məlumat verdi:

– Düşmən ciddi hazırlıq görür. Maradonanın ( əsl adı Pənah olan bu döyüşçü Qax rayonundan idi) gətirdiyi "dil"dən bəzi məlumatları öyrənə bildik: ermənilər sabah güclü hücuma keçəcəklər.

– Hansı istiqamətlərdən?

Zahid əlindəki xəritəni açdı:

– Bax bu istiqamətlərdən, – o, şəhadət barmağı ilə xəritənin üstündə işarələnmiş nöqtələri göstərdi.

– Bu boyda ərazidə hücum planlaşdırılıbsa, deməli, ermənilərə güclü kömək gəlib, – Qara Mamed gözlərini stolun üstündəki xəritədən ayırmadı.

– Elədir ki, var. Hərbi maşınlarda gələn canlı qüvvəni Əjdər özü müşahidə edib. Hücumda ağır artilleriyadan da istifadə olunacaq. Necə olursa-olsun, Əfətlini ələ keçirmək planlaşdırılıb. Biz oradan çıxana qədər xeyli hərbi maşın gəldi. Mən silah anbarının koordinatlarını da qeyd etdim, amma, – Zahid sözünü yarımçıq kəsdi. Komandirin qaşları çatıldı, alnının ortasındakı qırış daha da dərinləşdi, köks ötürərək yumruğunu stola vurdu və onun fikrini tamamladı:

– Amma bizim həmin koordinatları vuracaq silahımız yoxdur.

Zahid bir söz demədən göz qapaqlarını endirdi. Komandir onun yorğun simasına baxdı:

– Get bir-iki saat istirahət et. Sabah çox ağır gün olacaq.

– Oldu, komandir! – Zahid dabanı üstdə fırlanıb otaqdan çıxdı, ağır addımlarla yoldaşlarının yanına getdi...

Səhər tezdən səngər boyu canlanma var idi. Patron qutusunu çiynindən yerə qoyan Məmmədalı kişi əlini gözünün üstünə qoyaraq düşmən səngərini müşahidə etdi. Bir tərpəniş duymadığı üçün üzünü Qartal ləqəbli döyüşçüyə tutdu:

– Vallah, deyəsən, atdığımız mərmilər ya erməniləri yerə gömüf, ya da qorxularınnan dabannarına tüpürüflər. Səngərrəri tamam boşdu.

– Məmmədalı dayı, ermənilər, yəqin ki, nəsə hazırrıyıflar, ona görə belə sakitdilər. Bu neçə ildə mən onnarın "dabbaxda gönünə bələd olmuşam". Hücumdan əvvəl dəfələrlə sakitlik yaradıf bizi allatmaq istiyiflər, amma biz onnarın qarmağına keçməmişik. İndi də elə olajax, – deyən Yaşarın sözlərinə Qəzənfər müəllim də şərik çıxdı:

– Elədi ki, var. Bu səssizdik qopajaq tufanın əlamətləridi.

Gözünün acısını alıb hay-küylə səngərə qayıdan İslam kişi yanaşı dayanan Balta Rəhmanla Kürən Əlini görəndə özünü saxlaya bilmədi:

– Vallah, ermənilər sizi görəndə öz səngərrərin də qoyuf qaçajaxlar.

Yaşına baxmayaraq çox gümrah görünən İslam kişinin sözləri səngərdəki əsgərlərdə xoş əhvali-ruhiyyə yaratdı. Bəxtiyar avtomatının lüləsini sığalladı:

– Hələ bir gəlsinlər. Onda görəcəklər ki, analar necə oğullar doğublar.

Qəzənfər müəllim bu qartal baxışlı gənci məhəbbətlə süzdü:

– Allah səni qorusun, oğul, – dedi və gözünün qabağında can verən igidləri xatırlayıb birdən-birə qəhərləndi.

O, qəhərini gizlətmək üçün üzünü əks istiqamətə çevirdi.

Səngərə çökən sakitlik Bəxtiyarın ürəyini sıxdı:

– Sizə bu gün nə olub e? Gəmiləriniz batıb? Vallah, mən elə bil bu dəqiqə göyün yeddinci qatındayam. Bir "Yanıq Kərəmi" çalan olsaydı, erməninin açığına elə oynayardım ki, sədası hər tərəfə yayılardı.

Leytenant Cəlil gülümsündü:

– Döyüşdən əvvəl elə göyün yeddinci qatında olmalısan ki, düşməni yenə biləsən. Elə deyilmi, Hikmət? – o, kiçik qardaşının üzünə baxdı.

– Əlbəttə, elədir, – Hikmətdən əvvəl yetmiş yaşlı atası dillənəndə leytenantın ürəyindən bir sızıltı keçdi. Atası son bir ildə çox qocalmışdı. Əvvəlki qıvraqlığı, demək olar ki, qalmamışdı. Sözünün yerə düşəcəyini bildiyi halda, leytenant üzünü atasına tutdu:

– Ata, gecəni səhərə qədər ayaq üstdə olmusan, bəlkə, bir hovur dincələsən?

– Belə gündə dincəlmək haramdı, oğul, – qocanın səsindəki qətiyyət onu susdurdu. Cəlil dərindən köks ötürdü. Atasının yanında yerini tutan qardaşının saçlarını qarışdırdı:

– Hə, balaca, döyüşə hazırsanmı?

– Sözsüz. Bizim rahatlığımız yalnız səngərdə mümkündür.

– Vallah, mənim adamımsan, ay Hikmət, – deyən Bəxtiyarın səsinə digər tərəfdən Yaşar qüvvət verdi:

– Bu gün səngərdə olmasaq, sabahımız qara geyər, biz ağ gün üçün torpağa dönməyi bacaran kişilərdənik.

Komandirin gəlişini görən döyüşçülər farağat vəziyyəti aldılar. Leytenant komandanın tam heyətdə döyüşə hazır olması barədə məlumat verdi. Qıçından yara almasına baxmayaraq, səngərdə yerini tutan Əjdər gözünə sataşanda komandirin ciddi simasına qayğılı bir ifadə qondu:

– Yaran təzədir, bəlkə, bu gün istirahət edəsən?

– Komandir, bunu məndən istəməyin, bacarmaram, – deyərək Əjdər üzrxahlıq edib səngərdə yerini rahatladı.

Əsgərlərinin döyüş əzmi ürəyindən olsa da, kəşfiyyatın gətirdiyi xəbər komandirə vəziyyətin ciddiliyini anlatmışdı. Üzə-

varı sakitlik davam etsə də, günortadan sonra aləmin bir-birinə dəyəcəyi gün kimi aydın idi...

Günortaya yaxın başlayan qısamüddətli sərin meh səngərdəkilərin üzünə sığal çəkəndə haradansa musiqi səsi yüksəldi. Musiqi səsinin yüksəlməsi ilə elə bil Bəxtiyarın gözlərinə işıq gəldi:

– Vallah, deyirəm də, bu gün mənim günümdür. Bayaqdan oynamaq istəyirəm, çalan yoxdur. Çalanlar da gəldi. Ay aşıq, sənin qadanı alım, mənim havamı çal, “Yanıq Kərəmi”ni çal, – deyib bir əli ilə silahını yuxarı qaldırdı, digər əlini isə qulağının dibinə qoydu, – Gəray bəy demişkən: “Əsl bəy havasıdır”, çal!

Onun şən əhvalı səngərdəkilərə də sirayət elədi. Komandir Məmmədalı kişiyə tərəf baxdı:

– Toy kimindir?

– Qonşumuzun qızı gəlin köçür, yəqin, onu aparmağa gəliblər.

Komandirin gözləri yol çəkdi, astadan dilləndi:

– Xoşbəxt olsun.

Amma onun səsini eşidən olmadı. Dalbadal atılan mərmilər səngərin lap yaxınlığında partladı, gurultudan ağız deyəni qulaq eşitmədi. Mərminin qəlpələri torpaqla birgə səngərin üstündən keçərək ətrafa səpələndi. Cavab atəşi qısa müddətli də olsa, düşməni susdurdu, lakin növbəti həmlə daha güclü oldu. Ara verməyən mərmi yağışının ardınca hücuma keçən düşmənlərin ilk dəstəsi göründü. Komandir qəlpələrdən qorunmaq üçün səngərə sığınan döyüşçülərə hazır olmaq əmrini verdi. Səngərlərindən xeyli aralanan erməni piyadaları güllə mənzilinə çatanda komandirin səsi eşidildi:

– Atəş!

Sürəkli atəş düşmənə bir qədər itki verdi. Amma hiss olunurdu ki, xeyli üstün olan ermənilər hücumu dayandırmaq fikrində deyillər. Onlar necə olursa-olsun, Əfətlini ələ keçirmək niyyətindədirlər. Bu xəbəri ilk dəfə eşidəndə də komandir heç təlaşlanmadı, xəbəri gətirən kəşfiyyatçılara yalnız bunu deyə bildi:

– Bir addım da geri çəkilmək olmayacaq. Bütün qüvvəmizlə

döyüşəcəyik.

– Komandir, onlar hər cəhətdən təmin olunublar, bizimsə, – komandir İslam kişiyə sözünün davamını gətirmək imkanı vermədi:

– Bizimsə qeyrətimiz var, İslam kişi!

Bunu xatırlayan leytenant döyüş səngiyəndə narahatlıqla komandirə tərəf baxdı. Məmməd köməkçisinin baxışlarını o dəqiqə anladı, astaca başını tərpətdi. Cəlilin üzündə sevinc işartıları göründü: yaxınlıqda olan bölmələr tezliklə köməyə gələcəkdi.

Bir neçə dəqiqədən sonra düşmən hücuma keçən piyadalarını qorumaq məqsədilə ağır artilleriyadan istifadə etdi. İndi mərmilər səngərdən bir qədər aralıda yerləşən silah anbarının yaxınlığında partlayırdı. Anbarın keşiyini çəkən əsgərlər nə edəcəklərini bilmirdilər. Çox təhlükəli vəziyyət yaranmışdı. Hər şeyin bitməsi üçün bir mərmi kifayət idi. Bunu düşündükcə komandirin həyəcanı artdı, rəngi daha da qaraldı.

Qəfildən qopan dəhşətli gurultu yeri-göyü titrətdi. Ətrafda olan nə vardısa, bir anda havaya sovruldu. Silah anbarında bir-birinin ardınca partlayan mərmilər hər yeri cəhənnəmə çevirdi. Nə hay-küy, nə qışqırıq, nə də zarıltı eşidilirdi. Düşmən yaratdığı cəhənnəmi uzaqdan seyr edir, partlayışın səngiməsini gözləyirdi.

Partlayışın dalğasından səngərin divarlarına çırpılan əsgərlər nə baş verdiyini anlamadılar. Hamıdan əvvəl özünə gələn komandir Məmməd üst-başının torpağını çırpıb ayağa qalxdı, yanında yerə sərilmiş köməkçisini ölmüş zənn edib yaxasından tutdu, onu gücü çatdıqca silkələdi:

– Leytenant, qalx, əmr edirəm, qalx! Ölmüş olsan da, diril, ayağa qalx! İndi ölməyə heç kimin haqqı yoxdur, – leytenantın göz qapaqları tərpənəndə o, digər döyüşçüyə tərəf döndü, – oyan, Məmmədalı dayı. İndi düşmən hücuma keçəcək, oyan!

Dəhşətli partlayışdan huşunu itirən döyüşçülər ayıldıqca komandirin rəngi açılmağa başladı. Həmişə səngərdə əsgərlərin yanında olan Diləfruzu da bu qəhərli amiranə səs ayıltdı. O, qulaqlarındakı uğultudan, başındakı ağrıdan ətrafda nə baş ver-

diyini bir an ayırd edə bilmədi. Əlləri ilə qulaqlarını tutdu, bu vəziyyətdə nə qədər oturduğundan xəbəri olmadı. Tək-tək mərmi partlayışları eşidiləndə nisbətən özünə gəldi, üstünə ələnən torpaqdan silkindi, çətinliklə ayağa qalxdı. Yerimək istəyəndə hiss etdi ki, ayaqları sözünə baxmır. Yenidən yerə çökdü, səngərin divarına söykənib ayaqlarını uzatdı. Ətrafda hər şey alt-üst olmuşdu. Bir qədər özünə gələndən sonra Diləfruz yenidən ayağa qalxdı. Bu dəfə başı hərlənmədi, ayaqları əsmədi. O, ətrafa boylandı, lap yaxınlıqda arxası üstə yıxılan Bəxtiyarı görəndə elə bil torpaq ayağının altından qaçdı, yenidən ayaqlarının taqəti çəkildi, amma yerə oturmadı. Böyük ümidlə ona tərəf addımladı. Son dəqiqələrini yaşayan gəncin üzünə tökülən torpağı təmizlədi, göz yaşını saxlaya bilmədi, hıçqırdı. Səs eşidən gəncin üzü nurlandı, qara gözlərində sevinc işartısı göründü:

– Ana, nə yaxşı gəldin? – qəfil ağrıdan o, üz-gözünü turşutdu, – Başımın altı çox narahatdır, yastığımı düzəlt.

Diləfruz əlindəki sarğı paketini onun başının altına qoydu. Amma ağrıların taqətdən saldığı gəncin üzündəki iztirabdan anladı ki, səyi əbəsdir.

– Ana, – bu çağırışdakı məhəbbəti duyan Diləfruz aşağı əyildi, özünü zorla ələ alaraq:

– Can bala, – dedi, – nə istəyirsən?

– Başımı qaldır, bəlkə, dizinin üstündə rahat olam.

Diləfruz onun yanında yerə çökdü, başını dizləri üstünə aldı:

– İndi rahatsanmı?

– Hə, ana, – onun gözlərinə təbəssüm qondu, – bu gün mənim toyumdur, eşidirsən, “Yanıq Kərəmi” çalınır. Gəl birlikdə oynayaq, – o, sağ əlinin barmaqlarını tərpətdi. Diləfruz hönkürdü. Bəxtiyar yumulmuş göz qapaqlarını açdı. İndi onun səsi zorla eşidilirdi:

– Ana, ağlama, axı “Yanıq Kərəmi” çalınır, məni yola sal.

Bəxtiyar susdu, onun qara gözləri son dəfə kimi isə axtarıb öz-özünə yumuldu.

Diləfruz əzgin halda ayağa qalxdı, bir qolu mərmi qəlpəsindən üzülən Yaşar qan içində idi. O, yaralıya ağrıkəsici iynə vurub yaradan axan qanı dayandırdı, nisbətən təhlükəsiz yerə (əslində təhlükəsiz yer yox idi, anbarda salamat qalan təkəm-seyrək mərmilərin partlamayacağına təminat vermək çox çətin idi) aparmaq istəyəndə Yaşar qəti şəkildə etiraz etdi:

– Bir qolum salamatdır, son nəfəsimə qədər döyüşəcəm.

Komandir bu sözü eşidəndə özünü saxlaya bilmədi:

– Sən dincəl, Yaşar! – deyib qəhərləndiyini bilməsinlər deyə, divarları dağılmış səngər boyu irəlilədi. Müxtəlif dərəcədə xəsarət alan döyüşçülər özünə gəldikcə səngərdə canlanma artdı. Komandir silah anbarı ətrafında keşik çəkən iyirmi beş əsgərin dayandığı yerdə açılmış iri qara çuxuru görəndə sinəsindən bir ağrı qopdu, boğulduğunu hiss edib səngərin salamat divarına söykəndi, asta-asta aşağı endi. Onun vəziyyəti Diləfruzun nəzərindən qaçmadı, su qabını çıxarıb dedi:

– Komandir, bir qurtum için.

Komandir bir söz demədən su qabını aldı, bir-iki qurtumdan sonra sinəsində yüngüllük hiss etdi, minnətdarlıqla dedi:

– Çox sağ ol, bacı.

Vaxt ötdükcə partlayışların da sayı azaldı. Buna bənd imiş kimi qarşı tərəf hərəkətə başladı. Komandir seyrələn sıralara baxdı. Artıq vəd edilən köməyin gecikməsi də onu narahat etmədi. O, döyüşçülərə qətiyyətlə dedi:

– Əvvəlcədən dediyim kimi, bir addım da geri çəkilmək olmayacaq, son nəfərimiz can vermədən düşmən Əfətliyə girə bilməyəcək. Mənimlə razısınızmı?

Səngər boyu eşidilən "Razıyıq!" sədasını eşidən komandir qeyri-bərabər döyüşə hazır olmaq barədə göstəriş verdi.

Düşmən piyadaları irəlilədikcə tərəflər arasındakı məsafə qısaldı. Səngərdən bir hənirti duymayan ermənilər qalib ədası ilə bir qədər də yaxınlaşdılar. Yüngül meh arabir onların anlaşılmaz səslərini səngərə tərəf gətirdi. Avtomatı tək qolu ilə sinəsinə sıxan Yaşar səbrini basa bilmədi:

– Nə qədər gözləyəcəyik?

Qəzənfər müəllim ona toxtaqlıq verdi:

– Səbirli ol, oğul!

Atəş açmaq üçün komandir əlini qaldıranda düşmənin ön cərgəsi biçilmiş ot kimi yerə sərildi. Silah anbarının partlamasından sonra müqavimətlə rastlaşacağını güman etməyən ermənilər bir qədər geri çəkildilər. Yenidən minaatanlar işə düşdü. Lakin hədəf düz seçilmədiyi üçün səngərdəkilər zərər görmədilər. Növbəti mina yağışından sonra ermənilər daha böyük qüvvə ilə kəndin üzərinə yeridilər.

Komandir Məmməd qəzəbdən rəngi boğulan əsgərlərinə baxdı:

– Bu, bəlkə də, son döyüşümüz olacaq, amma heç birimiz şərəfli ölümdən qaçmayacağıq, – onun gözü dərman çantasını avtomatla əvəz edən tibb bacısına sataşanda ani olaraq duruxdu, Diləfruzun üzündəki əzmkarlıq və sakitlik ona düşündüyünü deməyə mane oldu. Atəş əmri veriləndə hücuma keçən düşmən yenidən minaların açdığı çuxurlarda daldalandı. Səngərdəkilər gülləyə qənaət etmək üçün atəşi kəsdilər, lakin döyüş dayanmadı. Leytenant sevinclə komandirin üzünə baxdı. Komandir başını ağır-ağır tərpədib:

– Nəhayət, – dedi.

Köməyə gələnlərin: “Ya Allah! – nidası eşidiləndə özünü itirən ermənilər pərakəndə halda geri qaçmağa başladılar. Çiyinlərində uzun illərin yorğunluğunu daşıyan Məmmədalı kişinin siması birdən-birə aydınlaşdı:

– Ay atam balaları, qırın bu it uşağını! – o, yaşına uyuşmayan cəldliklə komandirin ardınca səngərdən çıxdı. Onunla eyni anda səngəri tərk edən digər döyüşçülər pərakəndə vəziyyətdə qaçan düşməni təqib etməyə başladılar...

Axşama yaxın döyüş tamamilə dayandı. Ermənilər xeyli geri oturduldu.

* * *

– Sözsüz ki, qabaq dişləri ovxarlanan ermənilər Əfətli məğlubiyyətinin əvəzini çıxmağa çalışacaqlar, – komandır Qara Mamed fikirli-fikirli geniş üfüqlərə baxdı.

– Sizcə, buraya yenidən hücum edəcəklər? – leytenant Cəlil narahatlıqla soruşdu.

– Buraya hücum edəcəklərinə o qədər də inanmıram, çünki mövqeyimiz yaxşıdır. Bir bölmə ilə bu ərazini tam qoruya bilərik. Amma, – o, bir qədər susdu, diqqətlə üzünə baxan köməkçisini də intizarda saxlamaq istəmədi, – Mərziliyə köməyə getməliyik, kəndə iki tərəfdən ermənilərin basqını gözlənilir...

Günortaya yaxın Mərziliyə göndəriləcək dəstə hazır idi. Diləfruz da dava-dərmanla dolu çantasını, digər tibbi ləvazimatlarla dolu qutuları qablaşdırdı. Öz işini heç kimə etibar etmədiyi üçün təcili yardım maşınının sürücüsü Azər onun göstərişi olmadan qutulara toxunmadı. Bütün qutular bağlanandan sonra dərmanlar maşına daşındı. Dəstə yola düşdü. Diləfruz yol boyu danışmadı. Nə qədər ağır olsa da, son döyüş səhnələri gözünün qarşısında canlandı. Anbar partlayarkən havada uçuşan insan əzaları yadına düşəndə əti ürpəşdi. Öz-özünə pıçıldadı:

– Görəsən, daha hansı dəhşətləri görəcəyəm?

Diləfruz yenə susdu. Onun susqunluğu dil boğaza qoymayan Azəri də susmağa məcbur etdi.

Mərzili də bağ-bağatlı bir kənd idi. Yol boyunca salınmış üzümlüklər göz oxşayırdı. Müharibənin odlu nəfəsi onların yaşıl yarpaqlarını qarsaya bilməmişdi. Yaşıl yarpaqların arasından görünən salxımlar bir-biri ilə bəhsə girirmiş kimi meh dəydikcə nazik budaqları əyir, asta-asta yellənirdi. Yolun hər iki tərəfində boy-boya verən çinar ağacları şax duruşları ilə bir-birinə meydan oxuyurdu. Maşınların torpaq yolda qopardığı toz onların yarpaqlarına bozumtul libas biçsə də, əzəmətinə xələl gətirə bilmirdi.

Hərbi hissə məktəbdə yerləşirdi. Vaxtilə uşaqların şən səs-küyü ilə canlanan həyət indi hərbi düşərgəyə çevrilmişdi. Bir

neçə üstü çadırlı sınıq-salxaq hərbi maşın vəziyyət barədə aydın təsəvvür yaradırdı. İki-bir, üç-bir dayanıb söhbətləşən əsgərlərin də simasında bir süstlük vardı. Köməyə gələnlərin ilk dəstəsi düşərgəyə daxil olanda bu süstlük birdən-birə yoxa çıxdı. Təcili yardım digər maşınların yanında dayandı. Maşından düşən Diləfruzu görəndə həyətdəki əsgərlərin bir qismi sevincək irəli gəlib onu dövrəyə aldı. Komandir Füzuli Qasımovun da üzünə təbəssüm qondu:

– Xoş gəldin, bacı. Bu əsgərlərin sənə böyük ehtiyacı var.

Müharibənin hər üzünə bələd olan Ehtiram da sevincini gizlədə bilmədi:

– Hə, uşaqlar, bacımız gəldisə, demək, hər şey yaxşı olacaq.

Diləfruz köhnə döyüş yoldaşları üçün nə qədər qəribsədiyini indi daha çox anladı. Hospitalda yatdığı günlərdə baş verən hadisələri əsgərlər nağıl etdikcə o gah qürrələndi, gah da ömrü vəfa etməyən dostları üçün qüssələndi, bəzən özündən ixtiyarsız dizinə də döydü. Sakitcə dayanıb deyilənləri dinləyən Natiq Xəlilovu görəndə isə xeyli təəccübləndi:

– Ay Natiq, axı sən Canyataqda çox ağır yaralanmışdın, sağalacağına heç güman yox idi. İndi necəsən?

– Bacı, allah dənəni üzməyəndə ən ağır yaralar da üzə gəlir, görünür, qismətimizdə qazilik varmış. Nə qədər əlim silah tutur, döyüşəcəyəm.

– Elədir, qardaş. Boş yerə deməyiblər ki, “Allah verən canı onun izni olmadan heç kim ala bilməz”.

İşində intizamı sevən Diləfruz döyüş dostlarının gözləmədiyi halda ayağa qalxdı:

– Atalar demişkən: “Söhbət dananı qurda verər”, – sonra üzünü Azərə tutdu, – haydı, iş başına. Tezliklə tibb məntəqəsi qaydaya salınmalıdır. Bunu bizim üçün heç kəs etməyəcək.

Azər yerindən qalxdı. Düzdür, kohnə dostlarından ayrılmaq bir qədər ona çətin gəldi, amma Diləfruzun sözünü də çevirə bilmədi. Axşama yaxın tibb məntəqəsi hazır idi.

Postlarda dayanan döyüşçüləri əvəz etmək üçün sıraya dü-

zülən əsgərlərə dəfələrlə keşikdə olmalarına baxmayaraq, bölmə komandiri yenidən xatırlatdı:

– Səngərdə quşdan ayıq olmalısınız. Kibrit yandırmaq, yatmaq, söhbət eləmək qəti qadağandır. Postu tərk etmək ölümə bərabərdir. Çünki düşmən yatmayıb, hər addımımızı güdür. Boş yerə güllə atmayın. Hətta tanıdığınız adamı parolu deməmədən posta yaxın buraxmayın. Hər şey aydındırmı?

Əsgərlər bir ağızdan dedilər:

– Aydındır, komandir!

– Allah amanında! – deyib komandir köməkçisinə baxdı. Bir neçə dəqiqədən sonra Qarqar çayına tərəf gedən dəstənin addım səsləri eşidilməz oldu...

* * *

Arabir qımıldanan sərin meh çinar ağaclarının yarpaqlarını tərpətdikcə yaranan qəribə xışıltı gah layla çalan, gah da daşların dibi ilə sakitcə axan kiçik dağ çaylarının həzin zümzüməsini xatırladırdı. Xəzinədar Çıraq bu zümzüməni dinləyə-dinləyə az qala hər şeyi: müharibənin ağrı-acısını, hər gün arxaya yol alan köç karvanlarını, yuxusuz gecələrini də unutmuşdu. PDM-in nə vaxt yaxınlaşdığından da xəbər tutmamışdı. Onun fikirli olduğunu hamıdan əvvəl maşının sürücüsü Xaliq hiss etdi. Bilərəkdən motoru bərk uğuldatdı. Çıraq diksindi, maşının üstündə oturub gülə-gülə ona baxan Rəhimə acıqlanmaq istəsə də, əlini yelləməklə kifayətləndi. İki övladını İmişlidə anasının ümidinə qoyan bu ağbəniz, sarışın saçlı gəncin göy gözlərində gördüyü həyat dolu gülüşdən yumşaldı. Onun bu qədər yaraşıqlı olduğunu da ilk dəfə fərq etdi. Ürəyində müharibəni lənətlədi: "Lənətə gəlsin bu müharibəni, adamda adamlıq sifətini görməyə göz qoyur ki?" Sonra üzünü Xaliqə tutdu:

– Adam gələndə bir xəbər eləyər də. Ödüm yarıldı ki...

Xaliq cavab verdi:

– Ay Çıraq, indi əvvəlki zəmanə deyil ey, dünyanı vecinə almadan astadan zümzümə eləyə-eləyə hər tərəfi tək-tənha gə-

zəsən. Müharibədir. Ehtiyatı əldən vermək olmaz.

Çıraq bir söz demədi, başını yelləyib Ağdama gedən yola buruldu. Xaliq maşını işə salaraq uzaqlaşanda onların ardınca xeyli baxdı, yenidən yoluna davam etdi. O, rayon mərkəzində işini yekunlaşdırmalı, axşama hərbi hissədə olmalı idi...

Bu gün Çırağın işi tərs gətirmədi, hansı qapını açdısa, lazım olan sənədləri təqdim edib müsbət cavab aldı. Sonuncu kabinetdən çıxanda arxayınlıqla bütün sənədləri qovluğa yığıb qoltuğuna vurdu. Öz-özünə dedi:

– İndi qaldı geri qayıtmaq. Yəqin ki, üzü o tərəfə gedən bir minik tapılacaq, – sonra özünə təsəlli verdi, – əşşi, lap tapılmasa da, kəsə yollarla axşam düşməmiş Mərziliyə çataram. Gör özümə nəyi dərd eləyirəm ey.

Yusifcanlıya gedən bir maşın yanında saxlayanda Çıraq yenə də allahına şükür etdi:

– Vallah, bugünkü işlərdə nəsə bir hikmət var, heç vaxt istəklərimə belə asan çatmamışam.

Sürücü bir söz demədən yüngülcə başını tərpətdi. Yol boyu ermənilərin xəyanətindən danışa-danışa mənzil başına nə vaxt çatdıqlarından da xəbərləri olmadı. Çıraq Mərzili yolunda maşından düşüb sürücü ilə xudahafizləşdi. Ağacların kölgəsi ilə yoluna davam etdi. Hava isti olsa da, kölgəlikdə xoş bir sərinlik vardı. Çıraq addımlarını yeyinlətdi:

– Tez çatsam, dincəlməyə də vaxtım olacaq, – o, birdən-birə üz-gözünü turşutdu, – görüm sizi lənətə gələsininz, ay ermənilər. Necə şirin aşımıza zəhər qatdılar ey. Görüm kökünüz kəsilsin.

Döngəyə çatmağa az qalırdı. Oranı da adlayandan sonra Mərzilinin bağ-bağatlı evləri görünəcəkdi. Çıraq addımlarını bir qədər də yeyinlətdi, ağzı dərəyə açılan döngəni tez keçməyə çalışdı. Döngədən bir qədər bəri yolun kənarında nəsə ağarırdı. O nə qədər üşənsə də, addımlarını daha da sürətləndirdi. Döngəyə çatanda gözlərinə inanmadı. Bu, əynindən əsgər geyimi çıxarılan Xaliqin cəsədi idi. Çıraq sinəsi al qana boyanan şəhidin yanında diz çökdü:

– Bunu sizə kim etdi, Xaliq? Bəs Rəhim, digər döyüşçülər hanı? Axı siz maşında idiniz. Bu necə oldu?

Verdiyi suallar cavabsız qaldıqca Çıraq hövülləndi, nə qədər ağır olsa da, Xaliqin cəsədini qaldıra bildi, kürəyinə alıb asta addımlarla kəndə yaxınlaşdı...

* * *

Səhərin gözü açılar-açılmaz radiocihaz ilə komandirə təcili xəbər gəldi:

– Düşmənin kəşfiyyat qrupunu məhv etdik, bir nəfər yaralımız var.

Postda dayananların arasında yaralı əsgər olması xəbərini eşidən Diləfruz tibb çantasını götürüb otaqdan çıxdı, maşını işə salan sürücüyə tərəf baxmayıb yola düzəldi:

– Diləfruz bacı! – nidasını eşidəndə ani ayaq saxladı, gülümsünərək dedi:

– Bu gün maşına ehtiyac yoxdur.

– Niyə?

– Nələr baş verdiyini heç birimiz bilmirik, maşın düşmən mövqelərinə yaxın ərazidən keçəndə vurula bilərik. Anladınmı?

O, Azərin onunla getmək istəyini üzündən oxuyanda qətiyyətlə:

– Lazım olanda sənə xəbər göndərəcəyəm, – deyib geriyə baxmadan yola düzəldi. Diləfruz düşərgədən aralanmamış ayaq səsləri eşidib geri boylandı: gələn Zülfüqar idi. Xəstə olduğu üçün onu hərbi xidmətə çağırmamışdılar, amma ürəyi dözməyən Zülfüqar Novruzlu kəndinin könüllüləri ilə birlikdə döyüşə qatılmışdı. Diləfruz ona əhəmiyyət vermədən yoluna davam etdi. Zülfüqar addımlarını bir az da yeyinlədərək:

– Bajı, məni də gözdə, – deyəndə ayaq saxladı, təəccüblə soruşdu:

– Sən hara?

– Nejə yəni hara? Posda gedirəm.

Diləfruz səsinə mülayimlik qatdı:

– Orada sənlik bir iş yoxdur, yaralı var, yarasını sarımaq lazımdır, onu da mən edəcəm.

– Nejə yəni mənnih bir iş yoxdu? Bəs bir qadını təkbaşına səngərə nejə göndərim, yox, bajı, bunu mənnən isdəmə.

Diləfruz xasiyyətcə çox kövrək olan bu gənci dilə tutdu:

– Zülfüqar, geri dön, əgər bir çətinliyim olsa, xəbər edəcəm, o vaxt gələrsən. Hələ ki heç nə yoxdur, sakitlikdir.

Zülfüqar nə fikirləşdisə, dayandı, Diləfruzla razılaşdı:

– Yaxşı, bajı, mən geri qayıdıram.

* * *

Uzaqdan mərmi partlayışı eşidiləndə növbədən gələn əsgərlər istirahət edirdilər. Səsə diksinən Fəxri təəccüblə Məhəmmədin üzünə baxdı:

– Ayə, deyəsən, bu allahsızlar postu yarıf çayı addıyıflar.

Məhəmməd etiraz etdi:

– Sayıqxlama görək. Post möhkəmdir, keçə bilməzdər.

Yaxınlaşan səs-küyü eşidən Rövşən avtomatını əlinə alıb ayağa qalxdı:

– A kişi, dayanın görək, bu nə səsdi?

O, hay-küylə düşərgəyə tərəf gələn yerli əhalini görəndə əvvəlcə duruxdu, sonra onların qarşısına keçdi, uca səslə soruşdu:

– Ay camaat, nə olub, hara belə?

Səslər kəsiləndə bir qoca irəli gəldi:

– Nejə yəni hara? Odu ey, erməniynən urus çayı keçif üsdümüzə gəlir. Yalın əlnən nejə dayanax?

Birinci postla əlaqə saxlaya bilməyən komandir bu xəbərdən sarsıldı, amma özünü ələ almağı da bacardı:

– Şayiələrə uymayın. Bütün postlarla əlaqə saxlamışıq, əsgərlərimiz postlardadır.

Ara qismən sakitləşəndə o, körpəsini bağrına basaraq hönkür-hönkür ağlayan gənc qadından soruşdu:

– Ay bacı, nə olub?

– Oğlum, oğlum evdə qalıb. Erməninin gəldiyini eşidəndə

başımı elə itirdim ki, – qadın hönkürdü.

– Uşağın neçə yaşı var?

– Üç, üç yaşı var, təzə yatırtmışdım, – həyəcandan dişləri bir-birinə dəyən ana sözünə hıçqırıqlar içində davam etdi, - təndirdə çörək bişirirdim, bu uşax yanımda idi. Atası əsgərdi, burda yoxdu, yalvarıram, oğlumu mənə sağ-salamat gətirin.

Mərzili böyük kənd olsa da, əhalinin əksəriyyəti bir-birini tanıyırdı. Komandir üzünü yerli əsgərlərə tutdu:

– Mobil, Vaqif, Yaqub, Rəsul, Nadir, Qədir, evin yerini öyrənin. Uşağı xilas etmək üçün müxtəlif istiqamətlərdən evə yaxınlaşın, amma ehtiyatlı olun, istənilən an düşmənlə qarşılaşa bilərsiniz, – o, gənclərin üzünə baxdı, – sizə güvənirik. Di haydı, Allah amanında!

Əsgərlər körpənin ardınca getsələr də, ananın hıçqırığı kəsmədi. Hiss olunurdu ki, özünü bağışlaya bilmir. Yaşlı bir qadın ona təsəlli vermək istəsə də, xeyri olmadı, gəlin daha da qəhərləndi. Elə bu vaxt əlaqə telefonunda həyəcan dolu bir səs eşidildi:

– Mərkəz! Mərkəz! Tanklar yaxınlaşır, zirehli maşınların ardınca xeyli düşmən piyadası gəlir. Nə qədər duruş gətirəcəyimiz bəlli deyil. Kömək gözləyirik!

Komandir əsgərlərin üzünə baxdı:

– Oğullarım, düşmən nə qədər güclü olsa da, geri çəkilməyə haqqımız yoxdur! Tez səfərbər olun!

Dəstə yola düşməyə hazırlaşanda uşağı xilas etməyə gedən döyüşçülərdən Mobil iti addımlarla düşərgəyə daxil oldu, şirin yuxuda olan körpəni anasına verib komandirə yaxınlaşdı:

– Atəş səsləri eşitməsək də, düşmən tanklarını çayın qarşı sahilində – postlarımızın yaxınlığındadır. Bizim səngərdə heç kim görünmürdü. Kəndin ayağında Loğmangillə qarşılaşdıq, posta gedirdilər. Yanımda olan əsgərlər də onlara qoşuldular.

Komandirin gözləri yol çəkdi, fikirli-fikirli dilləndi:

– Demək, düşmən Mərzilinin üstünə iki istiqamətdən yeriyir: həm Martunidən, həm də Qarakənddən. Qüvvəmiz azdır, tank

əleyhinə silahımız da yox dərəcəsindədir. Kömək gəlməsə...

O, ağır addımlarla dəstənin önünə keçdi. Birdən Diləfruzu xatırladı. Onu xəbərdar etmək üçün əlini telefona atdı...

* * *

Kəndarası kəsə yollardan keçərək çaya yaxınlaşan Diləfruz ətrafda nə səs-küy eşitdi, nə də gözə görünən bir canlıya rast gəldi. Bu səssizlikdən qəribə hisslər keçirtdi, amma yolundan qalmadı. Keşikçi məntəqəsinə çatanda gözlərinə inanmadı: səngər boş idi, nə yaralı vardı, nə də başqa əsgərlər. O, ətrafa göz gəzdirdi, səngər boyu irəliləyib döyüşçülərdən bir iz tapmağa çalışdı, yan-yana düzülmüş dörd qumbaraatan mərmisindən başqa, heç nə görmədi. Əyilib mərmiləri götürdü, səngərdən çıxıb üzüaşağı enmək istəyirdi ki, Füzüli Qasımovun həyəcanlı səsini eşitdi:

– Oranı tez tərk elə!

Diləfruz ağzını açmağa macal tapmadı, əlaqə tamam kəsildi. Uzaqdan gurultu səsi eşidiləndə o, qarşı tərəfə boylandı. Tanklar və zirehli maşınlar sürətlə səngərə tərəf irəliləyirdi. Onların arxasınca gələn piyadaları görəndə isə anladı ki, necə olursa-olsun, buradan uzaqlaşmalıdır. "Ya Allah!" deyib gəldiyi yolla geri qayıtdı, dərəyə yaxın yerdə cəld hərəkətlə səngərdən çıxıb üzüaşağı yüyürdü. Dərə boyu uzanan kolların arası ilə qaçmaq çətin olsa da, Diləfruz nə qucağındakı mərmiləri, nə də dərman dolu çantanı yerə qoydu. Körpüyə çatmağa az qalmış isə gördüyü mənzərədən dəhşətə gəldi, düşmən tankı sürətlə körpünün üstünə qalxırdı. Məsələ aydın idi: ermənilər Mərziliyə girməyə, yolu bağlamağa çalışırdılar. Kolun dibinə qısılan Diləfruz bundan sonra nə olacağını fikirləşməyə macal tapmamış nəzarətdən çıxan tank burnu üstdə körpüdən çaya milləndi. Tankdakıların sağ qalmayacağını bildiyi üçün o qorxmadan çayı keçib bir xeyli üzüyuxarı qaçdı, ermənicə danışıq eşidəndə isə beton körpünün altına sığındı. Silahını ayağa çəkdi, kəmərindən asdığı qumbaralardan birini əlinə aldı, iti baxışlarla ətrafı göz-

dən keçirib döyüşə hazır vəziyyətdə gözlədi. Lakin lap yaxınlıqdan keçən ermənilər onu görmədilər. Diləfruz onların danışığını tam başa düşməsə də, kəndə hücum etdiklərini anladı:

– Sizi lənətə gələsiniz, – deyib körpünün altından çıxdı, ətrafı gözdən keçirib geriyə boylandı. Bir az əvvəl çaydan keçdiyi yerdə posta doğru irəliləyən əsgərlər gözünə dəymişdi. O da geri dönmək qərarına gəldi, lakin yaxınlıqdakı tankın gurultusundan geriyə yol olmadığını bildi və Yusifcanlıya tərəf üz tutdu...

* * *

Yayda suyu quruyan çayı keçmək üçün körpüyə qalxmağa ehtiyac yox idi. Loğman və yanındakı döyüşçülər heç bir maneəyə rast gəlmədən irəli addımladılar, çaylağa çatmamış bir neçə əsgərlə qarşılaşdılar. Lap qabaqda gələn tosqun adam tövşüyə-tövşüyə həyəcanla bağırdı:

– Hara gedirsiz? Urusun tankı düz səngərin üstündə dayanıf. Aftamatnan tank qabağı kəsəjəhsiz?

Loğman onun çiynindəki qumbaraatanı göstərdi:

– Bu ki avtomat deyil, bununla tankı da vurarsan, zirehli maşını da. Heç yerə getmirik, hamımız yuxarı qalxırıq.

– Mən canımnan bezməmişəm, gedirsən, al get, – deyib o, çiynindəki silahı yerə qoydu. Nadir onun hərəkətinə qəzəbləndi:

– Bunu idarə edə bilsəydim, sənə ehtiyac duymazdım. Atəşi necə açmalıyam? – o, silahı çiyninə qaldırdı. Kök adam mızıldandı:

– Burada mərmi də yoxdu, nejə öyrədim? Hamısı səngərdə qaldı.

Nadir yerə tüpürdü:

– Lənətə gələsən. Sənin kimi xəyanətkarların ucbatından bu gündəyik. Qarnını tüstü ilə doldurmamış buradan rədd ol!

Rəngi saralan tosqun kişi bir söz demədən dərə ilə üzüaşağı qaçdı. Postdan enən əsgərlərdən biri dilləndi:

– Mən atmağı bacarıram, gedək.

Dəstə səngərə çatanda tanklar bir az da yaxınlaşmışdı, am-

ma nədənsə heç biri atəş açmırdı. Nadirin:

– Cəmi üç tankdır, birini vursaq, o birilər qorxudan geri çəkiləcək, – sözünü Yaqub başı ilə təsdiqlədi, sonra üzünü əsgərə tutdu:

– Hə, qoççum, hazırlaş, amma dəqiq nişan al.

Mərmiləri yerində tapmayan əsgər qaşlarını çatdı:

– Mərmilər yerində yoxdur.

Nadir çılğınlaşdı:

– Necə yəni yerində yoxdur? Yaxşı axtar, – o özü də mərmilərdən ötrü səngər boyu irəlilədi. Tapmayanda dilxor halda əsgərlərin yanında yerini tutdu. Tankların arxasınca gələn düşmən piyadaları da mövqelərə yaxınlaşmışdılar. Lakin gözlənilmədən tanklar istiqaməti dəyişərək sürətlə uzaqlaşdı.

Loğman şübhə ilə Mətləbə baxdı:

– Görəsən, ermənilərin planı nədir? Bəlkə, bizdən arxaya keçmək istəyirlər?

– Erməni ona ürək eləməz, amma tankdakılar ruslardısa, hər şey gözləmək olar.

Piyadalar güllə məsafəsinə çatanda şaqqıltı səsi hər tərəfi bürüdü. Onlarla düşmən əsgəri yerə sərildi. Loğman atəşi kəsmək barədə göstəriş verdi:

– Bax belə, kömək gələnə qədər duruş gətirsək, yaxşı olar...

Çuxurlarda daldalanan ermənilərin söyüşləri əsgərləri nə qədər hövsələdən çıxartsa da, tapşırığa əsasən, heç kim səngəri tərk etmədi. Lakin fışıltıya bənzər səsin arxasınca çayın digər sahilində qopan partlayışdan hər şey bəlli oldu: düşmən aldadıcı manevr edərək çaylaqdan keçmiş, Mərziliyə girmişdi. Öz isti ocağını tərk etməyən kənd əhalisini gözünün önünə gətirən Loğman üzünü döyüşçülərə tutdu:

– Kəndə qayıdırıq, əsl döyüşümüz orada olacaq. İndi düşmənə sezdirmədən geri çəkilməliyik. Hamımız böyük körpünün altında birləşəcəyik. Oradan Mərziliyə girmək daha asan olacaq.

Səngərdən çıxan dəstə kolların arası ilə müxtəlif istiqamətlərdən çayın yatağına doğru endi. Lakin körpüyə çatmağa az qalmış

qarşı tərəfdə düşmənin zirehli maşınları göründü. Geriyə qayıtmaq da mümkün deyildi. Ermənilər səsgücləndiricilər vasitəsilə silahı yerə qoyub təslim olmaq barədə xəbərdarlıq edəndə araya dərin bir sükut çökdü. Loğman Qəzəlxanın üzünə baxdı:

– Vəziyyət çətinləşdi, qardaş. Açıq sahədəyik, Daldalanacaq bir divar belə yoxdur. Bunlar da, – o, əli ilə nə vaxtsa sel sularının gətirdiyi təkəm-seyrək iri daşları göstərdi, – köməyimizə çətin ki, yetə. Başımızı qaldıran kimi düşmən bizi biçəcək.

Qəzəlxan gözünü zirehli maşınlardan çəkmədən soruşdu:

– Nə edəcəyik?

Düşmən qabağından qaçmağı heç vaxt şəninə sığışdırmayan babalarımız kimi Rəsulla Qədir bir ağızdan dilləndilər:

– Bir yolumuz var – döyüşmək!

Nadir yaşına uymayan təmkinlə halallıq istədi:

– Halallaşaq, uşaqlar, başımıza nə gələcəyi artıq bəllidir.

– Halal olsun, amma mən ölmək barədə hələ fikirləşmirəm, bir erməni də olsa, gəbərtməsəm, ölən deyiləm, – Vaqif qürurla dediyi sözlərə özü də gülümsündü və daşın arxasında yerini bərkitdi.

– Kim əsir düşəcəksə, indidən geri dursun, – xəbərdarlığı eşidiləndə hamı səs gələn səmtə boylandı. İri bir daşın arxasına keçib silahını hazır tutan Qəzəlxanın gözlərində qığılcım parlayırdı. O gözlənilmədən daşın arxasından çıxıb körpüdən aşan tanka tərəf qaçdı. Tankın yanına çatanda qumbaralardan birini zirehli maşına tərəf tulladı. Çayın yatağında qopan gurultu əks-səda verəndə hamı qulaqlarını tutdu. Qəzəlxanın yerə yıxıldığını görən Loğman daşların arasından keçərək atəş aça-aça silahdaşına doğru irəlilədi. Bir daraq gülləni sinəsinə qəbul edəndə də o, müvazinətini saxladı, asta-asta dizləri üstə düşdü. Sinəsinə basdığı avomatı əlindən buraxmadan yerə yıxıldı. Şiddətli döyüş uzun çəkmədi. Ermənilər son nəfəsində belə silahını əlindən buraxmayan bu igidlərin cəsədlərinə qorxa-qorxa yaxınlaşdılar. Daşa dirsəklənərək şəhid olan Mətləbin gözlərindəki gülüş qabaqda gedən ermənininin canına üşütmə saldı. Bir ad-

dım geri çəkilib avtomatının çaxmağını şaqqıldatdı. Digər erməni ona mane oldu:

– Aşot, gülləna heyifdir. O, çoxdan cəhənnəmə gedib.

Hələ də düşdüyü təsirdən çıxmağı bacarmayan Aşot Mətləbin cəsədini göstərib səksəkə içində dedi:

– Bu necə cəhənnəmdir ki, insan gülə-gülə gedir?

Sinəsi qana boyanan Mehman xırıltılı səslə gülərək:

– Onu siz kafirlər bilməzsiniz,- dedi, – biz ölmürük, şəhid oluruq. O məqama yetənin üzündə həmişə gülüş yuva salır, – Mehmanın nəfəsi birdən təntidi, ağzına dolan qan çənəsindən süzüləndə gözlərində xoş bir ifadə yarandı. Aşot Mehmana baxa-baxa dəhşət içində geri addımladı:

– Yox, bu ola bilməz, ola bilməz. Ölən insanın üzündə əzab, qorxu, yalvarış olar. Bunlarsa... Qulaqlarında yaralı əsgərin son nəfəsdə dediyi: “Biz ölmürük, şəhid oluruq”, – sözləri səslənəndə birdən-birə Aşotun dizləri əsdi, qolları sustaldı, avtomatı əlində saxlaya bilmədi...

* * *

Piyadalar ondan uzaqlaşsalar da, Diləfruz zirehli texnikanın səsini aydın eşidirdi. O:

– Yox, sizə asanlıqla can verməɾəm, – deyib bütün gücünü topladı, kolların arası ilə qaçıb düşməndən uzaqlaşmağa çalışdı. Xeyli qaçandan sonra elə zənn etdi ki, arxasınca gələn yoxdur, gurultu səsi onun qulaqlarındadır. Addımlarını yavaşıdıb azacıq nəfəsini dərdi, geri boylanmağı da unutmadı. İki tankı və bir zirehli maşını arxada görəndə yenidən qaçmağa başladı. İlk mərmi ondan xeyli aralı düşəndə düşmənin onu görmədiyini zənn etdi, lakin bir-birinin ardınca qopan partlayışlardan bildi ki, ermənilər onu çaşdıraraq əsir almaq istəyirlər. Diləfruz öz-özünə pıçıldadı:

– Əsir düşməkdənsə, ölərəm.

O, kolların arası ilə daha sürətlə irəlilədi. Üz-gözünü dalayan budaqlar, ayağına ilişən kollar belə onun sürətini azalda bil-

mədi. Papağı kola ilişib yerə düşəndə uzun saçları kürəyindən üzüaşağı sürüşdü. Qaçan əsgərin qadın olduğunu bilən düşmən, deyəsən, onu tanıdı və əsir almaqdan vaz keçdi: çünki növbəti mərmilər artıq onun keçəcəyi yerlərdə partlamağa başladı. Üzümlüyə çatan Diləfruz sağ qaldığına özü də inanmadı. Dili-dodağı təpidiyi üçün əlini su qabına atdı. Qab yerində deyildi.

– Görünür, qaçanda düşürmüşəm, – söyləyərək üzümlərin arası ilə bir qədər də irəlilədi, – bu əclaflara bel bağlamaq olmaz, allah bilir, indi haradan çıxacaqlar.

O, üzümlüyün ortasına çatmamış hənirti duydu. Cəld aşağı əyildi, silahını əlində hazır tutub gözləməyə başladı. Bir qədər uzaq olsa da, Zülfüqarı oxuduğu mahnıdan tanıyıb ayağa qalxdı:

– Zülfüqar, dayan, sənin buralarda nə işin var?

– Posta gedirəm.

– Hansı posta?

– Nejə yəni hansı posta, özümüzkülərin yanına.

– Züfüqar, post-filan yoxdur, hər tərəfdə ermənilər qaynaşır.

Mən canımı zorla qurtardım. Dayanma, geri qayıt, Azərə de ki...

Vıyıltıdan Diləfruzun özü belə səsini eşitmədi. Qəfil zərbədən yer ayağının altından qaçdı, torpağa sərildi. Başından axan qan alnından, gicgahlarından üzünə süzüldü.

– Yaman yerdə axşamladım, amma yox, erməni məni əsir ala bilməyəcək, – deyib sağ əlini qumbaraya uzatdı. Digər əli ilə gözlərini örtən qanı silib başından aldığı yaranı yoxlamağa çalışdı. Əli yaraya toxunanda ağrı hiss etməyib təəccübləndi. Lakin başındakı ət parçası önünə düşəndə üşəndi. Gözləri Zülfüqarı axtardı. Onun dayandığı yerdə parçalanmış insan əzalarını görəndə ürəyi ağzına gəldi. Gözlərindən axan yaş qarşısına düşən ət parçasının qanını yudu. Tankdan atılan mərmi Zülfüqarı parça-parça etmişdi. Diləfruz ayağa qalxdı, necə olursa-olsun, buradan uzaqlaşmağa çalışdı. Uzaqdan üzümçülər üçün tikilən çardaq görünəndə dizlərinə taqət gəldi, addımlarını yeyinlətdi. Çardağın altında iki qadın söhbət edə-edə qarşılarına tökdükləri

yunu didirdi. Onlar üz-gözü qan içində olan Diləfruzdan qorxub təlaşla ayağa qalxdılar. Diləfruz qadınları sakitləşdirdi:

– Qorxmayın, yaralı deyiləm. Varsa, mənə bir az su verin.

Nisbətən cavan qadın çardağın altındakı çəlləkdən cəld bir qab su götürüb ona uzatdı. Suyu içdikcə Diləfruzun ürəyi toxtadı. O qalan su ilə üzünün qanını yuyub soruşdu:

– Siz burada nə gəzirsiniz?

– Bura bizim iş yerimizdir. Üzümləri qoruyuruq. Bir azdan kişilərimiz də gələcəklər, – dolu bədənli qadın cavab verdi.

– Çıxıb gedin, Allah xatirinə, tez uzaqlaşın, ermənilər yaxındadır, bir azdan, yəqin ki, burada olacaqlar.

Qadınlar tələsik yığışdılar, yola düşəndə cavan qadın sual dolu baxışlarını Diləfruza zillədi:

– Bəs siz?

– Mənimlə işiniz olmasın, əgər varsa, mənə bir adyal verin,– o, gözünü dolandırıb çardağa baxdı.

Gənc qadın cəld çardağa qalxdı, çarpayının üstündəki örtüyü götürüb aşağı endi, Diləfruza verərək:

– Allah amanında, bacı, – dedi.

Qadınlar getdilər. Diləfruz kürəyini çardağın dirəyinə söykəyib bir qədər oturdu. Gözləri qarşısında cismi parçalanan Zülfüqarın siması canlandı. Öz-özünə dedi:

– Nə olursa-olsun, sənin cəsədini oradan götürəcəyəm.

O, örtüyü qoltuğuna vurub geri qayıtdı. Parçalanmış cəsədin bütün əzalarını bacardıqca toplamağa çalışdı. Kolların üstünə səpələnən tikələri yığdıqca bir bacı kimi Zülfüqara səssizcə ağladı. Cəsəddən xeyli uzağa düşən ürəyi əlinə götürəndə elə bildi ki, hələ də döyünür. Diləfruz işini bitirdi. Cəsədi təkbaşına necə aparacağını götür-qoy edirdi ki, qulağına danışıq səsi gəldi. O, səs çıxarmadan gələnlərin kimliyini müəyyənləşdirməyə çalışdı, öz adını eşidəndə onların Azərbaycan əsgəri olduğunu yəqin etdi. Ayağa qalxıb üzüyuxarı qalxan əsgərləri səslədi:

– Ehey, siz hara gedirsiniz?

– Posta sizin arxanızca gedirdik.

– Postu ermənilər tutublar.

– Siz nə danışırsız, bəs postdakılar hardadır?

– Bilmirəm. Mən səngərdə bunları gördüm, – Diləfruz özü ilə gətirdiyi mərmiləri göstərdi.

Əsgərlərdən biri:

– Ola bilməz, yox, ola bilməz! Qardaşım ordadır, hökmən getməliyəm! – deyə irəli cummaq istəyəndə bir qədər kənarda tank mərmisi partladı.

Diləfruz soyuqqanlılıqla mərmi partlayan tərəfə baxdı:

– İndi inandınmı? Geri qayıdın, Zülfüqarın cəsədini də aparın, – o, qanlı əli ilə bağlamanı göstərdi, – vəziyyət barədə xəbər verin.

– Bəs siz?

– Mən onları orada qoya bilmərəm. Azərə də deyin, bura gəlsin...

* * *

Mərzilidə aləm bir-birinə dəymişdi. İki tərəfdən edilən hücum kənd əhalisini çaş-baş salmışdı. Komandir əsgərlərin qarşısında qısa bir nitq söylədi:

– Düşmən qapının ağzındadır, növbəti Xocalını yaşamamaq üçün əhalini təcili surətdə təhlükəsiz yerə köçürməliyik. Kənddən çıxan yollar nəyin bahasına olursa-olsun, qorunmalıdır. Həm Ağdam, həm də Mərzili – Novruzlu yoluna bu yerlərə yaxşı bələd olan yerli döyüşçülər nəzarət edəcəklər. Bizsə, – o, dərindən nəfəs alıb qalan əsgərlərə baxdı, – bacardığımız qədər düşməni ləngitməliyik. Kömək gələndən sonra, yəqin ki, düşməni geri oturtmağa gücümüz yetər. Haydı, hərə öz vəzifəsinin başına...

Ağdama gedən yolda xeyli mülki əhali vardı. Yurd-yuvasını tərk edən insanların üzündə əzab qarışıq qorxunu görən Şakir Möhübbətin qolundan tutdu:

– Qardaş, – dedi, – bu qədər adamın təhlükəsizliyinə biz cavabdehik. Cəmi yeddi nəfərik.

Onun nə demək istədiyini anlayan Möhübbət gülümsündü:

– Allah kərimdir. Həm də "yazıya pozu yoxdur". Allahdan gələnə neyləmək olar?

Bayaqdan susaraq söhbətə qulaq asan Əli sakitcə:

– O qədər azlar çoxlara qalib gəliblər ki, – söyləyəndə Hikmət onun sözlərini təsdiqlədi:

– Əlbət ki, elədir, – sonra üzünü Fazillə Heydərə tutdu, – biz camaatdan bir qədər irəlidə getməliyik. Əhalinin təhlükəsizliyi üçün bu, vacibdir.

Müslümün:

– Biz də camaatla birgə hərəkət edərik, – təklifi ilə digər döyüşçülər razılaşdılar.

Hikmət, Əli, Fazil və Heydər iri addımlarla dəstənin önünə keçdilər. Tezliklə Ağdam şosesi ilə irəliləyən sakinlərdən xeyli aralandılar. Hikmət dostlarına tapşırdı:

– Silahlarınızı yoxlayın, hər şeyə hazır olmaq lazımdır.

Əli onun sözünə qüvvət verdi:

– Düz deyirsən, qardaş. Tək ermənilik olsa idi, indi Yerevanda oturmuşduq, bu rus lənətulla olub keçib boğazımıza. Hamı da elə bilir ki, erməniynən döyüşürük.

Bayaqdan bir kəlmə də danışmayan Fazil bir əlini kəmərinə keçirib şuxluqla dilləndi:

– Düz deyirsən, amma rus bizim qarşımızda nə qələt eləyə bilər ki?

Bu sözə hamı gülüşdü. Sol tərəfdən şaqqıltı səsi eşidiləndə Hikmət susmaq işarəsi verdi. Dördü də yolun kənarındakı kolluqda gizlənib ətrafı dinşədilər. Səslər getdikcə yaxınlaşırdı. Əli pıçıltı ilə dedi:

– Bunlar, bəlkə də, dərə ilə gələn kənd adamlarıdır.

– Bilmək olmaz, – Hikmət xəbərdarlıq etdi, – ayıq olun.

Çox keçmədən düşmən piyadalarının ön cərgəsi göründü.

– Al, bu da dərə ilə gələn kənd adamları, – Hikmət dişlərini qıcayaraq qəzəbli səslə dedi, – əclaflar, yolu kəsib camaatı qırmaq istəyirlər. Hərə özünə bir yer seçsin.

– Hə, düz deyirsən, Hikmət, – Fazil həyəcanını boğmağa çalışdı.

Arxayınlıqla irəliləyən düşmən şoseyə çatmamış gözləmədiyi halda atəşlə qarşılandı. Bir neçə əsgərini itirən ermənilər yerə uzandılar. Araya çökən ani sükutu qumbara partlayışı pozdu. Heydərin atdığı qumbara erməniləri tam çaşqına çevirdi. Onlar ünvansız atəş aça-aça bir qədər geri çəkildilər. Fazil fərəhlə dedi:

– Yaşa, Heydər, lap futboldakı kimi doqquzluğa atdın. Görəsən, neçəsi gəbərdi?

Diqqətlə hər şaqqıltını izləyən Əli onun sözlərinə gülümsəsə də, sakitcə dedi:

– Sevinmək hələ tezdir. Allah bilir, indi üstümüzə nə ilə gələcəklər.

Fazil təslim olmaq istəmədi:

– Yox, qardaş, bir erməni də ölsə, mənim üçün bayramdır.

Lap yaxınlıqda partlayan mərmi hamının səsini batırdı. Qan içində çırpınan Əliyə yardım göstərməyə imkan belə olmadı. Dolu kimi yağan güllələrə ara-sıra verilən cavab düşməni lap vəhşiləşdirdi. Hikmət həyəcanla Heydərin üzünə baxdı, dostu ona təskinlik verdi:

– Camaat təhlükəsiz yerə çatana qədər davam gətirəcəyik, arxayın ol. Düşmənə növbəti Xocalı sevincini yaşatmayacağıq.

– Bəli yaşatmayacağıq, – Hikmət Fazilə tərəf baxdı, – qumbaraları hazırlayın. İşarə verən kimi atın.

Düşmən piyadalarının zirehli maşını şose yola çıxanda eyni zamanda atılan qumbaraların zərbəsindən böyrü üstə aşdı.

– Bax belə olarsınız, əclaflar, – deyib növbəti qumbaranı atmaq üçün başlığı çəkmək istəyəndə Heydəri, elə bil ki, kimsə sinəsindən itələdi. O, arxası üstə yerə sərildi, sinəsi al qana boyandı, dili-dodağı təpidi. Hikmət Heydərin yıxıldığını görüb kömək üçün tələsdi. O:

– Su, mənə bir qurtum su ver, – deyib quruyan dodaqlarını dili ilə islatmağa çalışan dostunun son istəyini yerinə yetirmək üçün əlini su qabına uzatdı.

* * *

İlk atəş səsləri eşidiləndə şose boyu irəliləyən əhalinin arasına çaxnaşma düşdü. Şakir onları sakitləşdirmək üçün havaya bir neçə güllə boşaltdı. Üz-gözündən vahimə yağan qocalara, analarına qısılan körpələrə, rəngi avazıyan qadınlara baxanda deyəcəyi sözləri də unutdu. Geri qayıtmaq fikrinə düşənləri görəndə isə ucadan bağırdı:

– Dayanın! Hara qayıdırsınız! Bizdən qabağa keçən düşmənin arxada hansı planı hazırladığından xəbəriniz varmı?!

Hamı duruxdu. Yaşlı bir qoca boğazını arıtladı, nə qədər sakit danışmağa çalışsa da, səsi titrədi:

– Komandir, bəs nə edək, hara gedək?

Şakir yolun sağ tərəfindəki üzüm plantasiyasını göstərdi:

– Hamınız üzümlüklə Novruzluya gedən yola çıxmağa çalışın. Di haydı, tez olun!

Sonuncu sakinlər tənəkliyə daxil olanda Mərzili tərəfdən gələn ermənilər göründülər. Şakir dərindən nəfəs aldı:

– Hə, qardaş, son vəzifəmiz düşməni ləngitməkdir. Geriyə dönüş yoxdur. Hikmətgil də hələ döyüşürlər, – o, əlini irəli uzatdı, – əgər mənə bir şey olsa, öldüyümü anama deməyin, – o, Möhübbətlə Müslümün çiynini qucaqladı. Möhübbət onun sözlərindən kövrəlsə də, zarafatından qalmadı:

– Ayə, sənin başına söz qəhətdir? Ölmək nədir? İndi bu erməniyə elə ot yoldurajam ki, nəyinki gəldiyi yolu, dədəsinin adını da unudajax.

Müslüm yaxınlaşan düşmənə işarə ilə:

– Diqqətli olun, – dedi, – allah köməyimiz olsun.

Dinc sakinlərin üzümlüyə doluşduğunu görən ermənilər onların arxasınca düşməkdən vaz keçmədilər. Qabaqda gələn yekəpər erməni əli ilə üzümlüyü nişan verəndə Şakir silahını üzünə qaldırdı. Yekəpər erməni üzüqoylu yerə yıxıldı. Digər ermənilər güllənin haradan atıldığını müəyyənləşdirməyə macal tapmamış Müslümlə Möhübbətin aramsız atəşi eşidildi. Düşmənlər güllələrin üzümlükdən atıldığına əmin olandan sonra yolun sol tərəfində

səngərləndilər. Dəqiqələr keçsə də, üzümlükdən açılan atəş səngimədi. Yerlərini yez-tez dəyişən əsgərlər az olduqlarını düşmənə sezdirmədilər. Lakin güllə bitmək üzrə idi: Şakir əvvəlcə avtomatın boşalan darağına baxdı. Sonra isə üzümlərin arası ilə gedən adamların arxasınca boylandı: heç kim gözə dəymirdi. Onun üzündə sevinc işartıları sezildi, öz-özünə pıçıldadı:

– Şükür sənə, ilahi!

Elə bu vaxt Möhübbətin səsini eşitdi:

– Mənim gülləm bitdi, sizdə vəziyyət necədir?

Müslüm təəssüflə cavab verdi:

– Elə biz də sənin günündəyik, – sonra üzünü Şakirə tutdu,– neçə qumbaran var?

– Üç, bəs səndə.

– İki.

– Məndə də iki qumbara var, bunu xərcləyəndən sonra erməniyə əsir düşmək fikrim yoxdur, – Möhübbət şux tərzdə dilləndi.

Şakir sakit səslə:

– Bir az gözləyək, görək ermənilər necə hərəkət edəcəklər?– deyib qarşı tərəfə diqqətlə baxdı. Bir tərpəniş görməyəndə təəccübləndi, – bunlar hara gediblər?

O, sualına cavab almayanda sağ tərəfə boylandı: Möhübbət yerində yox idi.

– Möhübbət haradadır?

– Bilmirəm.

Yolun sol tərəfində dalbadal iki qumbara partlayışı eşidiləndə Şakir diksindi, səs gələn tərəfə çevriləndə gördüyü mənzərədən heyrətləndi: Möhübbət yolun ortasına sərilən ermənin silahını götürüb üzümlüyə tərəf sürünürdü.

– Müslüm, diqqəti ondan yayındırmalıyıq, – deyib Şakir qumbaralardan birinin başlığını çəkdi, ayağa qalxıb yolun sol tərəfinə atmaq istəyəndə büdrədi, amma zorla da olsa, sol əli ilə üzümlərin arasına basdırılmış beton dirəkdən yapışıb qumbaranı qarşı tərəfə tullamağı bacardı. Sinəsindən aldığı ikinci güllə yarasından fışqıran qan yapışdığı beton dirəyi al rəngə

boyayanda onun əli dirəkdən üzüldü. Şakir ayaq üstdə dayana bilmədi, ləngərlənərək yerə yıxıldı. Növbəti qumbaranı da atan Müslüm Şakirə tərəf dönəndə düşmənlər onu gördülər. Baldırından aldığı yara Müslümün irəliləməsinə mane olsa da, o, dostuna çatmaq üçün son imkandan istifadə etdi, sürünərək tənəklərin arasından keçdi. Gözünün bulağında iki damla yaş donan Şakirin gözlərini sığadı, daxilindən gələn hönkürtünü boğa bilmədi. Yerdə qalan iki qumbaradan birini var gücü ilə qarşı tərəfə atdı. Başları digər tərəfdə qarışan ermənilər üçün, deyəsən, bu zərbə gözlənilməz oldu. Möhübbət atəş aça-aça dostlarının yanına tələsdi, güllə tükənmək üzrə idi:

– Di tərpənin, geri çəkilmək vaxtıdır. Birtəhər aradan çıxa bilərik. Bu güllələr qaçmağımıza yardım edər.

Şakirin başını dizi üstünə alan Müslüm daha da qəhərləndi:

– Şakir qaça bilməz, qardaş. Onu düşmən tapdağında necə qoyum?

Möhübbət bir anlıq susdu. Avtomatı Müslümə verərək sonuncu qumbaranı düşmənə tərəf tulladı. Şakirin cəsədini çiyninə alıb:

– Tərpən, – dedi, – düşmən özünə gələnə qədər uzaqlaşa bilərik. Amma gülləyə qənaət et.

Yolu keçib sol tərəfdən üzümlüyə doluşan ermənilər onları mühasirəyə alanda Möhübbət Şakirin cəsədini astaca yerə qoydu, əvvəlcə qəh-qəhə ilə güldü. Bu qəh-qəhədən ermənilər duruxdular. O, qəfildən Müslümün əlindəki avtomatı alaraq son güllələri də düşmənə tərəf boşaltdı. Dörd tərəfdən açılan atəş Möhübbətlə Müslümü eyni anda susdurdu. Düşmənlər cəmi üç nəfərlə bu qədər müddətdə döyüşdüklərinə inana bilmədilər və acıqlarını üç nəfərin cəsədindən çıxdılar...

* * *

Su Heydərin dodaqlarına dəyəndə yumulmuş gözləri açıldı, təbəssümlə Hikmətin üzünə baxdı. Onun:

– Ağrıların çoxdurmu? – sualına başını yırğaladı. Sonuncu

dəfə dərindən nəfəs alıb qollarını yanlara açdı. Hikmətin:

– Heydər, Heydər! – çağırışlarından Fazil məsələnin nə yerdə olduğunu anladı. Güllə yağmurunun altında kolların arası ilə onlara tərəf gəldi. Qarşı tərəfin susduğunu görən düşmən yenidən irəlilədi. Hikmət Fazilin üzünə baxdı:

– Dostum, təslim olmaq yox...

Fazil gülümsündü:

– Əlbət ki. Son nəfəsə qədər!

Onlar ayaq-baş uzanıb hər iki tərəfdən gələn quldurların başına od ələdilər.

– Son nəfəsə qədər, Fazil! – deyə-deyə atəş açan Hikmət bir neçə yerdən ağır yara aldı. Fazilin avtomatı susanda o, bir qədər dikəlib Mərziliyə tərəf boylandı. Yolda dinc əhalidən heç kim yox idi, amma uzaqdan hələ də atəş səsləri eşidilirdi. Onun gözləri güldü. Qan apardıqca hərəkətdən düşdüyünü, ayaqlarının soyuduğunu hiss etdi, gözlərinə qaranlıq çökdü. Özünə gələndə daraqdakı son patrona baxıb əsir düşməməyə qərar verdi, lakin lap öndə gələn ermənini görəndə dişlərini bir-birinə sıxdı, öz güllə payını düşmənə "hədiyyə" etdi. Ermənilər vəhşicəsinə bağırıb onu atəşə tutanda artıq dəyən güllələrin heç biri Hikməti incitmirdi...

* * *

Bir kilometrdən artıq məsafəni tənəklərin arası ilə qət etmək dinc əhali üçün asan deyildi. Atəş səsləri gücləndikcə həyəcandan taqəti çəkilən qadınlar arabir üzüm kollarının arasında dayanıb nəfəsini dərir, yenidən yola davam edirdilər. Körpəsini qucağında daşıyan anaların vəziyyəti daha çətin idi. Kolların arasında yükünü çəkə bilməyənlərin tulladığı çantaların, bağlamaların sayı getdikcə artırdı. Nisbətən qıvraq qadınlardan biri Novruzlu yoluna çıxanda əhalinin digər qismini təhlükəsiz zonaya ötürən əsgərlər Mərziliyə qayıdırdılar. Mətləb qadına çaşqınlıqla baxaraq Nadiri dümsüklədi:

– Bu sizin qonşunuz deyilmi?

Mətləbin sualı “Şuşanın dağları” mahnısını pəsdən oxuyan Nadirə çatmadı. Amma qaranəfəs yolun kənarında oturan qonşularını görəndə təəccübdən gözləri böyüdü:

– Xala, sən niyə geridə qalmısan? Yola düş, get. İnşallah, Novruzluda dincələrsən.

Qadın Nadiri görəndə qəhərləndi, göz yaşlarını əlinin arxası ilə silərək üzümlüyü göstərdi:

– Mən tək deyiləm. Camaat üzümlükdədir. Ermənilər Ağdam yolunu kəsiblər.

Nadirin həyəcanı artdı:

– Bəs Hikmətgil haradadır?

Qadın hönkürtüsünü saxlaya bilmədi, bir az toxtayıb hıçqırıqlar içində kəsik-kəsik dilləndi:

– Onlar ordadırlar. Bura çatmışamsa, onların hesabınadır. Nə qədər duruş gətirərlər, bilmirəm.

Gözlənilməz xəbər hamını sarsıtdı. Qalib dərindən köks ötürdü:

– Neyləmək fikrindəsiniz?

Çətin məqamlarda daha tez çıxış yolu tapan Mobil o dəqiqə dilləndi:

– Göz görəsi oğullarımızı darda qoyası deyilik ki. Köməyə gedirik. Bir-birimizdən bir qədər aralı hərəkət etməliyik. Səpələnib getsək, düşmən az olduğumuzu bilməz. Amma gülləyə qənaət edin, boş yerə atmayın.

Səkkiz nəfərlik dəstə üzümlük boyunca səpələnən qocaları, qadınları, uşaqları geridə qoyub Ağdam şosesinə tərəf addımladı. Üzümlüyün tən ortasında beton dirəyə söykənərək gözünü yuman qocanı görəndə Qədir ayaq saxladı:

– Əmi, burda oturma, camaatın arxasınca get.

Cavab verməк əvəzinə qocanın çiyinləri titrədi, gözlərindən axan yaş ağ saqqalına süzüldü, yüngülcə burnunu çəkib başı ilə əks istiqaməti göstərdi:

– Bala, mən gördüyümü görmüşəm, yaşadığımı yaşamışam, bəs onlar? – o, için-için hıçqırdı, – atəş səsləri seyrəldikcə ürə-

yimə tikan batır, oğul, – o, birdən-birə hönkürdü, – ölüm mənimdi, ay balalar!

Qədir onu sakitləşdirdi:

– Əmi, sən yolundan qalma, biz yoldaşlarımıza köməyə gedirik, inşallah, vaxtında çatarıq.

Qoca ağır-ağır yerindən qalxdı, addım atmaq istəyirdi ki, düz Qədirin üstünə gəldi, dərindən ah çəkdi. Onun boynundan süzülən qan ağ köynəyinin yaxasını boyayanda Qədir bir neçə addımlıqda avtomatın çaxmağını şaqqıldadan düşməni gördü, amma atəş açmağa macalı olmayan erməni silahını əlindən buraxıb bağırdı. İkinci güllədən sonra onun səsi kəsildi. Qədir minnətdarlıqla ondan bir az kənarda irəliləyən Rizvana baxdı. Qarışıq səslər yaxınlaşanda Mobil əsgərlərə yerə uzanmaq barədə göstəriş verdi, öz-özünə pıçıldadı:

– İtdən törəyənlər, dinc sakinləri qırmaq üçün arxalarınca düşüblər, – o, birdən həmişə yüksək əhvali-ruhiyyəli Möhübbəti xatırladı, – hardasan, ay Möhübbət, hardasan? Düşmən sənin yalnız cəsədinin üstündən üzü bəri keçə bilərdi.

Mobil qəhərləndiyini büruzə vermədi, lakin nifrətini də gizlətmədi:

– Bu üzümlüyü sizə məzar etməsəm, anamın südü mənə haram olsun!

O, cümləsini bitirər-bitirməz üzümlükdə əks-səda verən ilk atəşdən sonra ehtiyatla irəli gələn üç düşməni bir göz qırpımında biçdi. Ermənilərin bağırtısı eşidiləndə qarşı tərəfdə açıq-aşkar canlanma başladı. Kimsə erməni dilində bağırdı:

– Pusquya düşmüşük, buradan heç kim sağ çıxmayacaq.

Digər erməni astadan nə söylədisə, əvvəl güclü bir şapalaq səsi, sonra isə rus dilində çoxmərtəbəli söyüş eşidildi:

– Sukin sın...

Mətləb başı ilə irəlini göstərdi:

– Qardaş, üstümüzə gələnlər tək ermənilər deyillər. İşimiz çətinləşdi.

Rizvan gözləri yol çəksə də, onun dediklərini təsdiqlədi:

– Elədir ki, var. Ermənilər tənəkliyə girməyə ürək eləməzdilər, amma qadan alım, bir az ehtiyatlı olun. Düşməni geri oturtmalıyıq ki, Novruzlu yolu da bağlanmasın, – o, Elşənlə Pamizə xüsusi xəbərdarlıq etdi, – qətiyyən çılğınlaşmayın. Belə yerdə soyuqqanlı olmaq adama çox kömək edir.

Diqqətlə irəli baxan Ramiz yerində qurcalandı:

– Erməni görəndə nə təhər sakit durum ey?

Rizvan nəsə deməkk istəyirdi ki, Mobilin:

– Döyüşə hazır olun, – əmri eşidildi.

Bir-birindən on-onbeş metr aralı yerə uzanan döyüşçülərə diqqət yetirən Mobil həmişə olduğu kimi yumruğunu düyünləyib qolunu yuxarı qaldırdı. Yumruğun enməsini səbirsizliklə gözləyən Elşən dözə bilməyib:

– Qadan alım, yumruğunu endir də bu ermənilərin başına, – deyəndə Ramiz özünü saxlaya bilməyib astadan güldü:

– Yaman tələsirsən ha, dost!

– Vallah, əlimin içi gicişir, – sonra səsinin ahəngi dəyişdi, – guya sən özün çox səbirli bəndəsən ha.

Onlar nə qədər asta danışsalar da, Rizvan səslərini aşkar eşitdiyi üçün işarə ilə susmağı məsləhət bildi. İlk atəş də elə Ramizlə Elşənə tərəf açıldı. Görünür, düşmən də səsin haradan gəldiyini müəyyən etmişdi. Ramiz silahını öpərək lüləsini sığalladı:

– Hə, dostum, üstümüzə qarğa-quzğun gəlir, üzümü qara çıxartma, – dedi.

Elə bu vaxt Mobil yumruğunu  aşağı endirdi. Üzümlüyü avtomat şaqqıltısı doldurdu. Qarşı tərəf də susmaq bilmədi. Dalbadal atılan güllələr göz açmağa imkan vermədi. Sol cinahdan atəş səsləri eşidildikdə hamı başa düşdü ki, düşmən onların sayca az olduğundan xəbər tutub. Mühasirə təhlükəsini aradan qaldırmaq üçün Mobil sol cinahdakılara səsləndi:

– Mətləb, ehtiyatlı olun, düşmənə imkan verməyin.

Nadir:

– Məni qoru, – deyib yerindən sıçradı, bir göz qırpımında nə vaxtsa cərgələrin arasında qazılmış kiçik xəndəyə atıldı. Bura

sol cinahı qorumaq üçün əlverişli idi. O, xəndəyin içində uzanıb düşmənin növbəti həmləsini gözlədi. Lakin arxa tərəfdən gələn səs onu ayıltdı. Xəndəyin içindəcə geri çevrildi. Mətləbə sarı sürünən erməniləri görəndə ucadan dedi:

– Mətləb, diqqətli ol!

Atəş açılanda zarıltı səsi eşidildi. Mətləb ondan on metr arxada yarasının ağrısından qıvrılan ermənini görəndə təəccübləndi:

– Bunlar arxaya nə zaman keçdilər?

Amma sualının cavabını tapmağa vaxtı olmadı. O həm sol, həm də arxa tərəfdən bir neçə ermənininin sürünə-sürünə yaxınlaşdığını gördü. Öz-özünə dedi:

– Yəqin ki, bizi əsir almaq istəyirlər. Ay siz öləsiz. Alın, gəldi!

Mətləb kəmərindən asdığı yeganə qumbaranı arxa tərəfdən sürünənlərə tərəf tullayıb yerə uzandı. Arxada qarışıq səslər eşidəndə qumbaranın partlamadığına təəccüblənmədi. Başını qaldırıb geri sürünən düşməni görəndə dodaqları qaçdı. (O bu qumbaranı məktəbin hərbi kabinetindən götürmüşdü, həmişə kəmərindən asardı. Yoldaşları zarafat edəndə isə çox ciddi şəkildə deyərdi: “Saxla samanı, gələr zamanı”) Mətləb başını xəndəkdən qaldırmadan atəş açan Nadirə tərəf sürünmək istəyəndə yaxınlıqda bərk gurultu qopdu. O, qolları ilə başını qucaqladı. Özünə gələndə qıçını tərpədə bilmədi. Qumbaranın qəlpəsi baldırını parçalamışdı. Nadirdən də bir soraq yox idi. Ondan xəbər tutmaq üçün zorla xəndəyə tərəf süründü. Gördüyü mənzərə Mətləbə öz ağrısını unutdurdu: düşmənin atdığı qumbara düz xəndəyin içində partlamışdı...

Mətləb hönkürməmək üçün alt dodağını dişlərinin arasında sıxdı. Tək ayağı üstə qalxaraq arxa tərəfdən Elşənlə Ramizin üstünə gedən ermənilərin diqqətini yayındırmağa çalışdı:

– Gəlin, it uşağı, mən burdayam, – deyərək səsə çevrilən düşməni güllə yağışına tutdu. Ölü zənn etdikləri adamın ayaq üstə durması erməniləri çaşdırdı. Vahimə içində yerə sərilənlərdən biri qışqıra-qışqıra:

– Bu gün ikinci dəfədir ki, qəribə hadisə ilə üzləşirəm? Axı qumbara düz xəndəyin içində partlamışdı! Bu necə sağ qalıb? Belə getsə, mən lap dəli olacağam, – söyləyərək onu atəşə tutdu. Aldığı yaralardan taqətdən düşən Mətləb Nadirin yanında yerə yıxıldı. Başını onun parçalanmış sinəsinin üstünə qoyub gözlərini yumdu...

Vəziyyət getdikcə çətinləşirdi. Mobil astaca Rizvanın çiyninə toxundu:

– Mühasirə halqası daralmamış aradan çıx, Mərziliyə get və vəziyyəti anlat. Belə getsə, Novruzlu yolu da əldən gedəcək.

Rizvan qəti etiraz etdi:

– Mən sizi qoyub gedə bilmərəm.

Mobil səsini qaldırmasa da, ciddi şəkildə israr etdi:

– Bu, əmrdir!

Rizvan təzəcə uzaqlaşmışdı ki, atəş səsləri daha da şiddətləndi...

* * *

Martuni və Qarakənd tərəfdən gələn düşmən texnikasının qarşısında dayanmağın çətinliyini bütün məsuliyyəti ilə dərk edən komandir Qasımov əsgərlərə baxdı. Sursat çatışmazlığı ilə üz-üzə qalan döyüşçülərə vəziyyəti necə anladacağı barədə çox düşündü. Doğma kəndi tərk etməyin onlar üçün nə qədər ağır olduğunun da fərqinə vardı. Ağır-ağır sözə başladı:

– Vəziyyətdən hamımızın xəbəri var. Düşmən Ağdama gedən yolu ələ keçirib. Üç tərəfdən mühasirəyə alınmışıq. Bizi azad torpaqla yalnız Mərzili – Novruzlu yolu birləşdirir. Kömək gələnə qədər Mərzilini tərk etməmək barədə göstəriş almışıq, amma köməyin nə vaxt gələcəyi də dəqiq məlum deyil. Bütün məsuliyyəti biz daşıyırıq. Bacardığımız qədər kəndi qorumalıyıq. Buna hazırsınızmı?

– Hazırıq, – kəlməsini eşidəndə komandirə elə gəldi ki, səsinə minlərlə əsgər hay verdi.

– Haydı, oğullarım, torpaqlarımızın düşmən tapdağına çev-

rilməməsi naminə silaha sarılın!

Bir qədər geri çəkilən əsgərlər düz kəndin qurtaracağındakı səngərdə yerləşdilər. Şahin Fəxrinin böyründə yerini rahatladı. Fəxri mehribanlıqla əlini onun kürəyində gəzdirdi:

– Yanımdan ayrılma, – dedi, sonra neçə gündən bəri çiyin-çiyinə döyüşdüyü Məhəmmədin ciddiləşən simasına baxıb gülümsündü:

– Nə yaman qaşqabağını tökübsən, ilk döyüşümüz deyil ki...

– Qardaş, bu həna, deyəsən, həmişəki hənalardan deyil. Burnuma şəhadət qoxusu gəlir.

Söhbətə qarışan Nəsimi Məhəmmədin sözünə qüvvət verdi:

– O mərtəbəyə yüksələnin də xoş halına, – sonra könüllü olaraq Neftçaladan döyüşə gələn Zaura müraciət etdi, – elə döyülmü, qardaş?

Zaur yerindən qalxaraq:

– Əlbət ki, elədir. Məni döyüşə çəkən də elə bu hissdir, – o, avtomatını ayağa çəkmək istəyirdi ki, dostları onun kökündən kəsilmiş ağac kimi yerə sərildiyini gördülər. Nəsimi çılğınlıqla bağırdı:

– Zaur!!!

Zaurun üzündəki xoş ifadə bir andaca dondu, alnından axan qan torpağı isitdikcə onun cismi soyudu...

Nəsimi atəş nöqtəsini bələdlədi, silahını işə salmaq istəyirdi ki, yaxınlıqda mərmi partladı. Bir andaca havaya sovrulan torpaq döyüşçülərin üstünə ələndi. Bir ayağını qəlpə aparan Rövşənin, müxtəlif bədən xəsarəti alan Şahin, Fəxri və Məhəmmədin iniltisi səngəri doldurdu. Kənd xəstəxanasının həkimi Füzuli:

– Möhkəm olun, əzizlərim, indi hər şey keçəcək, – deyib digər həkim yoldaşına səsləndi, – Ənvər doktor, yardımına ehtiyacım var.

Ənvər həkim rezin qaytanla Rövşənin qıçını sıxaraq qanaxmanın qarşısını müvəqqəti dayandırdı və ciddi tərzdə əlavə etdi:

– Bunları burada saxlamaq mümkün deyil, – o, yaralıları göstərdi, – təcili arxaya aparmaq lazımdır.

Tezliklə yaralılar yaxınlıqdakı təcili yardım maşınına daşındı. Üst-başı qana bulaşmış Nail səngərə qayıdanda Nəsimi gərginliyi aradan qaldırmaq üçün içini çəkdi:

– Allah öyünü tiksin, heç olmasa, gələndə xəbər elə də, ödüm yarıldı, elə bildim, ruhsan.

Nail gülərək cavab verdi:

– Ödün niyə yarılır, səni qorumaq üçün ruha dönmüşəm də. Arxayın döyüş, qoruyucu mələyinəm.

Onların zarafatı Mayılı heç açmadı:

– Zarafat vaxtı deyil, belə getsə, doğrudan da, hamımız ruha çevriləcəyik. Mən Salehgilin yanına gedirəm, onlardan nədənsə bir xəbər yoxdur. Allaha əmanət olun.

Nəsimi yenə dilini dinc saxlamadı:

– Ruh da olsaq, vətən göylərində qanad çalasıyıq, narahat olma, – Nail sözlərini təsdiq eləyəndə o, şuxluqla sözünü bitirdi, – səni buna görə çox istəyirəm də...

Mayıl başını bulayıb digər səngərə keçdi. Səngərin içində qardaşı ilə yanaşı dayanıb gözlərini qarşıdan çəkməyən Taleh addım səsinə geri çevrildi. Mayılı görəndə onun üzündə xoş ifadə yarandı. Səngərin içində daldalanıb siqaretini tüstülədən qardaşına işarə ilə dedi:

– Yenə fikrə gedib. Kömək gəlmədiyi üçün narahatdır.

Talehin səsi Salehi düşüncələrdən ayırdı:

– Daha narahat olmaqdan keçib. Kömək gələcəyinə inanmıram. Bu dəqiqə hərə öz başının hayındadır. Bizim də olanımız bir canımızdır. Onu da düşmənə peşkəş eləmək fikrim yoxdur,– o bitməkdə olan siqaretinə dərin bir qullab vurdu, kötüyü səngərin içinə atıb çəkməsinin dabanı ilə əzdi. Bayaqdan onun hərəkətlərini izləyən Ramiz avtomatın darağını doldura-doldura zarafat etdi:

– Vallah, siqareti elə ürəklə tapdalayırsan ki, elə bil erməni başıdır.

– Narahat olma, elə bir azdan erməni başı da əzəcəyik, – Vüqar şuxluqla söhbətə qoşuldu, – elə deyilmi, Nəriman?

Nərimansa ona ciddi şəkildə cavab verdi:

– Erməninin başını əzməyə nə var ki? Sən tankın başını necə əzəcəyimizdən danış, ay Vüqar. Vur-tut iki mərmimiz var.

Vüqar:

– Allah kərimdir, bu qədər naümid olmayaq – deyəndə komandirin səsi eşidildi:

– Döyüşə hazır olun!

Qarakənd tərəfdən düşmən piyadalarının hücumu başlayanda Martuni tərəfdə sakitlik idi. Bütün diqqət Qarakənd istiqamətinə yönəldi. Düşmən piyadaları kəndin girəcəyinə qədər gəlsələr də, kəndə girməyi bacarmadılar. Səngər boyu açılan atəş onları dayanmağa məcbur etdi. Döyüş başlayandan Diləfruzu düşünən komandir fikirli halda Mayıla tərəf döndü:

– Diləfruzun arxasınca göndərdiyim əsgərlərdən xəbər varmı?

– Yox.

– Bəs Azər haradadır?

– Onu sonuncu dəfə maşınla dərə kənarındakı üzümlüyə tərəf gedəndə görmüşəm.

Komandir susdu. Elə bu vaxt özünü qaranəfəs səngərə atan Rizvanın səsi eşidildi:

– Komandir hardadı? Təcili məlumat çatdırmalıyam.

O, komandiri qarşısında görəndə duruxdu, üzümlükdən çıxarkən çiynindən aldığı yaranı da unutdu.

– Nə olub, dillənsənə? – nidasından sonra özünə gəldi:

– Məni Mobil göndərdi. Ermənilər ruslarla birlikdə üzümlüyün arası ilə Novruzlu yoluna tərəf irəliləyirlər. Beş nəfərlə onların qarşısında duruş gətirmək mümkün deyil. Bir əlac edin, komandir.

Komandir təəccübləndi:

– Nə üçün beş nəfər?

Rizvan qəhərli səslə cavab verdi:

– Mətləblə Nadir şəhid oldular.

Komandirin rəngi daha da tutqunlaşdı. Elə bu vaxt qarşı tərəf yenidən hücuma başladı. Komandir üzünü döyüşçülərə tutdu:

– Sağ və sol cinahları nəzarətsiz qoymayın. Vüqar, Nəriman, Hüseyn, Martuni tərəfə xüsusi diqqət yetirin.

O, digər əsgərlərin yanına tələsdi. Öz-özünə pıçıldadı:

– Bunları geri oturda bilsəydik, bir çıxış yolu tapardıq.

İntizarla cavab gözləyən yaralı Rizvanın da səngərdə mövqe tutduğunu görəndə sinəsindən bir ağrı keçdi, gözlərinin qarşısında çətin günlərin həmdəmi Mobil canlandı. Sağ tərəfdəki səngərdə birdən-birə bərk gurultu qopdu. Gurultudan sonra Nərimanın həyəcanlı səsi eşidildi:

– Komandir, Martuni tərəfdən üstümüzə tanklar gəlir! Hədəf atdığımız mərmidən yayındı, cəmi bir mərmimiz qalıb! Nə edəcəyik?!

Füzuli Qasımov bir əsgərlərə, bir boş mərmi qutularına, bir də iki tərəfdən irəliləyən düşmən texnikasına baxdı, nə qədər çətin olsa da, son qərarı verdi:

– Novruzlu istiqamətində geri çəkilirik!

Tankların ilk atəşi, deyəsən, ermənilər üçün siqnal oldu, düşmən səngəri güllə yağışına tutdu. Ağır yaralanan Vüqarı, bir qıçının sümüyü ovulan Hüseyni səngərdə qoyub getmək dostlarının ağlının ucundan belə keçmədi. Əsgərlərdən biri Vüqarı, digəri Hüseyni çiyninə aldı...

Boşalan səngəri ələ keçirən düşmən piyadaları Mərziliyə girməyə ürək eləmədilər. Tankların və zirehli maşınların daha da yaxınlaşmasını gözlədilər...

Geri çəkilən döyüşçülərin Mərziliyə vidası çox ağır idi. Göz yaşlarını saxlaya bilməyənlər sanki arxada qalan hər evə, hər ağaca, hər daşa: “Bizi gözləyin, nə vaxtsa qayıdacağıq”, – demək üçün addımlarını yavaşıdır, doğma yurdu tərk etdiklərinə inanmaq istəmirdilər.

Dəstə Novruzlu yoluna çatanda üzümlükdən hələ də atəş səsləri eşidilirdi. Rizvan həyəcanla dilləndi:

– Bizimkilər tab gətiriblər, – sonra üzümlüyə tərəf qışqırdı, – qardaşlar, biz gəldik!

Yaralı olmasına baxmayaraq, o hamıdan əvvəl kolların ara-

sında gözdən itdi. Komandirin göstərişi ilə döyüşçülərin bir qrupu əlverişli yüksəkliklərdə yeni postlar yaratmaq üçün səfərbər edildi, digərləri isə yoldaşlarına kömək üçün Rizvanın arxasınca yollandılar.

Lap yaxınlıqda açılan atəşə qarşılıq veriləndə tənəklərin arası ilə irəliləyən düşmən vəziyyətin dəyişdiyini anladı. Rus dilində deyilən söz aydınca eşidildi:

– Geri çəkilin!

Qaçanlar arabir geriyə atəş açsalar da, güllələri boşa getdi. Üzümlüyün ortasına qədər gələn əsgərlər düşmənin tam çəkildiyinə əmin olanda Rizvanı görməyən Nəsimi təəccübləndi:

– Bəs Rizvan hanı?

Hamı sakitcə bir-birinin üzünə baxdı. Nail otərəf-butərəfə diqqət yetirərək dedi:

– O hamıdan əvvəl üzümlüyə girdi, yəqin ki, buralardadır.

Mayılın qəhərli səsi eşidiləndə əsgərlər eyni istiqamətə axışdılar. Düşməni irəli buraxmayan yeddi şəhid və son anda özünü dostlarına çatdırıb ölümcül yara alan Rizvanın qarşısında danışan göz yaşları oldu...

* * *

Əsgərlər gedəndən sonra Diləfruz yorğun addımlarla bir qədər də var-gəl etdi, sonra iri bir ağacın altında oturub kürəyini onun gövdəsinə söykədi. Göz qapaqları ağırlaşdıqca gün ərzində yaşadıqları kino lenti kimi xəyalında canlandı.Tankların qabağında dərə boyu Yusifcanlıya çatmağa necə can atdığını düşünüb dərindən ah çəkdi. Körpünün altında gizlənərkən Mərzili istiqamətində üzüyuxarı qalxan erməni piyadaları gözünün qarşısında canlananda birdən-birə ürəyinin yerindən necə oynadığını yenidən hiss etdi. Həmin vaxt silahını nə zaman ayağa çəkib döyüşə hazırlaşdığından xəbəri belə olmamışdı. Çünki düşündüyü bir şey vardı: əsir düşməmək... Çayın yatağında düşmən texnikası ilə üz-üzə gələn əsgərlərimizi xatırlayanda isə göynərtili bir sızıltı bütün vücudunu bürüdü, sürəkli atəş səsləri

qulaqlarında güyüldədi. Elə bildi ki, daxilində nəsə qırıldı, qolları tamam sustaldı ...

Dəqiqələr keçdikcə Diləfruzun səbri tükəndi. Bir yerdə qərar tutmayıb ayağa qalxdı, yenidən yolda var-gəl eləməyə başladı. Toz qopara-qopara gələn təcili yardım maşını uzaqdan görünəndə o, dərindən nəfəs alıb ağacın altında dayandı. Azər maşını düz Diləfruzun yanında saxladı. Diləfruz dəstəkdən yapışıb qapını açdı, özünü birtəhər kabinəyə saldı və:

– Azər, sür, – dedi.

Onun üzündəki gərginlik Azərin diqqətindən yayınmadı:

– Axı dedim, tək getməyin.

Diləfruz acı-acı gülümsündü:

– Sənin sözünü dinləsəydim, indi heç birimiz sağ olmazdıq. Düşmənlər postları dağıdıblar.

Azər içini çəkdi:

– Bəs əsgərlərimiz?

– Onları sonuncu dəfə dərə boyu geri çəkilərkən gördüm.

– İndi hara gedirik?

– Həmin yerə, körpüyə tərəf.

Sürücü bir söz demədən maşını işə saldı. Yolda heç kim görünmürdü. Mərzili istiqamətinə çatanda Azər maşını kəndə tərəf döndərmək istədi, Diləfruz etiraz etdi:

– Dərəyə sür.

– Axı orada heç kim yoxdur?

Qulaqlarında güllə səsləri əks-səda verən Diləfruz səbirsiz halda etiraz etdi:

– Dediyimə qulaq as, maşını çınqıllığa sür.

Körpüdən düşən tankın yanına çatanda bir-birinə çox yaxın məsafələrdə yerə sərilən meyitlər göründü. Azərin nitqi qurudu, gözlərini meyitlərdən çəkə bilmədi.

– Özünü ələ al, Azər.

Gözləri yaşla dolan sürücü Diləfruzun üzünə baxmadan soruşdu:

– Bunlar kimdir?

– Postda dayanan əsgərlərimizdir. Di tərpən, vaxtımız yoxdur, onların hamısını götürməliyik.

Azər sözəbaxan uşaqlar kimi susdu. Bir kəlmə də danışmadan Diləfruzla birlikdə şəhid cəsədlərini maşına qoydular. Sonuncu – on ikinci cəsəd maşına qoyulandan sonra dərənin üst tərəfində iki tank göründü. Sürücünün:

– Bacı, nə edəcəyik? – sualına Diləfruz gülümsünərək cavab verdi:

– Özünü toxtaq tut, maşını işə sal, onların yanından heç nə olmamış kimi keçəcəyik.

Qarşı tərəfdə piyadaların zirehli maşını görünəndə Azər səbrini basa bilmədi:

– Burda deyiblər ey: “Meşədə çaqqal az idi, biri də

Mazandarandan hürə-hürə gəldi”.

Diləfruz mənalı-mənalı başını tərpətdi. Elə bu vaxt zirehli maşına bağlanmış qırmızı lent onun diqqətini cəlb etdi. Tanklara bağlanmış qırmızıları da görəndə barmağını dişlədi. Cəld bir paket açdı, sarğını maşının döşəməsində göllənən şəhid qanı ilə boyayıb şüşəsilənə bağladı. bütün işlərini bitirəndən sonra onun hərəkətlərinə təəccüblə baxan Azərə dedi:

– İndi arxayınlıqla maşını sür. Bu qırmızı lent ermənilərin bir-birini tanıması üçündür. Bizi də özlərindən biləcəklər.

Maşın yerindən tərpənib yola çıxdı, ermənilərin heç bir qarşılıq vermədiyini görəndə asta sürətlə birinci tankın yanından ötdü. Diləfruz dedi:

– Azər, sürəti artırma, bunlarla bərabər Mərziliyə gir.

– Bəs sonra?

– Bir şey fikirləşərik, narahat olma.

Bir azdan məktəb binası göründü. Elə bu vaxt Diləfruzun gözü məktəbə yaxın həyətlərdən birində ot tayasının altında gizlənən zirehli maşının lüləsinə sataşdı. O, vəziyyətin mürəkkəbliyini anladı, sürücüyə sezdirmədən dedi:

– Məktəbin həyətinə çatanda üzüyuxarı qalx, maşını atəşdən qaçıraraq tam sürətlə irəli sür. Allahköməyimizə çatar.

Məktəbin həyətində toplaşan düşmən əsgərlərinin qəh-qəhəsi ətrafı bürümüşdü. Diləfruz dişlərini bir-birinə sıxan sürücüyə baxaraq:

– Diqqətli ol, Azər, – dedi, – səbrini bas. Unutma ki, əmanətlər sahiblərinə çatmalıdır.

Azər dillənmədi, qabaqdakı tank məktəbin həyətinə dönəndə qəfildən istiqaməti dəyişdi, maşın tam sürətlə sola burulub torpaq yolla üzüyuxarı şütüdü. Əvvəl bir şey anlamayan ermənilər elə bil kal yuxudan ayıldılar. Bir-birinin ardınca atılan mərmilər ətrafda cəhənnəm yaratsa da, Azərin məharəti və torpaq yolda qopan toz dumanı təhlükəni adlatdı...

* * *

Novruzlu yas içində idi. Əhalinin üzündən yağan kədər elə bil hər daşa, torpağa, evə, küçəyə hopmuşdu. Qana bələnmiş şəhidlərdən başqa, sanki hər şey qaraya bürünmüşdü. Bu qara fonda başdan-ayağa "çiçək açan" cəsədlərə baxmaq çox ağır idi. Yeni postlarda yerləşən yorğun əsgərlər də sabah nə baş verəcəyindən xəbərsiz idilər. Rənginə ümidsizlik çökən əhaliyə təsəlli verməyə söz də yox idi. İçi yaralılarla dolu təcili yardım maşını gələndə komandir yenidən Diləfruzu xatırladı, qeyri-ixtiyari səsini qaldırdı:

– Bizə əmanət edilən bir qadını qorumağı bacarmadınız. Axı sizə dedim ki, onu tək qoymayın.

Əsgərlərdən biri astadan nə dedisə, komandir hövsələdən çıxdı:

– Onu erməni tankları ilə üz-üzə necə qoya bildiniz?

Heç kimdən səs çıxmadı. Əsgərlər günahkar kimi başlarını aşağı saldılar. Ağır-ağır düşərgəyə daxil olan maşını da heç kim fərq etmədi. Qapı şaqqıltı ilə örtüləndə hamı diksindi. Üst-başı qan içində onlara tərəf gələn Diləfruzu görəndə çoxları onun sağ qaldığına inana bilmədi. Çaş-baş qalan komandir :

– Bəs mənə dedilər ki, – Diləfruz ona sözünü tamamlamağa imkan vermədi:

– Görürsünüz ki, sağam, yoldaş komandir. Şəhidlərimizi gətirmək mənim borcum idi, – dedi və əli ilə qapısından qan süzülən maşını göstərdi.

– Halal olsun, bacım, – komandir yalnız bu sözləri deyə bildi.

Mərzili düşmən əlinə keçsə də, düşməni üzümlükdən dərə boyu geri qovan əsgərlərimiz ərazi boyu gözətçi məntəqələri yaratdılar.

– İndi əhalini təhlükəsiz yerə köçürmək olar, – komandir əsgərlərin müşayiəti ilə dinc sakinləri Quzanlıya göndərdi. Qarşıda isə bir məqsəd vardı: Mərzilini geri qaytarmaq ...

* * *

Kiçik dəstə yolun sağ tərəfinə adlayanda yaşıllıqlara qərq olmuş Yusifcanlı geridə qaldı. İslam kişi gəncləri ayıq salmaq üçün bir qədər irəlini göstərdi:

– Düşmən o mövqelərdədir. Kiçik aşırımlar çox olduğu üçün yaxşı gizlənə bilirlər. Bir qədər ehtiyatlı olun, hər yarğandan bir erməni çıxa bilər.

Maradona ləqəbli kəşfiyyatçı – Pənah hava alatoran olsa da, əlindəki durbinlə qarşı tərəfi diqqətlə nəzərdən keçirərək cavab verdi:

– Doğru deyirsən, İslam dayı, buranın dəlmə-deşiyi çoxdur.

İşimiz o qədər də asan olmayacaq. Zahid, sən də bir diqqət elə.

Zahidin fikri də elə dağlarda idi. O, dərindən köks ötürüdü:

– Bayaqdan baxıram, bu dağlar elə bil görkəmini dəyişib ey, çox qəribə görünür.

Yola çıxandan bəri susan Tahir də, deyəsən, danışmaq üçün həvəsləndi:

– Elə həmin dağlardı. Amma qurşun yeyib deyə, can çəkişən yaralıya bənzəyir, bəlkə, mən səhv edirəm, Ərəstun?

– Yox, səhv etmirsən, dağların halını belə görəndə, vallah, dərdimin üstünə dərd yağır elə bil.

Ərəstun üzünü Pənaha tutaraq maraqla soruşdu:

– Maradona, Qaxdakı dağlar bizim dağlara oxşayırmı?
– Əlbəttə.
– Bəs kəndləriniz?
– Bizim kəndimiz tamam fərqlidir.
– Hansı kənddir ki?
Orta boylu, sarışın Maradonanın qonur gözləri qıyıldi. Uca dağlar qoynunda salınmış Sarıbaş üçün qəribsədiyini hiss etdi. Hər daşı, qayası, küçəsi, tikilisi tariximizi andıran doğma yurd gözləri qarşısında canlandı:
– Sarıbaş kəndi.
Tahiri maraq bürüdü:
– Kəndin adı niyə Sarıbaşdır?
– Burada "sarı" tərəf mənasında işlənib. Düşmənlər kəndimizə hücum edəndə sakinlər ələ keçməmək üçün heç kimin ağlına gəlməyən keçidlərdən adlayaraq yuxarı, yəni baş tərəfə sığınıb. Elə o vaxtdan da adı Sarıbaş qalıb.
Tahir onun gözlərindəki həsrəti görüb şuxluqla dedi:
– Qoy müharibə qurtarsın, Sarıbaşı da ziyarət edərik. Sən nə deyirsən, Qaməddin?
Qaməddin razılıqla başını tərpətdi. Elə bu vaxt Maradona qarşıdakı aşırımı göstərdi:
– Bu tirənin adı nədir?
İslam kişi astadan dedi:
– Pirəbulaqdır.
– Nə qəribə adı var? Nədən belə adlanır?
İslam kişi qəribə tərzdə dodaqlarını büzərək çiyinlərini çəkdi. Onun hərəkəti Maradonanın kefini açdı. Astadan gülərək dedi:
– Bu gecə Pirəbulaqda gərək elə bir iz qoyaq ki, dillərdə dastan olsun, elə deyilmi?
Ərəstun mehribanlıqla əlini onun kürəyinə vurdu:
– Əlbəttə, elədir.
– Danışığı kəsin, düşmən mövqelərinə yaxınlaşırıq, – Zahid xəbərdarlıq etdi. Amma həmişəkindən fərqli olaraq bu gün

Maradona nədənsə heç susmaq istəmədi:

– İslam dayı, qələbəyə bu qədər yaxın ikən niyə aləm qarışdı, uduzmağa başladıq?

İslam kişi dərindən köks ötürdü:

– Eh, ay oğul, mən nə bilim? Siyasilərin oyunundan baş açmaq olur ki?

– Torpaqlarımız oyunamı qurban gedir?

– Oğul, məni çox danışdırma, nə bilim?

Maradona susdu. Amma bu oyun söhbəti onu heç açmadı. Hiss etdi ki, İslam kişi çox şey bilməsinə rəğmən danışmaq istəmir.

Hava qaralsa da, aydınlıq bir gecə yaxasını açaraq dağları bağrına basmışdı. Bədirlənmiş ayın qarşısını kəsməyə çalışan təkəm-seyrək buludları da yüngül meh asta-asta harasa qovurdu. Maradona yay gecəsinin füsunkar gözəlliyini ilk dəfə görürmüş kimi heyranlıqla seyr etdi. İndi o, xəyallar aləmində idi: müharibəni də, yuxusuz gecələri də unutmuşdu. Əgər Zahid qolundan çəkməsəydi, yolun üst tərəfindən eşidilən şaqqıltıdan da xəbəri olmayacaqdı. O, ürəyində özünü xeyli qınadı:

– Heç xəyala dalmağın yeridir? Sən axı kəşfiyyatçısan. Ani ehtiyatsızlıq hər şeyi məhv edə bilər.

Pirəbulaq aşırımını keçməmiş İslam kişi ayaq saxladı, uşaqları bir-bir süzüb:

– Allaha əmanət olun, – dedi.

Kəşfiyyatçılar ehtiyatla tirənin üstünə çıxdılar, üzüaşağı bir qədər getmişdilər ki, xısın-xısın danışıq səsi eşidildi. Zahid barmaqlarını dodaqlarının üstünə qoyub hamıya susmağı məsləhət bildi. Səslər getdikcə yaxınlaşdı. Gizlənmək mümkün deyildi. Düşmənin on-onbeş nəfərlik gözətçi qrupu başlarının üstünü almışdı.

Maradona gülümsünərək dostlarına baxdı:

– Mən onların başını qataram, siz aradan çıxın.

Zahid həyəcanlandı:

– Bəs sən?

– Mən başımın çarəsini taparam.

– Yox, mən razı deyiləm, ancaq bərabər, ancaq bərabər, – deyə Tahir etiraz etdi, Maradonanın fikri qəti idi:

– Dediyimə qulaq asın. Haydı, siz gəldiyimiz yolla geri qayıdın, çalışın mühasirəyə düşməyin. Mən onların diqqətini yayındıraram, – yoldaşlarının tərəddüd etdiyini görəndə isə, – inşallah, heç bir şey olmaz, – dedi və yaxınlıqdakı çuxurda gizləndi.

Yoldaşlarının döyüşə-döyüşə geri çəkildiyinə tam əmin olan Maradona Tahirgili izləyən düşmənə arxadan atəş açmaq istəyəndə böyründə Ərəstunun yer aldığını gördü.

– Niyə qayıtdın?

– Səni tək qoya bilməzdim.

Maradona ona məhəbbətlə baxdı:

– Sağ ol, dostum, – o, düşmənləri arxadan atəşə tutdu:

– Gəlin, it uşağı, gəlin. Hərənizi bir çuxurda göməcəm, -

Maradona gözlənilmədən ayağa qalxdı, qarşıdakı çökəyə tullandı. Buradan düşmənlə döyüşmək daha rahat idi. Ərəstun da onun dalınca tullananda düşmən gülləsi sinəsini al qana boyadı. Ərəstunun yıxıldığını görən Maradonanın elə bil dünyası qaraldı, onun başını dizi üstünə aldı, fəvvarə vuran qanı saxlamaq üçün əlini yaranın üstünə basdı:

– Özünü ələ al, qardaş. Səni buradan çıxaracağam. Sağalacaqsan, birlikdə Sarıbaşa da gedəcəyik.

Ərəstun nəsə demək istədi, lakin xırıltısı artdığı üçün danışa bilmədi? Ağzına dolan qan çənəsindən süzüləndə o, sonuncu dəfə xırıladadı. Pənah aşağı əyildi, silahdaşının alnından öpdü, gah cəsədi hələ də soyumayan təzə şəhidə, gah da yaxınlaşan düşmənə baxdı:

– Axı mən səni düşmən əlində necə qoyub geri çəkilim?

O, Ərəstunun da silahını götürdü. İndi düşmənin bütün diqqəti ona yönəlmişdi. Maradona atəş aça-aça yaxınlaşan ermənilərə tərəf ikrahla tüpürdü:

– Gəlin, bir az da yaxın gəlin, son gülləm qalana qədər sizə

qənim kəsiləcəyəm...

Zahid, Qaməddin və Tahir mühasirəyə düşmədən İslam kişinin dediyi yerə çatdılar. Atəş səsləri hələ də səngiməmişdi.

– Sizi verən Allaha qurban olum, ay Pənah, ay Ərəstun, daha bəsdir, aradan çıxın, – Zahid narahatlıqla səs gələn istiqamətə baxdı. Atəş səsləri güclənəndə kəşfiyyatçılarla birlikdə geri qayıtmağı qərara aldı...

Maradona avtomatların darağına nəzər yetirdi: hər ikisi boş idi. əlini qoyun cibinə saldı, sonuncu gilizi çıxartdı, darağa yerləşdirdi. Qumbaranı kəmərindən açıb başlığı çəkmək istəyəndə lap qabaqda gələn erməninin eybəcər səsini eşitdi. Üstünə atılmaq istəyən düşməni sonuncu gülləyə qonaq elədi. Amma buna təəssüflənmədi, yeganə silahını – qumbaranı əlinə alıb səbirlə ermənilərin yaxınlaşmasını gözlədi. Ərəstunla vidalaşmağı da unutmadı:

– Hə, qardaş, üzərində haqqım varsa, halal olsun, şəhadətimiz mübarək!

Ermənilər lap yaxına gəlmişdilər, dörd tərəfdən üstünə tuşlanan avtomatlar görünəndə Pənah qumbaranın başlığını çəkdi...

Təngnəfəs üzüyuxarı qalxan Zahid digər kəşfiyyatçıları da tələsdirdi:

– Tez olun, çatmağımıza lap az qalıb.

Lakin qulaqbatırıcı gurultu hər şeyə son verdi. Silahdaşlarını gözü qabağına gətirən Zahidin qıçları əsdi, qolları boşaldı, dizləri üstə torpağa düşdü göz yaşlarını saxlaya bilmədi, barmaqları torpağı daradı, o, boğuq səslə hönkürdü...

Kəşfiyyatçıların qayıtdığını görən İslam kişi əllərini göyə qaldırdı:

– Şükür allaha, sağ-salamat gəlib çıxdınız. Bir şey öyrənə bildinizmi?

Heç kimdən səs çıxmadı. İslam kişi birdən ayıldı:

– Bəs Maradona ilə Ərəstun hanı? Niyə onlarsız gəlibsiniz?

Zahid boğuq səslə dilləndi:

– Pirəbulaq aşırımında düşmənin keşikçi qrupu ilə qarşılaşdıq, yayına bilmədik. Pənah da xilas ola bilərdi, amma nədənsə istəmədi, bizi oradan zorla uzaqlaşdırdı, özü isə... – o, sözlərinə bir qədər ara verdi, sonra asta səslə dedi, – Ərəstunun bizdən nə vaxt ayrıldığından xəbərimiz olmayıb.

Zahid əllərini üzünə tutub göz yaşlarını gizlətməyə çalışdı. İslam kişi həyəcanlandı, uca boylu, dolu bədənli, ağsaçlı qoca elə bil birdən-birə balacalaşdı:

– Əsir düşdülərmi?

Zahid zorla:

– Yox, – o, özünü birtəhər toparlayıb sözünü bitirdi, – qumbara partlayışından sonra silahlar susdu.

İslam kişi vaysındı:

– Heyif səndən, ay Pənah, heyif səndən, ay Ərəstun!

Hamının qanı qaralmışdı, heç kim dinib-danışmırdı.

Nəhayət, susmaqdan darıxan İslam kişi dilə gəldi:

– Burada yubanmağın bir mənası yoxdur. Geri qayıdaq. Yəqin ki, Qarakənd istiqamətində kəşfiyyata gedənlər bir xəbər gətirərlər.

Hamı İslam kişi ilə razılaşdı. Onlar düşərgəyə çatanda kəşfiyyatçıların ikinci dəstəsindən bir xəbər yox idi.

Dan yeri sökülmək üzrə idi. İkinci qrupun yubanması batalyon komandirinin həyəcanını daha da artırdı:

– Siz bu qədər yubana bilməzsiniz, Yaməddin, Bəxtiyar. Axı bir xəbər göndərə bilərsiniz! Bəs harda qaldınız? İki igidimizi itirdik, İsmayıl. Heç olmasa, ürəyimdən keçənləri sən duy, ay Elbrus! – ürəyi ilə danışmaqdan yorulan komandirin yadına salyanlı balası Qüdrətin sözləri düşəndə tutqun siması azacıq işıqlandı: “Noolub, alə, dünyanın axırı döri ki... Alə Sübhan, məni hamıdan yaxşı sən annıyarsan, ikimiz də balığyiyən tərəfdənüg: sən Lənkərannan, mən də Səlyannan...”

– Şükür allaha, sağ-salamat hamısı gəlirlər! – sədası düşərgədə canlanma yaratdı. Komandirin üzündəki narahatlıq birdən-birə sevinclə əvəz olundu. Dəstə gəlib çatanda Yaməddin

məlumat verdi:

– Komandir, bizi bağışlayın, mühasirəyə düşdüyümüz üçün əlaqə saxlaya bilmədik, amma düşmənin payını da verdik.

Bu sözləri eşidən komandir özünü saxlaya bilmədi, kəşfiyyatçıları bir-bir bağrına basdı...

* * *

Novruzlu və Yusifcanlı kəndləri suyu sovulmuş dəyirmana bənzəyirdi. Postlarda keşik çəkən əsgərlər və ara-sıra baş verən atəş səsləri olmasaydı, elə zənn edərdin ki, bu ərazilərdə insan nəfəsi yoxdur. Mərzili əldən gedəndən sonra ev-eşiklərini tərk edənlərin sayı daha da artmış, kəndlər boşalmışdı. Bakıdan, cəbhənin digər bölgələrindən gələn xəbərlər də heç ürəkaçan deyildi.

– Düşmənlər vəziyyətdən yetərincə faydalanmaq üçün rus hərbi birləşmələri ilə birlikdə bütün cəbhə boyu üstünlüyü ələ almağa çalışırlar. İşğal edilən ərazilərə xeyli tank, zirehli maşın və piyadalar yığılıb, – Yaməddinin verdiyi xəbər komandiri çox düşündürdü. Yüngül silahlarla ağır tankların, artilleriyanın qarşısında durmaq ağlasığmaz idi. Bütün bunları fikirləşdikcə komandir Füzuli Qasımov atılacaq addımları götür-qoy etdi. Düşmənin növbəti hücumunun qarşısını almaq üçün o, postları daha da gücləndirdi. Sonra üzünü Diləfruza tutdu:

– Siz vəzifənizi hamıdan yaxşı bilirsiniz, amma elə yerdə dayanın ki, düşmən atəşinə məruz qalmayasınız. Səngərdəki əsgərlərimizin sizə böyük ehtiyacı olacaq.

Diləfruz əlini gicgahına apararaq cavab verdi:

– Oldu, yoldaş komandir.

Azər təcili yardım maşınını nisbətən təhlükəsiz yerdə saxladı. Mərzilidən gələn tanklar görünəndə o, təlaşla Diləfruza baxdı:

– Bacı, bunlar postlarımızı necə keçdilər? Axı yuxarı postlarda əsgərlərimiz var?

– Bilmirəm, Azər, bir yol tapıb buradan çıxmalıyıq.

Diləfruzun gözü tanklara bağlanmış ağ lentlərə sataşanda:

– Azər, allah yenə bizi istədi, – deyib paketdən çıxardığı sarğını ehmalca maşının güzgüsünə bağladı. Onlar aeroport yoluna qədər tankların müşayiəti ilə hərəkət etdilər. Torpaq yola çatanda Azər maşını qəfildən sağa döndərdi, düşmən nə baş verdiyini anlayana kimi onlardan xeyli uzaqlaşdı...

* * *

Quzanlı qəsəbəsinə yol alan karvanın ucu-bucağı görünmürdü. Üz-gözündən əzab yağan əhali son mənzilin harada salınacağını hələ də bilmirdi. Kürsünü ələ keçirmək üçün səfərbər olan siyasi qüvvələri nə axıdılan qanlar, nə də itirilən torpaqlar maraqlandırırdı. İmperiyanı bərpa etməyə çalışanların əlində oyuncağa dönən hərbi müxalifət ölkəni içdən işğal etmək üçün Bakıya yollananda müqəddəs sayılan hər nə vardısa, ayaqlayıb keçdi. Yerli özünümüdafiə qüvvələrinin və postunu tərk etməyən əsgərlərin ümidinə qalan torpaqlar qeyri-bərabər döyüşdə bir-birinin ardınca düşmənin əlinə keçdi. Simasından qorxu, təlaş yağan körpələrin, yeniyetmələrin üzünə baxmaq çox çətin idi. Necə olursa-olsun, bir çıxış yolu tapılmalı, düşmənin hücumunun qarşısı alınmalı idi...

Əsgərlərin sual dolu baxışları komandiri nə qədər sıxsa da, o, təmkinini pozmadan qəti hökm verməyi bacardı:

– Sarıcalıya gedirik! Sarıcalı onlarla kəndin qapısıdır. Onun itirilməsi, – komandirin səsi titrədi, danışa bilmədiyi üçün susdu. Lakin əsgərlər onun nə demək istədiyini gözəl anladılar, heç bir söz demədən Sarıcalıya gedən yola buruldular. Yol boyu göz oxşayan yaşıllıqları, hündür qoz ağaclarının əzəmətini sanki heç kim görmürdü. Kəndin sol tərəfi ilə uzanan böyük meşə zolağı da elə bil pörşələnmiş, göylərə baş çəkən ağaclar boynunu qısmışdı. Səliqə ilə salınmış üzüm plantasiyaları da dincliyi əlindən alınmış adamlar kimi mısmırığını tökmüşdü. Gözə görünən hər şeydə bir süstlük özünü büruzə verirdi.

Əsgərlər kəndə gəlib çatanda düşmən yolun üst tərəfində

yerləşən mövqeləri ələ keçirmişdi. Kökəltmə adlanan ərazidə saxlanan heyvanlar onların iştahalarını yaman açmışdı.Bunu erməni dilində bir-birilə etdikləri zarafatdan da aydın başa düşmək olurdu. Bir neçə tank fermanın həyətində dayanıb ağzını yolun alt tərəfinə çevirmişdi.

Yolun alt tərəfindəkı sıx tut ağacları sipər kimi əsgərlərimizi düşməndən gizlətdi. Komandir Füzuli Qasımov əvvəlcə qarşı tərəfdə yan-yana düzülmüş beş tanka, sonra isə avtomat və qumbaralarla silahlanmış əsgərlərinə baxdı. Leytenantlar Rafiqlə Cəlilin, həmçinin döyüşçülərin üzündəki ifadədən: “ Cəsədimizi çeynəmədən düşmən Sarıcalını tuta bilməz”, – sözlərini oxudu . Gözləri Diləfruza sataşanda isə o qayğılandı və qətiyyətlə:

– Bacı, siz hücuma qoşulmayacaqsınız, – dedi.

Heyrətdən Diləfruzun gözləri geniş açıldı:

– Niyə?

– Bu hücum qadın işi deyil, – o, əli ilə qarşı tərəfi göstərdi.

Diləfruz komandirin çiyni üstündən düşmən əlində olan torpaqlara boylandı, asta, lakin ötkəm səslə cavab verdi:

– Yoldaş komandir, mən döyüşçüyəm, qadın deyiləm, – o, komandirin təəccübünü görəndə səsini bir qədər ucaltdı, – əlimə silah götürdüyüm gün məndəki qadınlıq öldü, analıq hissi arxa plana keçdi. Həmişə olduğu kimi bu hücumda da iştirak edəcəyəm.

Komandir susdu, çünki illərini düşmənlə döyüşdə xərcləmiş bu qadının sözü qarşısında susmaqdan başqa, çarə yox idi.

Dəstə hücuma hazır idi. Düşmənə gözlənilmədən zərbə vurulmalı, kəndin müdafiəsi üçün əlverişli məntəqələr geri qaytarılmalı idi. Heç bir maneəyə rast gəlməyən döyüşçülər tezliklə yolu keçərək üzümlüyə daxil oldular. Habil yanaşı addımladığı Həmədana (dostları Fazili zarafatla belə çağırırdılar) işarə ilə qarşı tərəfi göstərdi. Xışıltı səsləri getdikcə yaxınlaşırdı. Komandir əlini qaldırıb hamıya susmaq barədə göstəriş verdi. Silahını hazır tutan əsgərlər kolların arasında yerə uzanıb düş-

mənlərin daha da yaxınlaşmasını gözlədilər. Hər ehtimala qarşı Diləfruzdan göz-qulaq olmaq barədə tapşırığa əməl edib ona nəzər yetirməyi də unutmadular.

– Vallah, bu qadın şir ürəyi yeyib, – kiminsə pıçıltı ilə dediyi söz Manafın qulağına çatanda razılıqla başını tərpətdi:

– Nahaq deməyiblər, qardaş: "Aslanın erkəyi, dişisi olmaz".

– Hə, vallah, allah atalarımıza rəhmət eləsin, – Rafiq sözə qarışanda ilk atəş açıldı.

– Sağ tərəfi gözdən qoymayın, leytenant! – nidası eşidiləndə Rafiqin işarəsi ilə Manaf, Əli, Telman və Rəhman həmin istiqamətə yön aldılar. Elə bu vaxt qarşı tərəfdən vəhşi bağırtı səsi gəldi. Manaf gözlənilmədən atəş aça-aça irəli cumdu. Rafiq onun arxasınca qışqırdı:

– Manaf, ehtiyatlı ol!

Şaqqıltıdan Manaf onun sözlərini eşitmədi. Pulemyot ulartısı əsgərləri yerə uzanmağa məcbur etdi. Əli Telmana tərəf döndü:

– Manaf görünmür.

– İndi xəbər tutaram, – deyib Rafiq tənəklərin arası ilə irəli sürünməyə başladı...

Leytenant Cəlil sol tərəfdən hücuma keçən düşmənlərə qarşı döyüşən əsgərlərin yanında idi. Hər dəfə sərrast atəşlə vurulan düşmənin bağırtısı eşidiləndə onun üzündə məmnun ifadə yarandı. O:

– Əyyub, Xanı, uşaqları (Cəlil döyüşə təzə gələn əsgərləri nəzərdə tuturdu) qoruyun, onlar təcrübəsizdir, – deyəndə Xanı avtomatın darağını dəyişə-dəyişə yalnız özünün eşidə biləcəyi tərzdə pıçıldadı:

– Allah qoruyan yerdə biz kimik ki? Alın yazımız nədirsə, onu görəcəyik, – Xanı yerini rahatlayıb atəş açmaq istəyirdi ki, güllə çiynini odladı. O, ağrıdan nəfəs çəkə bilmədi, zorla səsləndi:

– Əyyub!

Xanının avtomatı susan kimi Əyyub ona tərəf gəldi. Ağır yaralandığını görüb Diləfruzu axtardı:

– Bacı, bacı! – o, Xanını bir qədər arxaya çəkməyə çalışdı. Amma düşmən, deyəsən, onların yerini yaxşı müəyyən etmişdi. Növbəti atəş Əyyubu da yerə sərdi. Özünü yetirən Diləfruz ağrıdan dişlərini bir-birinə sıxan Əyyuba təsəlli verdi:

– Özünü darıxdırma, bu saat hər şey keçəcək, – dedi və xüsusi pereparatı onun əzələsinə vurdu. Ağrıları azalan Əyyuba kömək etmək istəyəndə o etiraz etdi:

– Bacı, mənim ağrılarım azaldı, yəqin, bir azdan tamam keçər. Xanının halı heç özündə deyil, onu arxaya aparın. Mən nə qədər bacarsam, döyüşəcəm.

– Bu yara ilə döyüşmək sənə asan gəlməsin, mən Xanını birtəhər yolun alt tərəfinə keçirəcəm, sən də özün asta-asta arxamızca sürün.

Yaralıları təcili yardım maşınının yanına qədər gətirən Diləfruz onları sürücü Azərə tapşırıb bəzi göstərişlər verdi, yenidən döyüş meydanına qayıtdı. Üzümlüyə təzəcə girmişdi ki, komandirin ucadan dediyi sözləri eşitdi:

– Geri çəkilirik.

Diləfruz əvvəlcə bir şey anlamadı: bu qədər irəliləmişkən nə üçün geri qayıdırıq?- deyə düşündü, lakin motor gurultusundan hər şey aydın oldu. Əsgərlər tezliklə yolun alt tərəfinə keçib əvvəlki mövqelərində qərar tutdular. Yüngül yara alanlar da ilk yardımdan sonra öz yerlərinə qayıtdılar. Bir azdan qarşı tərəf də susdu. Əsgərlərin arasında Rafiqi və onunla eyni istiqamətdə döyüşən əsgərləri görməyəndə Füzuli Qasımovun qaşları çatıldı. “Kim bilir, başlarına nə gəldi?” – fikrilə leytenant Cəlili və digər əsgərləri tələsdirdi:

– Haydı, tez olun! Başlarına bir iş gəlməmiş köməyə yetişək.

Beş nəfərlik dəstə asfalt yolun üst tərəfinə təzəcə keçmişdi ki, üzümlükdə küt addım səsləri eşidildi. Komandir astadan əmr etdi:

– Yerə uzanın!

Cansıxıcı dəqiqələr komandirə çox uzun gəldi. Lap qabaqdakı əsgərin Rəhman olduğunu görəndə bir qədər ürəyi toxtadı.

Telmanla Əlinin qollarından asılı qalan Manaf tam hərəkətsiz idi. Rafiq onların arasında yox idi. Manafın son anlarını yaşadığını bilən Cəlil özünü ələ ala bilmədi. Yerdə oturub onu qollarının arasına aldı:

– Aç gözlərini, Manaf, – deyərək aşağı əyildi, üzünü onun üzünə söykədi.

Bu isti təmasdan Manaf gözlərini açdı, burun pərələri xəfifcə titrədi, demək istədiyi söz dodaqlarındaca dondu. Cəlilin çağırışları ona çatmadı...

Komandir Rəhmana baxaraq narahat şəkildə soruşdu:

– Bəs Rafiq hanı?

Gələnlər başlarını aşağı saldılar, komandir səbirsiz halda təkid etdi:

– Bir dillənsəniz?

Verəcəyi xəbər nə qədər ağır olsa da, Rəhman başını qaldırmadan cavab verdi:

– Manafı qurtarmaq üçün düşmənin diqqətini öz üzərinə çəkib xeyli irəli getdi.

– Sonra nə oldu?

– Xəbər tuta bilmədik.

Komandir yumruğunu düyünlədi, kimisə vururmuş kimi yuxarı qaldırıb zərblə aşağı endirdi...

Məlul-müşkül geri qayıdanların gətirdiyi qana bələnmiş Manafı görən Diləfruz irəli gəlib içini çəkdi, pıçıltı ilə soruşdu:

– Rafiq gözümə dəymir, onu da mı vurublar?

Cəlil qaşqabaqlı tərzdə başını buladı:

– Bilinmir.

– Onu axtarmaq lazımdır! – Diləfruz çantasını çiyninə aşırıb üzümlüyə tərəf döndü, lakin komandir əsəbiliklə onun qarşısına keçdi:

– Hara gedirsən? Yuxarı erməni ilə doludur. Döyüşdən bu dəqiqə çıxmışıq. Düşmən əlinə keçməyibsə, birtəhər yol tapıb gələcək.

– Bəlkə, yaralıdır, köməyə ehtiyacı var? – komandirin sus-

duğunu görəndə isə təkidlə, – Mən öz vəzifəmi icra edirəm, yoldaş komandir! – deyərək Diləfruz bu dəfə çox rəsmiyyətlə cavab verdi.

– Dedim ki, getməyəcəksən. Bu qədər əsgərin içindən (komandir üzündən yorğunluq yağan əsgərlərə tərəf baxa bilmədi) səni təkbaşına heç yerə göndərə bilmərəm. Düşmən bütün üzümlüyü nəzarətə götürüb. Sənin əsir düşməyin bizim dirigözlü ölümümüzdür.

Diləfruz əlini böyründən asdığı qumbaralarda gəzdirdi, silahını sinəsinə basıb dedi:

– Mən əsir düşmərəm, – o, dərindən nəfəs aldı, ani olaraq gözlərinin önündə körpələri canlandı, amma geri dönmək fikrindən vaz keçdi, sözünə qətiyyətlə davam etdi, – əgər düşməndən qaça bilməsəm, məni vurarsınız.

O, iti addımlarla yolu keçib üzümlüyə daxil oldu. Gözə görünmədən düşmən düşərgəsinə tərəf addımladı. İrəlilədikcə ətrafa diqqət yetirdi. Rafiq heç yerdə gözə dəymirdi. Artıq ermənilərin səsi lap aydın eşidilirdi. Nə barədəsə mübahisə edir, bəzən bir-birinin üstünə qışqıranlar da olurdu. Görünür, verdikləri itki ilə barışmaq istəmirdilər. Yan-yana düzülmüş meyitlərin üzünü örtsələr də, Diləfruz ondan artıq erməni meyiti saydı. Bir qədər aralıda – üzümlüyün kənarında bitən çinar ağacının altındakı meyitə gözü sataşanda isə onu elə bil ildırım vurdu. Cəsədin başı yox idi . Geyimindən bildi ki, bu, Rafiqdir. O, göz yaşlarına boğularaq and içdi:

– Səni onların əlində qoysam, anamın südü mənə haram olsun!

Döyüşdən çıxan ermənilər gözə dəymirdilər. Yalnız beş-altı nəfər əsgər tanklara yanacaq doldurmaqla məşğul idi.

– Yəqin ki, daldanacaq taparaq dincəlirlər əclaflar, – Diləfruz öz-özünə deyindi və sürünə-sürünə çinar ağacının altına gəldi. Başı qarışan ermənilərdən xəlvət meyitin ayaqlarından yapışıb üzümlüyə tərəf sürüdü. Ona bu güc, qüvvət haradan gəlmişdi, heç özü də bilmirdi. Diləfruz yolun kənarına çatmağa lap az

qalmışdı ki, birdən-birə düşmən düşərgəsində səs-küy qopdu, kimsə var gücü ilə bağırıb digərlərini yamanladı. Hamı bildi ki, ermənilər meyitin yoxa çıxmasından xəbər tutublar. Tezliklə üzümlük atəşə tutuldu, tankların uğultusu aydınca eşidildi...

Əsgərləri əvvəlcədən səfərbər edən komandir qarşı tərəfi durbinlə müşahidə edərək üzünü Qarabalaya – on səkkiz yaşlı Ayaza tutdu:

– Diqqətli ol, bil ki, indi çox şey sənin hədəfi vurmağından asılı olacaq.

Ayaz gülümsünərək qumbaraatanı çiyninə qaldırdı, qabaqda gələn tankı nişan alıb tətiyi çəkdi. Bərk partlayış qopdu. Tank yerində fırlanıb böyrü üstə aşdı. Qatı tüstü tankı bürüyəndə düşmən hücumu dayandırdı. Ermənilərin hərbi texnikası istiqaməti dəyişdi və üzümlükdən uzaqlaşdı.

Fürsətdən istifadə edib Rafiqin meyitini yolun alt tərəfinə keçirən Diləfruz cəsədin yanında ayaq üstdə dayanıb gözlərini bir nöqtəyə zilləmişdi. Beş gün əvvəl toy mağarı qurulan leytenantın başsız cəsədini görən əsgərlər bu vəhşilikdən dəhşətə gəldilər. Bəziləri göz yaşlarını saxlaya bilmədilər. Hər tərəfə səssizlik çökdü. Komandir leytenantın cəsədi qarşısında baş əydi:

– Qisasın yerdə qalmayacaq, leytenant, – sonra üzünü döyüşçülərə tutdu, – qisasa qisas, igidlərim! And içək, Vətən naminə, şəhidlərimizin ruhu naminə and içək! – deyib düyünlənmiş yumruğunu yuxarı qaldırdı. Digər döyüşçülər də ona qoşuldular. Onların gur səsi tut ağaclarının sıx yarpaqlarını xəfifcə titrətdi...

* * *

Təcili yardım maşını ləngərlənə-ləngərlənə torpaq yolda hərəkət etdikcə Diləfruz tez-tez geri dönür, yan-yana düzülmüş şəhidlərə baxır, gözü son olaraq Rafiqin cəsədində qərar tuturdu. İçindəki göynərti artdıqca boğulduğunu hiss edirdi. Onun ürəyindən nə keçdiyini anladığı üçün dilli-dilavər Azər də səsini udur, yaralılar inciməsin deyə, maşını daha ehtiyatla sürür-

dü. Yaralıları səyyar xəstəxanaya çatdırdıqdan sonra maşın istiqaməti dəyişdi – şəhidləri yudurtmaq üçün Hindarxa yol aldı...

Məscidin həyətində üç-dörd nəfər yaşlı kişi təsbeh çevirəçevirə fikrə getmişdi. Təcili yardım maşını həyətə girəndə onlar yerlərindən qalxıb maşına tərəf gəldilər. Saç-saqqalı tamamilə ağaran qoca dərindən ah çəkib dodaqaltı mızıldandı:

– Görəsən, yenə neçə evin çırağı sönüb?

Onun sözləri aydın eşidilsə də, gələnlərdən heç biri cavab vermədi. Meyitlər maşından düşürüldükcə rəngi boğulan qoca titrək əllərini göyə qaldırdı:

– Bu qədər zülm bəs deyilmi? Allah, baiskarların tifaqını dağıt, – o, içdən gələn fəryadla acı-acı hönkürdü. Diləfruza elə gəldi ki, onun boğuq hönkürtüsünü məscidin divarları uddu. İlk meyit yuyulub kəfənləndi. İkinci-üçüncü meyitlər də qüsllənəndən sonra molla boyuna görə digər şəhidlərdən balaca görünən cəsədə yaxınlaşdı. Örtüyü qaldıranda diksindi. İlan vurmuş adam kimi geri sıçradı. Nəsə demək istədi, səsi çıxmadı, birdən-birə nəfəsi təngidi, qeyri-ixtiyari yuyucuxanadan çölə fırladı, heç kimin üzünə baxmadan kəndə tərəf götürüldü. Nə əsgərlərin, nə də digər qocaların səsi ona çatdı. Erməni vəhşiliyinin qan donduran səhnəsi onu dəliyə çevirdi. Adamların yanında ağlamağı xoşlamayan Diləfruz özünü saxlaya bilmədi, hönkürtü ilə ağladı. Onun hönkürtüsündəki yanğı digərlərinə də təsir etdi. Mollanın dalınca gedən adam həyəcandan titrəyən, halbahal olan mollanı geri qaytara bilmədi. Maşının qanını təmizləyən Azər yuyulmuş cəsədləri digər əsgərlərin köməyi ilə salonda yan-yana düzdü. Rafiqin başsız bədənini də maşına qoyandan sonra Diləfruz dörd əsgərlə cənazələri sahiblərinə təslim etdi. Hər həyətdə qopan şivən ürəyinin yağını bir az da əritdi. Sonuncu həyətdən çıxanda o, yenə də Rafiqin cəsədinə baxdı, qəti səslə dedi:

– Azər, maşını Ağcabədiyə sür.

Azər lal-dinməz maşını işə saldı. Gün çoxdan əyilmişdi. Bir

azdan gecə qara örpəyini səmaya sərəcəkdi. Gecənin qaranlığında cənazəni kimə götürdəcəkdi? Fikirlər beynini oyduqca Diləfruzun səbri tükəndi. Rayon mərkəzinə çatanda qarşıya çıxan ilk evin qapısını döydü. Qapını açan ağsaqqal qocaya az qala yalvardı:

– Şəhidimiz var, məscid haradadır?

Qoca bir söz demədən həyətə endi, onlarla bərabər məscidə yollandı. Məscidin axundu gələnləri görüb oxuduğu kitabı örtdü, sualedici baxışlarla əsgər geyimli qadına və gələnlərə baxdı. Onu anlayan Diləfruz hüznlü səslə dilləndi:

– Şəhidimiz var, əmi. Buraya yudurtmaq üçün gəlmişik.

Axund ağır-ağır yerindən qalxdı, həyətdə qoyulan cənazəyə yaxınlaşdı, ehtiyatla örtüyü qaldıranda burnuna qan qoxusu doldu. Əti ürpəşsə də, örtüyü açdı, başsız bədəni görüncə nə edəcəyini bilmədi, yalnız:

– Anan ölsün, ay oğul! – deməyi bacardı. Bir qədər toxtayıb üzünü Diləfruza tutdu, – Meyiti qəbiristanlıqda yuyub kəfənləyərik.

O, axundun nə demək istədiyini başa düşdü, başını astaca tərpətdi. Bir neçə dəqiqədən sonra cənazə qoyulmuş təcili yardım maşını rayon qəbiristanlığına tərəf yol aldı...

Kəfənlənmiş meyit maşına qaldırılanda Diləfruz gözlərinə inana bilmədi: cəsədin "başı" üstündə idi. O, minnətdarlıqla axunda baxdı.

Rafiqin cəsədini ertəsi gün Ağcabədi qəbiristanlığında torpağa tapşırıb geri qayıdanda Diləfruz ömrü boyu unuda bilməyəcəyi bir hadisənin şahidi oldu: beş gün əvvəl qırmızı duvaqla bəy otağına girən gəlin havalanmışdı...

* * *

Sonuncu döyüşdən sonra ara-sıra atılan güllələr nəzərə alınmazsa, hərbi düşərgədə sakitlik idi. Vaxtaşırı eşidilən böyürtü səsləri ermənilərin fermadakı heyvanlardan qida mənbəyi kimi istifadə etdiyini göstərirdi.

– Yediklərinizi bir-bir burnunuzdan gətirmək bizə borc olsun, – leytenant Cəlil hirsindən dodaqlarını çeynədi.

Onun sözlərini eşidən komandir yenə təmkinini pozmadı:

– Narahat olma, bir saatdan sonra o səngərlər bizim olacaq.

Cəlil təəccüblə üzünə baxanda Qasımov dediklərini başı ilə təsdiqləyib sözünü tamamladı:

– Kəşfiyyatın gətirdiyi xəbərə görə, ermənilər bütün texnikanı geri çəkiblər. Səngərlərdə yalnız yüngül silahlarla təchiz olunmuş piyadalar var...

Komandir hücuma hazır dayanan əsgərlərə nəvazişlə baxdı. Bölük yolu keçərək üzümlüyə daxil oldu və səs-küy salmadan düşmən mövqelərinə doğru irəlilədi. Zarafatlaşaraq yeməyə girişən düşmənilərin bu qəfil həmlədən xəbəri olmadı. Başlarının üstü gözlənilmədən alınanda qorxudan gözləri böyüyən ermənilərin udmaq istədikləri tikələr boğazlarında qaldı. Onlar silahlarını götürüb bir güllə atmağa belə macal tapmadılar, gücləri gəldikləri istiqamətdə geri qaçmağa çatdı. Öz canının hayına qalan düşmən, nə yaralıların harayına cavab verdi, nə də cəsədlərə sahib çıxdı.

Doğrudan da, bir saatdan sonra düşmən əlində olan kökəltmə ferması və ətrafı azad edildi. Lakin komandir postlar geri alınsa da, sayıqlığı itirməmək üçün əsgərlərə xəbərdarlıq etdi:

– Postlar geri qaytarılsa da, təhlükə böyükdür. Arxayınlaşmaq yeni qurbanlar deməkdir. Gözünüzü dörd açın, hər çıqqıltıya diqqət yetirin. Üstümüzə yalnız ermənilərin gəlmədiyini də unutmayın.

Komandir sözünü bitirən kimi yuxarıdan maşın səsi eşidildi. Bir erməni “kamaz”ı sürətlə üzüaşağı enib düz əsgərlərin üstünə gəlirdi. Nə baş verdiyini anlamağa vaxt yox idi. Komandir amiranə səslə üzünü Qarabala adlandırdığı Ayaza tutdu:

– Qumbaraatanı nizamla və hədəfi nişan al.

Qarabala silahı çiyninə qoyub tətiyi çəkmək istəyirdi ki, maşının kabinəsindən dəsmal yelləyən bir əl göründü. Sürücü atəş açmamağı xahiş edirdi. Maşın dayananda içindəki adamın Eh-

tiram olduğunu görən əsgərlər onu dövrəyə aldılar.

Həmədan (Fazil) gülə-gülə dedi:

– Ayə, allahsız, ermənin içindən "kamaz"ı nejə qaçırdın?

– Ay Həmədan, nejə olajax, maşın yolun kənarındaydı. Ermənilər qorxudan özdərin elə itirmişdilər ki, maşın-filan yaddarına da düşmürdü. Hərəsi başın götürüf bir tərəfə qaçırdı. Mən də usdufca qapını açdım, motoru bax bunnan işə saldım, – o, əlindəki məftili göstərdi, – düzdür, ermənilər maşının uğultusuna ayıldılar. Onnar maşına çatınca mən uzaxlaşdım, arxamca bağıra-bağıra qaldılar.

Ehtiramın hünərinə yerbəyerdən alqış sədası ucalanda Diləfruz Rafiqin cəsədini götürdüyü çinarın altında idi. O, ətrafa boylanır, nəsə axtarırdı. Yolun kənarındakı daş gözünə sataşanda iti addımlarla ora yaxınlaşdı. Bölünmüş daşın üstü xırda ət parçaları və qanla örtülmüşdü. O, daşın yanında ucu torpağa sancılmış baltanı görəndə əti ürpəşdi. Ağzı küt balta küpünə qədər qana bulaşmışdı. Gözündən axan yaş qurumuş qanın üstünə töküldükcə Diləfruza elə gəldi ki, cızıltı səsi hər tərəfi bürüdü. Amma sızıldayan onun ürəyi idi. O, gözlərindən axan yaşı silib ayağa qalxdı, bir gün əvvəl tankların dayandığı yerə tərəf addımladı. Qəribə bir hiss onu tankların izi ilə irəli apardı. Tankın tırtılları altında əzilib xıncım-xıncım olmuş başı görəndə hərəkəti çəkildi, dizləri üstə yerə çökdü. Nə qədər bu vəziyyətdə qaldığından xəbəri belə olmadı. Adını eşidəndə özünə gəldi. Çağıran Azər idi:

– Bacı, burada niyə oturubsan?

Diləfruz dillənmədi, əli ilə əzilmiş kəlləni göstərəndə göz yaşları yenidən yanaqlarını yudu. Azər dəhşət içində başını tutdu:

– Aman allah, bunlar quduz heyvandan da betərdilər. Belə də mi insanlıq olar? Bacı, indi bunu nə edəcəksən?

– Dəfn edəcəyəm.

– Harada?

– Öz məzarında. Mənə bir qutu və tənzif gətir.

Azər ayağa qalxdı. Təcili yardım maşınındakı dərman qutu-

larından birinin içindəkiləri sellofan torbaya yığıb boş qutunu götürdü. Diləfruz qutunun içinə tənzif döşədi, əvvəlcə qanı üstündə quruyan sarışın qıvrım saçları, sonra isə xıncım-xıncım olmuş sümükləri torpaqdan təmizləyib son qəlpəsinə qədər qutuya yığdı, üstünü tənziflə örtüb ağzını bağladı:

– Hava qaralanda bunu qəbiristanlığa aparmalıyıq.

– İndi olmazmı?

Diləfruz Azərə çəpəki baxdı:

– Yox, olmaz. Rafiqin başsız olduğunu öyrənən anaya cavab verə bilərsənmi?

Azər susdu. Hava qaralanda təcili yardım maşını Ağcabədi qəbiristanlığına yol aldı. Qutunu əllərində tutan Diləfruz gecənin qaranlığından gözünü çəkməsə də, xəyalında sarışın, qıvrım saçlı, mavi gözlü, şivərək boylu gəncin surəti canlanırdı. Maşın dayananda o, xəyallarından ayrıldı, kabinədən yerə endi. Azər gətirdiyi bellə məzarın baş tərəfini açdı, qutunu ehmalca yerinə qoyub üstünü eyni qaydada torpaqladı. Diləfruz bundan sonra rahat nəfəs aldı:

– Rahat uyu, qardaş, – deyib fatihə surəsini oxudu.

Maşın gəldiyi yolla geri dönəndə çiyinlərindən ağır yük götürülmüş Diləfruz ruhən sakitləşmişdi...

* * *

Dan yeri söküləndə hərbi düşərgədə bir hərəkət vardı. Düşmənin yaxın məsafədə cəmləşməsi haqqında məlumatı alar-almaz komandir yuxarı postları möhkəmləndirmək üçün əlavə qüvvə göndərməyi qərara aldı. On altı nəfərlik bir heyət qənimət kimi ələ keçirilmiş "kamaz"a mindi. Diləfruz da silahını, tibb çantasını götürüb maşına minmək istəyəndə Hikmətlə Həmədan bir ağızdan səsləndilər:

– Bacı, sən hara?

Diləfruz çaşqınlıqla:

– Axı mən sizə orada gərəyəm? – dedi.

Habil gülümsündü:

– Bacı, bu dəqiqə orada döyüş yoxdu. Əgər döyüş başlasa, geridə qalanlarla birlikdə köməyə gələrsən.

Diləfruz məlul-müşkül geri döndü. Maşın uğuldayıb birdən yerindən tullandı. Bir-birinin üstünə aşan əsgərlər yer-yerdən Ehtirama səsləndilər:

– Axıra qədər maşını belə sürsən, posta xurd-xəşilimiz çatacaq, əməlli-başlı sürsənə!

Söz altda qalmağı xoşlamayan Ehtiram başını kabinədən çıxararaq dedi:

– Neynim, maşın da yiyələrinə oxşuyuf. Xasiyyətini öyrənmək üçün bir neçə dəfə sürməliyəm.

Həmişə onun baməzə sözlərinə gülən əsgərlər bu dəfə heç bir reaksiya vermədilər. Maşın uğuldayaraq üzüyuxarı qalxıb sola döndü. Yuxarı postlar əl içi kimi göründü. Ehtiram yanında əyləşən əsgərə dedi:

– Bir döngədən sonra postdayıq, – o, ağzını doldurub yenə nəsə söyləmək istəyirdi ki, maşın döngədə tankla burun-buruna gəldi. Heç nə fikirləşməyə macal olmadı. Zərblə tanka çırpılan "kamaz" yerindəcə mıxlandı, Ehtiram açıq qapıdan nə zaman üzüaşağı yuvarlandığını belə hiss etmədi. Maşının üstündəki əsgərlər zərbənin təsirindən hərəsi bir səmtə düşdü, ağır zədə alanların huşu başından çıxdı. Güclü təkan Cabiri yoldan bir qədər aralı su arxına atdı...

O ayılanda hər tərəfə sakitlik çökmüşdü. Başında, bütün əzalarında küt ağrı vardı.Suyun içinə necə düşdüyünü xatırlamağa çalışdı: son yadında qalan dəhşətli şaqqıltı idi, sonra nə olmuşdu, xatırlamadı.

– Bu su məni üzüaşağı – öz kəndlərimizə aparacaq, – fikrilə Cabir düz Quzanlıya qədər uzun bir məsafəni qət etdi...

Ehtiram yaralanmamışdı, lakin əllərini, üzünü kol-kos cızıq-cızıq etmiş, paltarları didilmişdi. Çiyinlərində, elə bil ki, yük vardı, bir dizi və topuğu bərk ağrıyırdı. O, yerindən dikəlib maşına tərəf baxdı. Gözünə heç nə dəymədi. Nə qədər ağrınsa da, birtəhər sürünə-sürünə yuxarı qalxdı. Yoldaşlarından bir iz

axtardı. Yerdə qan damlaları görsə də, nə bir yaralıya, nə də cəsədə rast gəldi. Kor-peşman geri döndü. Yol boyu silahdaşlarının taleyini düşündü. Arabir qəhərini qusmaq üçün sinə dolusu bağırdı da. Gah da:

– Mən yoldaşlarımın üzünə necə baxajam? – deyə salamat qalmasından xəcalət  çəkdi, Həmədanın, Habilin, Hikmətin, Kamilin anası gözləri qarşısında canlananda ruhuna bir süstlük hakim kəsildi, hərəkəti tamam çəkildi, yeriyə bilmədi. Ağlamağa da gücü çatmadı. Bir qədər nəfəsini dərdikdən sonra yenidən ayağa qalxdı, asta-asta düşərgəyə sarı addımladı. İndi o, yolun bitməsini istəmir, sonsuzluğa qədər uzanmasını arzulayırdı...

Yolun ortası ilə səndələyə-səndələyə düşərgəyə çatan Ehtiramı görəndə hamını təəccüb bürüdü. Yer-yerdən suallar yağdı:

– Nə olub, qardaş?

– Maşını aşırdıfsan?

– Bəs o biri uşaqxlar hanı?

– Ürəyimiz çəkildi, Ehtiram, bir dillənsənə!

Diləfruzun sualından sonra Ehtiram başını qaldırdı, onun qara gözləri yaşla dolmuşdu, uca boyu, elə bil ki, birdən-birə kiçilmiş, enli kürəkləri ərimiş, beli bükülmüşdü. Alnında, gözünün kənarlarında görünən çızıqlar dərin qırışlara bənzəyirdi. Kimsə ona su uzatdı. O, titrək əlləri ilə suyu aldı, üst-başına dağıda-dağıda bir neçə qurtum içdi. İntizarla ondan cavab gözləyən yoldaşlarına yalnız bunları deyə bildi:

– Maşınımız erməni tankı ilə toqquşdu. Sonra heç nədən xəbərim olmadı. Ayılanda nə maşın vardı, nə də uşaqlar...

Düşərgədəkilərin üstünə elə bil su ələndi. On altı nəfərin naməlum taleyi hamını üzdü. Komandirin rəngi tamam boğuldu. O, sayı azalan bölüyə, tükənməkdə olan cəbbəxanaya baxdı. Başını əlləri ilə tutdu. Son itkilərin yeri doldurulmamış döyüşsüz on altı nəfərin yoxa çıxması onu əzdi. Amma əsgərlərin qarşısında dik dayanmağı bacardı:

– Kömək gələnə qədər dayanmağa çalışacağıq.

Yerdən kimsə dilləndi:

– Gözlədiyimiz kömək gələnə qədər bizi erməni bir-bir dənləyəcək, bizimsə gözümüz yolda, qulağımız səsdə olacaq lap Mərzilidəki kimi.

Komandir səs gələn tərəfə üzünü tutdu:

– Nə edək? Kömək gəlməyəcək deyə əlimizdə olan torpaqları da mı düşmənə verək? Nə qədər gücümüz çatır, döyüşəcəyik.

Komandir əsgərlərin taleyindən xəbər tutmaq üçün dörd nəfərlik kəşfiyyat qrupunu düşmən mövqelərinə göndərsə də, kəşfiyyatçılar itkinlər barəsində bir məlumat öyrənə bilmədilər. Lakin düşmənin güclü texnika və xeyli sayda əsgərlə yaxınlıqda məskən saldığının bir daha şahidi oldular.

Füzuli Qasımov ağır-ağır dilləndi:

– Yəqin ki, itirilmiş mövqeləri ələ keçirməyə çalışacaqlar.

Bizi ağır döyüş gözləyir...

O, dərindən ah çəkdi, səhərki döyüş barədə fikirləşməyə başladı. Əlverişli mövqedə yerləşən "kökəltmə"ni azad edərkən verilən qurbanları xatırladı. Kömək üçün yenə mərkəzə müraciət etdi:

– Yoldaş rəis, sabah ermənilərin kütləvi hücumu gözlənilir. Bizə kömək göndərin. Sursatımız da çox azdır.

Lakin xəttin o başından verilən köntöy cavab onun bütün ümidlərini alt-üst etdi. Gənc əsgərin dediyi sözlər qulaqlarında cingildədi: "Gözlədiyimiz kömək gələnə qədər bizi erməni bir-bir dənləyəcək, bizimsə gözümüz yolda, qulağımız səsdə olacaq lap Mərzilidəki kimi". O, radiocihazı söndürüb yerinə qoydu, ayağa qalxıb səngər boyu otərəf-butərəfə var-gəl eləməyə başladı. Gözü qol saatına sataşanda postda dayananları xatırladı: növbəni dəyişmək vaxtı idi...

Səhər tezdən heyvanların böyürtüsü düşərgəni başına götürəndə hamı fermaya tərəf boylandı. Diləfruz iki əsgərlə fermadakı bütün malları açıb üzüaşağı – kəndə tərəf qovmağa çalışırdı. Hamının Şahin İsaoğlu çağırdığı əsgər Diləfruza yaxınlaşıb əlindəki dəyənəyi aldı:

– Bacı, bunları niyə açdınız?

– Burada onlara baxanmı var? Həm də dayana bilməsək, niyə erməniyə qalsın ki? Aşağı kəndlərə sarı ötürün.

Şahin heç nə demədi, digər yoldaşları ilə birlikdə heyvanları Çəmənliyə sarı qovdu. Onlar geri qayıdanda Günəş bir qədər yuxarı qalxmışdı. Bir azdan düşmən piyadalarının ön cərgəsi göründü. İlk atəş döyüşün başlandığını bildirdi. Sayca çox olan düşmən kolların, ağacların arxasında daldalanıb arabir atəş açır, asta-asta irəliləyirdi. Onların seyrək atəşi və gizlənqaç oynayan uşaqlar kimi yerdəyişməsi komandirin diqqətini o dəqiqə cəlb etdi. Durbinlə qarşı tərəfi bir də diqqətlə nəzərdən keçirdi. Xeyli uzaqda böyür-böyürə düzülən tankları görəndə ona hər şey bəlli oldu: öndə piyadaları göndərən düşmən aldadıcı manevr edərək əsgərlərimizi öz üzərinə çəkməyə çalışırdı. Tanklar isə aşağı enərək yolu bağlamalı, mühasirə halqası yaratmalı idi. Ona görə də tanklar yerindən tərpənməmiş geri çəkilmək lazım idi. Komandirin gözlənilmədən verdiyi:

– Geri çəkilirik! – əmri hamını çaşdırdı, “niyə?” sualı çoxlarını düşündürdü. Əmr ikinci dəfə təkrar olunanda hamı geriyə sürünsə də, qarşı tərəfi atəşə tutan Şahin yerindən tərpənmədi. Onun tərpənmədiyini görən Diləfruz səsləndi:

– İsaoğlu, əmr hamı üçündür. Komandir bir şey bilməsə, bu əmri verməz.

– Bu ağqulaqlarla hayların qabağından qaçaq? Qaçmaqdansa, vuruşaram, şəhid olaram.

– Hamımız ölsək, torpaqları kim azad edəcək? Müharibədə uğur da, məğlubiyyət də olur. Gələcək qələbəmiz üçün sağ qalmalıyıq. Gəl, dəstədən geri qalma.

Şahin könülsüz də olsa, razılaşdı. Düşmən bölüyün tutduğu mövqelərdən çəkildiyini görüb hücumu sürətləndirdi. Meşə zolağı ilə hərəkət edən bölük hücuma keçən ermənilərlə döyüşə-döyüşə geri çəkilsə də, itki vermədi. Erməni tankları yolun alt tərəfini tutdu, lakin mühasirə halqası yarada bilmədi və yolun üst tərəfindəki “kökəltmə”də qərar tutdu. Əsgərlərimiz Çəmən-

li Sarıcalısına çatana qədər atəş səsləri səngimədi.

– Möhkəm durun, qardaşlar, gəldik! – nidası eşidiləndə döyüşçülər qulaqlarına inanmadılar. "Gələn kimdir?"sualı hamı kimi Diləfruzu da düşündürdü. Qarşıdan gələn düşməni Çəmənlinin hüdudlarına buraxmamaq üçün yerə uzanıb müdafiə olunan əsgərlərin nə geri boylanmağa, nə də gələnlərin kim olduğunu öyrənməyə imkanı vardı. Amma bu səs nədənsə Diləfruza çox tanış gəldi. Yaxınlıqdakı əsgərin yarasını sarıdıqdan sonra özü onun yerini tutub atəş açmağa başladı. Yeni qüvvənin gəldiyini görən düşmən xeyli itki verərək hücumu dayandırdı və tankların gəlmədiyini görüb geri çəkildi.

– Bu it uşağını yuvasına qədər qovmaq lazımdır, – deyən adama baxanda Diləfruz Sənanı tanıdı. Komandir başını buladı:

– Gecdir, Sənan. "Kökəltmə" tam düşmənin əlindədir.Tankın üstünə avtomatlamı gedəcəksən?

– Niyə də getməyim? – bu qonur gözlü, uca boylu, geniş alınlı gəncin ötkəm danışığı düşüncələrə qərq olan komandirə təsir etdi. O, təmkinini pozmadan dilləndi:

– Silahımız olsa idi, yerimizdən tərpənməzdik. Ondan artıq tank, zirehli maşın yuxarıda ağzını bu tərəfə çevirib qurban istəyir. Batalyonumun yarıdan çoxu yoxdur.

Sənan bu haqlı etirazın qarşısında dillənə bilmədi. Komandir köhnə döyüş yoldaşları ilə birlikdə köməyə gələn Çəmənli camaatına təşəkkür etdi:

– Allah sizdən razı olsun, lap vaxtında yetdiniz. Bu qüvvə ilə, – o, əlini sağ qalmış döyüşçülərə uzatdı, – biz çox tab gətirə bilməzdik.

Sarıcalıya gələndən ilk ağır döyüş idi ki, şəhid verilmədi. Diləfruz ağır yaralıları arxaya göndərdikdən sonra yüngül zədə alanlara xidmət etmək üçün məktəbin bir otağını səliqəyə saldı.

– Bacı haqqınızı halal edin, – sözlərini eşidəndə geri çevrildi, komandir Qasımovu görüb təəccübləndi:

– Yoldaş komandir, sizi geri çağırdılarmı?

– Yox, – deyə Qasımov qısa cavab verdi, – özüm gedirəm, ba-

talyon haqqında məlumat verməliyəm. Həm də yeni yaranacaq batalyona peşəkar hərbçi lazımdır. Mən hərbçi deyiləm axı...

Diləfruz dillənmədi, amma ürəyində, hərbçi olmasalar da, canını qurban verən könüllülər üçün deyiləsi o qədər sözlər vardı ki...

* * *

Komandir gedəndən sonra bir səs Diləfruzu xəyaldan ayırdı:

– Bacı, indi nə edəcəksiniz? – Diləfruz qarşısında dayanan Kənanı görəndə yadına Maxış xala düşdü, gülümsündü, sualı sualla qarşıladı:

– Maxış xaladan nə xəbər var, Elşən haradadır?

– Elşən buradadır, anam da yaxşıdır. Kənan sualına cavab almaq üçün gözlərini ondan çəkməyəndə Diləfruz dilləndi:

– Ay Kənan, haraya gedəsiyik ki, elə burada qalacağıq.

Kənanın gözlərində sevinc parıltısı göründü:

– Yaşamağa dəyər, bacımız bizimlə olacaq!

– Kənan, batalyonu kim yaradıb?

– Düzünü desəm, elə hamımız.

– Bəs adını kim qoydu?

– Vallah, deyə bilmərəm, uşaqlardan kimsə dedi, hamı razılaşdı.

Diləfruz daha dinmədi. İki oğlunu döyüşə göndərən Maxış nənəni düşündü. Birdən dodaqlarında gülüş duyuldu, nənənin əkdiyi lobyaları ot əvəzinə necə yolduğunu xatırladı...

Çəmənlidə hamı ayaq üstdə idi: Diləfruzgilin və digər bölüklərin sağ qalan əsgərləri də qoşulandan sonra "Kötəl" batalyonu xeyli böyüdü. Batalyona iyirmi altı yaşlı gənc bir zabit – Abbas Məlikov komandir təyin edildi. Tezliklə Ağdamdan Qarağaclar kəndinə qədər böyük bir ərazidə postlar qurulanda Diləfruzun gözləri doldu. Uca boylu, ala gözlü, xoş simalı bu gəncə ürəyində dəfələrlə "əhsən" dedi...

Postların möhkəmləndirilməsi düşmənin qəzəbinə səbəb oldu. Onlar tez-tez postlara hücum etdilər, amma "kötəl"çilər hər

dəfə burunlarının üstündən vuraraq geri qaytaranda bir az da vəhşiləşdilər. Uzaqvuran toplardan istifadə edərək batalyona daha ciddi ziyan vurmağa çalışdılar.

Ən böyük təhlükə Qarağaclar tərəfdən idi. Oranı azad etmədən postları qorumaq mümkün deyildi. Kəşfiyyatın gətirdiyi xəbərə görə düşmənin əsas qüvvəsi, orada toplaşmışdı. Komandir əsgərlərin qarşısında çıxış edərək dedi:

– Əlverişli anda gözlənilmədən düşmənin başının üstünü alacağıq.

Gənc komandirin qətiyyəti bütün döyüşçülərin ürəyincə oldu. Qatı duman Çəmənlinin və Qarağacların üstünü alan gün səhər tezdən batalyon Qarağaclara tərəf hərəkət etmək əmrini aldı. Duman o qədər qatı idi ki, beş addım irəlidə gedən adamı tanımaq olmurdu, yalnız kölgəsindən hiss etmək mümkün idi ki, qarşıda kimsə var. Komandir sıraya düzülmüş əsgərlərin arasında Diləfruzu görəndə əvvəl yüngülcə gülümsündü, sonra siması ciddi ifadə aldı:

– Xanım, biz döyüşə gedirik, orada sizi qorumaq heç kimin yadına düşməyəcək. Siz arxada qalıb üzərinizə düşən vəzifəni icra edin.

Diləfruz onun sözlərindən alınsa da, dili dinc durmadı:

– Yoldaş komandir, haraya getdiyimi çox gözəl bilirəm və məni heç kim bu yoldan saxlaya bilməz.

Onun ötkəm danışığından komandir tutulanda kimsə arxadan dilləndi:

– Komandir, nahaq yerə özünüzü yormayın. Diləfruz bütün döyüşlərdə əsgərlərin arasında olub, yeri düşəndə yara bağlayıb, yeri düşəndə döyüşüb. O bizim qız qardaşımızdır.

Diləfruz qarşı tərəfə boylananda Kənanı gördü. Razılıqla başını tərpətdi. Komandir danışmağı yersiz sayıb piyadalara düzlənmək əmrini verdi. Maxış xalanın kiçik oğlu Kənan onlarla xudahafizləşib zirehli maşını işə saldı. Sonuncu dəfə başını kabinədən çıxarıb qardaşına əl elədi:

– Allaha ismarladıq, ehtiyatlı ol!

Elşən:

– Amin! Sən də ehtiyatlı ol, Kənan, anamız gözləyir, – deyərək düşmənin üstünə qırğı kimi şığıyan, çətinlikdən qorxmayan Qəcələnin – Yaşarın böyründə yerini tutdu. Zirehli maşın tərpənəndə içində bir səs hayqırdı:

– Hara tələsirsən? – Elşən ürəyinə daman şübhələrdən qurtarmağa çalışdı. Amma onun xəbəri yox idi ki, qardaşı da gecəyarı gördüyü yuxunun təsiri altındadır. Yuxudan partlayış səsinə oyandığını xatırlayanda Kənan maşının sürətini artırdı:

– Nə olacaqsa, qoy mənə olsun, təki Elşən salamat qalsın, – dedi.

Elşən dumana qarışan maşının arxasınca baxsa da, heç nə görmədi. Zirehli maşınlar yerindən tərpənən kimi piyadalar da hərəkət etdilər.

Qəcələ bayaqdan onunla yanaşı addımlayan Elşənin susmağına dözə bilmədi:

– Sənə nə olub? Üz-gözündən dərd yağır.

Elşən əlini yellədi:

– Heç...

– Qorxma, bu dumanda çətin ki, erməni başını kol dibindən çıxara.

– Təki elə olsun, – kəlməsi Elşənin ağzından çıxar-çıxmaz partlayış səsi səhərin bağrını yardı.

– Qəcələ, partlayan tank əleyhinə mina deyilmi?

Onun təlaşını anlayan Yaşar təsəlli üçün dedi:

– Bizimkilər hələ minalanmış sahəyə çatmazlar, çöldə qalan hansısa heyvan, yəqin ki, minanın qurbanı oldu.

Özünə nə qədər toxtaqlıq versə də, Elşənin ürəyi sakitləşmədi, addımlarını yeyinlətdi. Qəcələ onu səslədi:

– Tələsmə, birlikdə gedək, – atəş şaqqıltısı Yaşarın səsini batırdı. Hamı şumluqda yerə uzandı. Cavab atəşi eşitməyən ermənilər susdular. Batalyon yenidən şumluq boyunca kəndə sarı irəlilədi. Kəndə çatmağa az qalmış duman seyrəldi, ətraf əl içi kimi göründü. Marığa yatan düşmən hər tərəfdən atəş açmağa

başladı. Qəcələ Elşənə sarı dönərək:

– Məni qoru deyib, – beş-on addım sürətlə qaçıb yenidən yerə uzandı. O, əli ilə işarə verəndə Elşən sürünərək onun yanına gəldi:

– Yaşar, deyəsən, hamıdan irəlidə bizik.

– Yox, sol cinahda pulemyot səsini eşitmirsənmi? PK Rövşən yenə Bəxtiyarla qan eləyir. Ən çox atəşə tutulan da onlardır. Görünür, düşmənə qan qusdurublar, – o,- haydı, irəli! – deyib ayağa qalxdı, sürətlə qarşı tərəfə sıçradı, lakin elə bil birdən ayağı nəyəsə ilişdi, dizləri üstdə düşdü, əlindəki avtomatsa susmadı. Elşən sürünərək ona çatanda barmaqları ilə tətiyi möhkəm sıxan Yaşar son dəfə onun üzünə baxdı. Elşənə elə gəldi ki, bu baxışlarda bir sehr var, indicə nəsə bir möcüzə baş verəcək. Yaşarın başı sinəsinə əyiləndə Elşən hər şeyi – özünü belə unutdu, gözündən axan yaşı silmədən aramsız atəş açdı...

Diləfruz nə qədər təhlükəli olsa da, güllə yağışının altında hər çağırışa tələsdi. Kənanın minaya düşən zirehli maşınını da hamıdan əvvəl o gördü. Maşındakıların hamısı şəhid olmuşdu. Maxış xalanı yadına salanda o, dərindən köks ötürdü. Növbəti guppultu səsi onu düşüncələrdən ayırdı, Diləfruz döyüşçülərin arasına tələsdi.

Bir daldanacaq olmadığı üçün şumluqda uzanmaqdan başqa çarə yox idi. Arabir imkan tapan əsgərlər bir neçə addım yüyürüb yenidən yerə uzanmağa məcbur olurdular. Sol tərəfdə nə vaxt Rövşənin pulemyotu dillənsə, digər əsgərlər üçün irəliləmək imkanı daha asan olurdu. Pulemyotun güllə darağını əlində tutan Bəxtiyar Rövşəndən geri qalmamağa çalışır, vəzifəsini ustalıqla yerinə yetirirdi. Daraqdakı patronlar tükənmək üzrə idi. Bəxtiyar növbəti darağı qutudan çıxartmağa tələsdi. Pulemyotun ani susmasından istifadə edən düşmən ayaqlandı.

– Gəlin, hay köpəkləri, görək kim kimi ağladacaq, – deyib Rövşən pulemyotu işə saldı. Ermənilərin arasına yenidən çaxnaşma düşdü. Bəxtiyar fərəhlə:

– Bax belə qaçarsınız, – deyib bir qədər dikəldi, geri çəkilən

düşməni seyr etməyə çalışdı. Rövşən təlaşla:

– Nə edirsən, aşağı əyil, – deyə ona təpinəndə başından aldığı güllə yarasından Bəxtiyar arxası üstdə yıxıldı. Rövşən nə qədər səsləsə də, ondan cavab almadı. Neçə illik döyüş yoldaşını itirmək onu çox ağrıtdı. Kirpiklərində puçurlanan yaşı qolu ilə sildi, yerini rahatlayıb güllə darağını çiyninə atdı, ölümsaçan güllələr düşmən səngərinə tərəf uçduqca onun aşıb-daşan qəzəbi səngimək bilmədi. Güllə bitmək üzrə idi, Rövşən kədərlə Bəxtiyarı yada saldı, öz-özünə dedi:

– Eh, Bəxtiyar, haradasan? Sənə o qədər ehtiyacım var ki.

O, ayağa qalxıb atəş açmaq istəsə də, pulemyot susdu.

Daraq kəmərə ilişmişdi. Belə anlarda gecikmək ölümə bərabər idi. Pulemyotun susduğunu görən düşmən Rövşəni atəşə tutdu...

Diləfruz aldığı yaradan yerindəcə keçinən şəhidi yolun kənarındakı kolluğa sürüdü. Böyürtkən kollarının arasındakı kiçik talada şəhidin alınından aldığı yaranı sarıdı. Pulemyotu susan Rövşənə tərəf boylananda güllə darağının ilişdiyini gördü, kömək etmək üçün ona tərəf süründü. Kolluqdan təzəcə çıxmışdı ki, ucaboylu, enlikürəkli pulemyotçunun sinəsini tutaraq üzüqoylu yerə yıxıldığını gördü. Diləfruz Rövşənə çatıb onu arxası üstə çevirdi. Badamı gözləri qıyılan Rövşənin üzündə qəribə bir təbəssüm vardı. Diləfruz onun öldüyünə inanmadı:

– Sən bir gülləyə can verən oğul deyilsən, Rövşən, özünü toparla, qalx, – dedi, – bir az döz, yaranı sarıyıb bir iynə vuran kimi hər şey keçəcək, – o bütün gücünü toplayıb cəsədi kolluğa sürüdü, digər şəhidin böyründə uzadıb yaranı açdı. Güllə Rövşənin düz ürəyindən dəymişdi. Diləfruz bərkdən hönkürməmək üçün dodaqlarını dişlərinin arasında sıxdı. Bəxtiyarın cəsədini gətirmək üçün kolluqdan çıxdı. Atəş açaraq sürətlə irəliləyən düşmən PDM-ni görəndə özünü kolluğa atdı. Ölümsaçan gülələr ətrafa səpələndikcə Diləfruz da sonunun çatdığını düşündü. Motor uğultusu indi lap yaxından, kolluğun qarşı tərəfindən gəlirdi. O, ermənicə danışıqları aydınca eşidirdi. Ço-

vuyan güllələrdən qorunmaq üçün Diləfruz başını cəsədlərin altında gizlətdi. Danışıq səsləri lap yaxınlaşanda o, qumbaralardan birini əlində hazır tutdu:

– Erməniyə əsir düşüncə, heç olmasa, bir neçə hayı da cəhənnəmə vasil edərəm.

Bir azdan uğultu daha da artdı, Diləfruza elə gəldi ki, düşmən zirehli maşını düz böyürtkən kollarının üstünə sürür, bu dəqiqə hər şey məhv olacaq, şəhidlərlə bərabər onun da cismi torpağa qarışacaq. Tələsmədən kəlmeyi-şəhadətini dedi, qumbaranın başlığını əlində hazır tutdu. Zirehli maşın kolluğun bir metrliyində dayandı, bir neçə dəqiqədən sonra geri dönərək digər zirehli maşınların dalınca üzüyuxarı qalxdı. Diləfruz dərindən nəfəs alsa da, rahatlaşmadı. Bəxtiyarın cəsədini gətirmək üçün irəli süründü. Çəsədin yerində onun əynindən çıxarılan paltarlar var idi, meyiti isə zirehli maşının üstünə qoyub aparmışdılar. Diləfruz kor-peşman kolluğa qayıtdı. O, batalyonun geri çəkildiyini görsə də, gizləndiyi yerdən çıxa bilmədi. Axşamın düşməsini gözlədi...

Batalyonun sağ qalan əsgərləri yaralıları və şəhidləri döyüş meydanından çıxara bilsələr də, Bəxtiyardan, Diləfruzdan, Rövşəndən və batalyona Bakıdan qoşulan gəncdən xəbərsiz idilər. Hərə bir söz deyirdi:

– Bəlkə, əsir düşüblər?

– Sən nə danışırsan, Rövşən əsir düşər? Erməni heç onun ölüsünə yaxın gələ bilməz.

Qarabalanın sözünə qüvvət verən Cahid də söhbətə qoşuldu:

– Hələ Diləfruz! Özünü öldürər, amma erməniyə can verməz.

– Yüz fikir bir borcu ödəməz, qoy axşam düşsün, axtararıq hər tərəfi. Mən Rövşənin döyüşdüyü istiqaməti bilirəm, – deyərək Baxşeyiş söhbətə yekun vurdu...

Dəqiqələr bir-birini arxada qoyduqca Diləfruzun da səbri tükənirdi. Arabır kolluqdan sürünərək çıxır, lakin düşmən tanklarını və zirehli maşınları görən kimi geri qayıdırdı.

– Lənətə gələsiniz, gərək axşama qədər burada gözləyim, – o, öz-özünə deyindi, – amma nə olur-olsun, bunları ( o, əli ilə iki şəhidi göstərdi) burada qoyan deyiləm. Çox heyif, Bəxtiyarı götürə bilmədim, onların əlində qaldı.

Saat altıdan sonra gün aşağı enməyə başladı. Günün qürubunu seyr etməyi cəbhəyə gəldiyi gündən bəri yaddan çıxaran Diləfruz elə bil sehrli bir aləmə düşdü, dəyişən rəng çalarları onu qoynuna alaraq ötən çağlara qaytardı. Anasına əmanət etdiyi körpələri ilə Qarqar çayının şıltaq sularında ayaqlarını yudu, canına bir sərinlik hopdu. Elnurun körpə nəfəsi boyun-boğazını isitdi. Pərvanə əl barmaqlarından tutaraq:

– Ana, dur! Dur evimizə gedək, – dedi. Könülün həyəcandan patrlayan dodağında qan görünəndə o diksinib xəyallardan ayrıldı. Hava tam qaralmasa da, alatoran idi. Diləfruz nə vaxtsa qazılmış kiçik arxın içi ilə sürünərək batalyonun yerləşdiyi düşərgəyə çatmağa tələsdi...

İlk posta çatanda parolu dedi:

– Zirvə...

Onu səsindən tanıyan əsgər bir qədər irəli gəldi:

– Bacı, şükür olsun ki, sağsan. Hamı elə bilirdi ki, – sonra sözünü dəyişdi, – Bəxtiyarla, Rövşəndən xəbərin varmı?

Diləfruz başını tərpətdi, heç nə demədən düşərgəyə yollandı. Rövşənlə Bəxtiyarın vurulduğunu eşidən dostlarının üstünə elə bil su səpildi. Baxşeyiş yerindən qalxaraq:

– Mən Rövşəngilin arxasınca gedirəm, – deyib yola düzələndə Rəhman, Sadəddin və Vüqar onu təqib etdilər...

* * *

Leysan yağışı göz açmağa imkan vermirdi. Bir-birinin ardınca düzülən beş nəfərlik dəstə Çəmənlidən Qarağaclara tərəf hərəkət edirdi. Yağış nə qədər güclənsə də, əvvəldən müəyyən edilmiş cığırla hərəkət edən kəşfiyyatçılar minalanmış sahəni xətərsiz keçməyə çalışırdılar. Rəhman arabir geriyə baxır, hamıdan gənc Çingizin cidd-cəhdlə arxasınca gəldiyini görəndə

məmnun halda gülümsünür, heç nə demədən yenidən yoluna davam edirdi. Diləfruzla yanaşı addımlayan Sadəddin tez-tez ondan qabağa keçərək, elə bil ki, bacısına sipər olmağa çalışırdı. Rabitəçi Mehman lap arxada idi. Şıdırğı yağış birdən başladığı kimi qəfildən də kəsdi. Yerimək nə qədər çətin olsa da, dəstə yolundan qalmadı. Qarağaclar kəndinin girəcəyinə az qalmış Rəhman əlini qaldırdı:

– Düşməni buradan müşahidə edəcəyik. Hərə saxlana biləcəyi boyda səngər qazsın.

Bir-birindən beş metr aralı qazılan səngərləri gizlətmək üçün qarşı tərəfə qurumuş kol-kos, ot-ələf qoymaq da unudulmadı. Səhərin gözü açılar-açılmaz motor səsi eşidildi. Səngərdə arxası üstdə uzanmış Diləfruza elə gəldi ki, uğultu lap yaxındadır, bir azdan zirehli maşın səngərlərin üstündən keçəcək. Onunla yanaşı səngərdə yerini rahatlayan Sadəddinin:

– Diləfruz, soyuq deyil ki? – sualını eşidəndə bir qədər toxtadı:

– Yox, qardaş, üşümürəm, narahat olma.

Uzandığı yerdən azacıq dikələrək düşməni seyr edən Rəhman durbini gözündən çəkmədən pıçıldadı:

– Kəndə təzə texnika gətiriblər.

Cingiz sakitcə soruşdu:

– Nədən bildin?

– Bu tanklardan indiyə qədər burada istifadə olunmayıb.

– Çoxdurmu?

– Hələ ki üçünü görürəm, – o, bir qədər susduqdan sonra asta, lakin qəzəbli səslə sözünə davam etdi, – vay-vay, hələ bunların ağır artilleriyalarına bax, hamısının da ağzı Çəmənliyə yönəlib. Əgər onlar sıradan çıxmasa, vəziyyətimiz çox çətin olacaq.

Kəndin girəcəyindəki ikimərtəbəli evin həyətində düşmən əsgərləri qaynaşanda kəşfiyyatçılara bəlli oldu ki, Çəmənliyə irimiqyaslı hücum hazırlanır. Rabitəçi Mehman bütün məlumatları arxaya ötürüb koordinatları göstərdi:

– Hə, indi arxayın gözləyə bilərik. Yəqin ki, bir azdan bizimkilər əsas obyektlərə zərbə endirəcəklər, – o, sözünü təzəcə qurtarmışdı ki, əvvəlcə tükürpədici fışıltı eşidildi, sonra isə güclü partlayış qopdu: düşmən kəşfiyyatçıların danışığından xəbər tutmuşdu. Heç kim yerindən tərpənmədi. Təhlükə böyük idi, amma döyüşmədən bir qəlpənin qurbanı olmağı heç kim arzulamırdı. Diləfruz qardaşına tərəf səsləndi:

– Sadəddin, salamatsanmı?

– Hə, bacı, narahat olma.

Ən gənc döyüşçü Çingizin sığındığı səngərin daha çox hədəfə alındığını görən Rəhman ona ürək-dirək vermək üçün səsləndi:

– Əzizoğlu, möhkəm dayan, belə minalar bizim üçün boş gurultudan başqa bir şey deyil.

Çingizdən səs çıxmadığını görən Rəhman bir də səsləndi:

– Çingiz!

– Narahat olma, komandir, salamatam, amma bura çox təhlükəlidir.

– Yerindən tərpənmə, – xəbərdarlığını eşitsə də, Çingiz cəld bir sıçrayışla səngərdən çıxdı, yerini dəyişmək istərkən yaxınlıqda partlayan minanın güclü dalğası onu boynu üstdə yerə çırpdı. Rəhman onun yıxıldığını görüb başını tutdu:

– Sən nə elədin, Çingiz?

Diləfruz sürünərək özünü Çingizə çatdırdı:

– Gəldim, Çingiz, gəldim, – deyib onu yoxladı. Heç yerində yara yox idi, amma boynu üstdə düşdüyündən huşunu itirmişdi, nəbzi çox yavaş vururdu.

Rəhmanın:

– Döyüşə hazır olun! - komandası veriləndə Diləfruz bildi ki, düşmən piyadaları onları əsir almaq üçün irəliləyirlər. Elə bu vaxt havada qırıcı təyyarə göründü, ermənilər təlaş içində geri çəkilərək gizlənməyə çalışdılar. Verilmiş koordinatlar üzrə obyektlər bombalandıqca Qarağaclar cəhənnəmi xatırlatdı.

Qırıcı təyyarə uzaqlaşan kimi kəşfiyyatçılar səngərdən çıx-

dılar, Çəmənlidən gələn ilk bölüklər görünəndə onlar artıq Qarağaclar kəndində idilər. Kənd bomboş idi. Silahını hazır tutan Mehman təəccüblə soruşdu:

– Ayə, bunlar hara cəhənnəm oldular? Yəni hamısı qırıldı?

Çingizi ayıltmağa cəhd edən Diləfruz dilləndi:

– Niyə narahat olursan? Allah bilir, hansı dəlmə-deşiyə giriblər, bir azdan sədası çıxar, – o, cəhdinin heç bir səmərə vermədiyini görərək ayağa qalxdı, Rəhmana tərəf dönüb sözünü yekunlaşdırdı, – bunu təcili xəstəxanaya çatdırmaq lazımdır.

Üstü qırmızı kirəmitli ev gözünə sataşanda Diləfruz yoldaşlarından ayrıldı, xurma ağacının altındakı təzə torpaq qalağının yanından ehtiyatla keçdi, budağın ucundan sallanan sarı xurmaya əlini uzadanda şaqqıltı səsi eşidib cəld geri atıldı. Yoldaşlarının yanına çatar-çatmaz pulemyot ulartısını dəhşətli partlayış əvəz etdi. Kəşfiyyatçılar başlarını qaldıranda qırmızı kirəmitli evdən uçuq divarlar qalmışdı. Sadəddin üzünü bacısına tutdu:

– Anamız namaz üstdə imiş, yaxşı ki tez tərpəndin. Allah bilir, hələ neçə tələ var.

– Düzdür, qardaş. Xurma ağacının altında təzə torpaq qalağı var, məzara oxşayır. Bəlkə də, Bəxtiyarı orada basdırıblar.

– Hə, ağlabatandır, onu da öz yiyələrinə göndərərik. Sən Çingizin yanında qal, biz oranı yoxlayaq, – deyib Rəhman digər kəşfiyyatçılarla xurma ağacına sarı yönəldi. Mehman əlindəki beli torpağa sancmaq istəyəndə Sadəddinin:

– Dayan! – nidası hamını səksəndirdi, – Bir bura baxın, – deyib o, torpağın altından azacıq görünən rəngli məftili göstərdi.

– Əclaflar, Bəxtiyarı axtaracağımızı bildikləri üçün onun məzarını da minalayıblar, – deyib Rəhman ikrahla tüpürdü.

Zirehli maşının üstündə Qarağaclara gələn Baxşeyiş, Elsevər, Vüqar və Telman maşın dayanan kimi yerə atıldılar, çoxdanın həsrətlisi kimi bir-birini qucaqlayan da oldu.

Baxşeyiş üzünü göyə tutaraq:

– Sənin böyüklüyünə şükür, ilahi! Kim inanardı ki, mina

yağmurundan bunlar salamat qurtaracaqlar? Bəs Çingiz hanı?– deyib ətrafa boylananda ağacın altında yerə uzadılmış gənc kəşfiyyatçını gördü. Ona yaxınlaşıb yanında yerə çökdü, sual-edici nəzərlərlə Diləfruza baxdı. Ondan:

– Yarası yoxdur, amma başından ağır zərbə alıb, təcili xəstəxanaya aparmaq lazımdır, – cavabını eşidəndə üzünü Kənana tutdu:

– Naxçıvanlı balası, Çingiz sənə əmanət. Biz arxadan qüvvələr gələnə qədər sənsiz də duruş gətirərik, onu Ağdama çatdır.

Azərlə Yalçın Çingizi ehtiyatla yerdən qaldırıb maşının üstünə qoydular. Kənan maşına minməmiş Diləfruz xəbərdarlıq etdi:

– Maşını gəldiyin yolla sür, hər tərəf minalanıb.

Amma "naxçıvanlı balası" ifadəsi yağ kimi ürəyinə yayılan Kənan "Naxçıvan" mahnısını zümzümə etdiyi üçün, deyəsən, onun xəbərdarlığını eşitmədi. Maşını işə salıb bir qədər arxaya verəndə qulaqbatırıcı partlayış qopdu. Maşın zərbədən bir böyrü üstə qalxıb yenidən yerində mıxlansa da, partlayışın dalğası huşu başında olmayan Cingizi bir neçə metr uzağa tulladı... Gülablı tərəfdən düşmən tankları görünəndə digər bölüklərlə birlikdə Qarağaclardakı bölüyə köməyə gələn batalyon komandiri Abbas Məlikov əsgərləri xilas etmək üçün siyasi rəhbər Kərimə göstəriş verdi:

– Təcili geri çəkilin!

– Yoldaş komandir, niyə?

– Gülablı tərəfdən düşmən tankları Qarağaclara yaxınlaşır.

– Bəs yaralılar?

– Birtəhər yol tapın, tez olun. Sizin oradan çıxmağınıza biz yardım edəçəyik.

Siyasi rəhbər döyüşçülərin üzünə baxdı. Vəziyyəti hamı yaxşı başa düşürdü. Yaralıları çıxartmaq məsələsi isə çox çətin idi. Yalnız Cəsarət ermənilərdən qalan piyadaların zirehli maşınını işə salıb gətirəndə hamı rahat nəfəs aldı. Qıçından qəlpə yarası alan Elşən Əyyuboğlu maşına minmək istəmədi:

– Mən də sizinlə qalacağam, – dedi. Siyasi rəhbərin siması

daha da ciddiləşdi:

– Bu, əmrdir.

Yaralılar zirehli maşına mindiriləndən sonra hamı partlayış zamanı dizdən aşağı bir ayağını itirmiş naxçıvanlı balasına – Kənana baxdı. O, hələ də ayılmamışdı. Yaradan axan qanı kəsmək üçün Diləfruz əlindən gələni edirdi.

Rabitə telefonundan komandirin növbəti çağırışı eşidiləndə siyasi rəhbər soruşdu:

– Yaranı bağlamaq çoxmu çəkər?

– Bir az çəkəcək, – Diləfruz astadan cavab verdi.

– Onda yubanmayın, siz yola düşün, – siyasi rəhbər maşındakılara göstəriş verdi, sonra Cəsarətə tapşırdı, – haradan keçəcəyini gözəl bilirsən, çalış, minalanmış sahəyə yaxınlaşma.

Zirehli maşın gözdən itəndə Diləfruz Kənanın qıçını sarıyırdı. O, işini bitirən kimi Baxşeyiş irəli gəldi, əyilib yaralını bir göz qırpımında çiyninə aldı:

– Ya Allah! – deyib yola düşdü. Digər döyşçülər də sıraya düzüldülər. Qarağaclardan təzəcə aralanmışdılar ki, tanklardan atılan mərmilər şumluqda iri oyuqlar açdı. Əsgərlər yerə sərildilər. Atəş ara verən kimi hamı yerindən qalxıb sürətlə Çəmənliyə tərəf yürüdü. Növbəti partlayış zamanı Diləfruza elə gəldi ki, üzünə kimsə su çilədi, yanaqlarına çilənən su əllərini boyayanda dəhşətə gəldi, ondan bir xeyli aralı hərəkət edən Azər yerlə bir olmuşdu, yanaqlarını yuyan da onun qanı idi. Qarşı tərəfin susması Vüqarı çox darıxdırdı. O, Kənanı kürəyinə alanda təəccüblə Baxşeyişdən soruşdu:

– Bizimkilər niyə susurlar?

Baxşeyiş təmkinlə dedi:

– Narahat olma, hər şeyin vaxtı var. Şamill Maykl indi qurğuları nizamlayırlar. Koordinatları müəyyənləşdirən kimi tanklar dayanacaq.

Doğrudan da, bir azdan minaatanlar işə düşdü. İlk həmlədə iki tankı vurulan düşmən hücumu dayandırdı və minaatanlara hədəf olmamaq üçün sürətlə Qarağaclara tərəf çəkildi...

* * *

Ağdamın işğal edilməsi xəbəri bütün döyüşçüləri sarsıtdı.

Hamı kimi Diləfruz da deyilənlərə inanmadı. Gözlərini yuman kimi xoş günlərinin yadigarı gözəl xiyabanlar, yanından keçəndə qəribə hisslər keçirdiyi bənzərsiz qədim tikililər, körpələrini böyütdüyü ikiotaqlı mənzili xəyalında canlandı. Doğma şəhərində ermənilərin meydan sulaması qüruruna toxundu. Hərdən bütün qəhərini havaya püskürərək:

– Yox, bu, yalandır! Ağdamda erməni gəzə bilməz! – deyə qışqırmaq istəsə də, bacarmadı. Sinəsindən qopan ah bir alova çevrilib köksünü qarsadı, gözlərindən axan yaş yanaqlarını yandırdı, amma nə qədər acı olsa da, özünə təsəlli verməyi bacardı, – görünür, qismətimizdə bu da varmış.

Gecələr yuxusu ərşə çəkilən Diləfruz da digər döyüşçülər kimi özünə sığmadı, çox çək-çevir etdi, çıxış yolunun birlikdən keçdiyinə bir daha əmin oldu...

* * *

Avqust səhərlərindən birində qəfil xəbər bütün Çəmənlini silkələdi: ermənilər gecə yarısı Sumqayıt batalyonunun postuna hücum edərək on iki əsgərin başını kəsiblər. Əksəriyyəti təcrübəli yerli döyüşçülərdən ibarət olan "kötəl"çilər yumruqlarını düyünlədilər. Komandir:

– Qana qan, qisasa qisas! – deyəndə düyünlənmiş yumruqlar eyni anda yuxarı qalxdı:

– Qana qan, qisasa qisas!

Aradan bir neçə gün keçdi. Ağdamın işğalını bayram edən düşmənə ağır zərbə vurmaq üçün batalyon dan yeri sökülməmiş Qarağaclara tərəf hərəkət etdi.

– Qızım, dayan! – çağırışı Diləfruzu ayaq saxlamağa məcbur etdi. O:

– Ay Qənirə mama, niyə bu qədər ertə durufsan? – deyə qayğı ilə bibisinin halına yandı.

– Ay bala, siz döyüşə gedəndə mən yata bilərəmmi? Sadəd-

din hardadır?

– İrəlidədir. Get, bizdən ötrü narahat olma, – Diləfruz üzündən öpüb ayrılmaq istəyəndə qadın onun qolundan yapışdı:

– Hələ bir dayan, – deyib içi dolu boşqabı uzatdı, – cibinin ağzını aç.

Diləfruz cibinə tökülənlərdən bildi ki, yenə evində saxladığı çərəzlər bibisinin boğazından keçməyib, payını qardaşı qızına saxlayıb.

Erməni postlarına yaxınlaşdıqca içkinin təsirindən ağzına gələni danışan ermənilərin səsi aydın eşidilirdi. Onlar bir-biri ilə zarafatlaşır, arabir azərbaycanlıların ünvanına çoxmərtəbəli söyüşlər yağdırmağı da unutmurdular. İri dombalan gözləri hədəqəsindən çıxan bir erməni əlindəki şərab butulkasını başına çəkib bir tərəfə tulladı və sinəsini irəli verib pozuq Azərbaycan dilində fəxrlə:

– Ara, mən onların ana-bacılarını ağlar – deyəndə ağzı qanla doldu. Digər sərxoş erməni əvvəlcə buna təəccübləndi, lakin Azərbaycan əsgərlərini görəndə əlini silaha atmaq çox gec idi. Nərimanın açdığı ikinci atəş onu da yerə sərdi. Bütün kənd boyu erməni postları bir-bir ələ keçirildi. Qəfil hücumda eşidilən düşmən bağırtılarının, yalvarışlarının indi heç kim üçün bir əhəmiyyəti yox idi. Bütün döyüşçülər yalnız bunu fikirləşirdilər:

– Humanistlik bitdi. Bu gün sağ qoyduğun erməni sabah sənin körpələrinə, anana, bacına qıyacaq.

Döyüş xətti boyunca səpələnən düşmən cəsədlərinin sayı bəlli deyildi. Qarağaclar, demək olar ki, təmizlənmişdi. Batalyon komandiri fəxrlə əsgərlərini süzdü:

– Bax belə, uşaqlar. Düşmənə yaxşı dərs verdik. Sayıqlığı əldən vermək olmaz. Pulemyotçular, – o, üzünü bölmə komandirinə tutdu, – siz Ağdam tərəfdən gələn qüvvələrin qarşısında dayanacaqsınız. Arxada yerləşən minaatanlar rotası düşmən texnikasını zərərsizləşdirməklə bizə yardım edəcəklər. Qumbaraatanlar, siz Gülablı istiqamətini nəzarətə götürün. Haydı, ha-

mı yerini tutsun!

Səngər boyu yerləşən əsgərləri nəzərdən keçirən komandir düşmən səngərinə çox yaxın məsafədə silahını sazlayan Diləfruzu görəndə üzünü Qarabala ilə Rzayev Akifə tutdu:

– Buralar sizə əmanətdir. Bir-birinizə arxa olun.

On səkkiz yaşlı bu qaraşın oğlanın – Qarabalanın gülümsər çöhrəsi birdən-birə ciddiləşdi:

– Narahat olmayın, yoldaş Məlikov. Buraları gözümüz kimi qoruyacağıq.

Komandir də gülümsündü. O gedəndən sonra Qarabala mərmini qumbaraatana yerləşdirib Diləfruza sarı baxdı:

– Bacı, sənin yerin çox təhlükəlidir, düşmən istənilən an səni görə bilər, yerindən qalxma. Axı sən hamımıza gərəksən.

– Ay Qarabala, qorxan gözə çöp düşər, nədən qorxajam ki. Belə səngərlərdən o qədər görmüşəm ki, – deyə-deyə Diləfruz buşlatının çiyinlərini iki möhkəm çubuğun ucunda səngərdən xeyli yuxarı qaldırdı. Düşmən tərəfdən atılan mərmi bir anda paltarı çubuqla bərabər onun əlindən alıb xeyli uzağa apardı. Partlayış qopan kimi buşlatın tikələri parça-parça yerə töküldü...

Döyüş yenidən qızışdı. Hələ də atəşin təsirindən qurtara bilməyən Diləfruz sağ qaldığına inanmadı. Yuxarıdan gələn tankı görəndə o, üzünü Akiflə Qarabalaya tutdu:

– Ayaz, Akif, nə edəcəyik? Tank düz üstümüzə gəlir.

Ayaz dillənmədi. Birdən nə düşündüsə, Diləfruzdan soruşdu:

– Bacı, saqqızın var?

– Ayə, allah evini tiksin, saqqız hayıdı? Deyirəm ki, tank üstümüzə gəlir, bir şey fikirləş, – o deyinsə də, əlini cibinə saldı. Bibisinin verdiyi çərəzlərin arasından əlinə keçən saqqızı ona tərəf tulladı:

– Al, bu da sənin üçün saqqız!

Qarabala tələsmədən saqqızın kağızını soydu, ağzına atıb ləzzətlə çeynəyə-çeynəyə dizi üstə çökdü. Diləfruza elə gəldi

ki, Ayaz atəş açmaqdan çəkinir. O, ağzını doldurub nəsə demək istəyirdi ki, tətik çəkildi. Mərmi düşmən tankının lüləsindən içəri keçən kimi dəhşətli partlayış qopdu. Tankın arxasınca gələn qara geyimli piyadaların çığır-bağırı kəsilməmiş Qarabala ikinci mərmini fırlatdı. Sağ qalan düşmənlər də, deyəsən, əl çəkmək fikrində deyildilər. Onlar yerə yatıb irəli sürünməyə başladılar.

– Bacı, – Qarabala Diləfruzu səslədi, – bu gün, deyəsən, mənim günümdür – həyatımda yeni səhifə açılacaq, bunu al, avtomatını mənə ver.

O, yeni mərmini qumbaraatana qoyub Diləfruza verdi:

– Görsən ki, düşmən yaxınlaşır, tətiyi çək, qorxma, Akif, sən də sol tərəfi gözlə, – o, avtomatı üzünə qaldırdı. Sürünərək onlara yaxınlaşmaq istəyən düşmənləri sərrast atəşlə bir-bir dənlədi. Diləfruz on yeddinci erməni vurulanda fəxrlə Ayaza baxdı:

– Sən əsl qəhrəmansan, Qarabala, – deyərək gözünə dolan sevinc yaşlarını sildi...

Cahid sürünərək onların yanına çatanda döyüş meydanında nisbi sakitlik vardı.

Diləfruzun:

– Gəldiyin tərəflərdə yaralımız yoxdur ki? – sualına Cahid gülümsünərək cavab verdi:

– Şükür, salamatlıqdır. Erməni göz aça bildimi ki, silaha əl atsın? Onlara qan qusdurduq. Qarabaladan isə hamı danışacaq,– o, fəxrlə Ayazın çiynini qucaqladı, – səni böyüdən ananın qarşısında baş əyirəm...

Batalyon komandiri cəbhə boyu əsgərləri yoxlayır, yüksək döyüş ruhunu gördükcə arabir bəzi əsgərlərə təşəkkür etməyi də unutmurdu. İndi onu daha çox narahat edən azad edilən mövqelərin qorunması idi. Hərbi texnikanın yoxluğu bütün zəhməti bada verə bilərdi. Günortaya yaxın komandirin təxmini özünü doğrultdu: Ağdam istiqamətindən ilk düşmən tankları görünəndə Gülablı tərəfdən də zirehli texnika Qarağaclara tərəf

hərəkət etdi. Durbinlə tankların hərəkətini izləyən batalyon komandiri minaatanlara göstəriş verdi:

– Döyüşə hazır olun! Koordinatları düzgün müəyyənləşdirin. Düşməni atəş məsafəsinə qədər irəli buraxın!

Minaatanlar qurğuları hazır vəziyyətə gətirdilər. Əsgərlər səngər boyu silahları qarşı tərəfə yönəltdilər. Cahid tibb çantasını çiyninə aşıraraq ayağa qalxdı:

– Akif, Fuad, biz digər əsgərlərin yanına keçək.

– Özünüzü gözləyin, bizim işimiz hələ çox olacaq, – deyə Diləfruz köməkçilərinə xəbərdarlıq elədi. Çiyninə aşırdığı tibb çantasının qayışını tutan əlini sinəsinə qoyan Cahid yüngülcə təzim edib:

– Baş üstdə, bacı, – deyəndə sağ əlinin üstü qana bələndi. O, astaca yerə çökdü.

Diləfruz cəld onun yarasını yoxladı. Snayper gülləsi Cahidin əlinin sümüklərini xıncım-xıncım etsə də, ürəyinə yol tapa bilməmiş, giliz sinə sümüyünə ilişmişdi. O, Cahidə təsəlli verdi:

– Qorxma, yaran dərin deyil, yaşayacaqsan.

Diləfruz yardım göstərən kimi Akiflə Fuad yaralını təhlükəsiz yerə apardılar. Bayaqdan lal-dinməz dayanan Qarabala dilə gəldi:

– Deyəsən, düşmən intiqam həvəsindədir. Qoy gəlsinlər, mənim dostum da, – o, qumbaraatanı çiyninə qaldırdı, – onlar üçün təzə süfrə açıb.

Onun öz-özünə danışdığını eşidəndə Diləfruzun dodaqları qaçdı, lakin cavab verməyə cəhd eləmədi. İlk mərmilər atılanda yer lərzəyə gəldi. Qəlpələr səngərin üstündən ötərək xeyli uzaqda yerə sancıldı. Batalyon komandiri minaatanlara ilk atəş əmrini verdi. Lakin tanklar manevr edərək atəş nöqtəsindən yayındı. Abbas Məlikov o dəqiqə başa düşdü ki, tankdakılar ruslardır. O, dişlərini qıcadı:

– Hər kim olsanız da, geri çəkilməyəcəyik.

Növbəti atəş hədəfə dəydi. Düşmənin iki tankı yerində fırlanaraq alovlandı. Lakin iki tank itirsə də, düşmən hücumu da-

yandırmadı. Vurulan tankları yeniləri əvəz etdi. Tanklardan xeyli aralı hücum edən düşmən piyadalarının sayı bəlli deyildi. Elə bu vaxt rabitə qovşağında Baş qərargah rəisinin amiranə səsi eşidildi:

– Düşmən böyük qüvvə ilə hücuma keçib, sayınız da, sursatınız da azdır. Əsgərləri qırğına vermə, təcili əvvəlki mövqelərə çəkilin!

Batalyon komandiri etiraz etmək istəsə də, rabitə kəsildi. Tanklar isə getdikcə yaxınlaşırdı...

Səngərdəkilər geri çəkilmək əmrini təəccüblə qarşıladılar.

– Niyə? – sualı cavabsız qalanda hamı başa düşdü ki, arxadan kömək gəlməyəcək, geri çəkilməkdən başqa, yol yoxdur. Döyüşçülər boşalan səngərlərə ürək ağrısı ilə vida edib geri çəkildilər.

Çantası ağır olsa da, Diləfruz onlardan geri qalmır, düşmənə atəş açmağı da unutmurdu. Tank mərmiləri nə qədər aralı düşsə də, ətrafa yayılan qəlpələrdən zərər çəkənlər az deyildi. Bir qədər irəlidə üzüqoylu yıxılan qıvrımsaç döyüşçünü görəndə Diləfruz ona doğru addımladı. Əsgər hərəkətsiz idi. Başından aldığı qəlpə yarasından yerindəcə həlak olmuşdu. O, yaxınlıqda irəliləyən Fuada cəsədi götürməyi tapşırıb digər yaralılara tərəf yollandı. Yaxın məsafədə mərminin parçaladığı iki cəsədi görəndə Diləfruzun nitqi qurudu, gözlərinin qarşısında Zülfüqar canlandı. Birdən-birə qeyzləndi, nə atəş yağmuru, nə də ölüm qorxusu yadına düşdü, parçalanmış cəsədlərin qalıqlarını çantasında saxladığı nazik sellofan kisələrə yığdı...

İlk posta çatanda Diləfruz yan-yana düzülmüş üzü örtülü on iki şəhidi ürək ağrısı ilə seyr etdi. Bir saat əvvəl qələbə sevincini yaşayan igidlərin sakit “yatış”ına baxa bilmədi, hönkürtüsünü zorla boğub yaralıların yanına getdi. Yarası ağır olanları arxaya köçürmək üçün maşın da yox idi. Yaxınlıqdakı lafetə gözü sataşanda o, çıxış yolu tapdığına sevindi. Yaralılar lafetə daşındı. Diləfruz yaralılarla bərabər yola düşdü. Kəndin girəcəyindəki təpədə əli qoynunda dayanan bibisini görəndə cəld la-

fetdən endi:

– Qənirə mama, burada niyə durufsan? – deyə təəccüblə soruşdu.

Qənirə doluxsundu:

– Ay bala, siz döyüşdə olanda evə nejə girim?

Diləfruz bibisinin yaşlı gözlərindən öpdü:

– Qorxma, mama, görürsən ki, salamatam. Evə get, dincəl. Bir də belə açıq yerlərdə dayanma.

– Niyə?

– Nejə yəni niyə? Müharibədi. Allah eləməmiş, birdən...

Qənirə onun sözünü kəsdi:

– Biz sizsiz nəyə gərəyik, qızım? – deyib Diləfruzun boynuna sarıldı...

Yaralılarla dolu lafet kəndin mərkəzinə çatanda camaat köməyə tələsdi. Təcili yardım və xüsusi maşınlarla yaralıları hərbi hospitala apardılar. İşini bitirən Diləfruz geri dönəndə hava çoxdan qaralmışdı...

* * *

Döyüşçülərin heç biri Qarağaclar məğlubiyyətini qəbul edə bilmirdi. Döyüş başlayandan Əlağalı kəndinin yolunu unudan Telman əlindəki siqaretə son qullabı vurub kötüyünü kənara atdı. İkincisini qutudan çıxarmaq istəyəndə Saleh dözə bilməyib dilləndi:

– Yüz fikir bir borcu ödəmir, qardaş, canına yazığın gəlsin.

Bu sözdən Telman lap götürüldü, əlini dizinə çırpıb hövsələsiz halda ayağa qalxdı:

– Nə can, canmı qalıb? Yurdumda erməni dığası bayram edir, torpağım tapdaq altda. O torpağa dəyən hər tapdaq bax mənim bu sinəmi parçalayır, – o, sinəsini döyəclədi.

Nurələm başını tərpətdi:

– Düz deyirsən, qardaş, əvvəl malımızı yedilər, sonra canımıza qəsd etdilər, indi də torpağımızı alırlar. Nə səsimizi eşidən var, nə də haqqı görən.

– Haqqı kimdən gözləyirsən? Ruslardan? – deyərək Məhəm-

məd söhbətə qarışanda Nadir qəzəb qarışıq istehza ilə güldü:

– Evimizi yıxan elə ruslar deyilmi? Ermənidə o hünər varmı ki, hələ Azərbaycanı demirəm, təkcə ağdamlıların qarşısına çıxsın?

– Qardaş, mənə qəribə gələn bilirsən, nədir? – çox danışmağı sevməyən Mikayıl üzünü dövrə vurub dərdlərini bölüşən dostlarına tutdu, – hücum edirik, erməninin anasını ağladırıq, amma ya gözlədiyimiz kömək gəlmir, uduzuruq, ya da geri çəkilmək əmri verilir, dirigözlü bu dünyamız da yanır, o dünyamız da. Elə bil bizimlə kimlərsə gizlənqaç oynayır.

Onun sözlərini eşidən Səxavət qaşqabağını sallayıb eyhamla dedi:

– Biz əsgərik, əmrə tabeyik, borcumuz yerinə yetirməkdir.

– Ayə, allahsız, əsgərik deyə düşünməməliyik, səsimizi udmalıyıq? – səsini qaldıran Elçinin sözlərinə Bayramla Məhəmməd şərik çıxanda Soltan Əlioğlu söhbətə qarışdı:

– Düzdür, biz robot deyilik, düşünmək qabiliyyətimiz yetərincədir, amma Səxavət də haqlıdır: əsgər əmrə tabedir. O məsələlər bizlik deyil.

– Bəs qapısına şəhid gedən analara cavab vermək nə üçün bizlik olur? – sualı səslənəndə hamı geriyə boylandı. Bayaqdan əsgərlərin danışığına qulaq asan Diləfruz bir qədər irəli gəldi:

– Bu sualın cavabını bizə geri çəkilməyi lazım bilən hansı rəhbər verə bilər?

Söhbətin qızğın yerində komandirin yaxınlaşdığını görən döyüşçülər ayağa qalxdılar. Abbas Məlikov onları salamlayıb bir qədər susdu. Onu yaxşı tanıyan əsgərlər bildilər ki, komandir buraya elə-belə gəlməyib, nə isə ciddi bir məsələ var. Əsgərlərini intizarda saxlamağı xoşlamayan Məlikov sözə başladı:

– Laçınlı Nadirin batalyonu bizdən kömək istəyir. Erməni-rus birləşmələri necə olursa-olsun, Ağdam yolunun üstündəki Cəvahirli, Göytəpə, Şotlanlı və Nəmirli kəndlərini ələ keçirməyə çalışır. Düzdür, bizim özümüzə də kömək lazımdır, amma

dost çağırışına getmək borcumuzdur. Cəvahirlini qorumaq bizim öhdəmizə düşüb. Kim getməyə hazırdır?

Silah tutan yüzlərlə əl yuxarı qalxdı.

Ertəsi gün əksəriyyəti vaxtilə "Xaçınstroy" batalyonunda döyüşən igidlərdən ibarət dəstə Cəvahirliyə yollandı. Ağdama gedən yolun sağ tərəfində yerləşən bu kənd əsl yaşıllıqlar diyarı idi: payızın nəfəsi dəyməyən kənd uzaqdan baxanda böyük bir meşəni xatırladırdı. Üstü kirəmitli kürsülü evlər, ikimərtəbəli binalar bu meşənin içində itib-batmışdı. Kəndarası yollar boyunbağı kimi kəndin boynuna dolanmışdı. Yolların kənarında bitən böyürtkən kollarının ala-göy salxımları iriləşən gilələrin ağırlığından boynunu yana əymişdi. Üstü barla dolu meyvə ağacları kimsəsiz həyətlərin sakinləri kimi səf çəkib dursa da, qapısına kilid vurulmuş içi dolu evlər doğma hənirin, sığalın həsrətini çəkirdi.

İlk dəstələr kəndə daxil oldu. Adını eşidən Diləfruz ayaq saxlayıb tanış səsin sahibini axtardı. Bir dəstə əsgərdən aralanıb ona sarı gələn Sədrəddini görəndə duruxdu, çaşqınlıqdan dili topuq vurdu:

– Ayy Sədrəddin, sən də buradasan?

– Hə, Nadirin batalyonunda döyüşürəm.

Diləfruz dərindən köks ötürdü:

– Xalamgil necədir? Xəbərin varmı?

Nadir asta-asta başını tərpətdi:

– Necə olacaqlar ki? Evdən-eşikdən didərgin düşüb çadırlarda yaşayırlar. Günləri necə keçir, bilmirəm ki...

– Elə hamımız o gündəyik, Sədrəddin. Özünü gözlə, – deyərək Diləfruz onunla xudahafizləşdi, yoldaşlarına çatmağa çalışdı.

Kəndarası yollarla Ağdam istiqamətində irəliləyən əsgərlər postlarda qərar tutdular. Kəmərvarı müdafiənin təşkili başa çatdı. Kəndin ayağında qurulan yarımstansiyanın yanında qumbaraatanlar yerləşdilər. Günəş qüruba ensə də, qarşı tərəf buradan daha aydın görünürdü. Murad irəlini bir xeyli müşahidə etdikdən sonra üzünü zarafatla "yoldaş Nərimanov" deyə müraciət

etdiyi Nərimana tutdu:

– Yerimiz pis deyil, düşmən tanklarını zərərsizləşdirə bilərik, amma silahımız azdır. İki qumbaraatanla burada çox duruş gətirmək çətindir. Həm də...

– Həm də nə?

– Deyirəm ki, gələn tank olsa, nə vardı ki? PDM-lərlə işimiz bir az zor olacaq.

– Allah kərimdir. Qismətdən qaçmaq olmaz. Bir az nikbin ol.

– Mən hər şeyə hazıram, Nəriman! – Murad bu dəfə nədənsə “yoldaş Nərimanov” ifadəsini işlətmədi. Gözləri yol çəkdi.

– Nə düşünürsən? – Nəriman gülümsünərək soruşdu.

– Şəhid anaları gözümün önündən getmir. Şəhid apardığımız hər evdə ana fəryadını eşidəndə sağ qaldığım üçün həmişə xəcalət çəkmişəm.

– Nahaq elə düşünürsən. Ömrü şərəflə başa vurmaq hamıya qismət olmur.

– Doğrudur, hamımızın təsəllisi də elə budur.

– Yəqin ki, sabah, bəlkə də, elə bu gecə çox ağır döyüşümüz olacaq, dincəlmək lazımdır, – Nəriman kürəyini oturduğu yerdəcə çinar ağacının iri gövdəsinə dayayıb gözlərini yumdu.

* * *

Dan yeri qızaranda sərin meh Cəvahirli kəndinə sığal çəkdi. Qımıldanan yarpaqlar bir-birinə dəydikcə qəribə bir musiqi ahəngi yarandı. Səssizliyi pozan bu pıçıltılı musiqidə nə sehr vardısa, Nəriman da, Murad da bu sehrə daldılar. Onlardan bir az aralı avtomatını sinəsinə basan Təşəkkül, gözlərini səmadan ayırmayan Cəsarət, siyasi rəhbər Kərim və Soltan da bu sehrdən çıxmağa bacarmadılar. Bir azdan müharibədən xəbərsiz quşların nəğməsi eşidildi. İlk cəh-cəhə yüzlərlə quş cavab verdi. Haradansa gecikmiş xoruz banı eşidiləndə Murad acı-acı gülümsündü, öz-özünə pıçıldadı:

– Sahibsiz kəndin danı da gec sökülür.

– Sənə nə olub? Axşamdan bəri səni tanıya bilmirəm.

– Hə, heç özüm də özümü tanıya bilmirəm nədənsə, yoldaş Nərimanov, – deyərək Murad dərindən nəfəs aldı, böyründən asdığı qumqumanın ağzını açıb bir-iki qurtum su içdi, sonra qabı Nərimana uzatdı:

– Sən də iç, ürəyin sərinləsin.

Nəriman bir söz demədən qabı dodaqlarına dayadı, içəndən sonra zarafatla dedi:

– Ayə, sən nə çox bilirsən? Doğrudan, ürək sakitləşdirəndir.

Su qabı əldən-ələ gəzdi, son qurtumlar Soltana qismət oldu. Komandirin səsi eşidiləndə əsgərlər ayağa qalxdılar. Hamı ilə salamlaşdıqdan sonra Məlikov:

– Ayıq olun, – deyib digər postlara tərəf üz tutdu.

Günün ilk şəfəqləri hər tərəfi nura boyayanda bayaqdan səs-səsə verən quşların səsi birdən-birə kəsildi.

Murad heyrətlə soruşdu:

– Qəribədir, quşlar nə üçün birdən susdular?

– Görünür, nəsə duyublar.

– Ay Nəriman, quşlar nə duyacaqlar ki?

– Nə bilim, elə sözgəlişi dedim də.

Murad gözlərini qıyıb diqqətlə göz işlədikcə uzanan yola baxdı. Silahını sazlayan Nərimanın qolundan dartaraq irəlini göstərdi:

– Ora bax!

– Nə var ki? – Nəriman onun göstərdiyi səmtə baxdı, sonra astadan dedi, – demək, gəlirlər. Yaxşı ki, çox deyil, cəmi iki tank, iki PDM-dir. Öhdəsindən gələrik.

Tanklar yaxınlaşdıqca həyəcanlı dəqiqələrin sayı çoxaldı. Nəriman yaxınlaşan texnikadan gözünü çəkmədi. Motor uğultusu indi daha aydın eşidilirdi.

– Yoldaş Nərimanov, unutmayaq ki, birinci post bizimkidir. Hazır ol! – Murad qumbaraatanı çiyninə qaldırdı, – lap qabaqda gələn tank mənim, – deyib nişan aldı, bir az da yaxınlaşmasını gözlədi və tətiyi çəkdi. Tank dövrə vuraraq ağzını əks isti-

qamətə çevirəndə Nərimanin atdığı mərmi PDM-i alova bürüdü. Bir qədər kənarda üzüqoylu uzanıb zirehli texnikanı seyr edən Soltan ayağa qalxaraq sevinclə səsləndi:

– Ay qadanızı alım, sizə...

Yaxınlıqda partlayan tank mərmisi onun səsini batırdı. Kimsə qışqırdı:

– Soltan, əyil!

Cavab gəlməyəndə Cəsarət ona tərəf qaçdı. Üzüqoylu yıxılan gənci arxası üstə çevirdi. Soltanın üz-gözü qan içində idi: başından aldığı qəlpə yarasından yerindəcə keçinmişdi. Onun ölümünə inanmayan Cəsarət var gücü ilə Diləfruzu səslədi:

– Bacı, bacı!

Köməkçiləri Fuad və Akiflə yardıma tələsən Diləfruz:

– Vətən sağ olsun! – deyəndə Cəsarət eşitdiyinə inanmadı, asta-asta cəsədin yanında yerə çökdü...

Dalbadal atılan mərmilər birinci postun ətrafında partladıqca qəlpə yarası alanların da sayı artdı. Diləfruz qan içində çabalayan Qubadın yarasını bağlayaraq ümidverici səslə dedi:

– Yaşayacaqsan, Qubad, hələ balalarının toyunda oynayacaqsan da.

Ağrıdan rəngi avazısa da, Qubadın üzündə təbəssüm göründü, zəif səslə dilləndi:

– İnşallah, bacı!

Birdən-birə artan zirehli texnika Muradı təəccübləndirdi. O, Nərimana baxdı:

– Bu kafirlər haradan çıxdılar? – deyib tanklardan birini də vurdu. Nərimanın da atəşi boşa getmədi. Atəş nöqtəsini bələdləyən tanklardan bir neçəsi hədəfi nişan alıb stansiyaya tərəf yönələndə Mikayıl əlində hazır tutduğu qumbaranı tankların arxasınca gələn piyadalara tərəf tulladı. Buna bənd imiş kimi tanklardan biri qəfildən istiqaməti dəyişdi, avtomatdan atəş açan əsgərlərimizə tərəf irəlilədi. Yerini dəyişməyə macalı olmayan üç əsgər tankın tırtılları altında can verdi. Gördüyü mənzərədən dəhşətə gələn Muradın növbəti hədəfi üç əsgəri

torpağa qarışdıran tank oldu. O, növbəti mərmini qumbaraatana yerləşdirəndə Nərimanın qışqırığını eşitdi:

– Murad!!!

Murad səsə çevriləndə arxadan gələn tank lap yaxınlıqda idi. O nə tətiyi çəkməyə vaxt tapdı, nə də tankın qabağından qaça bildi. Qanı torpağı suvaran dostunun ölümünü qəbul etməyən Nəriman silahını qatil tanka tuşladı. Bu onun sonuncu atəşi oldu, ağır bir təkandan yerə yıxılan Nəriman da polad tırtılların altında canını tapşırdı. Dəhşətli səhnə idi. Hələ də gördüyünə inanmayan Diləfruz əlində sarğı donub qalmışdı. O, beş dəqiqə əvvəl yanından keçdiyi həmvətənlərinin faciəli ölümündən sarsılmışdı. Əgər leytenant Beyrək ( döstları Raufu sevərəkdən belə çağırırdılar) səslənməsə idi, allah bilir, onun çaşqınlıqdan ayılması nə qədər sürəcəkdi. Diləfruz cəld ayağa qalxdı, yardım etdiyi yaralını köməkçisi Akifə tapşırıb ağır yara alan Adilin yanına qaçdı. Qardaşının başını dizi üstə alan Bəşir yaranın ağır olduğunu bilsə də, təmkinlə davranır, atəş şaqqıltısı səsini batırsa da, Adilə təsəlli verib:

– Darıxma, qardaş, hər şey yaxşı olacaq. Bu da keçəcək, Sarıcalı bizi gözləyir, – söyləsə də, içindən gələn bir səs, - özünü niyə aldadırsan? – deyirdi.

Diləfruz yetişən kimi xüsusi ağrıkəsicidən istifadə etdi, sonra qanaxmanın qarşısını almağa çalışdı, müvəqqəti də olsa, qanı dayandırdı. Yaralını arxaya aparmaq üçün köməkçilərini səslədi, özü isə digər yaralıların yanına yollandı.

Bir neçə tank və PDM itirən düşmən əsgərlərimizi birinci postda sıxışdırsa da, istəyi ürəyində qaldı. Digər postlardan köməyə gələnlər erməni-rus birləşmələrini geri çəkilməyə məcbur etdilər. Hər iki tərəf döyüş meydanındakı meyitləri götürməyə başlayanda gün günortanı çoxdan keçmişdi. Diləfruz tankın altında əzilən şəhidlərin cəsədlərini digər əsgərlərin köməyi ilə bir yerə toplayıb sellofan kisələrə yığdı. Batalyon xeyli şəhid vermişdi. Sağ qalan əsgərlərin üzündə yorğunluq qarışıq bir qəzəb vardı; tankın tırtılları altında can verən beş şəhidin,

qəlpə yarasından yerindəcə keçinən oğulların surəti heç kimin gözünün önündən çəkilmirdi. Ətrafa tam sakitlik çökmüşdü. Bir saat əvvəlki gurultudan, şaqqıltıdan əsər yox idi. İki-bir, üç-bir dövrə vurub əyləşənlərin heç biri danışmırdı. Qəfil bağırtı eşidiləndə bir az əvvəl səngiyən döyüşün təsirindən çıxa bilməyən əsgərlər səs gələn tərəfə boylandılar. Telman düyünlənmiş yumruqları ilə torpağı döyəcləyir, arabir qırıq-qırıq nəsə deyirdi. O, qəfildən səsini kəsdi, oturduğu yerdə güllələri darağa düzməyə başladı. İşini bitirəndən sonra sakitcə ayağa qalxıb kəmərindən asdığı qumbaraları yoxladı. Heç kimə bir söz demədən yola düzəldi, yoldaşlarının çağırışına da əhəmiyyət vermədi. Böyürtkən kollarının böyründən burulub posta tərəf yönələndə qarşısında komandiri gördü. O, Telmanın üzünə diqqətlə baxdı:

– Müharibədir. Bir saatdan sonra taleyimizin necə olacağı heç birimizə bəlli deyil. Geri dön, sabah bundan da ağır döyüş bizi gözləyir. Dincəlmək lazımdır, – dedi.

Telmanın dodaqları səyridi, nəsə demək istədi, amma sözlər, elə bil ki, kal armud kimi boğazında ilişdi. O, yerinə keçdi, ağacın iri gövdəsinə söykənib gözlərini yumdu. Xəyalında xoş simalı Mikayıl canlandı. Yaralansa da, son nəfəsə qədər barmağını tətikdən çəkməyən Elçin Xasayoğlunun sözləri qulaqlarında cingildədi:

– Şəhid olsam, cəsədimi düşmən əlində qoymayacağına söz ver.

Telman için-için hıçqırdı, bəbəklərinə dolan göz yaşını saxlaya bilmədi, yanaqları ilə üzüaşağı süzülən damlalar çənəsinin altında qərar tutdu. O, qismən yüngülləşdiyini hiss etdi. Elçinin sözləri yadına düşəndə dodaqları qaçdı:

– Ay adaş, (o, Elçin Xasayoğlunu çox vaxt belə çağırırdı) görəsən, tarixin heç olmasa, bir sətrində adımızı çəkən olacaqmı? Ya elə torpağa gömülən kimi unudulacağıq?

Adaşı çiyinlərini çəkəndə dilavərliyi ilə heç kimə aman verməyən Nurələm söhbətə qoşuldu:

– A kişilər, siz torpaqlarımızda tarix yazın, onu kitaba salan çox olacaq.

Telman cəsədləri yan-yana düzülmüş dostları ilə son söhbətləri xatırladıqca qəhərləndi. Axşamın sərin mehi saçlarını darayanda isə oturduğu yerdəcə yuxuladı. Yorğun olduğu üçün tezliklə dərin yuxuya getdi...

– Yatmaq vaxtı deyil, oyan, qardaş, – deyərək çiynini yüngülcə döyəcləyən Səxavətin səsinə gözlərini açdı, – bizi aparırlar, sən getmək istəmirsənmi?

Telman ağ dumanın içində ağ paltarlı dostlarını görəndə ucadan bağırdı:

– Dayanın, haraya gedirsiniz? Məni də gözləyin!

O hiss etdi ki, dostları onu eşitmir, yalnız hamıdan arxada gedən Elçin başını döndərib xəfifcə gülümsündü, pıçıltı ilə dedi:

– Bizi yola sal, nə qədər vaxtın var, qisasımızı al...

Bu pıçıltı ağ dumanı yararaq səmaya ucaldı, birdən-birə göy gurultusuna çevrildi:

– Qisasımızı al!!!

Telman hövlnak ayıldı. Hava sərin olsa da, tərlədiyini hiss etdi. Ovcunun içi ilə alnının tərini sildı. Döyükərək ətrafa baxdı, amma heç nə görmədi. Ayağa qalxıb sağ tərəfdə sıralanmış şəhidlərə tərəf döndü. Bir-iki addım atmışdı ki, zəif motor səsi eşitdi: təcili yardım maşını idi. Maşın yaxınlaşanda ətraf işıqlandı. Telman şəhidləri yerində görməyəndə anladı ki, tibb işçiləri gecəni yatmayıblar, bütün şəhidlər ailələrinə, yaralılar isə xəstəxanaya çatdırılıb. Maşın dayananda kabinədən birinci Diləfruz endi. Telmanı oyaq görəndə salam verib keçmək istədi, lakin ayaq saxlayıb astadan soruşdu:

– Nə olub, Telman? Bir narahatlığınmı var?

Telman başını yerdən qaldırmasa da, dilləndi:

– Bacı, məni niyə oyatmamısız? Axı dostlarımı yola salmalıydım.

– Əsəblərin çox gərgin idi, dincəlməliydin. Həm də bu bi-

zim işimizdir.

Diləfruzun sözləri Telmanı susdurdu. Yenidən əvvəlki yerində oturub gözlərini məchulluğa dikdi.

Yavaş-yavaş dan yeri söküldü, dünənkindən fərqli olaraq, bu gün quşların səsi eşidilmədi. Deyəsən, dəhşətli döyüş onların da yuvasına su calamışdı. Birdən haradasa bir bildirçin civildədi, lakin səsinə digər quşlar cavab verməyəndə o da susdu.

Yolun kənarındakı artezian quyusunun ətrafına yığılan əsgərlər növbə ilə yuyunub yüngül qəlyanaltı etdikdən sonra hərə öz yerinə keçdi. Xeyli vaxt keçməsinə baxmayaraq, düşmən tərəfdən heç bir hərəkət yox idi. Bir qədər əvvəl Ağdam istiqamətində kəşfiyyata çıxan əsgərlər də qayıtmamışdılar. Bu gün döyüş olacaqdımı, kimsə bilmirdi.

– Bəlkə, dünənki itkidən sonra düşmən hələ özünə gəlməyib?

Məhəmmədin sadəliklə verdiyi suala Saleh dodaqucu gülümsündü. Onun xəfif gülümsəməsi Məhəmmədin nəzərindən qaçmadı, əlindəki bıçaqla yerdə dairə cızaraq qəribə naxışlar çəkən Məhəmməd Mehdioğluna tərəf dönərək soruşdu:

– Adaş, mən səhvmi düşünürəm?

Mehdioğlu əlini saxladı:

– Yox, səhv düşünmürsən. Bizim də itkimiz az olmayıb, amma sağ qalanlarımız döyüşə hazırdır.

Məhəmməd israrla fikrini isbat etməyə çalışdı:

– Adaş, biz nə qədər itki versək də, dinclik bizə haramdır, çünki yurdumzu qoruyuruq. Onlarsa işğalçıdırlar, vaxtında dincəlir, yeyib-içir, güclənəndə də hücuma keçirlər. Ona görə də mənə elə gəlir ki, bu gün döyüş olmayacaq. Hələ məndən olsa,– o, dilini sürüyəndə Bayram söhbətə qarışdı:

– Hə, səndən olsa nə edərdin?

– Hücuma keçərdim, düşmənə toparlanmaq üçün imkan verməzdim.

Salehdən:

– Elə mən də hücuma keçərdim, – cavabını eşidəndə Telman özünü saxlaya bilmədi:

– Ayə, hansı top-topxana ilə? Hansı tankla, PDM-lə? Dünən gördün də üstümüzə köpək sürüsü kimi nə qədər texnika yeridildi. Bizim nəyimiz var? Üç-dörd minaatanımız, beş-altı qumbaraatanımız. Bununla da ancaq müdafiə oluna bilərik. Canlı qüvvəmiz də azdır, dünən tək bizim post nə qədər şəhid verdi, görmədinmi?

Saleh də geri çəkilmək niyyətində deyildi:

– Gördüm, niyə görmədim. Qarabağ məsələsi başlayandan əvvəl bıçaq və ov tüfəngləri ilə, sonra da elə əlimizdəki bu silahlarla vuruşmuşuq da. Odur ey, "Tədris" batalyonu da İbad müəllimin başçılığı ilə qonşu kəndə gəlib.

Kəşfiyyatçıların birinci qrupunun yaxınlaşdığını görən əsgərlər söhbəti yarımçıq kəsdilər. Lap qabaqda addımlayan Cavanşir heç nə demədən onların yanından ötüb komandirə tətəf yönələndə Saleh işarə ilə Poladdan nə baş verdiyini soruşdu, lakin nə Polad, nə də Habil cavab verdi.. Bir azdan kəşfiyyatçıların ikinci qrupu göründü. Kərəmlə qardaşı Ədalətin qaşqabaqlı simasından döyüşçülər çox şey oxudular. Feyruzun komandirə dediklərini isə yaxınlıqda olan bütün əsgərlər eşitdilər:

– Ağdamın girəcəyində müasir silahlarla təmin olunmuş böyük bir düşmən kolonu əmrə hazır dayanıb. Üstü çadırlı yük maşınlarının da sayı çoxdur, bir istiqamətdə onunu mən saydım. Amma bu əsgərlər əvvəlkilərə bənzəmirlər. Hiss olunur ki, xüsusi təlim keçiblər. Aralarında uzun saqqallı muzdlu döyüşçülər də var. Muzdluların hamısı qara paltar geyinib, sayları da az deyil.

Komandirin:

– Tank və PDM-lərin sayı neçə idi? – sualına Cavanşir cavab verdi:

– Hərbi texnika görmədik.

Komandir nəyi isə götür-qoy edərək öz-özü ilə danışırmış kimi astadan dilləndi:

– Demək, dünənki döyüş təsirsiz qalmayıb. Düşmən ehtiyatlı tərpənir.

Komandir səngər boyu düzülən əsgərlərə baxdı. Müdafiə xəttini bir daha yoxlayıb bəzi göstərişlər verməyi də unutmadı. Göytəpədə yerləşən “Tədris” batalyonu ilə əlaqə saxladı.

Səngərlərdə üzücü bir sükut vardı. Ağdam yoluna yüzlərlə göz dikilmişdi. Düşmən isə hələ də görünmürdü. Sakitliyə alışmayan Telman üzünü Salehə tutdu:

– Vallah, bu ermənilərin fikri, deyəsən, tamam başqadır.

– Nə ola bilər ki?

– Onlar yaxşı bilirlər ki, biz səbirsizik, gözləməyi xoşlamırıq. Ona görə də bizi səngərdən çıxarıb bu düzəngahda oyuna gətirmək istəyirlər, – sonra o, əl pulemyotunun çaxmağını şaqqıldatdı, – ay siz öləsiniz, gec-tez üzərimizə siz gələcəksiniz, mən də sizi bir-bir bax bu silahımla ovlayacağam...

Əgər bu gün (onun gözləri qarşısında şəhid dostlarının siması canlandı) Elçingilin qisasını almasam, özümü qəbirdə də bağışlamaram.

– Elə hamımız sənin kimi düşünürük, Telman, – Saleh onunla həmrəy olduğunu bildirdi...

Diləfruz onların yanına çatanda ağır çantasını çiynindən çıxarıb yerə qoydu, sonra avtomatını əlinə alıb səngərdə yerini tutdu.

– Bacı, bugünkü döyüşdən ağlın nə kəsir? – sualını eşidəndə o, üzünü çevirmədən dilləndi:

– Ağlım nə kəsəcək: “Gələcəkləri varsa, görəcəkləri də var”.

–Var ol, bacı, bir dəfə qorxduğunu görmədim. Həm döyüşdün, həm də yaralarımızı sarıdın, çoxumuzu ölümdən qurtardın. Boynumuzda haqqın böyükdür, nə etsək də, ödəyə bilmərik, – Telman bir qədər susub yenidən sözə başladı, – bacı, bu gündən sabaha ümid yoxdur, haqqınızı halal edin!

Diləfruzun iri gözləri yol çəkdi, siması daha ciddi şəkil aldı:

– Bəs mənə halallığı kim verəcək? – o, yerdən torpaq götürərərək ovcunda sıxdı, – Halallığı məndən yox, bax bu torpaqdan istəyin, bəlkə, qoynunda bizə də bir qarış yer verə.

Bu sözün qarşısında heç kim dillənmədi. Saleh ovcuna aldığı torpağın ətrini sinəsinə çəkdi:

– Barıt qoxusan da, ətrin bütün ətirlərdən gözəldir!

Araya yenidən cansıxıcı bir sükut çökdü. Diləfruz bir qədər aralıda diqqətlə Ağdam yoluna baxan Süleymanı görəndə qayğılandı:

– Neçə yaşın var, Süleyman?

– On yeddi.

– Allah ermənilərə lənət eləsin. Sənin tay-tuşların ali məktəbə hazırlaşırlar, sənsə əlinə silah almısan.

Süleyman yaşına uyuşmayan tərzdə dedi:

– Oxumaq qaçmır ha. Bu erməniləri qovaq, sonra, əlbəttə ki, oxuyacağam.

Diləfruz bığ yeri tərləməyən bu yeniyetməyə ana nəvazişi ilə baxdı:

– Düzdür, indi geri çəkilirik, amma qeyrətli oğulları olan vətən heç vaxt basılmaz, gec-tez onu xilas edəcəyik.

Ağdam şosesində ard-arda düzülən maşınlar görünəndə söhbət kəsildi. Telman yoldaşlarına tərəf boylandı: hamının gözü gələn maşınlarda idi. Uzaqdan kibrit qutusu kimi görünən maşınlar yaxınlaşdıqca böyüyürdü. Yüklü maşınların uğultusu artıq aydın eşidilirdi. Bölmə komandiri Edilov qardaşlarına və Qaryağdı oğluna tərəf baxmadan koordinatları müəyyənləşdirib göstəriş verdi:

– Səfa, Rasim, Cabbar, tələsmədən hədəfi nişan alın.

Hazır vəziyyətə gətirilən minaatana mərmini yerləşdirən kimi Cabbar qulaqlarını tutdu. Mərmi birinci maşının təkərinin yanında partladı. Böyrü üstdə çevrilən maşında hay-küy qopdu. Ermənilər maşınlardan yerə töküldülər. İndi hədəf yalnız birinci post deyildi, sayı bilinməyən düşmən bütün cəbhə boyu hücum planı hazırlamışdı. Komandir həm sayca, həm də silahına görə üstün olan düşmənlə, bəlkə də, son savaşa girdiklərini bilən əsgərlərindən ayrılmadı:

– Yerinizdə möhkəm durun. Unutmayın ki, düzəngahda hü-

cum edən tərəf həmişə çox itki verir. Gülləyə də bacardıqca qənaət edin.

Hamının gözü yaxınlaşan düşməndə idi. Minaatandan atılan ikinci mərmi düşmən piyadalarının düz ortasında partladı. Nizamla gələn düşmənin səfi pozuldu, lakin həmişəkindən fərqli olaraq, hücum dayanmadı. Bunu görən Telman ayaq üstə qalxıb ermənilərə tərəf səsləndi:

– Gəlin, it südü əmənlər! – o, əl pulemyotunu qucağına aldı. Güllə darağını əlində tutan Saleh az qala yalvardı:

– Telman, ayaq üstdə atəş açma, yerə uzan.

Öz aləmində olan Telman isə onun dediklərini tamamilə eşitmədi. Yıxılan hər düşməndən əhdini alırmış kimi ucadan şəhid dostlarının adını çəkdi:

– Bu, Mikayılın qisası, bu Nurələmin, bunlar Elçinlərimin, bu isə Səxavətin, – o, sakitcə Salehə baxdı. Onun yalvarış dolu gözlərini görüb ucadan güldü:

– Qorxma, mənə bir şey olmaz. Onların anasını ağlar qoyacam...

Yaxınlıqda partlayan mərmidən Telman hiss etdi ki, ayaq üstdə dayana bilmir. Dönüb Salehə nə isə demək istəyəndə onu da qan içində gördü. Silahını qaldırıb son güllələri düşmənin üzərinə yağdırmağa çalışdı, amma bacarmadı və səngərin içinə yıxıldı.

Diləfruz üstünə tökülən torpaqdan silkinib ayağa qalxdı. Güllə yağışı altında Telmangilə sarı süründü. Bir neçə yerdən qəlpə yarası alan Salehin nəbzini tutdu, nəfəsini yoxladı, keçindiyini görüncə Telmana yaxınlaşdı. Gözlərində gülüş, dodaqlarında təbəssüm donan silahdaşının gözlərini qapadı.

Titrəyən barmaqlarına baxanda boğula-boğula hıçqırdı:

– Siz nə qədər oğulun gözünü qapayacaqsınız axı?

İniltili səslə deyilən:

– Bacı, – sözü onun hıçqırığını kəsdi, cəld geri çevrildi. Salamat qoyub gəldiyi Süleyman əli ilə sağ çiynini tutmuşdu. Barmaqlarının arasından süzülən qan qolunu tamam islatmışdı. Di-

ləfruz ağrıdan rəngi avazıyan Süleymana təskinlik üçün dedi:

– Güllə bir balaca dərini sıyırıb, heç nə olmayacaq.

O, yaranı sarıyıb Süleymanı Akifə tapşırdı. Ağrıdan qıvrılsa da, Süleyman getmək istəmədi:

– Sizinlə qalıram, yəqin, bir azdan ağrı keçər.

– Düşmənlə sənsiz də bacararlar, mən əmrdən çıxa bilmərəm, – deyərək Akif onu zorla yerindən qaldırdı.

Düşmən bütün səngər boyu xeyli irəliləmişdi. Əsgərlər nə qədər möhkəm dayansalar da, düşmənin üstünlüyü açıq-aşkar hiss olunurdu. Diləfruz Rasimin yarasını sarıyıb ayağa durmaq istəyirdi ki, alnından güllə ilə vurulan Məhəmmədi gördü. Üzündə həyat əlaməti olmayan Məhəmmədin gözlərini qapamaq istəyəndə Bayram mane oldu:

– Onun gözlərini qapama, Məhəmməd ayılacaq, xahiş eləyirəm. O ölməyib, ölə bilməz, çünki buna haqqı yoxdur. Axı gözləyəni var.

Diləfruz susdu, deməyə, təsəlli verməyə sanki sözlər də yadından çıxdı. O, atəş aça-aça öz-özünə danışan Məhəmməd Mehdioğlunun yanında ayaq saxladı:

– Nə olub, öz-özünə niyə danışırsan?

– Necə də danışmayım, ya bu şoğəribin içindəki güllə təsirsizdir, ya da düşmənin canı dəmirdəndir. Dəqiq nişan alıram, atıram. Düz sinəsinə dəyir, yerə yıxılır, sonra necə olursa, yenidən ayağa qalxıb yeriyir.

Qazançı döyüşü Diləfruzun gözləri qarşısında canlandı, zənci döyüşçüləri xatırladı:

– Məhəmməd onların əynində zireh var, sinələrindən nə qədər vursan da, xeyri olmayacaq. Bacarsan, ya başlarını, ya da qıçlarını nişan al.

– Bu heç ağlıma gəlməmişdi, – deyib Məhəmməd aynalını üzünə qaldırdı. İlk atəşdə düşmənlərdən biri yerə yıxıldı, sağ ol, bacı, – deyib Diləfruzun arxasınca səslənəndə o nəyinsə sinəsini dəlib keçdiyini hiss etdi. Birdən-birə nəfəsi təntidi, yaxasını dartışdırıb düyməni açmağa çalışsa da, barmaqları sözü-

nə baxmadı, asta-asta yerə çökdü...

Düşmənin atdığı mərmilər artıq daha yaxında partlayırdı. Qəlpə yarası alanların sayı çoxaldıqca sıralar seyrəlirdi. Komandir səngərdə boş qalan yerləri gördükcə ürəyindən ağrı keçdi, irimiqyaslı hücuma keçən düşmənin qarşısında rəşadətlə dayanan oğulları bağrına basmaq istədi. Cəvahirlini əldən verməmək üçün minaatanlara sonuncu mərmi qutularını açmaq əmrini verdi. Dalbadal atılan mərmilər hücuma keçən düşməni çaşdırdı. Yaralıları və ölənləri döyüş meydanında qoyan ermənilər xeyli geri çəkildilər. Hücum dayandırıldı.

Xəlil kürəyini səngərə söykəyib dərindən nəfəs aldı, su qabının ağzını açaraq bir-iki qurtum içdi, heç kimə baxmadan gözlərini yumdu. Əlindəki siqaretə acgözlüklə dərin qullab vuran Cabbar udduğu tüstünü havaya püskürdəndə Pənah zarafatından qalmadı:

– Zalım balası, parovoz kimi nə tüsdülüyürsən, bayaxdan elə tüsdü udurux da.

Cabbar əlini yelləyib cavab vermədi. Əvəzində Famil dilləndi:

– Sən bilməzsən, bu tüsdünün dadı tamam başqadı, əsəbləri sakitdəşdirir, sonra üzünü Xəlilə tutdu, – ayə, Xəlil, yatmax vaxdı döyül ey, oyan.

Bayaqdan yoldaşlarının danışığına seyrçi qalan Bayram gözlənilmədən hönkürdü:

– Susun, allah xatirinə, susun! Görün nə qədər şəhidimiz var, sizsə...

– Nə edəh, qardaş, o da bir şərəfdi döyüşçü üçün. Bura gələn ya şəhid olar, ya da qazi. Görək bizim qismətimizə nə düşəjəh? – Famil düşüncəli halda sözünü yekunlaşdırdı.

Səngərə sakitlik çökdü. Yaralıları arxaya göndərən Diləfruzun səsi eşidiləndə Xəlil gözlərini açdı. Şəfqətlə dedi:

– Bajı, imkan var ikən sən də bir hovur dincəl. Bayaxdan ayağ üsdəsən.

Onun qayğıkeşliyi Diləfruzu kövrəltsə də, ürəyinin yuxaldı-

ğını büruzə vermədi:

– Sağ ol, ay Xəlil. Mən buna öyrəşmişəm, yaralıları nəzarətsiz qoya bilmərəm. Hər dəqiqənin öz hökmü olur.

– Doğru deyirsən, bajı, – Xəlil qəddini dikəltdi, durbinlə düşmən mövqeyini müşahidə edən komandiri görəndə o da həmin istiqamətə baxdı. Düşmən düşərgəsindəki tərpənişi görüb yerdə oturan Cabbarın çiynini dümsüklədi:

– Ayə, diyəsən, ermənilər tərpənillər.

Onun sözünə digər əsgərlər də qarşı tərəfə boylandılar. Cərgələri seyrəlsə də, sağ qalanlar yerlərini tutub silahlarını hazır vəziyyətə gətirdilər.

– Bəs niyə hücum etmillər, görəsən? – Pənah sual edəndə

Famil çiynini çəkdi. Onun əvəzinə Diləfruz cavab verdi:

– Yəqin, nəsə gözdüyüllər.

Famil:

– Kaş onnarın silahı bizdə olaydı, vallah, heş nəyi gözdəməzdik, – deyib heyifsilənəndə Diləfruz onun sözünə qüvvət verdi:

– Daha nə edək: allah dözümü, igitdiyi bizə, silahı, dayağı onnara qismət eliyif.

Komandirin səsi danışığı yarımçıq kəsdi:

– Ağdam şosesində tanklar görünür.

Hamının gözü komandirə zilləndi. Komandir baş qərargahla əlaqə saxlayıb vəziyyəti anlatdı, kömək istədi.

– Nə qədər dayana bilərsiniz? – sualına komandirin cavabı çox qısa oldu:

– Bir saat.

– Kömək iki saata gəlib çıxar.

Verilən cavab komandiri çaşdırdı. Nəsə demək istədi, lakin danışmağı artıq saydı. Hər şey gün kimi aydın idi: yeni qurban Cəvahirli kəndi idi. O, əsgərlərin başı üstündən uzaq üfüqlərə baxıb öz-özünə pıçıldadı:

– Allah köməyimiz olsun, – sonra ucadan səsləndi, - bacardığımız qədər düşmənə irəliləmək imkanı verməyəcəyik.

Yer-yerdən səslər eşidildi:
– Oldu, komandir.
– Nə qədər ki silah əlimdən düşməyib, döyüşəcəyəm.
– Düşmənin nə özündən, nə də silahından qorxuruq.
Komandir əlini qaldıran kimi səslər kəsildi:
– Gözlədiyimiz kömək gələnə kimi vuruşa bilsək, Cəvahirliyə düşmən ayağı dəyməyəcək. İndi hamı öz yerinə keçsin.
– Bəs “Tədris” batalyonu bizə kömək edə bilməzmi? - sualını verən döyüşçüyə komandirin cavabı çox qısa oldu:
– Ermənilər Göytəpəyə də girməyə çalışırlar. Onların vəziyyəti heç də bizdən yaxşı deyil.
Yenidən səngərə sükut çökdü. Gözlər düşmən mövqelərinə dikildi. Xeyli geri çəkilən ermənilərin düşərgəsində başlayan canlanma Dilsuzu lap hövsələdən çıxartdı:
– Qarışqa kimi nə qaynaşırlar, kökünüz kəsilsin.
Onun sözlərini eşidən qardaşı Dilqəm gərginliyi aradan qaldırmaq üçün zarafatla dedi:
– Ay Dilsuz, səni allaha and verirəm, qarışqa adıynan erməniləri şərəfləndirmə. Qarışqanın heç kimə ziyanı yoxdu, onnar çox xeyirli məxluqdular.
– Onda gərək “səni qarışqa kimi əzərəm” ifadəsinnən də vaz keçək cənab qarışqalara görə, – qaraşın Elçin söhbətə qarışanda Dilqəm əlini qaldırdı:
– Gəl mənaları qarışdırmıyax, sənin dediyin kiçiklik, zəiflik baxımınnan işdədilir.
Mətləbə dəxli olmayan söhbətin uzandığını görən Cəlil üzgözünü turşutdu:
– “Heç hənanın yeridi?” Biz nə hayda, bunnar da qarışqa hayında, – deyib yenə də düşmən düşərgəsindəki canlanmanı seyr etdi.
– Ay Cəlil, hələ başımıza nə gələcəyini bilmirik. Bəlkə də, bu, son danışıxlarımızdı. Hə, sağ qalan mətləbə dəxli olmuyan bu danışığımızla bizi yad edər, – deyən Rövşənin sözlərini Dilqəm o dəqiqə təsdiqlədi:

– Elə mən də ona görə danışıram da.

Əsgərlərin yanından ötən Diləfruz onların danışıqlarını xoşlamadı:

– Ölümdən yox, qələbədən danışın, uşaqlar, – o, səngərin digər başına tələsdi.

Belə gərgin anda həm qardaşının, həm də Diləfruzun yüksək əhvali-ruhiyyəsi ürəyini qismən sakitləşdirsə də, Dilsuzun üzündə təbəssüm görünmədi, sakitcə:

– İndi danışıq vaxtı deyil, necə döyüşəcəyimizi fikirləşək, – dedi.

Artıq hamı yaxınlaşan düşmən tanklarını aydın görürdü. Ağır döyüşün başlanmasına, demək olar ki, dəqiqələr qalırdı. Komandir səngər boyu düzülən əsgərlərini bir də məhəbbətlə süzdü:

– Hə, igidlərim, gərgin savaş başlayır. Döyüşə hazırıqmı?

Dilqəm yenə də hazırcavablıq etdi:

– Hazırıq, komandir.

Komandir razılıqla başını tərpədib, minaatanlara yaxınlaşdı, gözucu qutudakı son mərmilərə baxdı, mülayimcəsinə dedi:

– Uşaqlar, çalışın, hədəfi düz nişan alın, indi bu mərmilər bizə hava, su kimi lazımdır.

Komandir yenidən səngərə qayıtdı. O, sağ əlini qumbaraatanı hazır vəziyyətdə saxlayan Qarabalanın çiyninə qoyub astadan soruşdu:

– Vəziyyət necədir?

Komandirin nə demək istədiyini anlayan Qarabala nə qədər şux cavab vermək istəsə də, yan-yana qoyulmuş iki mərmini görəndə səsi titrədi:

– Ehtiyatda iki qumbaramız qalıb.

Komandir dərindən nəfəs aldı, əsgərlərlə yanaşı silahını düşmənə tuşlayan Diləfruza da nəsə demək istədi, amma fikrindən vaz keçdi. İndi düşmən düşərgəsinə durbinlə baxmağa ehtiyac yox idi. Tanklar yaxınlaşdıqca motor uğultusu vahimə yaradırdı. Lakin tezliklə bu uğultunu atəş səsləri batırdı: bir-bi-

rinə yaxın məsafədə partlayan mərmilərin qəlpələri torpaq qarışıq səngərin içinə səpələndi. İlk çağırışlar seyrək olsa da, tezliklə yaralıların sayı artdı. Diləfruz budundan ağır qəlpə yarası almış əsgərə yardım edib qurtarmamış çiynini tutan digər döyüşçünün səsini eşitdi. Qəlpə onun çiyin sümüyünü parçalamışdı. Ağrıdan dişlərini bir-birinə sıxan yaralı zorla soruşdu:

– Bacı, bizimkilər niyə atmırlar, nəyi gözləyirlər? Səngərdə xıncım-xıncım olmağımızımı?

Diləfruz onu sakitləşdirdi:

– Yəqin ki, düşməni lap yaxına buraxacaqlar. Bir bildikləri olmasa, atəş açardılar.

Diləfruz ona həqiqəti deyə bilmədi. Deyə bilmədi ki, düşmən tanklarının sayı qutuda qalan mərmilərdən dəfələrlə çoxdur. O, yaralının çiynini sarıyıb arxaya aparmaq üçün yaxınlıqdan keçən Fuadı səslədi. Elə bu vaxt səngərin üstündən vıyıltı ilə keçən mərmi arxada fırtına qopartdı. Səbirsizliklə gözləyən minaatanlar komandirin əmrini eşidən kimi tankları nişan aldılar. İlk zərbədə qabaqda gələn tank alova büründü. Bir tankını itirən düşmən ehtiyat edərək hücumu dayandırdı. Yorğun əsgərlərin üzündə sevinc işartıları göründü, lakin komandirin siması dəyişmədi. O, qarnından yara alan əsgərin yarasını sarıyan Diləfruzdan soruşdu:

– Neçə yaralımız var?

– On bir.

– Şəhidimiz necə, varmı?

– Fasilədən sonra, şükür ki, şəhidimiz yoxdur.

Komandir yenidən susdu, erməni piyadaları artıq tanklara yaxınlaşmışdılar. Piyadalar çatana qədər dayanan tanklar ağır-ağır yerindən tərpəndi, lakin bir neçə dəqiqədən sonra tam sürətlə irəli şütüdü. Çıxılmaz bir vəziyyət yaranmışdı. Tankları vurmaq üçün üç minaatan, bir qumbaraatan mərmisi vardı. Komandiri fikir aldı: nə etməli? Son mərmiləri atandan sonra tankın qarşısında avtomatla necə dayanmaq olar? O bir əsgərlərinə, bir də yaxınlaşan tanklara baxdı. Əyninə zireh geymiş piyadalar da sürətlə irəlilə-

yirdilər. Geri çəkilmək istəməyən komandir yenidən Baş qərargahla əlaqə saxlamaq istəsə də, cəhdi boşa çıxdı. Növbəti mərmilər yenə bir tankı sıradan çıxardı, amma bu dəfə düşmən dayanmadı. Elə bil ki, onlar sursatın qurtardığını hiss etmişdilər. Komandir bir gün əvvəl tankların tırtılları altında şəhid olan əsgərləri gözünün qabağına gətirəndə qəti qərar verdi:

– Geri çəkilirik.

Döyüşçülər qulaqlarına inanmadılar: doğrudanmı, şəhid qanı ilə boyanan bu kənd də düşmənə təslim ediləcəkdi? Amma reallıqdan qaçmaq mümkün deyildi. Düşməni duyuq salmadan səngər tərk edilməli, düşmən bunu hiss etməməli idi.

İlk döyüşçülər səngəri tərk edəndə Dilsuz gözucu qardaşına baxdı. Gözlərinə qan sağılmış Dilqəmin, deyəsən, yerindən tərpənmək fikri yox idi. Avtomatı sinəsinə basıb piyadaların yaxınlaşmasını gözləyirdi. O, qardaşını səslədi:

– Dilqəm, eşitmədinmi? Komandir geri çəkilmək haqqında əmr verdi, – Dilqəm cavab verməyəndə isə lap yaxına gəldi, – niyə dinmirsən? Heç olmasa, bir kəlmə söz de.

– Nə deyim? Düşmənin başını qatmaq üçün biz burada qalmalıyıq. Hamının birdən geri çəkilməsi mümkün deyil. Əgər sağ qalsaq, biz də arxadan dəstəmizə çata bilərik, – sonra nə düşündüsə, şəfqətlə Dilsuzun üzünə baxıb sözünü tamamladı, – bəlkə, sən də dəstə ilə geri çəkiləsən? Heç olmasa, birimizin sağ qalmaq şansı...

Dilsuz ona sözünü tamamlamağa imkan vermədi, əlini dodaqlarının üstünə qoyaraq:

– Sus, – dedi, – mən sənsiz o evə qayıda bilmərəm.

Bayaqdan qardaşların söhbətinə qulaq asan Elçin üzünü Cəlilə tutdu:

– Vallah, qibtə ediləsi qardaş məhəbbəti buna deyərəm.

Dolu darağı yerinə keçirən Cəlil kəmərindən asdığı qumbaraları yoxlayıb dilləndi:

– Qardaş, bizim hamımız eləyik, tək qardaşımız üçün yox, bir-birimiz üçün dar ayaqda canımızı da fəda etməyi bacarırıq.

Elə deyilmi, Rövşən?

– Əlbəttə, elədir, – Rövşən gülümsəyərək cavab verdi.

Dilqəmin komandası eşidiləndə avtomatlar bir-birilə bəhsə girirmiş kimi aramsız atəşə başladı...

* * *

Dolama kəndarası yollarda yaralılardan və onlara yoldaşlıq edən əsgərlərdən başqa heç kim görünmürdü. Yeriməkdə çətinlik çəkənləri döyüş bölgəsindən uzaqlaşdırmaq nə qədər çətinlik yaratsa da, yoldaşları onlara dayaq olur, bəzən bellərinə alıb daha sürətlə uzaqlaşmağa çalışırdılar. Qarnından yara alan əsgəri aparanlar bacardıqca ehtiyatlı davranmağa çalışırdılar, lakin yol kələ-kötür olduğu üçün xərək hər tərpənəndə üz-gözünü turşutmasından yaralının əzab çəkdiyi o dəqiqə bilinirdi.

Əvvəlcə atçılıq fermasına tərəf enməyi planlaşdırsa da, komandir qüvvələri birləşdirmək üçün son anda fikrini dəyişdi:

– Göytəpə kəndinə çəkilirik. Cəvahirlini isə elə-belə təslim etməyəcəyik. Hər küçə, hər ev bizim üçün sipər, düşmən üçün məzarlıq olacaq.

Qısa çıxışından sonra on nəfərlik dəstə kəndin qurtaracağındakı iri gövdəli ağacların arxasında daldalandı. Səngərdən eşidilən avtomat şaqqıltısı Dilqəmgilin geri çəkilmədiyindən xəbər verirdi. Səyavuş narahatlıqla Xalıqverdiyə tərəf səsləndi:

– Dilqəmgil, yəqin ki, geri çəkilmək fikrində deyillər. Bu, dirigözlü ölümü qəbul etməkdir.

– Ağzını xeyirliyə aç, indi harada olsalar, gəlib çıxarlar. Döyüşürlərsə, demək, sağdırlar. Hesaba görə, düşmən o sürətlə indi buralarda olmalı idi. Amma görürsən, hələ yoxdurlar. Həm də Dilqəmgil tərəfdə səngər döyüş üçün çox əlverişli idi. Maşallah, uşaqların beşi də ölümün üstünə yeriyəndir. Bir də gördün, hardansa peyda oldular.

Xalıqverdinin sözləri Səyavuşu qismən sakitləşdirdi. Lakin ilk tank görünəndə o, dərindən içini çəkdi və iri bir çinarın gövdəsinə söykənib yeganə mərmini qumbaraatana yerləşdirən

Ayaza tərəf səsləndi:

– Qarabala, gör neynirsən?

Qarabala dillənmədi, çünki belə anlarda o danışmağı xoşlamazdı. Sakitcə bir dizi üstə yerə çöküb hədəfi nişan aldı, bir qədər də yaxınlaşmasını gözlədi. Heç bir maneə ilə qarşılaşmayan tank nədənsə dayandı. Bir neçə dəqiqədən sonra ikinci tank gözə dəydi. Qara paltarlı muzdlular tanklara yaxınlaşanda Qarabala tətiyi çəkdi. Qabaqdakı tank tüstüləndi. İkinci tank geri dönüb sürətlə uzaqlaşdı. Dəqiqələr keçdi. Yerə uzanan muzdluların isə, deyəsən, heç geri çəkilmək fikri yox idi. Erməni ləhcəsi ilə rus dilində danışan saqqallının sözləri açıq-aydın eşidildi:

– Нам нужна помощь. В селе танками зайти невозможно.

Xəttin digər başında nə dedilərsə, ermənilər dayandıqları yerdən tərpənmədilər.

Fəqan ermənilərin ünvanına söydü:

– ...yenə rusdan kömək alajaxlar.

– Allah rusun tifağını dağıtsın! Onnar olmasaydı, erməni haranın itiydi ki, bizim üsdümüzə hürsün? – əlindəki budağı bıçaqla doğrayan Yavər də acığını soyutmaq üçün rusların qarasınca deyindi.

Səngərdəki guppultudan diksinən Səyavuş silahdaşlarının üzünə baxdı:

– Uşaxlar, Diqəmgil atəş açmıllar.

– Bəlkə, səngərdən çıxıb bizə sarı gəlillər?

– Bura nejə gələjəklər, hər tərəf düşməndir.

Xalıqverdinin:

– İnşallah, gəlib çıxarlar, – sözündən sonra hamı susdu.

Uzaqdan yük maşınlarının səsi eşidiləndə Yavər ucadan dedi:

– Ermənilərə kömək gəldi. Hazırraşın, güjümüz çatan qədər dayanajıyıx.

– Necəsiniz, uşaqlar?

Diləfruzun səsi eşidiləndə Məhyəddin arxaya çevrildi:

– Bacı, şükür, salamatlıqdır.

Diləfruz ətrafa baxıb təəccüblə soruşdu:

– Bəs Dilqəmgil hanı? Axı onlar indi sizin yanınızda olmalı idilər?

Məhyəddin çiynini çəkdi:

– Nədənsə gejikillər, inşallah, gələllər.

Düşmən yerə sinə-sinə irəliləməyə başladı.

– Hə, igidlərim, atəş açın, hayların başına dünyanı dar eləyin.

Komandirin səsinə avtomatlar dilləndi. İrəliləməyin mümkün olmadığını görən düşmən yerə uzandı. Sağ cinahdan güllə səsləri yaxınlaşanda komandir Səyavuşa səsləndi:

– Sağ cinahı nəzarətə götürün.

– Sağ tərəfdən gələnlərin sayı çoxdur, deyəsən, arxamıza keçmək istəyirlər, komandir.

Mühasirə yaranmadan təcili geri çəkilmək lazım idi. Komandir dərhal qərar verdi:

– Bir-birinizi qoruyun!

O, iri bir ağacın arxasında daldalanaraq atəş açan Diləfruzu çağırdı:

– Yerini dəyiş.

Diləfruz yerini təzəcə dəyişmişdi ki, arxasında gizləndiyi ağacın dibində bir mərmi partladı. O, öz-özünə dedi:

– Sadəddin demişkən, anam namaz üstdə imiş, yoxsa allah bilir, sonum necə olardı.

İki istiqamətdən hücuma keçən düşmənin qarşısında kiçik bir dəstə ilə dayanan komandir tədbirli davranaraq əsgərləri kəndin içərilərinə doğru sağ-salamat çəkməyi bacardı. Atəş səsləri kəsiləndə bayaqdan bir kəlmə də danışmayan Bayram Vahiddən bir siqaret istədi. Onun fikirli görünüşü Vahidi heç açmadı:

– Nə olub, gəmiləri qərq olan adama oxşuyursan?

Bayram əlini yellədi. Boğazını arıtladı, amma siqaretin acı tüstüsü pis təsir etdiyindən bir-iki ağız öskürdü. Vahid ona ba-

xıb gülümsündü:

– Ayə, bacarmırsan, çəkmə də.

Bayram dillənmədən siqaretin qalanını yerə atıb dabanı ilə əzdi. Onun narahatlığı bayaqdan Diləfruzun da diqqətini cəlb etmişdi:

– Bayram, nə olub? Gözümə birtəhər dəyirsən.

– Daha bundan böyük nə olmalıdır ki? Kəndlərimiz getdi, Ağdam getdi. Axı nə qədər qaçmaq olar? Düşmənə nə qədər kənd hədiyyə etmək olar?

Diləfruzun ciddi siması qayğılı bir ifadə aldı:

– Bayram, biz qaçmırıq, döyüşürük. Amma düşmənimiz güclüdür. Onların qarşısına qeyrəti ilə çıxan minlərlə igidimiz olub. Özün də görürsən ki, torpağımızın hər qarışında şəhid qanı var. Şəhid qanı hopan torpaqsa hədiyyə edilməz. Gec-tez biz bu kəndləri geri qaytaracağıq.

– Avtomatla, ya qumbara ilə? – Bayram daha da çılğınlaşdı.

– İlk vaxtlar heç bunlar da yox idi, – Diləfruz sözünə bir qədər ara verdi, sonra qətiyyətlə fikrini tamamladı, – müharibədir, Bayram! Qüvvələr nisbəti heç vaxt sabit qalmır. Bu torpaqlara qayıdacağımıza mən tam inanıram.

– Təki sən deyən olsun, bacı, – Bayram yenə susdu.

Nurəddinlə Qabil gələndə komandir sualedici baxışlarını onların üzünə dikdi. Başını aşağı salan Nurəddin asta səslə yalnız bunları deyə bildi:

– Dilqəmgilin olduğu yerə yaxınlaşa bilmədik, hər tərəfdə düşmən qaynayır. Bura çatana qədər neçə dəfə təhlükə ilə üzləşdik. Amma ermənilər də geri çəkiliblər, nədənsə kəndə girmirlər.

– Artıq hava qaralır. Ermənilər, yəqin ki, bu gün hücum etməyəcəklər, amma sərvaxt və tədbirli olmalıyıq, – komandir əsgərlərə göstəriş verdi. Hamı yol boyu sıralanmış qalın böyürtkən kollarının arxasında daldalandı. Kəndə səssizlik çökmüşdü: nə bir hənirti, nə də xışıltı vardı. Əsgərlərin bəziləri oturduğu yerdə mürgüləyirdi, bəziləri çantasını başının altına

qoyub yuxuya getmişdi. Bayram oturduğu yerdə kürək-kürəyə verib mürgüləyən Məhəmmədlə Şükürə nəzər saldı. Onlarla yanaşı silahına söykənən İlyas isə yatmamışdı, gözlərini ulduzlara dikərək nəsə düşünürdü. Bayram onu çağırmaq istəyirdi ki, addım səsləri eşitdi, bu səsləri, deyəsən, İlyas da hiss etmişdi. Kollar sıx olduğu üçün gələnləri görmək mümkün olmadı. Addım səsləri getdikcə uzaqlaşdı, bir azdan tamam eşidilmədi. İlyas pıçıldadı:

– Ermənilərdir, yəqin ki, kəşfiyyata çıxıblar.

Bayram onun sözlərini təsdiqləyib susmaq işarəsi verdi. Xeyli vaxt keçəndən sonra addım səsləri yenidən yaxınlaşdı. İndi onlar heç nədən çəkinmədən erməni ləhcəsində hündürdən türkcə danışırdılar:

– Ara, Sumbat, axı dedım, indi turklar qorxudan o söz, – o, ədəbdən kənar bir söz işlədərək hırıldadı.

Sumbat ona acıqlandı:

– Serj, bilmadığın sozu danışma. Man turklari əlli ildır, tanırım. Hiç korku bilmazdar. Bir az yavaş danış, eşidan olar.

– Kim eşidacax axi, ay Sumbat, kandin axırına kimi getdıx, axaşdardan başka na gordun? Ha, yadına duşdu, bir dana da ac kopax gordux, – deyib Serj bir az da bərkdən güləndə küt tappıltı eşidildi:

– Bir da danışsan, daha bərk vuraram, – xəbərdarlığından sonra Serj nə isə mızıldandı.

İlyas dişlərini qıcayıb avtomatı yuxarı qaldıranda danışıq səsinə oyanan Məhəmməd onun qolundan tutdu. İlyas heç nə demədən silahı aşağı endirdi.

Dan yeri sökülməmiş batalyonun sağ qalan əsgərləri ayaq üstdə idi. Gecə yarısı şəhidləri və yaralıları təhvil verib gələn Diləfruz təcili yardım maşınını kəndin girəcəyində saxlatdırdı və əsgərlərin yanına piyada gəldi. Onunla eyni zamanda erməni düşərgəsinə kəşfiyyata gedən Nurəddinlə Qabil də komandirə yaxınlaşdılar. Komandirin:

– Vəziyyət necədir?- sualına Nurəddin dərhal cavab verdi:

– Ermənilərə sezdirmədən biz bağların arası ilə lap yaxına getdik. Başları yeyib-içməyə qarışmışdı. Aralarında xaricdən gələn muzdlu döyüşçülər də var. Danışıqlarından bəlli idi: nə dediklərini başa düşmədim, ermənilərdən ayrı oturmuşdular. Sabah qazanacaqları qələbənin şərəfinə içirdilər, – o, nəfəsini dərib sözünü bitirməyə çalışdı, – sayları bizdən xeyli çoxdur. Silahları da öz yerində...

– Yaxşı, siz gedin dincəlin, vaxta az qalır, – deyib komandir kolluq boyu dincələn əsgərlərə baş çəkmək üçün siyasi rəhbərlə yola düzəldi.

Aypara şəklində müdafiə xətti düzənləyən komandir qüvvələr nisbəti düşmənin xeyrinə olsa da, kəndi döyüşsüz tərk eləmək fikrindən çox uzaq idi. O, hələ də ümidlənir, kömək göndəriləcəyinə inanırdı. Ağacların, alçaq barıların, evlərin arxasında silahını düşmənə tuşlayan əsgərlərin də döyüş ruhu yüksək idi. İri dava-dərman çantasını çiynindən yerə qoyub avtomatı əlinə alan Diləfruzu görəndə komandir ona yaxınlaşdı:

– Bacı, bu, açıq döyüşdür, başımızı gizləyəcək bir səngərimiz belə yoxdur. Ehtiyatlı ol, özünü qoru.

Diləfruz gülümsündü:

– Komandir, neçə ildir, döyüşdəyəm, bu günə kimi qoruyan allahım yenə də qoruyar.

Komandir onun sözlərini təsdiqlədi:

– Hə, elədir, ondan başqa sığınacağımız kimsə varmı?

Dan yeri çoxdan sökülsə də, qarşı tərəfdə bir hərəkət yox idi.

İlyas Bayrama baxaraq soruşdu:

– Ayə, bunlar harada qaldılar, niyə gəlmirlər?

Bayram çiynini çəkərək:

– Nə bilim? – deyəndə İlyas zarafata keçdi:

– Mirpaşa demişkən: "Bəlkə, Əzrayıl gecə ilə ermənilərin hamısını torbasına yığıb aparıb?"*

* "Yeddi oğul istərəm" filmindən.

Məhəmməd də söhbətə qoşuldu:

– İlyas, səni and verirəm sevdiklərinin canına, Əzrayılı şərə salma. Bu erməni toxumundan bir dənə hara düşsə, oranın vay halına. Torbada olan ölüləri belə dünyanı qarışdırar.

Söhbətin uzandığını görən Diləfruz onlara tərəf baxıb ciddi şəkildə dedi:

– Zarafat vaxtı deyil, yerinizi möhkəmlədin.

Söhbət kəsildi. Cansıxıcı dəqiqələr bir-birini əvəz etdikcə Bayramın səbri tükəndi, Şükürü çağırdı:

– Deyirəm, ay Şükür, görəsən, əvvəlki vaxtlar geri dönəjəhmi, vəziyyət düzələjəhmi?

Şükür gülümsünərək cavab verdi:

– Çətin düzələ, qardaş. Təzədən rusa nejə inanasan, ya erməni ilə qonşu olasan? Mümkün iş deyil. Ara sakitdəşsə də, gördüyümüz yerdə bir-birimizi öldürərik, – o, bir qədər susub damağını nırçıldatdı, – yooox, mümkün deyil.

– Doğru deyirsən, qardaş, bu qədər qannan sonra çətin düzələ.

– Aha, ermənilərin ağzı açıldı. Gəlin, gəlin! Bu dəqiqə sizə bir divan tutajıyıx ki, adınız da yadınızdan çıxajax, – deyib İlyas avtomatını əlində hazır tutdu. Kəndin tərk edildiyinə əmin olan ermənilər heç nədən şübhələnmədən irəliləyirdilər.

Saqqallılardan ibarət bir dəstə lap öndə idi. Arabir nəsə danışır, zarafatla bir-birinə çiyin də vururdular.

Diləfruz xəbərdarlıq etdi:

– Muzdluların əynində zireh var, onları çalışın, baş nahiyəsindən vurun.

Məhəmməd təəssüflə əlini dizinə çırpdı:

– Kaş beşatılanım yanımda olaydı, onları bir-bir elə dənləyərdim, ruhları da inciməzdi. Heyif, Mərzili döyüşündə parçalandı...

Yenə araya sükut çökdü. Düşmən getdikcə yaxınlaşır, özü də bilmədən düz mərkəzdəki qüvvələrin üzərinə yürüyürdü. Lap qabaqda gələn əlini qaldırıb nə isə duymuş kimi birdən dayandı, yolun qırağındakı böyürtkən kolluğuna bir neçə dəfə

atəş açdı. Kolluqdan it zingiltisi eşidiləndə nəsə dedi və qəhqəhə çəkdi. Digər ermənilər də ona qoşuldular. Diləfruza elə gəldi ki, onların qəh-qəhi boş kənddə hər evə, hər divara dəyərək əks-səda verdi. Bu mənfur gülüşü qəbul etmək istəmədi. O, gülüş sahibini nişan alıb komandirin əmrini gözlədi. Düşmənin əsas qüvvələri yaxınlaşanda atəş açmaq əmri verildi. Qabaqda gələn saqqallı yerə yıxılanda ermənilərin arasına çaxnaşma düşdü. Açıqlıqda olduqları üçün gizlənməyə yer arayarkən sağ və sol cinahlardan da güllə yağmuruna tuş gəldilər. Mühasirəyə düşməkdən qorxub geri çəkildilər, amma hücumu dayandırmaq istəmədilər. Mərkəzdə yerləşən qüvvələrə qumbaraatanlarla dalbadal zərbələr endirdilər. Dağıdılan barıların arxasında gizlənənlərdən bəziləri yara almasalar da, lap yaxınlıqda partlayan mərmilərin səsindən qulaqlarını tutub yerlərindən tərpənmədilər. Diləfruz köməkçilərinin vasitəsilə həmin əsgərləri arxaya göndərdi. Mərmi yağışı kəsəndən sonra ehtiyatla davranan düşmən yenidən kəndin içərilərinə doğru irəlilədi. Döyüş qızışdı. Gülləyə tuş olmamaq üçün əsgərlər tez-tez yerlərini dəyişir, döyüşə-döyüşə geri çəkilsələr də, düşmənə bacardıqca daha çox itki verməyə çalışırdılar. Dağıdılmış barılar artıq çoxdan geridə qalmışdı. İndi həmin barıların qalıqları düşmən üçün sipər idi. Qüvvələr arasındakı məsafə də getdikcə qısalırdı. Komandir vəziyyətin daha da pisləşdiyini görüb "Tədris" batalyonu ilə əlaqə saxladı:

– İbad müəllim, Cəvahirli düşmən əlinə keçməkdədir. Bizə kömək lazımdır. Cəvahirlidən sonra növbə Göytəpənindir.

Xəttin digər başında İbad müəllimin səsi eşidildi:

– Bizim də vəziyyətimiz ağırdır, amma hələ ki düşmənin qarşısını ala bilirik. Sizə kömək göndərirəm.

Komandir dərindən nəfəs aldı. Kəndi geri qaytarmaq mümkün olmasa da, hücumu dayandırmaq haqqında düşündü:

– Köməyin gəlməsi ən azı qırx dəqiqə çəkəcək. O vaxta qədər duruş gətirə bilsək, yəqin ki, uğur da qazana bilərik.

Yavərin səsi eşidiləndə komandir sol tərəfə döndü. Döyüş-

dən ayrılan Diləfruz dərhal yaralının yanında peyda oldu. Bayram sinəsindən yaralanmışdı. O, təmkinlə yaranın üstünü təmizlədi. Sarğı paketini açıb yaranı sarıdı, ağrıları azaltmaq üçün vurduğu  iynənin bir işə yaramayacağını bildiyi halda, son dəqiqələrini yaşayan Bayrama təsəlli də verdi:

– Səbirli ol, Bayram.

Bayramın solğun dodaqları xəfifcə titrədi, nəsə demək istədi, amma nəfəsi çatmadı. Barmaqları yeri eşdi, bir ovuc torpağı əlinə alıb Diləfruza göstərməyə çalışdı. Yaralının xırıltısı getdikcə artdı. Diləfruz Bayramın donuq baxışlarına baxa bilmədi. Gözlərinin yaşını silib silahını götürdü, ayağa qalxdı.

– Bacı, ehtiyatlı ol! – xəbərdarlığını eşidib çiyni üstündən geri boylandı, lap yaxınlıqda silahını ona tuşlayan muzdlunu görəndə nə yerini dəyişməyə, nə də atəş açmağa macalı oldu. Kürəyindən aldığı yaradan nəfəsi daraldı, dizləri üstə düşdü. Hiss etdi ki, taqəti çəkilir, bir yumruğunu yerə dayaq edib aşağı əyildi:

– Məni bağışlayın, balalarım, haqqını halal et, ana, – deyib əllərini qanı çilənən torpağa sürtdü. Gözündən süzülən iki damla yaş yerə düşəndə bir qədər də aşağı əyildi, ağarmış dodaqlarını torpağa söykəyib öpdü. Torpağın sərinliyi Diləfruzu üşütmədi, dodaqlarından bütün vücuduna yayıldı və o hiss etdi ki, indiyə qədər duymadığı bir dünyanın astanasına qədəm qoyur. Torpağın bənzərsiz ətri onun ixtiyarını əlindən aldı, ətrafda baş verənlərdən xəbəri olmadı...

Diləfruzun vurulduğunu görən İlyas qələbəsini bayram etmək istəyən muzdluya aman vermədi. Sürünərək irəli gəldi, yaraqlını cəhənnəmə vasil edib:

– Bacı, bacı! – deyə boğuq səslə çağırdı, Diləfruzdan bir cavab ala bilmədi,- bağışla bizi, bacı, səni qoruya bilmədik, – deyərək qarşı tərəfə kəmərindəki sonuncu qumbaranı atdı. Düşmənlərin qışqırıq səsləri eşidiləndə o, digər əsgərlərlə birlikdə Bayramı və Diləfruzu döyüş meydanından uzaqlaşdırdı...

Araya nisbi sakitlik çökdü. Sakitlikdən istifadə edən əsgər-

lər döyüş başlayandan sonra baş verənləri bir anlıq unutmağa çalışdılar, amma mümkün olmadı. Hər ev, hər dalan uğrunda girdikləri bu ölüm-dirim savaşında nə qədər itki versələr də, heyifsilənmədilər.

Heç kim bir neçə dəqiqədən sonra nə baş verəcəyini bilmirdi: sağ qalan olacaqdımı, olmayacaqdımı, demək çətin idi. Motor uğultusu eşidiləndə əsgərlər bir-birinə baxdılar: düşmən tankları kəndə girmişdi. Məhəmməd çılğınlaşdı, qeyri-ixtiyari bağırdı:

– İndi tankların qabağında nə ilə dayanacağıq? Göz görə-görə bizi niyə qurban edirlər? Niyə kömək göndərilmir?

Bu haqlı sualın qarşısında komandirin də deyəcəyi bir söz yox idi. O yalnız bunları söyləyə bildi:

– Vətən bizimdir, onu düşünənlərindir, şəxsi mənfəəti üçün çalışanların deyil. Sözümü dinləyin: Göytəpəyə doğru çəkilirik.

Batalyonun sağ qalan əsgərləri motor səsləri yaxınlaşanda kəndi tərk etmək üçün ayağa qalxdılar. Kənddən belə getmək çox ağır idi, elə bil hər ev, hər ağac, kol-kos gözə görünməyən bir qüvvə ilə əsgərləri geri çəkirdi...

“Tədris” batalyonundan gələnlər “Kötəl”in sağ qalan döyüşçüləri ilə kənddən xeyli kənarda qarşılaşdılar. Kəndin girəcəyində tanklar görünəndə onlara hər şey bəlli oldu: sursatı olmayan “kötəl”çilərə göstərilməyən köməyə görə az qala özlərini günahkar bildilər. Tanklar Göytəpəyə doğru hərəkət edəndə yardıma gələnlər düşməni qumbaraatanlarla qarşıladılar. Erməni tankları sürətlə geri dönərək kəndin içərisində gözdən itdi...

* * *

– Bura haradır? Mən niyə buradayam? Nədən səs-səmir yoxdur?

Diləfruz birdən-birə üşüdüyünü hiss etdi:

– Deyəsən, qar yağıb, yaman soyuqdur, – o, birdən-birə səksəndi, – bəs mən niyə qarın altındayam? – deyərək əlini uzadıb

üstünü örtən qarı təmizləmək, nəfəsini kəsən ağır yükdən xilas olmaq istədi, qolları tərpənmədi:

– Hə, yəqin ki, donmuşam, heç nə hiss etmirəm, indi nə edəcəyəm, səsimi də eşidən olmayacaq.

Elə bu vaxt o, vücudunda yüngül bir gizilti duydu. Gizilti artdıqca bədəninə batan iynələrin sayı-hesabı olmadı. Tərpənmək, bu iynələrdən qurtulmaq istədi, amma nə əllərini, nə də ayaqlarını tərpədə bildi. Səsi gəldikcə qışqırmaq, ağız dolusu:

– Kimsə yoxmu? – demək istədi, lakin nə dodaqları, nə də dili sözünə baxdı, – Görəsən, bu giziltinin, batan iynələrin ağrısı nə qədər çəkəcək? Eh, bəlkə də, canımı elə bu iynələrin ağrısı alacaq.

O düşündükcə səbri daraldı, amma xoşbəxtlikdən yavaş-yavaş gizilti azalmağa başladı. Gizilti azaldıqca iynələr də yoxa çıxdı. Diləfruz lap yaxınlıqdakı adamın əvvəlcə addım səslərini eşitdi, sonra hənirtisini duydu. Addım səsləri uzaqlaşanda əlini qaldırıb ”getmə” demək istədi, lakin əlləri bərk sarındığı üçün tərpədə bilmədi. O, dərindən nəfəs aldı, üzündəki nazik örtük qalxıb-endi. Elə bu vaxt kimsə həyəcanla dedi:

– Bu, sağdır! Baxın örtük tərpənir.

Kimsə irəli gəlib örtüyü qaldırdı. Diləfruz eyni anda bir neçə adamın heyrətlə içini çəkdiyini duydu. Naməlum adam təlaşla göstəriş verdi:

– Bunu təcili palataya köçürün!

Bir neçə əl onu xərəyə qoymaq üçün tez-tələsik irəli uzandı. Xərəyə qoyanda kimsə dedi:

– Şükür sənin böyüklüyünə, ilahi! Kim inanardı ki, ölü sandığın bir bədənə üç gündən sonra yenidən can gələcək?

– Allah anasının göz yaşlarına bağışladı...

Son sözlər Diləfruza zorla çatdı: yenidən ətraf mühitdən təcrid olundu. Palataya gətiriləndə üzündəki örtük azca yana sürüşdü. Onun qansız simasını görən tibb bacısı örtüyü düzəldib həkimin arxasınca qaçdı...

– Qadan mənə gəlsin, quru yerdə niyə uzanmısan? – deyən

tanış səsi eşidincə Diləfruzun göz qapaqları titrədi, kirpikləri azacıq aralandı, ağappaq işıq selinə qərq olan nənəsi Firuzəni görüb qalxmağa, nəsə soruşmağa çalışdı. Firuzə nənə barmaqlarını onun dodaqlarının üstünə qoyaraq danışmağa imkan vermədi:

– Qadan ürəyimə, sən narahat olma, nə soruşacağını bilirəm. Hər dərdin bir dərmanı var, – o, nəvəsini qollarının üstünə aldı. Heç bir çətinlik çəkmədən irəlilədi, iki qapısı olan bir yerə yaxınlaşdı. Ağ qapı öz-özünə aralandı: gözəl bir bağ onları qoynuna aldı. Meyvələri ulduz kimi şölə saçan alma ağacının altına çatanda nənə dayandı, üzünü yerindən tərpənməyən Salman babaya tutaraq məzəmmət dolu səslə dedi:

– A kişi, görmürsənmi, uşaq xəstədir, ona yer düzəlt.

Salman baba bir arvadı Firuzəyə, bir də onun qolları üstündə uyuyan Diləfruza baxaraq asta-asta yerindən qalxdı, həmişə başının altına qoyduğu xara üzlü mütəkkəsini və məxmər döşəyini alma ağacının altına sərdi. Firuzə nənə Diləfruzu yatağa uzatdı, ərklə dedi:

– Uşağa yaxşı bax, bir azdan gələcəm.

Diləfruz gözünü açanda nənə çoxdan getmişdi, babası Salman kişi də gözə dəymirdi. Alma ağacı ilə üz-üzə əkilmiş qızılgül kollarını görəndə Diləfruz sehrli bir aləmə düşdüyünü zənn etdi. Pardaqlanan güllərin ətri hər tərəfi bürümüşdü. Par-par parıldayan müxtəlif rəngli ləçəklər elə bil dil açıb adamı səsləyirdi. Qızılgül kollarının üstündə iki ağ göyərçin vardı. Onlar qanadlarını çırpanda xoş rayihəli sərin meh Diləfruzun bütün vücuduna sığal çəkdi, o, qismən yüngülləşdiyini hiss etdi. Ətirli meh arabir quşların pıçıltısını da ona çatdırdı. Onların dilindən öz adını eşidəndə Diləfruz elə zənn etdi ki, nağıllar dünyasına düşüb, quşların uçarkən düşürəcəyi lələk bütün yaralarına məlhəm olacaq və o, arzularının ardınca geri dönəcək. Amma quşlar kolların üstündən birdən-birə yoxa çıxdılar. Diləfruz döyükərək ətrafa baxdı:

– Haradasınız? Geri dönün, məni də aparın, – deyə səsləndi.

Bir əlində şərbətlə dolu dolça, digər əlində qızıl fincan tutan Salman baba sakitcə ona yaxınlaşdı:

– Mən buradayam, qızım, dərdinin dərmanını gətirdim, – deyib yatağın yanında oturdu, fincanı şərbətlə doldurub Diləfruzun dodaqlarına yaxınlaşdırdı:

– İç, qızım. İç ki, sağalasan, fani dünyanın dərdindən, qəmindən uzaq olasan.

Şərbətin şirin ətri sinəsinə dolduqca Diləfruz ruhunda bir yüngüllük hiss etdi, özündən asılı olmayaraq kipləşmiş dodaqları bir-birindən aralandı, ilk qurtumu almaq istəyəndə babasının biləyindən yapışan Firuzə nənənin səsinə bayğınlıqdan ayıldı:

– A kişi, sən nə edirsən? Bu şərbəti ona niyə içirirsən?

– Bu, şəhadət şərbətidir. Qızıl qanı torpağı suvaran hər şəhid cənnətdə bundan dadır.

Nənə Salman babanın biləyini buraxmadan mülayim səslə dedi:

– Axı Diləfruzun dörd körpə balası var. O, geri dönməlidir.

Salman baba nəvəsinin üzünə baxıb şərbət piyaləsini onun dodaqlarından çəkdi. Sağ əlini Diləfruzun başına çəkib ayağa qalxdı:

– Mənim şəhid balam, şərbətini nə vaxt gəlsən, onda içərsən.

Firuzə nənə:

– Mən səndən razıyam, a kişi, allah da səndən razı olsun, – deyib Diləfruzu qolları üstünə aldı, yavaş-yavaş qapıya tərəf yönəldi. Qapı yenə öz-özünə açıldı, Firuzə nənə qapıdan çıxdı, Diləfruzu ayaq üstə yerə qoydu. Qarşıda üç yol vardı: sol tərəfə gedən qaraqara yolun ucu-bucağı görünmürdü, sağdakı yol boz rəngə boyanmışdı, ortadakı yol isə süd rəngli idi. Nənə orta yolu göstərdi:

– Sən bu yolla gedəcəksən. Arxadan kim çağırsa, nə geri bax, nə də cavab ver.

Diləfruz həyəcanlandı, səsi titrəyə-titrəyə ilk sualını verdi:

– Nənə, bəs sən?

– Mənim yolum burayacandır. Nə vaxt qayıtsan, sənin yerin bax oradır, – o, açıq qapıdan alma ağacının altını göstərdi və Diləfruzun kürəyinə yüngül bir şillə vurdu, – indi get, sənin balaların körpədir, get...

Süd rəngli yol Diləfruzu ağuşuna aldı, ona elə gəldi ki, ayaqları yerə dəymir, hansı bir qüvvə isə sürətlə onu irəli aparır. Birdən adını eşitdi, dayanmaq istədi. Firuzə nənənin sözlərini xatırlayıb sürətini artırdı. Bu dəfə qulağına hönkürtü səsi gəldi. Səs uzaqda deyildi, lap yaxında idi. Bu səs sanki dağlarda əks-səda verib onun bütün vücudunu silkələdi, "oyan" dedi, lakin göz qapaqları bir-birindən aralanmaq istəmədi.

– Oyan, ay bala, ay Diləfruz, Elnurun səni istər! – fəryadını eşidəndə isə elə bil bədənindən cərəyan keçdi, bütün vücudu əsdi. Örtüyün üstündən qollarına toxunan əllərin hərarəti cisminə istilik gətirdi. Sinə dolusu nəfəs aldı. Elə bu vaxt üzündəki örtüyü kimsə qaldırdı. Diləfruzun göz qapaqları bir-birindən aralandı. Gözlərindən axan yaş solğun yanaqlarında bir neçə yerdən cığır salan anasını görəndə zorla gülümsündü:

– Niyə ağlayırsan? – dedi.

Dizləri üstə yatağın qarşısında düşən ana gülüş qarışıq hönkürtü ilə dilləndi:

– Sevindiyimdən ağlayıram, qızım. Sən geri döndün ya, daha ölsəm də, qəm yemərəm.

Diləfruz dərindən ah çəkdi.

– Dərdin ürəyimə, niyə ah çəkdin? – Eyzangül qızının saçlarına tumar çəkdi.

– Geri dönməyən oğulların analarını xatırladım, – Diləfruzun iri gözlərindən gicgahlarına doğru süzülən yaşı görən Eyzangül əvvəlcə təəccübləndi, çünki döyüşlərdə mətinləşən, bərkiyən övladının ağlaması ona qəribə gəldi. Özündən asılı olmayaraq, onun boynunu qucaqlayıb hönkürdü:

– Qızım, şəhidlərimiz sənə ağlamağı da öyrətdi. Çünki sən aldığın yaraya ağlayanlardan deyilsən.

Diləfruz susdu. Anasının toxtamağını gözlədi. Eyzangülün

hıçqırığı kəsəndə onun damarları çıxmış əlini dodaqlarına aparmaq istədi, gücü çatmadı, zəif səslə soruşdu:

– Ana, döyüşlər harada gedir? Ağdamı geri qaytardıqmı?

Elə bil Eyzangülün yarasına duz səpdilər, əlindəki dəsmalı gözlərinə sıxıb yenidən hıçqırdı, elə hıçqırıqlar içində də kəsik-kəsik pıçıldadı:

– Atəşkəs elan olundu, qızım. Arabir atışma olsa da, müharibə dayanıb.

Diləfruzun göz tutmayan yaraları sanki birdən qanadı, alnına yazılan döyüş yolu gözləri qarşısından bir kino lenti kimi keçdi, dişlərini bir-birinə necə sıxdısa, xırçıltı səsi aydın eşidildi:

– Biz o torpaqlara qayıdacağıq, ana!

Ana onun inamla dediyi sözləri eşidəndə heyrətləndi, yalnız bunu deyə bildi:

– Can bala, əlbət ki, qayıdacağıq. Nə qədər ki qəlbi vətən eşqi ilə döyünən övladlarımız var, o torpaqlar düşmənə qismət olmayacaq.

*01.03.2021 – 02.04.2022*



**Naibə Yusif**

**“Gəzən şəhid”**

**(roman)**

Bakı, “Heroqlif” nəşriyyatı, 2022, 272 səh.

Naşir: Əlövsət Talışxanlı
Dizayner: İradə Əhmədova

---

Yığılmağa verilmişdir: 15.10.2022
Çapa imzalanmışdır: 23.11.2022
Tiraj 300; ş.ç.v. 10,75
“Heroqlif” nəşriyyatının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur